PƏNAH GÖYÇƏ

III CİLD

YARADANIN EŞQI İLƏ

Bakı-2005

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Pənah Göyçə *(Qurbanov Pənah Abdulla oğlu) 1940-cı il dekabr ayının 11-də Qərbi Azərbaycanın Göyçə mahalının Ağkilsə kəndində anadan olmuşdur.*

1948-ci ildə ailəsi ilə Gəncəyə köçmüş, orada orta məktəbi və H.Zərdabi adına Gəncə Pedaqoji institutunun kimya-biologiya fakültəsini (1963) bitirmişdir

1966-cı ildə indiki Azərbaycan Dövlət Neft Akademiyasının aspiranturasına daxil olmuş, bitirmiş və 1995-ci ilə kimi elmi-pedaqoji fəaliyyət göstərmişdir. Elmlər doktorudur.

1984-cü ildən poeziya ilə müntəzəm maraqlanmağa başlamışdır. İlk poetik toplusu «Göyçə gözüm işığı» 1991-ci ildə işıq üzü görmüşdür.

Hal-hazırda poetik axtarışlarla yanaşı, musiqi alətlərinin (saz, kamança, tar, qaval) təkmilləşdirilməsi üzərində işləyir.

PƏNAH GÖYÇƏ. Əsərləri. (5 cilddə). III CİLD. Yaradanın Eşqi İlə. Bakı, "Borçalı", 2005.

E-mail: panahgoyche@mail.ru

(Arxa üz qabığında):

Sadə, aydın yazmaq deyildir asan,
Odur hər qələmə şöhrət, şərəf, şan.
O cürmü danışdım insan oğlunun
Əbədi, əzəli duyğularından?!

Nəşri: Müsfiq BORÇALI
Redaktor: Rafael Ələsov
Korrektor: Rafael Ələsov
Kompüter yığıcısı: Abdulla Kərimov

Bütün müəllif hüquqları Qanunla qorunur. Kitabın heç bir hissəsi müəllifin yazılı şəkildə verdiyi icazə olmadan çap oluna və ya hər hansı şəkildə istifadə edilə bilməz.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ÖN SÖZ ƏVƏZİ

Əziz dost!

Rusların bir məsəli var, deyirlər ki, «net xudo bez dobra». Bizim dildə mənası budur; elə bir pis şey yoxdur ki, yaxşı cəhəti də olmasın. Sözümün canı ondadır ki, 70 il çəkən o mənfur sovet həyat tərzinin yaxşı cəhəti də var imiş. Nə isə yazıb çap etdirmək çox-çox çətin olsa da, çətinlik onunla bitirdi. İndi kitab yazıb çap etdirmək çox asan və çox sürətlə başa gəlir. Əsil çətinlik onun yayılması problemidir.

Mənim birinci kitabım olan «Göyçə gözüm işığı»nın çap olunması prosesi üç il vaxt apardı. 5000 tiracla çap olunmuş o kitaba o vaxtkı qiymətlərdən 10 dəfə (on dəfə!!!) artıq qiymət qoymaqla «Azərkitab»a təhvil verdim. 6 aydan sonra sovet dövrü üçün ən yüksək, orta hesabdan on dəfə yükçən olan qonoraro, 37500 manatı (sovet pulu ilə) hesabıma köçürdülər. Kitab cəmisi 220 səhifə idi.

Əsərlərimin «Necə unudum səni» adlanan 460 səhifəlik birinci cildini cəmi üç aya çap etdik. Onun oxucuya çatdırılması isə demək olar ki, həlli müşkül olan bir probldemdir. «Azərkitab», «Kəndkitab» qurumları artıq mövcud deyil. Hər bir kitab mağazası ilə ayrıca müqavilə bağlamaq lazım gəlir. Hər mağaza 5 nüsxədən artıq qəbul etmir. Rayonlara 5 nüsxənin dalınca getməyə dəyməz.

Bu problemin öz həllini tapacağına, kitablarımın oxuculara çatacağına inanıram.

Əziz dost! Bunları yazmaqda məqsəd budur ki, mənim kitablarımın xalqa çatması təkcə mənim yox, sənin də problemindir. Çünkt, mənim duyğu və düşüncələrimin ifadəsi olan bu kitablar təkcə sənə, türk dünyasına yox, bütün bəşəriyyətə

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ünvanlıdır. Sən bu etirafı yenə lovğalığın deyil, özünüdərkin ayağına yaz. Sənin vəzifən əlin çatan bütün incə zövqlü dost-tanışlara bu kitablar haqqında məlumat vermək, onların öz ünvanlarına çatmalarına səbəb olmaqdır…

Çox sözə nə hacət, arifə bir işarə kifayət edir. Sən incə zovqlu, şersevər, arif bir insansan. Yoxsa bu sətirləri ilk oxuyanlardan biri olmazdın.

*****

Səməd Vurğun yazır:

Səadət zamanla məkana bənzər,
Onun nə ölçüsü, nə hüdudu var.

Səadətin insan üçün ən əhəmiyyətli cəhəti inama bağlıdır. Yaradana, vətənə, valideynlərə, dostlarına, sevgilisinə, ümumiyyətlə insanlığa inamı sağlam olmayan kəsin səadəti tam ola bilməz.

Yaradana inam şəksiz ki, burada baş yeri tutur. İnsanların Yaradana inamı rəngarəngdir, müxtəlifdir və heç kimdə layiqincə həm də kamil deyildir. Bəşər tarixində bu bircə peyğəmbərə, 124000 peyğəmbərlərin birincisi, həm də axırıncısı orlan Məhəmməd peyğəmbərə qismət olub; Yaradanın hüzuruna mirac edib onu gördüyünə görə. Bizdə təqsir yoxdur ki, inamımız kamil deyil, görmədən tam inam ortaya gələ bilməz.

Diləmədim mən səadət,
Yüksək rütbə, bollu sərvət.
Sənə layiq bir məhəbbət,
Oyat məndə əzəl, Allah!

Bu bənd mənim azı 45 ilə qəlbimdə gəzdirdiyim duyğu və arzuların ifadəsi kimi son illərdə yazılmışdır.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Mənim 65 illik ömrümdə rast gəldiyim ən dərin inamlı insan atam Məşədi Abdulla olmuşdur. Bu barədə ətraflı yazmağa ehtiyac duyuram. Lap körpəliyimdən bizimlə və ya başqaları ilə söhbət zamanı atamdan tez-tez eşidərdim: «Sovet hökuməti mütləq dağılacaqdır». Mən orta məktəbin axırıncı siniflərində oxuyarkən onunla tez-tez mübahisə edərdim, deyərdim ki, bu dövlət bərabərlik yaradıb, müftə oxudur, müftə müalicə edir, pulsuz ev verir, daha insana nə lazımdır. Heç bundan da yaxşı quruluş ola bilərmi? O təxminən belə cavab verərdi; saydığın şeyləri hər insan özü qazansa yaxşı olmazıdımı? Siz yaxşı quruluş görməmisiniz, ona görə buna yaxşı deyirsiniz.

Mən fikirləşirdim ki, kolxoz qurulanda kişinin olan-qalanını əlindən alıblar, ona görə belə qərəzli danışır. Düşünürdüm ki, hələ körpə ikən Antantanın bacarmadığı bir quruluş, ikinci dünya müharibəsindən qalib çıxan, üstəlik də neçə demokratik dövlətin əmələ gəlməsinə səbəb olan bir quruluş yıxıla bilməz.

Bir dəfə atamdan soruşdum ki, qadasını alım dədəmin, desin görüm bəs bu quruluş nə vaxt yıxılacaq? O mənim sualımdakı ironiyanı duysa da, bir qədər fikirləşib çox ciddi şəkildə dedi ki, Firona, Nəmruda 40 il dövran yazmışdı, bu da o qədər olar. Onun inamının əsla sarsılmadığı məni heyran etmişdi.

1957-ci ildə Oktyabr inqilabının 40 illiyini qeyd edəndən sonra atamdan soruşdum ki, axı qırx il başa çatdı, bəs sovet niyə yıxılmadı? O, yenə də xeyli fikirləşdi, sonra təmkinlə dedi ki, a bala, görünür Tanrı buna 60 il yazıb. O, bunu elə bir inamla, qətiyyətlə dedi ki, mənim tüklərim biz-biz oldu. Fikirləşdim ki, eşq olsun sənə insan, sənin nə qədər dərin, kamil və möhkəm inamın varmış.

1959-cu ildə ABŞ-nın burnunun ucunda sovet Kubasının yaranması mənim bütün tərəddüdlərimə son qoydu. Belə qənaətə gəldim ki, sosializm yolu bütün bəşəriyyətin keçməli olduğu bir yoldur. Mən sosializmin tam qələbəsinə inansam da, onun bütün

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

qanunlarına hörmət etsəm də, (deyilənin ikinci hissəsini atam körpəlikdən, yəqin ki, bizi qorumaq üçün bizə aşılamışdı.) nəinki Kommunist Parityasına daxil olmağa can atmadım, əksinə, iki dəfə ora girməyə imkanım yaransa da, (ali təhsillə ordu sıralarında xidmət etdiyim zaman komandirim bunu mənə demək olar ki, əmr etdi, indiki Neft Akademiyasının üzvi kimya kafedrasının aparıcı dosenti işlədiyim zama fakültə partiya təşkilatı bunu mənə məsləhət gördü) mən istəmədim. Görünüt ata tərbiyəsi həlledici imiş.

Məsələ 40 il, 60 il müddətində deyilmiş. Həyati olmayan heç bir şey yaşaya bilməz. Sovet dağıldı və anladım ki, savadsız atam həyatı mən elmlər doktorundan daha yaxşı başa düşürmüş. İnam həyat deməkdir. Əziz dostum, ömür boyu onu saflaşdır, dərinləşdir. Yalnız sağlam inamla İnsan həyatı yaşamaq olar!

*****

Paxıllıq…

H.Zərdaği adına Gəncə Pedaqoci İnstitutunun ikinci kursunda oxuyarkən mən bu barədə ciddi fikirləşməli oldum. Mənimlə bir qrupda anadan müəllim olmaq üçün doğulmuş, indii Əməkdər Müəllim olan Nizami Əskərov oxuyurdu. Hamı bizi dost hesab edirdi və doğrudan da bu belə idi. Bu günə qədər dostluq əlaqələrimiz davam edir. Paralel qrupda Adı çəkilməyə layiq olmayan bir tələbə oxuyurdu. O bizim dostluğumuza açın-aşkar paxıllıq edirdi. Xüdbinliyi, paxıllığı ucbatından başa düşə bilmirdi ki, biz üç dost ola bilərik. İstəyirdi ki, bizim dostluğumuz pozulsun, o Nizami ilə dostluq etsin. Bu barədə dərindən düşünəndə (bu əslində özünüdərkin başlanğıcı idi) mən bu qənaətə gəldim ki, paxıllıq insanın əsas keyfiyyətlərindən biridir. O hər bir insana xasdır. İnsanlar biri-birindən paxıllıqlarının azlığı və ya çoxluğu ilə fərqlənirlər. Bu keyfiyyətin həddindən az olması insanı tənbəlləşdirir, irəlidə olana çatmaq, onu ötmək əzmini

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

söndürür və sahibinə ziyan verir. Paxıllıq qədərində olanda, o, əsl lokomotivə çevrilir. Beləsi başqalarından daha çox müvəffəqiyyət qazanmağa çalışır, mübariz olur. Bu keyfiyyət həddini aşarsa, o, əsl paxıla, xəbisə, xüdbinə çevrilir. Beləsi qabaqda gedəni ləngitmək, yıxmaq, məhv etmək haqqında duşunur, özünün və ətrayında olanların həyatını zəhərləməyə başlayır. Dəqiq deyə bilmərəm ki, mən bu sayaq doğulmuşam, yoxsa özünüdərkin köməyi ilə paxıllığımı lazımi dərəcədə kökləyə bilmişəm. Əslində, hesab edirəm ki, mənim paxıllığım qədərəindən bir qədər azdır. Ona görə də Yaradanın mənə bəxş etdiyi ağlın xeyrini layiqincə nə özüm, nə də insanlar görə bilmədi…

Qeyd etmək lazımdır ki, deyilənlər insanın bütün müsbət və mənfi keyfiyyətlərinə aid edilə bilər. Onlar yalnız qədərində olanda insanın özünə və ətrafındakılara xeyir verə bilər.

Bu yaxınlarda bir şer məclisinə düşmüşdüm. Orada 50-60 nəfərin içərisində bir neçə paxılığğı qədərindən çox olan «şair» var idi. Bir axsaq dana bir sürünün görkəmini korlayır deyirlər. Onların ucbatından daha ora gedə bilmədim. Qazancsız da qalmadım, orda təzə-təzə Şer yazmağa başlamış bir möcüzəni, Sənəm Səbayeli kəşf etdim. Çox böyük ümidlər verir. Bir dəfə söhbət zamanı Sənəm xanım qeyd etdi ki, məclisin bəzi üzvləri paxıllıqdan deyirlər, nə üçün Sənəm hər dəfə şer oxuyur. Mən özümü üzdə tox tutsam da qəlbən ağladım. Axı insanlar niyə belədi? Mən də həmişə həyatı öz arşınımla ölçmüşəm. Ona görə də onun dediklərinə əvvəlcə çox təəccüb etdim. Mənə görə məclis üzvləri hər dəfə Sənəm xanımdan keçən dəfə oxuduğu şerləri bir daha oxumasını xahiş etməliydilər. Ancaq öz dünyamdan real həyata qayıdan kimi burada qeyri-adi bir şey görmürəm. Biz Adam doğuluruq, əziz dost! İnsan olmaq bizdən də asılıdır. Gərək insan özünüdərkin köməyi ilə ömür boyu İnsanlıq adlanan zirvəyə, yəni Yaradana doğru can atsın. Sən necə, bu barədə düşünürsənmi, o yollusanmı? Heç vaxt gec deyil…

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bir neçə kəlmə də arşın barədə.

Atalar deyib ki, hər kəs həyatı öz arşınıyla ölçür. Bu təbiidir, hər bir insanın halal haqqıdır. Özgə cür yaşamaq mümkün deyildir. Lakin, bir şeyə ömür boyu riayət etmək vacibdir. İnsan yenə də özünüdərkin köməyi ilə tez-tez ümumbəşər arşınla, etalonla tutuşdurmalı, ona uyğunlaşdırmağa çalışmalıdır. Etalonu dünya klassik ədəbi nümunələrində, atalar sözlərində görmək olar. Ən dəqiq etalon Qurani-Kərimdir. Özünükontroldan məhrum olan insan İnsanlıq adlanan zirvəyə yol ala bilməz. Dünyada heç bir bəşər oğlunun (yenə də Məhəmməd peyğəmbərdən başqa) arşını etalonla tam uyğun gələ bilməz. Bu uyğunluğa yalnız sonsuz olaraq yaxınlaşmaq mümkündür. Həyatın gözəlliyi də elə bundadır.

Sən necə, əziz dost, öz arşınından xəbərin varmı?...

Poeziyanın problemləri qaldı bir kənarda. İnsani problemlər barədə düşünməklə səni də, özümü də yordum deyəsən.

*****

Bir neçə kəlmə də obrazlı deyim barədə;

Dünya poeziyasının zirvəsini, deyəsən, əbədi fəth etmiş Şeyx Nizaminin əsərlərini nəzərdən keçirsək görərik ki, obrazlı deyim yox dərəcəsindədir.

Gecə xəlvətcə bizə sevgili yar gəlmiş idi

Beyti ilə başlanan qəzəl buna əyani sübutdur. Poeziyanın ikinci zirvəsi məhəmməd Fizulinin ən seçmə əsəri, sənətkarlıq möcüzəsi olan

Şəbi-hicran yanar canım, tökər qan çeşmi-giryanım

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

sözləri ilə başlayan qəzəlində də obrazlı deyimə rast gəlmirik.

M.P.Vaqif poeziyasınnı incisi sayılan

Xumar-xumar baxmaq göz qaydasıdır,
Lalə tək qızarmaq üz qaydasıdır.
Pərişanlıq zülfün öz qaydasıdır,
Nə badi-səbadan, nə şanədəndir.

bəndində də obrazlı deyim yoxdur.

Aşıq Ələsgərin «Dağlar» rədifli gərək ki, iki qoşması var. Onlar da demək olar ki, obrazsızdır.

S.Vurğun poeziyasının tacı olan «Azərbaycan» şerində də obrazlı deyimə rast gəlinmir. Bəs, onda obrazlı deyim kimə və nəyə lazımdır.

M.Ə.Sabirin obrazlı deyimi məsxərəyə qoyması özünə haqq qazandırır deyəsən. Mən belə hesab edirəm ki, hər hansı hiss, duyğu və düşüncəni poetik formada ortaya qoymaq üçün ən sadə, ən aydın, ən şeriyyətli, nəğməli, harmonik sözlərdən istifadə etməklə əsl sənət əsəri yaratmaq olar. Şair o zaman obrazlı deyimə müraciət edir ki, o öz hiss və duyğuları sadə, aydın sözlərlə ifadə edə bilmir. Mən əminəm ki, S.Vurğun bu barədə dərindən düşünüb, fikir aydınlığına nail olsaydı

Yenə qılıncını çəkdi üstümə,
Qələm qaş altından piyalə gözlər.
Yenə cəllad olub durdu qəsdimə,
Qurbanı olduğum o ala gözlər.

bəndini obrazlı deyimlərdən təmizləyərdi…

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Xoruzlar səs-səsə verib səhərin açılmağa başladığını xəbər verir. Quşlar ara vermədən səhər nəğmələrini ifa edir. Külək də deyəsən yorulub, dincəlmək fikrinə düşüb. İlin yaxşı çağıdır. May ayının 14-dür. O, könül açan bir səhər vəd edir.

Aydın səhərlərə, işıqlı günlərə çıxasan əziz dost! Gəl növbəti cildin «Ön söz əvəzi»nə qədər halallaşaq.

Tezliklə görüşənə qədər!

MÜƏLLIF

1111111247899

(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

MİNACAT

Sən ey bütün kainatın bircə, təkcə sultanı!
Sən ey bütün varlıqların həm xaliqi, həm xanı!
Sən nə qədər möhtəşəmsən, sən nə qədər alisən,
Hər nə varsa bir zərrəndi, hüdüdsuzsan elə sən.
Bir kainat yaratmısan kənarı yox, yanı yox,
Hər ulduzu bir aləmdi hesabı yox, sanı yox.
Bütöv dünya bəxş etmisən Adəm oğlu insana,
Əbədidi, təkrarsızdı, yaraşıqdı cahana;
Onun üstü, onun altı tükənməyən sərvətdi,
Hara baxsan, nəyi alsan bir əvəzsiz ne'mətdi.
Yaratdığın hər bir cisim tükənməyən mö'cüzə,
Min sirrini açsaq belə qaranlıq gəlir gözə.
Onu necə xırdalasan yenə sonu görünməz,
Sənin heç bir əməlinə ola bilməz bir əvəz.
İnsan adlı mö'cüzəni yaratmısan bir anda,
Yaxşı-pisi odur duyan, odur seçən cahanda.
Eləmisən yer üzünə onu külli ixtiyar,
Kainatı duymaq üçün bəxş etmisən beş açar.
Sonsuz dəfə göstərdin ki, hüdudsuzdur imkanın,
Bir birinə yox bənzəri bir bu qədər insanın.
Hər birinin öz sifəti, hər birinin öz adı,
Hər birinin öz diləyi, öz sevinci, fəryadı.
Hər birinə ömür, həyat özgə cürə açılır,
Hər könülə özgə sevgi, özgə dilək saçılır.
Biri şah tək ömür alır, o birisi olur qul,
Biri daim varlı olur, biri gücsüz və yoxsul.
Biri səndən sifət alır qızılgüldən çox gözəl,
O birisi yaranışdan solğun olur, - bir xəzəl.
Sənin bütün əməllərin müqəddəsdir və haqdır,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İnsan ömrü bu dünyada başdan başa sınaqdır.
Əməliylə hər bir insan əbədiyyət qazanır,
Ya cənnətdə məskən alır, cəhənnəmdə ya yanır.
Mənə ağıl vermisən ki, xəzan bilməz bir bahar,
Onu sənə dua üçün işlətməyə haqqım var.
Sonsuzsa da sənin rəhmin, qoy bir az da çoxalsın,
Könlümüzdə yeri mələk qoy Şeytandan çox alsın.
Bilirəm ki heç bir zaman qurd qoyunla otlamaz,
Ona imkan çatan zaman ziyan vursun daha az.
Ömür sınaq olsa belə şirinliyi çox olsun,
İnsanların gözü, könlü günü gündən tox olsun.
Qoy çəkilsin bir dəfəlik yer üzündən zülüm, qan,
Fəryadlardan qaralmasın, tutulmasın asiman.
Adil olsun bir birindən göndərdiyin hər bir şah,
Rəiyyət də aqilləşsin, işləməsin qoy günah.
Zəhmət çəkmək hər insana olsun şöhrət, şərəf, şan,
Qoy azalsın xəstəliklər, sağlamlaşsın hər insan.
Səxavətli, münbit olsun başdan başa torpaqlar,
Yer üzünə şəfəq salsın xəzan bilməz bir bahar.
Bir birinə can söyləsin, can eşitsin hər xilqət,
Kərəm qıl ki, yer üzü də olsun xırda bir cənnət.

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

NƏT

Bu sirrli, əfsunlu, gözəl cahanda,
Bir ada məhəbbət yaşadır məni.
Onsuz olmayıbdı ruhum bir an da,
O mükəmməl xislət yaşadır məni.

Tanrı sevimlisi, Tanrı Rəsulu,
Bütün ulardan min dəfə ulu,
Böyük Yaradanın birinci qulu,
O ali Məhəmməd yaşadır məni.

Ah, onun yolçusu olmaq gözəldi,
Təlimindən ilham almaq gözəldi,
Onunla qələbə çalmaq gözəldi,
Bu müqəddəs niyyət yaşadır məni.

Ən kamil bir varlıq, ən ulu bir zat,
Ondan işıq alır bütün kainat.
Onsuz bir quruşa dəyməzdi həyat,
O cahana şöhrət yaşadır məni.

Quranı şeytandan noruyur bizi,
Güzgü kimi silir xislətimizi.
Tanrıya bağlayır niyyətimizi,
Ay Pənha, bu hikmət yaşadır məni.

Yenə dayanmışam əlimdə qələm,
Ürəyimdə riqqət, gözlərimdə nəm.
Sevinc içindədi bütün varlığım,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İlham bülağından alıb nə sağım
Ki, onun adına yaraşan olsun,
Nə köhnəlmək bilsin, nə də ki solsun.
Acizdi qələmim, acizdi təbim,
Axı könlumdəki qoşa sarı sim
Misilsiz nəğmələr qoşur şəninə,
İləhi eşq ilə döyünür sinə.
O qədər şirindi hər bir nəğməsi,
Feyziyyab edərdi, şəksiz hər kəsi.
Onlarda əks olur mübarək üzün,
Müdrik hədislərin, dürr kimi sözün.
O qədər aydındı əziz surətin,
Ən qadir rəssam da köçürsün çətin.
Onlarda səslənir ömründən hər an,
İstərəm o cür də eşitsin cahan.
Əfsus ki, acizdi söz də, lisan da,
Həm də elə sözlər yoxdu cahanda.
On dörd əsrdi ki, hər söz sərrafı,
Seçib mənalını, ayırıb safı,
Səni tərif üçün işlədib həmən;
Belə olan yerdə nə yazım ki mən,
Hər kəs hisslərimi duysun necə var,
Çulğasın qəlbini qürur, iftixar.
Sən Ulu Tanrıdan gələn işıqsan,
İşığa yönəlib bəşər hər zaman.
Odur ki, çoxalır, artır hümmətin,
Fəth edir qəlbləri arzun, niyyətin.
Əsirlər ötəcək, şəksiz, şübhəsiz,
Bəşəri müsəlman görəcəyik biz.

Tanrı dərgahında birincisən sən,
Bütün Nəbilərdən əzəl Məhəmməd.
Əbədi bir olan bir incisən sən,
Adın tək cismin də gözəl, Məhəmməd!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sənsən gözəl edən ömrü, həyatı,
İman gətirənlər tapır nicatı.
Sənlinin xeyirdi müqəddəratı,
Sənsizlər bir quru xəzəl, Məhəmməd!

Sənsiz çıxardımı Pənah bir yana,
Sənin möcüzənlə baxır cahana.
Səadət gətirdin insan oğluna,
Yol göstərib dedin, düzəl, Məhəmməd!

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

cƏRAYLILAR

1111111247899

(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

QURBAN OLUM

Dünən gəlib səndən soraq,
Sorağına qurban olum!
Bu gün məni üzür fəraq,
Fərağına qurban olum!

Camalından rəng alır dan,
Şö'lə çəkib yanır hər yan.
Bax, belə bir gülyanaqsan,
Yanağına qurban olum!

Qəlbə məlhəm sözü nədən
Söyləmirsən, a gül bədən?
Yox deməyə adət edən
Dodağına qurban olum!

Bu sevdanın nədir adı,
Təkcə səndən asılıdı.
Yəqin hicran yazılıdı,
Varağına qurban olum!

Gəl Pənaha baxma sərin,
Al, sinəmi oxla dərin.
Hazıryaraq kirpiklərin
Darağına qurban olum!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

DİRİYƏDİ DİRİYƏ

Şükr olsun, deyən yolum
Geriyədi, geriyə.
O dünyadan yanadı,
Bəriyədi, bəriyə.

Dostluq, sevgi, sədaqət,
Arzular, vüsal, həsrət;
Dünyadakı hər ne'mət
Diriyədi, diriyə.

Dünya şəkər, dünya bal;
Pənah, ondan bol pay al.
Əbədiyyət, o xəyal,
İriyədi, İriyə.

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ÇAĞLAYIR

Rafael Hüseynovun «Vaxtdan uca»
adlı əla əsərini oxuyarkən

Elə köklənən könül
Bulaq kimi çağlayır.
Nə oxusa, o bülbül,
Zaman alıb saxlayır.

Belə deyir ki, ellər,
Qoşadı xeyirlə şər.
İblis qəlbli hər bəşər
Aqilləri dağlayır.

Dönüb olmasa qaya,
Nakəsi salsa saya,
Solur gözündə dünya,
Aqil vərəm bağlayır.

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ŞEYDA BÜLBÜL DİNƏSİDİ

Aşiq, demə yarım atıb
Ömrüm, günüm sönəsidi.
Gecə düşüb, Günəş batıb,
Sabah yenə dönəsidi.

Günəş çıxır, şəfəq saçır,
Yer üzündən duman qaçır.
Yaz ki gəlir, gül ki açır,
Şeyda bülbül dinəsidi.

Yad etsə də hər bəşəri,
Eşqi duyur mində biri.
Eləsinin yurdu, yeri
Duyanların sinəsidi.

O kəslər ki, eşqi danır,
Yaşamaqdan tez usanır.
Kim gözləyir, kim inanır,
Hər əngəli yenəsidi.

Eşqsiz ömrün nə adı var,
Pənah, onu duyarmı xar?
Məhəbbətə kəc baxan yar
Bəxt atından enəsidi.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

DÜNYA

İnsan oğlu, asta dolan,
Düşhadüşdü selə dünya!
Şeytan hakim olsa bir an,
Dönəsidi külə dünya.

Şərbətinə zəhər qata,
Varlığını oda ata,
Baharında bəxti yata –
Niyə bilə-bilə dünya?

Aralıqda insaf itsə,
Gül qurusa, qanqal bitsə,
Ağlım kəsmir belə getsə
Sabah ələ gələ dünya.

(Görə-görə, bilə-bilə
Yol götürsə son mənzilə,
Haradasa milyard ilə
Yaranacaq belə dünya.)

İnsan, gülsün xoş niyyətin,
Pənah deyir, deyil çətin.
Çatar, çatar, bil qüdrətin,
Qoy bələnsin gülə dünya!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

YOX DEMƏ

İnsaf elə, qara gözlüm,
Mənə yox demə, yox demə!
Dərman tapsın, günəş üzlüm,
Sinə, yox demə, yox demə!

Qibləmsən, sənədir yönüm,
Qoy başına durum dönüm.
Rəva görmə Ayım, Günüm
Sönə, yox demə, yox demə!

Eşq üstündə durur cahan,
Bir kötükdü sevdasız can.
Qıyma könlüm şahlığından
Enə, yox demə, yox demə!

Xöşbəxt ölləm, ay sultanım,
Sənli keçsə bircə anım.
Qurban kimi gəlir canım
Sənə, yox demə, yox demə!

El Pənahı Məcnun sayır,
Sən də tanı, yaddan ayır.
Gül dodağa yaramayır,
Yenə yox demə, yox demə!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

YOX DEDİ

Gözəllər mənə bəladı,
Düzü, yox dedi, yox dedi.
Bircəciyi anlamadı,
Yüzü yox dedi, yox dedi.

Bu sənəm lap ağ elədi,
Hisslərimi dağ elədi.
Könlümü dustağ elədi,
Sözü, yox dedi, yox dedi.

Hicranına boyansam da,
Yollarında dayansam da,
Orda yatıb oyansam da,
İzi yox dedi, yox dedi.

Göydən yerə enmədi heç,
Eşq atına minmədi heç.
Mən tərəfə dönmədi heç,
Üzü yox dedi, yox dedi.

Dərgahında dolandıqca,
Yazıq olub talandıqca,
Atəşinə qalandıqca
Közü yox dedi, yox dedi.

Üz vermədi əsla mənə
Lalə yanaq, mərmər sinə.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Hər endikcə səcdəsinə
Dizi yox dedi, yox dedi.

Açıb ruhuma al səhər,
Həyatımı edib şəkər;
Pənah, ölləm görsəm əgər
Gözü yox dedi, yox dedi.

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

SÖZÜM YOXDU

Yaman salıb dərdə məni,
Gözlərinə sözüm yoxdu.
Məcnun edər hər bəndəni,
Sözlərinə sözüm yoxdu.

Ürəyimlə baş-başadır,
Eşqim ilə cüt, qoşadır,
Həm yandırır, həm yaşadır,
Közlərinə sözüm yoxdu.

Rəhimli ol bircə dönə,
Gör nə qalır səndən mənə;
Sınıq könül, dağlı sinə, -
İzlərinə sözüm yoxdu.

Sevgi adlı selə düşdüm,
Yaman dildən dilə düşdüm.
Məcnün olub çölə düşdüm,
Düzlərinə sözüm yoxdu.

Demə eşqim quru səsdi,
Hər nə qıysan mənə bəsdi.
Pənah bilir, tükənməzdi,
«Döz»lərinə sözüm yoxdu.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

QOCALMAYAQ

Ömür birsə, ay mehriban,
Niyə ondan bac almayaq?!
Sevgi üçün gəlir insan,
Orda qoşa tac almayaq?

Ötən günlər geri dönməz,
Ürək sussa bir də dinməz.
Qarşılıqlı sevda sönməz,
Ucaldıqca ucalmayaq?

Pənah tamdı ilqarında,
Eşqi axır damarında.
Gəl ömrün sonbaharında
Cavanlaşaq, qocalmayaq!

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

BƏLKƏ

Azad elin azad qızı,
Azad sevda quraq bəlkə?
Ay ömrümün dan ulduzu,
Verək eşqdən soraq bəlkə?

Qoşa olaq bahar ilə,
Ömr eləyək vüqar ilə.
O ütük üz əğyar ilə
Əlaqəni qıraq bəlkə?

Könül verib dəyanətə
Çatmırlarmı səadətə?!
Yetmək üçün bu niyyətə
Bəxti qovub yoraq bəlkə?

Bitsin hicran, itsin həsrət,
Vüsal ayaq açsın əlbət.
Bar verincə bu səadət
Keşiyində duraq bəlkə?

Sən Pənaha etdikcə naz,
O duysun ki, olubdu az.
Bax, beləcə, ay sərvinaz,
Ömrü başa vuraq bəlkə?

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ELƏCƏ

Ellər məni Məcnun sayır,
San, eləcə, san, eləcə!
Əğyar isə tamam danır,
Dan, eləcə, dan, eləcə!

Bir yol baxıb saldın oda,
Daha gəlmir səndən səda.
Yanasıdı bu dünyada
Can, eləcə, can, eləcə?

Bilirsənmi neyləmisən?
Məni suya söyləmisən.
Ürəyimi eyləmisən
Qan, eləcə, qan, eləcə!

Könlüm seçib dərdi, qəmi,
Sızıldayır sarı simi.
Necə deyim mənim kimi
Yan, eləcə, yan, eləcə?

Sən olmasan könlüm şahı,
Bu dünyanı yaxar ahı;
Heç olmasa sən Pənahı
An, eləcə, an, eləcə!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ELƏCƏ

Bir lalədi yanaqların,
Al, eləcə, al, eləcə!
Nə şirindi dodaqların,
Bal, eləcə, bal, eləcə!

Yoxdu sənə dünyada tən,
Ala gözlü, mehriban, şən…
Görünməmiş mö'cüzəsən,
Qal, eləcə, qal, eləcə!

Məni məndən qoparırsan,
Kölgən edib aparırsan.
İxtiyarım, ay şirin can,
Al, eləcə, al, eləcə!

Sevən ürək alır yara,
Düçar olur intizara.
Mən Məcnunu səhralara
Sal, eləcə, sal, eləcə!

Səni gəzdim olsam harda,
Gəl, Pənahı qoyma darda.
Ürəyimi sonbaharda
Çal, eləcə, çal, eləcə!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ELƏCƏ

Ala gözlüm, dönmə yana,
Bax, eləcə, bax eləcə!
Məni eşqin odlarına
Yax, eləcə, yax, eləcə!

Arzulayır səni ürək,
Deyir, təkcə odur dilək.
Sən də bahar günəşi tək
Çıx, eləcə, çıx, eləcə!

Tər bənövşə, nazlı sona,
Xub yaraşır saçlarına.
Könlümü də qonşu ona,
Tax, eləcə, tax, eləcə!

Kaman qaşın nişan alır,
Köksüm başı al boyanır.
Nə qədər mücganın qalır
Çax, eləcə, çax, eləcə!

Gəl Pənaha aç qəlbini,
Qoy dillənsin sarı simi!
Varlığıma nəğmə kimi
Ax, eləcə, ax, eləcə!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İNSAF ELƏ

Könlüm bircə baxışından
Talan oldu, insaf elə!
Məni məndən bir dəfəlik
Alan oldu, insaf elə!

Öyrəşirdim gəzim sənsiz,
Naləm sənsiz, sözüm sənsiz…
And içmişdim, dözüm sənsiz, -
Yalan oldu, insaf elə!

Tənhalıqdan yorulmuşam,
Bulaq kimi durulmuşam.
Günahkaram, vurulmuşam,
Olan oldu, insaf elə!

Fələk qatıb hesabımı,
Hicran qırıb, lap, tabımı.
Alıb könül rübabımı
Çalan oldu? –
İnsaf elə!

Ömrünün sonbaharında
Pənah düzdü ilqarında.
Qula dönüb kandarında
Qalan oldu, insaf elə!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

DEYİL

Məhəbbətə əsir olan
Hansı könül talan deyil?!
Məcnun, Kərəm, Fərhad, Sənan
Zülüm çəkdi, yalan deyil.

Vurğun ürək dinə bilməz,
Zirvələrdən enə bilməz,
Yanasıdı, sönə bilməz, -
Özgə cürə olan deyil.

Oda saldım şirin canı,
Ahım yaxır bu dünyanı.
O gözəldə insaf hanı,
Eyninə də alan deyil.

Qara yazır hesabımı,
Bağlayıbdı kitabımı.
Mənim könül rübabımı
Bir dəfə də çalan deyil.

Pənah, eşqdə məşəqqət var,
Bunu bilib vurulmur xar.
O da var ki, eşqə yadlar
Əbədiyyət alan deyil.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

URƏK

Görürsən ki, bir turş sözdən
Bulud kimi dolur ürək.
Sərt baxışdan, xain gözdən
Bircə anda solur ürək.

Kimə isə olsa kini,
Dünya gəlsin, çətin dini.
Həmdəminin istəyini
Sözsüz belə bulur ürək.

Uyar olsa bəd niyyətə,
Səbəbkardı xəyanətə.
Könül versə məhəbbətə
Dönüb bülbül olur ürək.

Xislətinə heyranam mən, -
Səhər ağlar, günorta şən…
Heç özü də bilmir bə'zən,
Nəyə mehir salır ürək.

Məhəbətdi baş niyyəti,
Hey yansa da doymaz qəti.
Bəs bu qədər dəyanəti
Görən hardan alır ürək?!

Onsuz kimin coşur qanı,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Özü kimi sadiq hanı?
Bəyəndiyi bir havanı
Ömür boyu çalır ürək.

İnsanlığa odur heykəll,
Pənah, sən də baş endir, gəl!
Necəydisə min il əvvəl
Eləcə də qalır ürək.

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

TELLƏRİNDİ

Nə iş görsək ürək görür,
Sanırıq ki, əllərindi.
Gəl-gəl deyə gözlər gülür,
Get, get demək dillərindi.

Günəşsə də hər səbəbkar,
Deyirik ki, gəldi bahar.
Nə olsun ki, tikanı var,
Ətir, camal güllərindi.

Alnımdakı sərt qırışlar,
Saçımdakı bu şaxta, qar,
Həyatımda qara nə var
Eşqsiz keçən illərindi.

Yar yarını tutsun gərək,
Xoş ixtilat qatsın gərək.
Ahım sənə çatsın gərək,
Yandan əsən yellərindi.

Pənah, bil ki, eşq, məhəbbət
Verəsidi tək məşəqqət.
Ürək çəkir hicran, həsrət,
Ağarmaqsa tellərindi.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

BAHARIMSAN

Mənə xəzan gəlməz daha,
Bir əbədi baharımsan.
Səsləyibsən al sabaha,
Arzum, eşqim, vüqarımsan.

Çəkdim həsrət, aldım kədər,-
Ömrün çoxu itdi hədər.
Yek, dü idim sənə qədər,
Şeşim, pəncim, çaharımsan.

Şükr olsun ki, vurulmuşam,
Nəyə gərək yanmırsa şam?!
Sənsiz necə yaşamışam? –
Mö'cüzəmsən, əsrarımsan!

İlk sözüm sən, son sözüm sən,
Canım, qanım, cüt gözüm sən.
Mən də sənəm, sən özümsən,
Necə deyim ki, yarımsan?!

Nəyə lazım özgə dilək,
Sənin ilə dolub ürək.
Gəl Pənahı eşit, mələk,
Əvvəl-axır ilqarımsan.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

MƏHƏBBƏTİN BALASIYAM

Elə baxma, körpə ceyran,
Meylim sənə salasıyam.
Məcnun kimi olub giryan,
Səhralarda qalasıyam.

Şirinsə də məhəbbətin,
Çəkilməzdi, bil, həsrətin.
Qulu olub bu niyyətin,
Nə dərd versən alasıyam.

Tapşırılsa ürək sənə,
Daha sönən deyil sinə.
Tayını tap, desən mənə,
Vallah dəli olasıyam.

Sevgi inci, sevgi gövhər,
Eşq ömürdə al bir səhər.
Onu çəmən bilsən əgər,
Nərgiziyəm, lalasıyam.

Pənah Göyçə, - o tam eşqdi,
Qönçəm eşqdi, butam eşqdi,
Anam sevgi, atam eşqdi,
Məhəbbətin balasıyam.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

OLA BİLMƏZ

Ola bilməz mən andıqca
Sən də məni anmayasan.
O sayaq ki, mən yanıram,
Mümkün deyil yanmayasan.

Mənim eşqim düşüb dilə,
Sən baxırsan gülə-gülə.
O gün ola, bilə-bilə
Öz eşqini danmayasan.

İnlədikcə könlüm simi,
Pənah yanır Kərəm kimi.
Heç olmasa bu eşqini
Gəldi-gedər sanmayasan.

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

DODAQ

Lap ağlımı aparmısan,
Sən, ey qoşa xallı dodaq!
Məni məndən qoparmısan,
Ay şirin vüsallı dodaq!

Hər görəndən gəlir bacın,
Çatışmayır bircə tacın.
Yoxdu boya ehtiyacın,
Ey qüdrətdən allı dodaq!

Bircə misqal üz ver mənə,
Qoy bülbülə dönsün sinə.
Təbəssüm ki, qonur sənə,
Olursan lap ballı, dodaq!

Bəsdi, dostu yaddan ayır, -
Ellər səni qəddar sayır.
Gülüm, vallah, yaraşmayır,
Olma qilüqallı, dodaq!

Sən Pənahı söndürsən də,
Göydən yerə endirsən də,
«Öl», deyərək dindirsən də,
Könlüm gedir yallı, dodaq!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İNŞALLAH

Bu yaz eşqim gedib ona
Çatar, inşallah, inşallah!
O, tərsliyi qoyar yana,
Atar, inşallah, inşallah!

Ürəyimi tel elərəm,
Dərgahına yol elərəm.
Bostanına əl elərəm, -
Tutar, inşallah, inşallah!

Xuda özü edər taraz,
Diləyimi söyləyər saz.
O Əsli mən Kərəmə naz
Satar inşallah, inşallah!

Şahənşahım yola gələr,
Könlümüz cüt dilə gələr.
Qəlbimizdə zilə gələr
«Qatar», inşallah, inşallah!

Aşiqlərə eşqdi qanad,
Onsuz nəyə dəyər həyat;
Sonra, Pənah köçsə rahat
Yatar, inşallah, inşallah!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İSTƏMİRƏM

Ay qız, məni salma dərdə,
Daha dözmək istəmirəm!
Vüsal mümkün olan yerdə
Hicran üzmək istəmirəm.

Belə getsə əgər hesab,
Tükənəcək canımda tab.
Qoy həddini bilsin əzab,
Doymaq, bezmək istəmirəm!

Nə tez aylar dönür ilə? –
İllər sanki dönüb yelə…
Bircə anı indən belə,
Sənsiz çəkmək istəmirəm!

Eşqə düşən hər bir bəndə
Hicran çəkib durur gendə.
Ancaq vüsal dənizində
Deməz, üzmək istəmirəm…

Əzabından doymaz Pənah, -
Bir şahid var, o da Allah.
Necə deyim, ay şahənşah,
Səni üzmək istəmirəm?

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

MƏNDƏ

Xalis yaxşı, ya da ki pis
Ola bilməz dünya, səndə
İblis, mələk cüt qardaş tək
Məskən salır bir bədəndə.

Bu yatanda, bir yaxşı bax,
O birisi olur oyaq.
Alıbdısa iblis bayraq,
Demək mələk qalıb gendə.

Mən nəfsimi incitmişəm,
Onu tamam qul etmişəm.
Pənah, sürgün olubdu qəm, -
İblis daim yatır məndə.

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

SEVMƏSƏN

Nahaq almısan onu,
Əgər, canı sevməsən.
Puçdu ömrünün sonu,
Öz ananı sevməsən.

Ucal deyir qarlı dağ,
Əl edir yaşıl budağ.
Heç bağın olarmı bağ
Hər bir anı sevməsən?

Məhəbbətə olsan yad,
Nəyə gərək bu həyat?!
Damağın taparmı dad
Bir ceyranı sevməsən?

Tamam yalqız qalarsan,
Çiçək kimi solarsan.
Tapmaz səni şərəf, şan
Sən insanı sevməsən.

Göz dolusu gülməzsən,
El yoluna gəlməzsən.
Kamilləşə bilməzsən
Bu cahanı sevməsən.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

DEYİL

El bilir ki, aşiqiyəm,
O, eyninə alan deyil.
Gecə-gündüz çəkirəm qəm,
Heç hesaba salan deyil.

İllər boyu çəkdim həsrət,
Aldım kədər, gördüm möhnət.
Əvəzində o şux afət
Bir an qonaq qalan deyil.

Sorağında yanır dilim,
Toxunmayıb ələ əlim;
Aşiqinə belə zülüm
Olan deyil, olan deyil.

Gözlərimdən axıdır qan,
Rahatlığım yoxdu bir an.
Könlüm olub yerlə yeksan,
Deyir, hələ talan deyil.

Neçə ki var canda canı
Aşiq verir imtahanı;
Qalınca bir damla qanı,
Pənah eşqi solan deyil.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

MƏN

Deyirdim ki, sevgi nədi,
Ona meyil salmaram mən.
Könül vermək əsirlikdi,
Əsirlikdə qalmaram mən.

Sanırdım ki, Məcnun, Sən'an
Bica yerə çürüdüb can.
Deyirdim ki, puçdu hicran,
Ondan ilham almaram mən.

Bilməm necə, ey mehriban,
Sən Pənaha oldun sultan.
Nə yaxşı ki, dönməz o an,
Eşqdən azad olmaram mən.

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

KÖNÜL

Axı hardan gəldi sevgi,
Bu nə hikmət, nə sirr, könül?!
Bağrımızı dəldi sevgi,
Etdi bizi əsir, könül!

Sevginin öz qaydası var,
Könül verdin, çək intizar.
Ola bilməz vəfalı yar,
Kim ki bundan küsür, könül!

O, ram edir hətta şahı,
Göyə bülənd olur ahı.
Olmasa da bir günahı
Aşiq tük tək əsir, könül!

Eşqdə vüsal xəyal, yalan, -
Hicran ilə keçir hər an.
Pənahın da, nazlı canan,
Lap səbrini kəsir, könül!

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

BİLMƏZ

Sevən ürək müqəddəsdir,
Şeytan ora girə bilməz.
Biganələr, deyildir sirr,
Eşqə könül verə bilməz.

Aşiq olan gərək yana,
Qıya bilə şirin cana.
Hər yetirən o meydana
Girib dövran sürə bilməz.

Eşq odunda səadət var,
Aşiq olan bunu anlar.
Pənah Göyçə, yazıq əğyar
Onda mə'na görə bilməz.

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

OLAR

Bir qaydadı əzəl gündən,
Sevən ürək çaş-baş olar.
Sevinc, kədər yaşayar tən,
Bir ayrılmaz sirdaş olar.

Rahatlığa çəkər ağıl,
Ürək söylər şirin nağıl;
İstəyir lap çatla, dağıl,
Tükənməyən savaş olar.

Vurulubdu sənə ürək,
Ağlım ona çıxır kömək.
Mö'cüzəsən, sən ey mələk,
Qəlblə ağıl yoldaş olar?!

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

GETSİN

Hərdən belə deyirəm mən,
Ömür tezcə keçib getsin.
O beş günü qanlı fələk
Bircə anda biçib getsin.

Ömür nədi, həsrət, kədər;
Bir badədi, dolu zəhər.
Kim özünü sanırsa nər
Bir dəfəyə içib getsin.

Sonra belə düşünürəm;
Bəlkə, bir də könül verəm,
Bağça salam, çiçək dərəm…
Qoy bəxt özü seçib getsin.

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

GƏLƏSİYƏM

Nə vaxt mənə əl eləsən,
Qanad taxıb gələsiyəm.
Kədərinlə qəmlənəsi,
Sevincinlə güləsiyəm.

Köklənibdi könlüm sənə,
Sınanıbdı dönə-dönə.
Ayda məskən salsan, yenə
Ürəyini biləsiyəm.

Sənsən mənim din-imanım,
Var-dövlətim, şərəf-şanım,
Lazım gəlsə sənə canım,
Qurban deyib siləsiyəm.

Sola bilməz əsla xilqət,
Əbədidi eşq, məhəbbət.
Yetmək üçün sənə, afət,
Bisütunlar dələsiyəm.

Bir müqəddəs diləyim var,
Onu bilir pərvərdigar;
Bircə gün də olsa, ey yar,
Səndən əvvəl öləsiyəm.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

MƏHƏBBƏTSİZ

Qış adlamaz, tələsməz yaz,
Sular axmaz məhəbbətsiz.
Bulud gəlməz, şimşək çaxmaz,
Yağış yağmaz məhəbətsiz.

Quşlar uçmaz qoşa-qoşa,
Göz oxşamaz bir tamaşa.
Gecə keçməz, çatmaz başa,
Günəş çıxmaz məhəbbətsiz.

Sərin-sərin əsməz külək,
Qanadlanmaz arzu, dilək.
Saymaz ötər o şux mələk,
Dönüb baxmaz məhəbbətsiz.

Pənah, eşqi yaxşı tanı,
Onsuz həyat yoxdu, hanı?!
İnsan oğlu şirin canı
Oda yaxmaz məhəbbətsiz.

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

MƏNİ

Əsirgəmə səxavəti,
Bircə dəfə güldür məni.
Ya da, verib əmri qəti
Nəzərindən sildir məni.

Ellər məni anar olsa,
Əhvalıma yanar olsa,
Əgər səni qınar olsa,
Məcnun kimi bildir məni.

Eşqin məni etdi sərxoş, -
Pənah ömrü ötmədi boş.
Yar, yolunda ölüm də xoş,
Qurbanın say, öldür məni.

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

NƏ MƏNASI

İlqarından dönən yarı
Bəsləməyin nə mə'nası?!
Əğyar olsa vəfadarı
Pisləməyin nə mə'nası?!

Kimin yarı yana baxdı,
Hesab et ki, döndü taxtı.
Qulaqları karsa, baxtı
Səsləməyin nə mə'nası?!

Pənah, hicran gəldi deyə
Yenə ahın qalxdı göyə.
Niyə belə oldu, niyə, -
Nəsləməyin nə mə'nası?!

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

SAYDIN

Doğru dedim neçə dönə,
Hər dəfə də yalan saydın.
Abad könül verdim sənə,
Sənsə onu talan saydın.

Zəhər bildin ballarımı,
Qara gördün allarımı.
Açdım sənə qollarımı,
Görən niyə ilan saydın?!

Uca tutub sədaqəti,
Pənah sevir sən afəti.
Sən puç edib səadəti
Olan saydın, olan saydın.

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

PƏRVƏRDİGAR

Səndən sonra, yarı, Allah
Saymarammı, Pərvərdigar?!
O, daş qoysa, başı, vallah,
Qoymarammı, Pərvərdigar?!

Yoxdu elə nazlı sona,
Kim vurulmaz axı ona?!
Yana baxsa, şirin cana
Doymarammı, Pərvərdigar?!

Kəndarında, çoxdan bəri,
Açmırammı hər səhəri? -
Ürəyindən keçənləri
Duymarammı, Pəvərigar?!

Oda salıb bircə dönə,
İstərəmmi odum sönə?-
Hər nə əməl desə mənə
Uymarammı, Pərvərdigar?!

Pənah gəzsə bu cahanı,
Elə şirin xilqət hanı?!
Qurban umsa, şirin canı
Qıymarammı, Pərvərdiyar?!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İNSAFDIMI

Can evimə, nazlı canan,
Sökülmür dan, insafdımı?!
Gözüm yaşlı, dilim nalan,
Sinəm şan-şan, insafdımı?!

Elə oda düşüb sinə
Sən dəyməsən çətin sönə.
Mən «can» dedim hər an sənə,
Sən dedin, «yan», insafdımı?!

Yollarında durur qəlbim,
Hey adını sorur qəlbim,
Sənin üçün vurur qəlbim,
Etmisən qan, insafdımı?!

Məhəbbətə dönük əğyar
Arxayınca gözləyir bar;
Əldən gedir hər ixtiyar,
Od tutur can, insafdımı?!

Hey yansa da fərağında,
Pənah hicran varağında…
Ömür verdim sorağında,
Vüsal bir an, insafdımı?!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

SƏNSƏN

Qəlbim, ruhum, qanım, canım,
Görən iki gözüm sənsən.
Ay sevimlim, mehribanım,
Baldan şirin sözüm sənsən.

Günüm, Ayım, kəhkəşanım,
Bu cahanım, o cahanım,
Yurdum, yuvam, adım-sanım,
Canda odum, közüm sənsən.

Sevgilim də, mələyim də,
Ümidim də, diləyim də,
Yumruq boyda ürəyimdə
Dünya boyda dözüm sənsən.

Dinən tarım, ötən sazım,
Şərqim, nəğməm, xoş avazım.
Ş'er adlı güllü yazım, -
Hər cür nurlu izim sənsən.

Gücüm, qüvvəm, dəyanətim,
Hissim, duyğum, məhəbbətim,
Xöşbəxtliyim, səadətim, -
Pənah, de ki, özüm sənsən.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

YANASIYAM

Mən bu eşqə yanasıyam,
Sən yansan da, yanmasan da.
Ömür boyu anasıyam,
Sən ansan da, anmasan da.

Dilim nalan, sinəm dağlı,
Əlim sənə uzanıqlı…
Əsirinəm qolu bağlı,
Sən sansan da, sanmasan da.

Qəm zəmisi əkəsiyəm,
Dərd sarayı tikəsiyəm.
Həsrətini çəkəsiyəm,
Sən qansan da, qanmasan da.

Alqış olsun ötən günə,
Harayıma yetdi yenə;
Xatirələr xoşdu mənə,
Sən dansan da, danmasan da.

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ALLAH, ALLAH

O gül üzü ömür boyu
Anasıyam, Allah, Allah!
Gözlərini bəxt ulduzu
Sanasıyam, Allah, Allah!

Vüsalının sorağında,
Hicranının fərağında,
Onsuzluğun sazağında
Donasıyam, Allah, Allah!

Dərdim olub ulduz sanı,
Mənim kimi aşiq hanı?!
Onsuz qalsam bu cahanı
Danasıyam, Allah, Allah!

Pənah eşqə olub fəda,
Dirigözlü düşüb oda.
Lap o biri dünyada da
Yanasıyam, Allah, Allah!

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ƏBƏDİLİK QALASISAN

Azadlıq qurbanı
ÜLVİ BÜNYADZADƏYƏ

El oğluna yoxdu zaval,
Sən ellərin balasısan.
Ürəklərdə qurdun cəlal, -
Əbədilik qalasısan.

Arzuların şirin-şirin,
Göylər qədər sonsuz, dərin;
Sən onlarla hər bəşərin
Qəlbinə nur salasısan.

Ömr elədin mələk kimi,
Bir gül kimi, çiçək kimi;
Ən müqəddəs dilək kimi
Zamandan bac alasısan.

Azadlığa gedir hər an, -
Budur həyat, budur insan.
Sən o yolda hər bir zaman
Ön cərgədə olasısan.

Duyğuların teldən incə,
Yarı çiçək, yarı qönçə…
Zaman-zaman bax beləcə
Rübabımı çalasısan.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

OLMAZ

Başdan-başa mö'cüzə, sirr,
Xislətindən olmaz, olmaz!
Mələklər də qibtə edir,
Söhbətindən olmaz, olmaz!

Nəzər salsan qara daşa,
Aşiq olub keçər başa.
Xallara bax, qoşa-qoşa,
Ne'mətindən olmaz, olmaz!

Yanaqları qızıldandı,
Gözlər sanki bir ümmandı.
Üstəlik də mehribandı,
Ülfətindən olmaz, olmaz!

Kimə meyil salasıdı
Ağlın başdan alasıdı.
Eşq sultanı olasıdı,
Niyyətindən olmaz, olmaz!

Gəlmə, dedi, baxma dedi, -
O, Pənaha biganədi;
Allah, Allah, bu hal nədi,
Dəhşətindən olmaz, olmaz!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

SƏADƏT SANASIYAM

Sevgi mənə yön çevirdi,
Odlarında yanasıyam.
Hicran adlı, həsrət adlı
Sazağında donasıyam.

Canım odur, gözüm odur,
Hər söhbətim, sözüm odur.
Bir gün deyib, özüm odur,
Özümü də danasıyam.

Pənah, vüsal qalıb gendə,
Ayrılıq var təkcə öndə.
Məcnun kimi, bunu mən də
Bir səadət sanasıyam.

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

GƏZİRSƏNMİ

Niyə gəldin bu cahana,
Bu hikməti sezirsənmi?
Həyat adlı imtahana
Layiqincə hazırsanmı?

Bilirsənmi iblis, şeytan
Sənindədir hər gün, hər an. –
Qaçmaq üçün onlardan yan
Öz nəfsini əzirsənmi?

Pənah, çalış bircə an da
Boş durmasın ağıl qında;
Ömrün çətin yollarında
Əbədiyyət gəzirsənmi?

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

OLMAZ

Bilməcədi qoca dünya, -
Elə-belə baxmaq olmaz.
Hər çağlayan selə, suya
Könül verib axmaq olmaz.

Ulların yoluyla get,
Bir ağlayan görsən kirit.
Yamanlığa yaxşılıq et,
Ona əvəz çıxmaq olmaz.

Qalxma zilə pərdə-pərdə,
Ağıl olmaz hirsli sərdə.
Səbir gərək olan yerdə
İldırım tək çaxmaq olmaz.

El içimdə təlaş olsa,
Vecsiz yerə savaş olsa,
Yüz quruyla bir yaş olsa
Qov yaramaz, çaxmal olmaz.

Pənah qəlbi güllü yazdı,
Ona həmdəm telli sazdı.
Minbir könül tikmək azdı,
Bircə könül yıxmaq olmaz.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

SƏN

Tək yaradıb ulu tanrım,
Hər gözəldən gözəlsən sən.
Tamam aldın ixtiyarım,
Mənə məndən əzəlsən sən.

Gözəlliyin dodaqdadı,
Aşiqlərin soraqdadı.
Hər bir anın varaqdadı, -
Qoşma, təcnis, qəzəlsən sən.

Nə hicran, nə həsrət olar,
Nə bir gilə möhnət olar;
Dünya mənə cənnət olar,
Əgər yola düzəlsən sən.

Bir qaydadı, meydan alar
Payız gələr, güllər solar;
Bil ki, Pənah dəli olar,
Əgər görsə xəzəlsən sən.

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

SƏN İSTƏSƏN

Sevdiciyim, sevən qəlbim
Nalan olmaz, sən istəsən.
Sinəmdəki inləyən sim
Çalan olmaz, sən istəsən.

Saymazyana keçdin yenə,
Neçə yara aldı sinə…
Könlüm evi dönə-dönə
Talan olmaz, sən istəsən.

Hər nə versə alan dünya,
Gözlərimdə solan dünya,
Fani dünya, yalan dünya
Yalan olmaz, sən istəsən.

Qələmimdən süzülər zər,
Bir anım da getməz hədər.
Talanar qəm, itər kədər,
Qalan olmaz, sən istəsən.

Pənah düşməz intizara,
Həsrət onu çəkməz dara.
Möhnət adlı dəryalara
Dalan olmaz, sən istəsən.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

YOXLA, GÜLÜM

Ayrılığın odlarında
Dağla məni, dağla, gülüm!
Qıyma vüsal, ondan yanda
Saxla məni, saxla, gülüm!

Yarandım ki, eşqə yanam,
Mümkündümü əhdi danam?!
Qolu bağlı şikarınam
Oxla məni, oxla, gülüm!

Səni ulduz sanasıyam,
Gendən genə anasıyam.
Ömür boyu yanasıyam,
Yoxla məni, yoxla, gülüm!

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

BAX

Qibtə edir lalə ona,
Allah, Allah, üzünə bax!
Bir sönməz od salır cana,
Bu yanmışın gözünə bax!

Can da desən ona dəyir,
Od püskürür, alov geyir.
Baxma deyir, gəlmə deyir, -
Gül dodaqda sözünə bax!

Ay nazənin, etmə günah,
Aşiqinə çəkdirmə ah.
Niyə Məcnun olub Pənah? –
Dön güzgüdə özünə bax.

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

HANI

Hərənin öz hesabı var,
Fələk kimi sayan hanı?!
Ələ keçsə bir ixtiyar
Onu yerə qoyan hanı?!

Zəhmət çəkən yaman gündə, -
Bölgü vaxtı qalır gendə.
Hamı yıxan tərəfində,
Yıxılana həyan hanı?!

Bir məsəldi çoxdan bəri,
Toxun acdan yox xəbəri;
Tamah yıxır hər bəşəri,
Bu mətləbi duyan hanı?!

Bəd əməllər vüs'ət alır,
Yaxşı gedir, yaman qalır.
İblis hər an zəfər çalır,
Mələklərə uyan hanı?!

Pənah, şükr et gələn günə,
Cılızlaşa bilər sinə.
Min əzaba düşsə, yenə
Yaşamaqdan doyan hanı?!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ÖZÜM DƏ İNANMIRAM

Yuxuda, ya aşkara,
Daha səni anmıram.
Keçdi, getdi məhəbbət,
Atəşinə yanmıram.

Keçdiyimiz yolları,
Seçdiyimiz kolları,
Səni qucan qolları,
Əsla yetim sanmıram.

Bu gün dostlarım yenə,
Vurublar ağır tə'nə;
Dönük deyiblər mənə
Olsun, olsun, danmıram.

Şax baxıram aləmə,
Könül vermirəm qəmə.
Amma dediklərimə
Özüm də inanmıram.

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

QOŞMALAR

1111111247899

(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

SƏN

İnam, məndən uzaq olmayıb qəti,
Bilirdim bir zaman gələsisən sən.
Hicranı, həsrəti, qəmi, möhnəti
Bu şair könlümdən siləsisən sən.

Sevən qəlb dünyanın sultanı, şahı –
Olmaz sevənlərin, olmaz günahı.
Könüldən könülə yol olur axı,
Qəlbimdən keçəni biləsisən sən.

Göz açıb cahana əbədi bir yaz,
Ötür varlığımda sədəfli bir saz.
Sən olan ürəkdə kədər, qəm olmaz,
Təkcə sevinc, şadlıq böləsisən sən.

Adınla qəlbimdə çağlayır qanım,
İzn ver önündə şam olub yanım.
Eşqimin gücüylə, ay mənim xanım,
Ömrün sonunacan güləsisən sən.

Pənahın ömründə sökülübdü dan,
Sənlə gələcək ona şərəf, şan.
Min belə nəğməmdə yaşayacaqsan,
Kim deyə bilər ki, öləsisən sən?!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

MƏN

Aləm məni desə, dilin dinməsə,
Bəxt atına çətin minəsiyəm mən.
Baxmaram heç kəsə, çağrışa, səsə,
Tək sənin səcdənə enəsiyəm mən.

Ay qaşları qələm, şahiddi aləm,
Başımdan aşır qəm, olmayıbdı kəm.
Əqlim olarmı cəm, olmasan həmdəm,
Şam kimi titrəyib sönəsiyəm mən.

Eşq üçün hər zaman coşmalıdır qan,
Bilir aşiq olan, budur şərəf, şan.
Kaş lazım gələ can, ay nazlı canan,
Sanma ki, çəkinib sinəsiyəm mən.

Məhəbbət vüsaldı, hicrandı – baldı,
Həm şirin xəyaldı, həm də realdı.
Könlüm ilham aldı, elə ucaldı
Bu gün elin bircə dənəsiyəm mən.

Əgər qoysalar şah, salmazdım tamah;
Aşiq etsə günah açılmaz sabah.
Bəs deyilmi Pənah, inlədi Se'gah,
Daha Şahnaz üstə dinəsiyəm mən.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

QOYMA

Deyirlər lal olur sevgi, məhəbbət,
Nə din, nə də məni dinməyə qoyma!
Hicran dağlarına edək səyahət,
Nə en, nə də məni enməyə qoyma!

Məhəbbətdən yana baxmayaq bir an,
Onsuz sökülərmi bəxtimizə dan?!
Ömrün sonunacan gedək, o yoldan
Nə dön, nə də məni dönməyə qoyma!

Gəl yanmaq eşqini Günəşdən alaq,
Məhəbbət gücünə qalxaq, ucalaq.
Sevgi dünyasında qoşa şam olaq,
Nə sön, nə də məni sönməyə qoyma!

Naləm qalxsa göyün yeddi qatına,
Yenə də sən məni hicranla sına.
Vüsal eşqə sondu, onun atına
Nə min, nə də məni minməyə qoyma!

Eşqimiz Günəş tək safdı, təmizdi,
Pənahın qəlbində əbədi izdi.
Ondan hər nə bəla gəlsə əzizdi,
Nə sin, nə də məni sinməyə qoyma!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

DEYİLƏM

Elə bilmə sən gedəndən bir kərə
Gülməmişəm, güləsi də deyiləm.
O müqəddəs saydığımız yerlərə
Gəlməmişəm, gələsi də deyiləm.

Daha könlüm səndən almır ilhamı,
(Məni eşqi dönük saymayır hamı.)
Sən də bil ki, məhəbbətə inamı
Silməmişəm, siləsi də deyiləm.

Məhəbbətsiz ömür sürmək bicadı,
Eşqsiz ürək bir qaranlıq gecədi.
Məndən sonra sənin halın necədi
Bilməmişəm, biləsi də deyiləm.

Sən unutdun o sevdalı çağları,
Sən kəsmisən aradakı bağları.
Ona görə Fərhad kimi dağları
Dəlməmişəm, dələsi də deyiləm.

Pənah, ömür olasıdı yenə şən,
Sevda gülü dərəsiyəm hələ mən.
O hicranın, o həsrətin əlindən
Ölməmişəm, öləsi də deyiləm.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

MÜBARƏK

Mikayıl Mirzəyevin «Poeziya teatrı» yaratması xəbərini eşidərkən

Ay Mikayıl Mirzə, ucalır səsin,
Qardaş, hər söhbətin, sözün mübarək!
Günü sabah el yoluna dönəsi
Bu günkü cığırın, izin mübarək!

Bu sən olmalıydın, yoxdu burda sirr;
Hər işə, əmələ maya ürəkdir.
El üçün yanana dözüm gərəkdir,
Sənin o təpərli dizin mübarək!

Sinəyə yazılır, dilə paylanır,
Pənahın sazında telə paylanır
Qətrə-qətrə olub elə paylanır,
Alovun mübarək, közün mübarək!

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

GƏL GÖRƏK

Dostum Eldara, zarafatyana

Qardaş, vallah, sən gedəndən elə bil
Burda zaman dayanıbdı, gəl görək!
Dostsuz, yarsız keçən günlər gün deyil,
Könlüm sanki oyanıbdı, gəl görək!

Sən aqilsən, qışı yaza dəyişmə,
Düz hesab çək, çoxu aza dəyişmə.
İnsaf elə, beş qarpıza* dəyişmə
Könül bağım talanıbdı, gəl görək!

Bir afətlə sevdalaşdıq yanında,
Bu dostunun can yaşayır canında.
Mənim kimi indi yəqin onun da
Qəlbi qana boyanıbdı, gəl görək!

Şadlıq, sevinc çəkilibdi dağlara,
Hər gün, hər an çatışmırsan aşkara.
Nur salmaqçın o sən gələn yollara
Qəlbim oda qalanıbdı, gəl görək!

Uzaqlaşma qazanarsan günahı,
Çoxlarına sənsən açan sabahı.
Sən gedəndən, şirin-şirin, Pənahı
Kim səsləyib, kim anıbdı, gəl görək!

* ***Eldar atasının Kür qırağında yetişdirdiyi əla qarpızları Tovuz bazarında satmaqla məşğul idi.***

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ÖZGƏDİ

Hər gözəlin öz yeri var könüldə,
Bu yanmışın gül-camalı özgədi.
Yoxdu ətri nə çiçəkdə, nə güldə,
Yanağında xətti-xalı özgədi.

Sehirlidi, əfsunludu hər halı,
Gözlərimə əks olunub xəyalı.
Bal olsa da şirinliyin misalı,
Bunun hələ qilu-qalı özgədi.

Qara telin hər qıvrımı əjdəri,
Ala gözlər mat qoyubdu Xəzəri.
Dəbli geyim cəlb etsə də nəzəri,
Onun adi güllü şalı özgədi.

Məhəbbətdi nurlandıran cahanı,
Onsuz məşəqqətdi ömrün hər anı.
Bir bu qədər şirindisə hicranı,
Bəs görüşü, bəs vüsalı – özgədi.

Onun eşqi şeyda etdi Pənahı,
Onsuz çətin açılaydı sabahı.
Gözəllərin ola bilməz günahı,
İşgəncəsi, zülmü, alı özgədi.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

OLMUŞAM MƏN

Elə bil canımdan uçub hərarət,
Son günlər nə yaman küt olmuşam mən.
Qəlbimdə qalmayıb xoş arzu, niyyət,
Sanki soyulmuşam, lüt olmuşam mən.

Sükut deyilənə mehir salmışam,
Vecsiz bir əşya tək düşüb qalmışam.
Tamam yorulmuşam, çıxdaş olmuşam,
Nahaq çoxlarına büt olmuşam mən.

Əqlim üsyan edir, hələ mən sağam,
Min dərdə tuş olsam yenilməz dağam.
Yenə də Pənaham, bəhrəli bağam,
Kim deyir kötüklə cüt olmuşam mən.

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

HƏKİM QIZ

Əlin dəydi, ötdü məndən duman, çən,
Nur çiləyən sabahımsan, həkim qız!
Min dərd gələ, çaxılmamaq bilməyən
Alov saçan silahımsan, həkim qız!

İlk görüşdə elə nəzər salmısan,
Ürəyimdə həkk olunub qalmısan.
Sən məni ölümdən çəkib almısan,
Yaradanım, həm şahımsan, həkim qız!

Səadətə çələng hörə bilmədim,
Bir layiqli dövran sürə bilmədim.
Nə vəfalı sevda görə bilmədim,
Sanma artıq tamahımsan, həkim qız!

Hamı cütdü, belə deyir ilk qərar,
Vay o kəsə yetmişində tapa yar.
Azad könlün məhəbbətə haqqı var,
Düşünmə ki, günahımsan, həkim qız!

Gərəkdirsə, kəs bağrımın parasın,
Lazımdırsa, al gözümün qarasın.
İnsan odu, insanlarla yarasın,
Pənah mənəm, pənahımsan, həkim qız!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

HƏKİMLƏR

Nasazlasan inam ilə yaxın dur,
Loğman kimi şəfalıdı həkimlər.
Varlığını bə'zən tamam unudur,
Sənətinə vəfalıdı həkimlər.

El yolunda alış deyir, yan deyir,
Axı yoxdu özgə şərəf, şan deyir.
Hər xəstəyə neçə dəfə can deyir,
Cəfalıdı, cəfalıdı həkimlər.

Sayənizdə yenə dövran sürürəm,
Bu çələngi adınıza hörürəm.
İnanın ki, elə indi görürəm,
Dünya necə səfalıdı, həkimlər!

Sizə heykəl qoysun gərək bu bəşər,
Bircə, «Sağ ol!», sizin üçün inci, zər.
Gördüyünüz o yuxusuz gecələr
Halal zəhmət vüsalıdı, həkimlər!

Tamam-kamal sağalsaq da əgər biz,
Üstümüzdə əsirsiniz yenə siz.
Pənah duydu, sizin həssas qəlbiniz,
Min nəqşəli bir xalıdı, həkimlər!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

GÖZLƏMƏMİŞƏM

Neçə yol səadət ötüb yanımdan,
Bilmirəm nə üçün izləməmişəm.
Hicranda, həsrətdə yanmışam hər an,
Sevgidən özgə şey gözləməmişəm.

Xəyalən qonağım olub gözəllər,
Tamam ixtiyarım alıb gözəllər.
Ruhumu odlara salıb gözəllər,
Könlümü onlardan gizləməmişəm.

Pənah, aşiqlərin xisləti bəlli;
Dünya deyiləni tutmaz dörd əlli.
Bir duyğu olubdu mənə təsəlli,
Heç kəsin qəlbini közləməmişəm.

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

OLSUN

Arzu edirik ki, ay təzə gəlin,
Mehribanlıq sənə bir adət olsun!
Bütün ömrün boyu bal olsun dilin,
Könlündə yurd salan xoş niyyət olsun!

Günəş kimi isit, bənzəmə Aya,
Sevgilin od olsa dönəsən suya.
Qoy sənin cehizin e'tibar, həya,
Abır, ismət, dözüm, sədaqət olsun!

Şikayət nə şeydi gətirmə dilə;
Həyat mə'nalıdı çətinliyiylə.
Qalib çıxarsınız siz gülə-gülə,
Bu şərtlə, ürəkdə dəyanət olsun.

Hər şeydə sevinc gəz, gözündə hər dəm
Al-əlvan bir dona bürünsün aləm.
Qoyma bircə gün də qəlbinə həmdəm
Nə qüssə, nə kədər, nə möhnət olsun.

Getdiyin ocağa elə mehir sal,
Qaynata, qaynana gözündə ucal.
Həyatda hər şeyi qədərində al,
Ölçü bilməz bircə məhəbbət olsun!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

DƏYMƏZ

Yerində işlədə bilməsən əgər,
Ən dərin hikməti bilməyə dəyməz.
Məhəbbətdən gələn qəm, qüssə, kədər
Səadətdi, onu bölməyə dəyməz.

Nadan ağıllanmaz mənsəb alsa da,
Kimsə xeyir görməz, hey ucalsa da.
Yemək, geymək, gəzmək şirin olsa da,
Bu eşqlə cahana gəlməyə dəyməz!

Hər kim ki, həyatı əyləncə sandı
Demək əhdi, andı, eşqi yalandı.
Rəngi necə olsa ilan ilandı,
Onun göz yaşını silməyə dəyməz.

Sarı iblis deyə söysə də bəşər,
Kişinin əlində müqəddəsdi zər.
Yadların dərdinə ağlamaq hünər,
Təkcə özü üçün gülməyə dəyməz.

Yenə də sirr dolu qalsa da cahan
Öyrən, qoy havayı ötməsin bir an.
Öləndə ölməyi öyrənir insan,
Pənah, elə-belə ölməyə dəyməz.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ŞAXTADA

Özgə cür səxavət göstərər göylər,
Çöllərə incilər ələr şaxtada;
Kolları bir billür çilçıraq eylər,
Sirli bir əfsunla gülər şaxtada.

Elə ki, bir gündə ağ geyər hər yan,
Bakirə bir qıza bənzəyər cahan.
Həyata daha bərk bağlanar insan,
Cana təzə təpər gələr şaxtada.

Şikayət etsə də ondan hər yetən,
Pənah, bu barədə yaxşı düşün sən;
Sağlamlığa düşmən, insana düşmən
Mikroblar gəbərib ölər şaxtada.

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

DƏYMƏZ

Belə görəcəksən gəzsən ha yanı;
Sevgisiz cahanda min yaşa, dəyməz.
Ürəksiz gözəli ha sev, ha yanı,
Qəlbini kövrəltməz, könlünə dəyməz.

Kim qəlbində yer ayırsa çox ala,
Çətin olar maya tuta, çoxala.
Aqil olan istəməz ki, çox ala;
Xəstə tələsməklə kal meyvə dəyməz.

Halal düşün halal olsun dəstin, ə!
Haramların ürəyi nə, dəsti nə?!
Naşı ovçu yüz ox alsın dəstinə
Ay Pənah, yan ötər, şikara dəyməz.

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

NƏ XEYRİ

Min il ömr eləsən dünyada, ancaq
Qalmasa həyatda izin, nə xeyri?!
Qurşağa tökülsə saqqalın, dümağ,
Ötməsə, keçməsə sözün, nə xeyri?!

Hər mənəm deyəni tanımaz zəfər,
Hər parıltı zərdən gətirməz xəbər.
Canında fil gücü toplansa əgər,
Dar gündə titrəsə dizin, nə xeyri?!

Ay Pənah, yaxşılıq olsun niyyətin,
Onsuz insan olmaq çətindir, çətin.
Lap başından aşsın varın, dövlətin,
Yoxdursa ürəkdə közün, nə xeyri?!

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

GÖZƏL, GÖZƏL

Xoş gündə, xoş anda yaranmısan sən,
Yaşa bu şe'rimdə gəl gözəl, gözəl!
Gözəllər içində bir mö'cüzəsən,
Üstəlik də şirin dil, gözəl, gözəl!

Əsmər yanağında xal qoşa-qoşa,
Fələk vəsmələyib əl vurma qaşa.
Bədən mütənasib, boyun tamaşa,
Dırnaqlar sədəfdi, əl gözəl, gözəl!

Hər sözün, baxışın deyir alış, yan,
Gündə bu atəşə düşür neçə can.
Özü tək qəlbləri edir pərişan,
Çiyninə tökülən tel gözəl, gözəl!

Günəş tək çıxırsan, qaçır duman, çən,
Sən tək gözəllərlə nurlanır vətən.
Bu sənli dünyada yaşadıqca mən,
Gün, həftə, ay şirin, il gözəl, gözəl!

Keçdiyin yolları alır aman, ah,
Gör gündə neçə yol edirsən günah?!
Bunları özündən demədi Pənah,
Başdan-başa deyir el gözəl, gözəl!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

GÖZƏL OLSUN

Hicranla qalansın eşqin tonqalı,
Alov gözəl olsun, köz gözəl olsun!
Bir vaxt görmək üçün anlıq vüsalı
Ömürlük həsrətə döz, gözəl olsun!

Həyat deyilənə diqqət elə bir,
Hər addımda heyrət, hər addımda sirr;
Ürək gözəlliyi ürəkdə gəzir,
Gözlər axtarır ki, üz gözəl olsun.

Aşiq fəryad edər, bir insafa gəl,
Ömrün baharını almasın xəzəl.
Meyvə yetişərmi vaxtından əvvəl,
Xəstə diləməklə – tez, gözəl olsun?!

Sevgisiz bir ürək qara daşa tən,
Sevgisiz hər ömrü alır duman, çən.
İlan tək sürünsən nə görəcəksən,
Tərlan tək göylərdə süz, gözəl olsun.

İnsan məhəbbətlə doğulub qoşa,
Onsuz nə mə'nası, lap min il yaşa.
Ay Pənah, eşq ilə ömrü vur başa,
Həyatda qoyduğun iz gözəl olsun.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

DEYƏ-DEYƏ

Özüm unutmuşam təbəssüm nədir,
Mən sənə bir danış, gül deyə-deyə.
Könlümdə heykəlin nə şahanədir,
Unutmaq lazımdır, dil deyə-deyə.

Ayrılıq şimşəyi başımda çaxdı;
Sevgidən aşiqə nə gəlsə haqdı.
Dəyişib yolunu qəlbimə axdı,
Gözümün yaşına sel deyə-deyə.

Nə çoxdu gözəllər ellər içində,
Səni seçdim şirin dillər içində.
Dönmüşəm Məcnuna çöllər içində,
El mənə, qədrini bil deyə-deyə.

Ay Pənah, əzaba mehir salmışam,
Hicran yollarıyla hey ucalmışam.
Bilmirəm bu qədər necə qalmışam,
Dilin kəlmə başı öl deyə-deyə.

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

PAYIZDA

Qızıl don geyinər bağlar, bağçalar,
Hər yana bərəkət enər payızda.
Ellər məclisində qaval, kaman, tar
Vüsalın eşqinə dinər payızda.

Əvvəlini yazdan ayırmaq olmaz,
Sanki yağışlarla geri dönər yaz.
Sonunda güc gələr qar, şaxta, ayaz;
Dörd fəsil yerləşər o nər payızda.

Ay Pənah, bu qayda ədəbi yaşar,
Hər sevinclə qoşa bir kədər də var;
Qərib-qərib ötər köçəri quşlar,
İsti ölkələrə dönər payızda.

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

DÜNYA

Nə könlüm, nə dilim etməz şikayət,
Demərəm belədi, elədi dünya.
Duyana, aqilə cənnətdi, cənnət,
Nadana, nakəsə şələdi dünya.

O yanda göylərə baş çəkir dağlar,
Bu yanda uzanır bəhrəli bağlar.
Quşlar nəğmə deyər, şəlalə çağlar;
Sehrlə, əfsunla silədi dünya.

Ağladır qəmgini, güldürür şadı,
Əməlindən gəlir hər kəsin adı.
Kim ki, məhəbbətə könül bağladı,
Onu səadətə bələdi dünya.

Könül verən deyil nakəsə, yada,
Yaxşıdan yaşadır neçə xoş səda.
Pənah, qalasıdı səndən sonra da,
Şükür ki belədi, belədi dünya.

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

DÜNYA

Özü boyda təzad, özü boyda sirr;
Haqqın özündən də əzəldi dünya.
Hər gün, hər dəqiqə təzə don geyir,
Heç kəs görməyəcək – xəzəldi dünya.

Arzusu, istəyi, amalı düzdü,
Hicranı, həsrəti, vüsalı düzdü.
Onun başdan-başa hər halı düzdü,
Demə, bəlkə bir gün düzəldi dünya.

Qarası da gözəl, alı da gözəl,
Ləkəsi də gözəl, xalı da gözəl,
Zəhəri də gözəl, balı da gözəl,
Gözəldi, ay Pənah, gözəldi dünya.

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

EHEY

Bilmirəm nə üçün doğulmusan sən,
Mən eşqə yanmağa gəlmişəm, ehey!
Hicrandı, həsrətdi qapımı kəsən,
Vüsaldan ümidi silmişəm, ehey!

Eşqindən ölürəm desə də mini,
Hardasa öz yarın axtarır səni.
Eh, necə deyim ki, sənin qədrini
Canımnan da əziz bilmişəm, ehey!

Nə qədər incitsən inanma dinəm, -
Bax, Pənah belədi, ay nazlı sənəm!
Sən başa düşəndə gəzdiyin mənəm,
Qorxuram görəsən ölmüşəm, ehey!

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

MƏHƏBBƏTSİZ ÖTMƏSİN

Neçə ildə könlüm səni səsləyir,
Mümkündümü ünvanına yetməsin?!
Qəlbdən qəlbə yol olduğu deyil sirr,
Ola bilməz sevda qoşa bitməsin.

O gündən ki, səni tale sanmışam,
Huriləri, pəriləri danmışam.
Hicranına Səməndər tək yanmışam,
Haqq mövcudsa, gərək hədər getməsin.

Varlığıma həyat eşqi dolanda,
Bilirəm ki, sən xöşbəxtsən o yanda.
Bir bağçada iki bülbül olanda,
Kim görüb ki, axı qoşa ötməsin?

İcazə ver hərdən səni, yar, anım;
Axı sənsən, təkcə sənsən gümanım.
Nəzər sal ki, gülüm, ahım, amanım
Tüstü kimi asimanda itməsin.

Eşqsiz keçən günlərimiz heçə tən,
Gəl birləşək, qoy adlasın duman, çən.
Heç olmasa, Pənah, qalan ömürdən
Bircə an da məhəbbətsiz ötməsin.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ANA

Həyat çeşməsidi ana nəfəsi,
Dünya bir yanadı, ana bir yana.
Anasız olmasın, görüm, heç kəsi,
Bəşərin vicdanı anadır, ana!

Ondan ülvi varlıq hanı cahanda,
Adına kəm baxan qaralar geysin.
Gəzdirək eşqini, yaşadaq qanda,
Everest zirvəsi ona baş əysin!

Ömrünü bizlərə sadağa dilər,
Sonsuz qayğısından daş da halıdı.
Övlada verilən bütün rütbələr
Ananın adına yazılmalıdı.

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

BƏLKƏ

Sərdarsız bir insan, sükansız gəmi, -
Mənim şahənşahım olasan bəlkə?
Bəsdi xəyallarla yaşatdın məni,
Bir yolluq yanımda qalasan bəlkə?

Məhəbbət insanı salsa da oda,
Xöşbəxtdi bu yolda kim olsa fəda.
Lap ilana dönüb məni çalsa da
Qolunu boynuma salasan bəlkə?

Aşiq deyilən kəs yolundan dönməz.
Məhəbbət alovu ölüncə sönməz.
Min il hicran çəksə sevən qəlb dinməz,
Vüsal təbilini çalasan bəlkə?

Aqillər deyibdi, bəlkə min dönə,
Vay o günə canda eşq odu sönə.
Sevmək yaşamaqdı, eşqin gölünə
Mənimlə birlikdə dalasan bəlkə?

Qıyma ki, göylərə ucalsın ahı,
Axı sevən qəlbin yoxdu günahı;
Cənnətməkan olsun deyə, Pənahı,
Özün bu canımı alasan bəlkə?

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

MƏHƏBBƏTDİMİ

Bir dəfə görməklə hakimsən mənə,
Ötərgi həvəsmi, məhəbbətdimi?
Sənin hicranınla yandıqca sinə
Dözürəm, adətmi, sədaqətdimi?

Başımın üstünü alan dumanlar,
Ruhumu çulğayan saysız gümanlar,
Ürəyimdən qopan ahlar, amanlar
Gələn bədbəxtlikmi, səadətdimi?

O gün mən tərəfə ötərgi baxdın,
Həyat seli kimi qəlbimə axdın.
Ah, məni nə şirin bir oda yaxdın, -
Gülüm, başlanğıcmı, nəhayətdimi?

Sevgi dünyasında belə qayda var,
Aşiq yaxşı halda alır sonbahar.
Güllü bağa çığır tapıbsa əğyar,
Görən qaydadımı, xəyanətdimi?

Eşqinlə yaşayır ruhum, ürəyim,
Yoxdu, olmayacaq özgə diləyim.
Qoy qəlbin söyləsin, mənim istəyim
Ömrün mə'nasımı, siyasətdimi?

Sevgi yaranmayıb ötərgi bir səs,
İnsanla ekizdi bu odlu həvəs.
Sənin kölgən olub sürünməyi bəs
Pənaha şöhrətmi, qəbahətdimi?

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

MƏN

Ömrün baharında bezdim, usandım,
Payızına çətin dözəsiyəm mən.
Rəhmini görmədim, zülmünə yandım,
Fələklə hesabı üzəsiyəm mən.

Deyirdim mənimdi həyatın çəmi,
Ona köklənibdi qəlbimin simi.
Sanırdım ki, ömrü mirvari kimi
Səadət telinə düzəsiyəm mən.

Elə ki, göz açdım vətən mülkünə,
Gözəllik eşqiylə qabardı sinə.
Hardan biləydim ki, gül əvəzinə
Qanqal, qaratikan üzəsiyəm mən?!

Sevgisiz həyatı tamam danardım,
Eşqə Səməndər tək düşüb yanardım.
Hicranı ən dürlü həyat sanardım,
Bilməzdim ondan da bezəsiyəm mən.

Ay Pənah, həyata qaynamır qanım,
Köçmək istəyirəm, çıxmayır canım.
Əzablar içində keçir hər anım,
Bu hala nə qədər gəzəsiyəm mən?!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

SƏNİN

Çoxdandı qəlbimi salıb kəməndə,
Gözlərin məhəbbət qoxuyur sənin.
Hər dəfə sən mənə «gəlmə» desən də,
Sözlərin məhəbbət qoxuyur sənin.

Kim tale sanmazdı sən tək xanımı?
Mən xöşbəxt olardım töksən qanımı.
Eşqinin atəşi yaxır canımı,
Sözlərin məhəbbət qoxuyur sənin.

Elə mö'cüzəsən, ay nazlı sona,
Daş ayaq açardı, «gəl», desən ona.
Əllərin, tellərin, qoynun bir yana,
Dizlərin məhəbbət qoxuyur sənin.

Elə ki, çıxırsan çölə, çəmənə,
Çiçəklər qibtəylə boylanır sənə.
Burdan sən keçmisən bu səhər yenə,
İzlərin məhəbbət qoxuyur sənin.

Bir az rəhimli ol, az bat günaha,
Kimdən üz çevirsən çıxmaz sabaha.
Əzizim, həmişə «döz», de Pənaha,
«Döz»lərin məhəbbət qoxuyur sənin.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

GETDİ

Bircə baxışından, ay sevimli yar,
Varlığım odlara qalandı getdi.
Səndən incimişdim, - elə şey olar? –
Dostlar arasında olandı, getdi!

Deyirdim görüşə bir də gəlmərəm,
Sevinci, kədəri yarı bölmərəm.
Deyirdim bir daha deyib gülmərəm,
İnadım necə də talandı getdi.

Ürək vurğundusa dil aciz qalar,
Nə desə bir anda saralıb solar.
Məhəbbət cüt gələr, bilsin ki, əğyar
Ömürlük kənarda qalandı, getdi!

Heç ola bilərmi inciyim səndən?
Sevən bir ürəyi bürüyərmi çən?!
Dil çox da desin ki, barışmaram mən,
Yalandı, yalandı, yalandı, getdi!

Pənah, hicran buzu çilik-çilikdi.
Eşqin varlığımda qandı, ilikdi.
Xöşbəxt günlərimiz əbədilikdi, -
Yenə bir-birinə calandı getdi.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

DƏYMƏZ

Yan eşqin oduna Səməndərə tən,
Elə-belə aşiq olmağa dəyməz.
İnci çıxarasan gərək dərindən,
Dayazda boş yerə dalmağa dəyməz.

Gərək öz yerini tanısın insan,
Ötərgi həvəslə çürüməsin can.
Ürək oxumursa, danışmaz kaman,
Nə zildə, nə bəmdə çalmağa dəyməz.

Dostun danlasa da səni min dönə,
Çətində qayğını çəkəcək yenə.
Səndən gen dolanan yar deyil sənə,
Onun həsrətindən solmağa dəyməz.

Bil ki, əbədilik gəlməyib bahar,
Fəsil dolanası, yağasıdı qar.
Dərdin çarəsini vaxtında axtar,
Sonradan saçını yolmağa dəyməz.

Əqlini, ruhunu bürüyübsə çən,
Ömür ömür deyil, keçirsən də şən.
Gərək cavanlıqda müdrikləşəsən,
Yetmişdə kamala dolmağa dəyməz.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Könül, vətən eşqi başdı, əzəldi,
Onsuz nə yaşasan puçdu, xəzəldi.
Pinəçi də olsan vətən gözəldi,
Qürbətdə şah olub qalmağa dəyməz.

Aşiqlər düşsə də min qüli-qala,
Layiq görülməyir yenə vüsala.
Ay Pənah, könül ver bir əhlihala,
Hər gözəldən ilham almağa dəyməz.

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

KƏNAR DUR

Ay sərvinaz, mənim həssas ürəyim
Düşər bu vaxtımda oda, kənar dur!
Sevgiyə bələdəm, deyil gərəyim,
Ondan kim tapmadı qada, kənar dur!

Ağlımı alırsan, elə gülmə gəl,
İnsaf elə, məni daşdan bilmə gəl.
Ömrümə sonuncu ilmə olma gəl,-
Olum gözlərinə fəda, kənar dur!

Götür məhəbbətin tarixinə bax,
Gör aşiq olana necə çəkib dağ.
Vüsal dedikləri xəyaldı ancaq,
Ondan kim eşidib səda, kənar dur!

Eşqi şirin-şirin anmışam, bəsdi,
Xöşbəxtlik, səadət sanmışam, bəsdi.
Səməndərə dönüb yanmışam, bəsdi,
Sən olasan o bir Xuda, kənar dur!

Yox, Pənah həyatı anası oldu,
İçdiyi andları danası oldu.
Sənin eşqinə də yanası oldu,
Necə desin «gəlmə», ya da «kənar dur»?!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

APARIR

Qaydadı çarpışır xeyir ilə şər,
Kim deyir çox zaman yaman aparır?!
Elləri dağlara qaldırır Günəş,
Qaytarıb arana duman aparır.

Kimlər yetişibdi bərkdə dadına,
Nakəslər bir yol da salmaz yadına.
Hünər yazılsa da oxun adına,
Onu hər hədəfə kaman aparır.

Hər dərdin çarəsi gec-tez yetişir,
Təkcə söz yarası çətin bitişir.
İtik fil də olsa bir ələ düşür,
İtirən yüz yerə güman aparır.

Ümid üzülməmiş salma ahu-zar,
Dünyada hər işin öz məqamı var.
Dağları da yarır coşanda çaylar,
Baxma durulanda saman aparır.

Aylar nə tez keçir, dəyişir fəsil,
Quş tək qanadlıdı elə bil ki, il.
Ay Pənah, hər anın qiymətini bil,
Dünyada hər mərci zaman aparır.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

QARDAŞ

Qardaş, bacı üçün canından keçər,
Onların qeydinə qalandı qardaş.
Hansının gözündə görünsə kədər,
Görərsən odlara qalandı qardaş.

Heç zaman çəkilib dayanmaz gendə,
Təhlükə gözlənsə dayanar öndə.
Qardaşın, bacının yaman günündə,
Sanırsan söküldü, talandı qardaş.

Gün gələr olarlar əmi, ya dayı,
Şirin səslənirsə deyil havayı.
Bir kənarda qalsın hər haqqı-sayı,
Yeri gəlsə ata olandı qardaş.

Xüsusən əzizdi bacının səsi,
Qışı yaz eyləyir axı nəfəsi.
Onların dalınca pis baxan kəsi
Şahmar tək gözündən çalandı qardaş.

Pənah, piyalənə calansa zəhər,
Ömrünə açılsa tutqun bir səhər,
Dadına birinci yetməsə əgər,
Keçməsin könlündən, - yalandı qardaş!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

QOY

Fəxr edirəm dönüb geri baxanda,
Ad çıxarıb, ellər içrə elimiz.
Nizamili, Fizulili keçibdi,
Şəfəq saçır neçə-neçə ilimiz.

Yer üzündə birincidi, əzəldi, -
O, təcnisdi, o, qoşmadı, qəzəldi.
Aman Allah, gör necə də gözəldi,
Bulaq kimi durulubdu dilimiz.

Unutmasın qananlar da, naşı da,
Canlandırır adi qara daşı da.
Qılıncı da, qələmi də, xışı da
Məharətlə işlədibdi əlimiz.

Lakin bu gün çoxlarından daldayıq,
Hara baxsan ancaq yarı yoldayıq.
Öz-özüylə elə qüli-qaldayıq,
Pas atıbdı külüngümüz, belimiz.

Qoy gül açsın sinəmdəki arzular,
Qoy çağlasın ayna gözlü bulaqlar.
Pənah, ötsün ömrümüzdən boran, qar,
Əvvəlki tək qoy kükrəsin selimiz!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ƏCƏL, GƏL

Gözüm nə görmədi qoca dünyada,
Çəkdim zillətini, bəsdi, əcəl, gəl!
Hər kim aqildisə yazılır oda,
Könül bu fərmandan küsdü, əcəl, gəl!

Səadət deyilən çıxırmış daşdan,
Soraq da almadım bu axtarışdan.
Yaz, yay nə verdi ki, nə gələ qışdan,
Onun buz nəfəsi əsdi, əcəl, gəl!

Həyat dedikləri təzad, əsrar, sirr,
Səməndər quşuna nə gərək qəbir?!
Tükəndi dəyanət, tükəndi səbir,
Əzəldən taleyim nəsdi, əcəl, gəl!

Nə üçün boylanım gələn sabaha,
Könlüm gözəllərdən küsübdü daha.
Söz dedim, kəlməsi qızıldan baha,
Dedilər dəmirdi, misdi, əcəl, gəl!

Şöhrətim, mənsəbim, malım nə gəzir?
Ay Pənah, yaşılım, alım nə gəzir?
Zildən səsləməyə halım nə gəzir,
İncimə, çağrışım pəsdi, əcəl, gəl!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

MƏNİM

Mənə əziz kim var bütün dünyada,
Soruşsan, birinci sayımsan mənim.
Ürəyimnən qopan ən şirin səda,
Həyatda yeganə tayımsan mənim.

Özüm, sözüm, qəlbim, arzum, gümanım,
Sevincim, kədərim, ahım, amanım,
Yerim, göyüm, dağım, düzüm, ümmanım,
Şəlaləm, bulağım, çayımsan mənim.

Sevdamsan, eşqimsən, məhəbbətimsən,
Mənliyim, vüqarım, dəyanətimsən.
Yaxınsan, deməli, səadətimsən,
Uzaqsan, - ahımsan, vayımsan mənim.

Şöhrət gözləmədim, var gözləmədim,
Özgə bağdan heyva, nar gözləmədim,
Gündə bir nazənin yar gözləmədim,
İzlədiyim təkcə payımsan mənim.

Pənaham, qəlbimdə odum, atəşim,
Bu günkü, sabahkı hər yaxşı işim,
Gündüz göylərdəki təkcə Günəşim,
Gecə bəxt ulduzum, Ayımsan mənim.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

MƏN

Elə düşmüşəm ki, eşqin oduna,
Ömrün sonunacan yanasıyam mən.
Bircə an salmasan əgər yadına,
Hicran sazağında donasıyam mən.

Könlün özgəsinin sonası olsa,
Məni xəyal kimi anası olsa,
Fələk də eşqimi danası olsa,
Yenə onu doğrü sanasıyam mən.

Sənli keçən günlər ömrümü bəzər,
Min ömrə bəs edər o xatirələr.
Əbədi qalacaq şirin, təzə-tər,
Çünki hər anını anasıyam mən.

Könlüm gör nə qədər dözmüşəm desə,
Bəsdir bir bu qədər gəzmişəm desə,
Daha ümidimi üzmüşəm desə
Onun özünü də danasıyam mən.

Ay Pənah, de gəlsin nə varsa canda:
Qılınc pas atacaq qalarsa qında.
Belə nəğmələrin qanadlarında,
Eşqin zirvəsinə qonasıyam mən.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

OLDUN

Daha mümkün deyil unudum səni,
Qəlbimdə əbədi qalası oldun.
Həyata min tellə bağlayan məni,
Sən özün, tək özün olası oldun.

Gəlişin oyatdı min ülvi dilək,
Əsdi varlığıma sağlam bir külək.
Xaraba bildiyim, ay nazlı mələk,
Könlümün alınmaz qalası oldun.

Hicranın, həcrətin, vüsalın ilə,
Abır, həya, ismət, kamalın ilə,
Özün gedər olsan, xəyalın ilə
Könül rübabımı çalası oldun.

Əsla özgəsinə baxa bilməzsən,
Azad sular kimi axa bilməzsən.
Daha cəzibəmnən çıxa bilməzsən,
Yolunu bizlərdən salası oldun.

Ram etdin Pənahın şah vüqarın da,
Qul kimi dayandı ixtiyarında.
Ömrünün əbədi sonbaharında
Xəzan tanımayan lalası oldun.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

KÖNLÜM

Elə ki, sən gəldin, sanki bir anda
Min illik uyğudan oyandı könlüm.
Göy qurşağı nədi onun yanında,
Bəlkə də min rəngə boyandı könlüm.

Məcnun eşqə düşdü, çöllər dolandı.
Kərəm mə'şəl kimi alışdı, yandı,
Yazıq Sənan dini, imanı dandı,
Bilirəm ki, sənə əyandı, könlüm!

Bilir ki, hicrana meyil salacaq,
Bilir ki, vüsala həsrət qalacaq,
Bilir ki, nəsibi əzab olacaq, -
Bunları səadət sayandı könlüm.

Sevgidi aşiqə şöhrət də, şan da,
Nahaqdan gözləmə yoxdusa qanda.
Məhəbbət yaşasın deyə cahanda,
Onun cəfasında dayandı könlüm.

Nə yaxşı ki, gəldin, ay nazlı nigar,
Gətirdin Pənaha həsrət, intizar.
Sevdasız bir ömrün nə mənası var,
Həyatı onunla duyandı könlüm.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

BAHARDA

Dünya cana gələr, varlıq oyanar,
Min cürə möcüzə bitər baharda.
Yalçın qayalar da əlvan boyanar,
Gül açar, yol, çığır itər baharda.

İlim-ilim itər şaxta, boran, qar,
Hər gələn baharın öz camalı var.
Qayıdar qurbətdən köçəri quşlar,
Gətirər həyatdan xəbər baharda.

Bülbülün şərqisi ərşə yüksələr,
Hər bulaq bir cürə zümzümə elər.
Meh gələr, yarpaqlar nəğmə bəstələr,
Hər tərəf dil açar, ötər baharda.

Çiçəklər elə bil deyir, dayan, dur,
Şe'rinə, nəğmənə belə rənglər vur.
Ana yurda sevgim birə-min olur,
Gəzirəm Məcnundan betər baharda.

Buludlar bir anda kükrəyib gələr,
Dağlara, düzlərə incilər ələr.
Yağış dayanmamış Günəş nur çilər,
Günlər xəyal kimi ötər baharda.

Dayandırmaq istər könül hər anı,
Qucaqlamaq dilər bütün dünyanı.
Qardaş hesab edər insan insanı,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bəşər kamilliyə yetər baharda.

Aşiq gecə-gündüz yarı əzizlər,
Dil insafa gələr, baxışar gözlər.
Daha rəvan olar, birləşər izlər,
Hicranın şahlığı bitər baharda.

Bu bahar özgədi, mən də göyərdim,
Əridi qar kimi, bir qaldı dərdim.
Ay insafsız, yola gəlsən deyərdim,
Mənə gələ bilməz xətər baharda.

Gərək çiçəklənsin yazda eşqin, ə,
Bahara yadların, Pənah, eşqi nə?!
Baharın eşqinə, yarın eşqinə
Yarat yaz nəfəsli əsər baharda.

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

DURMA GƏL

Bahar gəlib, al ovundur qəlbimi,
Sərvinazım, mehribanın, durma, gəl!
Aylar, illər keçib gedir yel kimi,
Ömürdəndi sənli anım, durma, gəl!

Hansı ömrə gülməyibsə məhəbbət,
Başdan başa məşəqqətdi, məşəqqət.
Sənsiz keçib gedən deyil bu zülmət,
Söküləsi deyil danım, durma, gəl!

Gəl ki, ömrə təkçə hicran dolmasın,
Diləklərim açılmamış solmasın.
İnsaf elə gözüm yolda qalmasın,
Son ümidim, son gümanım, durma, gəl!

Sənsiz nədir ömür, həyat bilmərəm,
Aləm gülər, bircə dəfə gülmərəm.
Hicranına min il yansam ölmərəm,
Qəlbim, eşqim, ruhum, canım, durma, gəl!

Gecə-gündüz xəyalınla qalmışam,
Bəs deyilmi ona mehir salmışam?!
Eşqin ilə şair Pənah olmuşam,
Səninkidir adım-sanım, durma, gəl!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

TALEYİM

Ay gözəl, taleyim bəllidi mənə, -
Onu alovlara yazdıracaqsan.
Məcnundan beş artıq olsam da, yenə
Hicran çöllərində azdıracaqsan.

Çox güddüm fələyi, görmədim qəti,
Bir qədirbilənə yaza afəti.
Əzəldən gözəlin budur qısməti,
Bir əğyar könlünü qızdıracaqsan

Pənah Göyçə elə vurğundu sənə,
Dönüb Səməndərə, münkünmü sönə?!
Bu qədər ki, əzab verirsən mənə,
Qəbrimi özümə qazdıracaqsan.

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

APARA BİLMƏZ

Sərdar sərdar olsa el sərvətini,
Yağı kimdi, sel də apara bilməz.
Sərdar, sərdar ol ki, el töhmətini,
Nər nədi, heç fil də apara bilməz.

Onlardı irəli sürən bəşəri, -
Onlara bağlıdı elin hünəri.
Bir səhv addımından gələn zərəri,
Həftə, ay yox, il də apara bilməz.

Sərdardı, ellərin şöhrəti, şanı, -
Gərək təmiz olsun onun vicdanı.
Nahaqdan tökdüyü bir damla qanı,
Pənah Göyçə, göl də apara bilməz.

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

BU AXŞAM

Xəyalım göylərdən qayıtdı geri,
Cənnətin qoynuna endi bu axşam.
Kaş yaza biləydim mən o hissləri,
Həyat şirin idi, şəndi o axşam.

Nə dərdim vardısa atdım elə bil,
Şəkərə, noğula batdım elə bil.
Ən şirin arzuma çatdım elə bil, -
Könlüm köhlənini mindi bu axşam.

Görən sağalardı, düşsə nə dərdə,
Ay Pənah, ağ saçlar azaldı sərdə.
Elə şirin lisan olmaz bəşərdə, -
Üç mələk, üç pəri dindi bu axşam.

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

AYRI

Gənc şairə ÜLVİNİN eyni adlı qoşmasına nəzirə

Ah, eşqin işləyir iliyə, qana,
Gözlərim qaldıqca gözlərdən ayrı.
Eşqiylə ucalıb Məcnun olana
Özgə nə düşəcək düzlərdən ayrı?!

Hicran məni buz tək dondurur, olsun!
Eşqin alov olub yandırır, olsun!
Taleyim Kərəmi andırır, olsun, -
Nə diləyim var ki, közlərdən ayrı?!

Aşiqlər gen düşür səyyarələr tək,
Onları yaşadır arzu, xoş dilək.
Ümid də yoxdu ki, bir gün o mələk
Bir xoş söz deyəcək «döz»lərdən ayrı.

Coşan Xəzri deyil, mənim ahımdı, -
Eşqim əyan oldu, bu günahımdı!
Keçdiyin çığırlar səçdəgahımdı,
Özgə qibləm yoxdu izlərdən ayrı.

Belə yazılsa da sevgi, məhəbbət,
Eşq olsun bu ülvi duyğuna, xilqət!
Pənah, Pənah Göyçə olmazdı əlbət,
Əgər düşməsəydi sizlərdən ayrı.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

NECƏ GƏLMƏSİN

Həyatda hər kəsin öz yeri vardır,
Qartal asimana necə gəlməsin?!
Namərdin hər işdə meydanı dardı,
Mərdlər imtahana necə gəlməsin?!

O gözlər daşı da dərdə salandı,
Bircə yol görən də oda qalandı.
Qaşlar kaman kimi hazır dayandı,
Ox kipriklər qana necə gəlməsin?!

Hələ heç kim sənə qonaq qalmayıb,
Baxışın kimsəni yola salmayıb.
Heç olmasa quru və'də almayıb,
Aşiqlərin cana necə gəlməsin?!

Adına gül-çiçək əkirəmsə mən,
Fərağından qan-yaş tökürəmsə mən,
Qəhrini ləzzətlə çəkirəmsə mən
Hər dərdin bu cana necə gəlməsin?!

Aşiqi çöllərə salsa da sevgi,
Tamam ixtiyarın alsa da sevgi,
Yalnız hicran, həsrət olsa da sevgi
Pənah o meydana necə gəlməsin?!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

BU AXŞAM

Gün hardan çıxdı ki, o nazlı mələk
Sallanıb bizlərə gəldi bu axşam,
İpək yaylığıyla, gülümsəyərək
Sevinc yaşlarımı sildi bu axşam.

Baxıb gözlərimə o incə xilqət,
Verdi göylər qədər, sonsuz səadət.
Uzaqlaşdı möhnət, gəldi məhəbbət,
Ayrılığı tamam sildi bu axşam.

Oxşadım saçını, gəzəblənmədi,
Durub qucaqladım, əsla dinmədi.
Öpdüm, cin atına yenə minmədi,
Mehriban-mehriban güldü bu axşam.

Əllərim bağında olmuşdu bağban,
Min ömrə dəyərdi ötən hər bir an.
Dünyanın səadət payını, canan,
Mənimlə tən yarı böldü bu axşam.

Bir şirin qəhqəhə çəkincə o yar,
Ayılıb gördüm ki, yuxudu bunlar.
Uyğuda da olsa, nataraz əğyar,
Ay Pənah, həsəddən öldü bu axşam

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ŞİRİNDİ

Yarın təbəssümü qaynadır qanı,
Ariflər bilir ki, baldan şirindi.
Axtar yer üzünü, elə şey hanı
Aşiqlər desin ki, xaldan şirindi.

Səni görən gündən gündə min dönə
Tapındım eşq adlı o böyük dinə.
Sevgilim, nə olsa yaraşır sənə,
Boz geysən yaşıldan, aldan şirindi.

Aşiqə yad olsa yarının üzü,
Dolanar dağları, dolaşar düzü.
Pənah necə desin yadın «can» sözü
Sənlə olan qeylü-qaldan şirindi.

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

XALLI QIZ

Nə böyük səadət, ey pərvərdigar,
Dönüb mən tərəfə baxdı xallı qız.
Qayıtdı könlümə gülüzlü bahar,
Onu eşq oduna yaxdı xallı qız.

Get, dedi, təklik tək könül dağıma,
Hərarət gətirdi can otağıma.
Mənim xəzan almış ömür bağıma
Bahar günəşi tək çıxdı xallı qız.

Deyirsən, mələkdi, doğmayıb ana,
Güllər, çiçəklər də vurulur ona.
Qəlbimlə yanaşı bütün cahana
Şirin nəğmə kimi axdı xallı qız.

Min illik uyğudan oyandı könlüm,
Məhəbbət nuruna boyandı könlüm.
Sonra xəcil-xəcil dayandı könlüm,
Bir duyğu Pənahı sıxdı, xallı qız!...

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

SƏNLƏDİ

Səninlə ömrümə gəldi məhəbbət,
Damarımda axan qanım sənlədi.
Onsuz nə bilərdim nədir səadət, -
Hər günüm sənlədi, anım sənlədi.

O gün ki, qəlbimdə tapmışam səni,
Sürgün eləmişəm qəmi, qüssəni.
Dedin filan yerdə görüblər məni,
Yəqin kölgəm imiş, canım sənlədi.

Pənaha qibləsən, çətin çaşaram,
Önümə dağ çıxsa quş tək aşaram.
Neçə ki yaşarsan, mən də yaşaram,
Sökülən hər qızıl danım sənlədi.

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

SEVGİDİ

Saysızdı ürəyin hissi, duyğusu,
Ən şirin duyğunun adı sevgidi.
Odur hər xilqətin ilkin arzusu,
Həyatın ləzzəti, dadı sevgidi.

Onunla saflanıb bəşərin qanı,
Onsuz keçə bilməz dünya bir anı.
Tapıb bütöv edən iki paranı,
Dost yazan uzağı, yadı sevgidi.

Onsuz qaynamazdı qəlbində qanı,
Onsuz tanınmazdı adı, ünvanı.
Olmazdı bir qətrə şöhrəti, şanı,
Pənahın alovu, odu sevgidi.

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

OLAR, OLMAZ

İllərlə gözləyib görüş alanda
Aşiqin göz yaşı sel olar, olmaz?
Gəlməyinə ümid tükənən anda
Hər bir anı dönüb il olar, olmaz?

Məhəbbət naminə ömür sürənin,
Pərvanələr kimi oda girənin,
Əğyarı yar ilə yaxın görənin
Məskəni biyaban, çöl olar, olmaz?

Ay Pənah, varlığı talan aşiqə,
Həsrətdən çiçək tək solan aşiqə,
Daim «get» çavabı alan aşiqə
Heç olmasa bir yol «gəl» olar, olmaz?

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

DAĞLARI

Çalxandı buludlar, hönkürdü göylər,
Qərq etdi yağışa, selə dağları.
Sonra Günəş çıxdı saçaqları zər,
Bələdi çiçəyə, gülə dağları.

Açdı qucağını, sanki, bir ana,
Körpə uşaq kimi sığındım ona.
Elə bil yenidən gəldim cahana,
Heç vaxt görməmişdim belə, dağları.

Kamil qurulubdu əzəldən cahan,
Özünə görə də gözəldi hər yan.
Ancaq, xoş günündə böyük Yaradan
Edib gözəliklə silə, dağları.

Xalı tək sərilib min cür gül, çiçək,
Bir-birindən incə, təzə-tər, göyçək.
Ay rəssam qardaşım, gəl yazaq, çəkək,
Layiqincə salaq dilə, dağları.

Necə çalışsa da qələm, fırça, dil,
Yenə bu cənnətin təsviri deyil.
Pənah, oğul odur hər il, hər fəsil
Başdan başa gəzə, gələ dağları.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

AZAD OLDU

Şükür kərəminə, ey pərvərdigar,
Vətən azad oldu, el azad oldu.
Gəldi yurdumuza əbədi bahar,
Bülbül azad oldu, gül azad oldu.

Odur, əzəmətlə dalğalanaraq
İrəli səsləyir üçrəngli bayraq.
Qırıb bəndlərini şaraqhaşaraq
Ayaq azad oldu, əl azad oldu.

Zəncir görməyəcək bir də biləklər,
Azad əsəcəkdir daha küləklər.
Çıxdı sıxıntıdan ülvi diləklər,
Mizrab azad oldu, tel azad oldu.

Dustaq edilmişdi əməyin özü,
Odur ki, heç kimin gülmürdü üzü.
Yenidən həyata qaytarır bizi,
Külüng azad oldu, bel azad oldu.

O qədər böyükdü xöşbəxtiyimiz,
Dərk edə bilmirik birdən-birə biz.
Ay Pənah, əsarət yox oldu, şəksiz,
Dodaq azad oldu, dil azad oldu.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

AYRILIQ

Gəlib yetişibdi ömrün payızı,
Onu da vüsalla bölmə, ayrılıq!
Ömrün çoxu ötüb, qalıbdı azı,
Daha aralığa gəlmə, ayrılıq!

İllər yel tək ötdü, onu duymadıq.
Ötən gün qayıtmaz, əsla saymadıq.
Ay nədi, illərə qiymət qoymadıq,
Gülmə üstümüzə, gülmə, ayrılıq!

O, gözləri ala, yanaqları al
Sayəndə olubdu əlçatmaz xəyal.
Sonbahar tükənir, qoy gəlsin vüsal,
Onu yerli-dibli silmə, ayrılıq!

Tutursan qolundan qəmin, qüssənin,
Məgər heç insafın yoxdurmu sənin?
Ömür xalısında hər bir sevənin
Olursan ən zəngin ilmə, ayrılıq!

Döydüyün qapıda fəryad aman, ah;
Gör gündə edirsən nə qədər günah.
Səni xar edəcək cahanda Pənah,
Onu elə fağır bilmə, ayrılıq!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

GÖZƏL

Dünən bir qız gördüm Qumlu bulaqda,
Barmaqları şümşad, əlləri gözəl.
Sanki qənd əzilib dildə, dodaqda,
Lisanı şipşirin, dilləri gözəl.

Şeyda bülbül kimi coşaram hər gün,
Camalına nəğmə qoşaram hər gün.
Onun eşqi ilə yaşaram hər gün,
Fəsilləri əziz, illəri gözəl.

Elə ki tanıdım o gül çöhrəni,
Qovdum bir dəfəlik qəmi, qüssəni.
Etdi bağçasının bağbanı məni,
Çiçəkləri əlvan, gülləri gözəl.

Pənah, belə asan gəlsə səadət,
Başdan-başa xöşbəxt olardı xilqət;
Yuxuda görmüşəm belə bir afət,
Salamı mehriban, «gəl»ləri gözəl.

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

GƏLMƏDİ

Başına döndüyüm, qurban olduğum
Gün keçdi, görüşə yenə gəlmədi.
Acı hicranından gül tək solduğum,
Axı söz vermişdi mənə, gəlmədi.

Elə ki yar gəlir, güllər al olur,
Həyat şirinləşir, sanki bal olur.
Onsuz hər tərəfdə qilü-qal olur,
Az qalır Günəş də sönə, gəlmədi.

Həyat məhəbbətsiz duyula bilməz,
Pənah hər gözələ suyula bilməz.
Bu gün də ömürdən sayıla bilməz,
Axı yar imana, dinə gəlmədi.

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

NECƏ HEYRAN OLMAYIM

Qoşa bəxt ulduzu edib yaradan,
Gözlərinə necə heyran olmayım?!
Daşa xitab etsə dillənər o an,
Sözlərinə necə heyran olmayım?!

O, elə gözəldi, lalə yanaqdı,
Can qurban eləsəm yeridi, haqdı.
Mərmərdimi, Allah, yoxsa quymaqdı,
Dizlərinə necə heyran olmayım?!

Ürəyimdə durur yaradanla tən,
Onsuz qara geyər bu çöl, bu çəmən.
Oduna yanandan yaşayıram mən,
Közlərinə necə heyran olmayım?!

Quşlar nəğməsini ona oxuyur,
Çiçəklər adına xalı toxuyur.
Məhəbbət qoxuyur, sevgi qoxuyur,
İzlərinə necə heyran olmayım?!

İllərlə qapıda saxlayır məni,
Sinəmnən çal-çarpaz dağlayır məni.
Gör həyata necə bağlayır məni,
«Döz»lərinə necə heyran olmayım?!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

BİLMƏZ

Mən ki onu bir bu qədər sevirəm,
O, bundan xəbərdar olmaya biməz.
Əğyar sanmasın ki, hədər sevirəm,
Ədalət yerini almaya bilməz.

Deyirlər bir vurur sevən könüllər;
Bülbüllər oxuyur, açılır güllər.
Buna şübhə yox ki, o saçı ənbər
Mənə mehman olub qalmaya bilməz.

Bir gün əl edəcək can otağından,
İncilər saçacaq gül dodağından.
Busə verən zaman al yanağından
Qolunu boynuma salmaya bilməz.

Məhəbbət ucalıq gətirir bizə;
Bəşər çox borcludu o ülvi sözə.
Demək, yar mənimlə durub diz-dizə
Şirin xəyallara dalmaya bilməz.

Sevgi o şeydir ki, o, qanda olsa,
Tapacaq tayını hayanda olsa.
Deməli, ay Pənah, bir an da olsa
Vüsal təbilini çalmaya bilməz.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

DEMƏSƏN DƏ

Mən necə yanıram, necə desin dil,
Səngiməz odlara köz deməsən də.
Sinəmdəki dağlar sağalan deyil,
Sən saya salmayıb iz deməsən də.

Ömrümün son günü, olsa da bir dəm,
Taki səni görüm talansın bu qəm;
Demək, ömür boyu izləyəsiyəm,
Arxamca kölgə tək gəz, deməsən də.

Axı hansı iblis nə deyib sənə,
Pənahı nəzərdən salmısan yenə.
Bil ki, dözəsiyəm hər cür zülmünə,
Sən bircə yol qıyıb «döz» deməsən də.

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

DEDİ MƏNƏ

- Əsil aşiqlərə yad olur vüsal,
Sən də yaddaşından sil, - dedi mənə.
- Alır hicran, həsrət, çəkir qeylü-qal,
Bunu qabaqcadan bil, - dedi mənə.

- Əgər eşqə könül verirsənsə sən,
Bil ki, pərvanəyə olmalısan tən.
Bütün ömrün boyu inləyəcəksən,
Nədir ki ay, fəsil, il, - dedi mənə.

- Gözlərinin yaşı çay ola bilsən,
Həsrətdən qaməti yay ola bilsən,
Sən'ana, Məcnuna tay ola bilsən
Yerindi biyaban, çöl, - dedi mənə.

- Qolumu boynuna salan deyiləm,
Bir günlük də qonaq qalan deyiləm,
Bircə an da sənin olan deyiləm,
İstəyir lap yıxıl öl, - dedi mənə.

Zalım nə demişdi elə də etdi,
Zəhmətim puç oldu, əməyim itdi.
Ömrüm həsrət adlı zülümdə bitdi,
Ay Pənah, görmədim, «gəl», dedi mənə.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

AY BƏNÖVŞƏ

Mən də boyun əydim acı hicrana,
Gəldi taleyimiz tən, ay bənövşə!
Yarın camalını gördüm bir ana,
Çulğadı başımı çən, ay bənövşə!

Beş gündə, elə bil düşmüsən selə,
Yanıb qaralmısan, dönmüsən külə.
Mən necə dözmüşəm bu qədər ilə,
Bəlkə dəmirdənəm, mən, ay bənövşə?!

Odur, gəl-gəl deyir yenə çöl, çəmən,
Sən tək boynu bükük dayanmışam mən.
Eh, nələr çəkirəm həsrət əlindən,
Tək sən anlayarsan, sən, ay bənövşə!

Yox, min ömrüm olsa belə yaşardım,
Pənaham, hicrana nəğmə qoşardım.
Yarın sorağıyla dağlar aşardım,
Salsa da saçıma dən, ay bənövşə!

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

BİRCƏ ANLIQ

Haqqa da xoş gələr, ay sərvinazım,
İnsafa, mürvətə gəl bircə alıq.
Bu günəcən kimsə çəkməyib nazım,
Könlümdən qübarı sil bircə anlıq.

Məni qonaq elə buxaqda xala,
Gözdə təbəssümə, dodaqda bala.
Savab qazanarsan, yetir vüsala,
Həsrətlinlə danış, gül bircə anlıq.

Məni Mən eləyən məhəbbətimdi,
Ona dünya boyda sədaqətimdi.
Varlığın ən böyük səadətimdi,
Gəl, onu Pənahla böl bircə anlıq.

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

OLUM, OLMAYIM

Sevmək yaşamaqdı şəksiz, şübhəsiz,
Mən sənin heyranın olum, olmayım?
Tanrı istəyiylə rast gəlmişik biz,
Eşqin rübabını çalım, çalmayım?

Belə xəlq olubdu hər nazlı sona,
Aşiq inlədikcə xoş gəlir ona.
Vəslə ümid yoxdu, qalsın bir yana,
Şirin xəyallara dalım, dalmayım?

Hicran, həsrət buzu billəm, əriməz,
Bəxtim bərk yatıbdı, durub yeriməz.
Əlim ələ dəysə, ölsəm çürüməz,
Qolumu boynuna salım, salmayım?

Könlüm həsrət çəkir əsmər üzünə,
Qumru avazına, şəkər sözünə.
Bəlkə təsadüfən dəyəm gözünə,
Düşüb yollarında qalım, qalmayım?

Pənaha nəzər sal, ay nazlı xanım,
Tutsun bu dünyanı şöhrətim, şanım.
Yoxsa batar Ayım, sökülməz danım, -
Dərilmiş çiçək tək solum, solmayım?

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

MƏRD OLAQ

Dostum Ələkbərə

Bu dünyada çalış üzü ağ dolan,
Cavabdehdi hər bir oğul özünə.
El dərdinə gizli alış, gizli yan,
Nə eləsən yaxın qoyma sözünə.

Mərd oğluyuq, gərək yenə mərd olaq,
Yad gözlərə bıçaq olaq, dərd olaq.
Sərt olana ondan yüz qat sərt olaq;
Hər bir işdə çəkməliyik düzünə.

Bu işlərə, şəksiz, nəzər qoyan var,
Onsuz olmaz, silkin qardaş, oyan, var.
Sən haqq danış, haqq tərəfdə dayan, var,
Bax Pənaha, döyməyəsən dizinə.

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

NECƏ ŞİRİNDİ

Hər gün vuruluram ona yenidən,
Sallanıb gələn yar necə şirindi!
Nazını çəkməkdən doyarammı mən,
Duyduğum intizar necə şirindi!

Sürmənin öz adı, xalın öz yeri,
Bibərin öz dadı, balın öz yeri,
Yaşılın öz yeri, alın öz yeri,
Tükənməz duyğular necə şirindi!

Çallı Çalmalının qaşına qurban,
Torpağına qurban, daşına qurban,
O qarlı, boranlı qışına qurban,
Ah, orda ilk bahar necə şirindi!

Bilsin bütün dünya, eşitsin vətən,
Eşqə nəğmə deyən bir bülbüləm mən.
Sərvət yığan yazıq bilirmi görən
Məhəbbət adlı var necə şirindi!

Hər dəfə bulaq tək çağlayanda saz,
Qış dönüb Pənaha olasıdı yaz.
Yox, yox, bircə an da ayrılmaq olmaz,
Bu müqəddəs diyar necə şirindi!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

YENƏ

Çoxdan yaşayırdım dərdsiz, qayğısız,
Könlüm uyğusundan oyandı yenə.
Bircə dəfə dönüb baxmaqla o qız,
Dünyam al şəfəqə boyandı yenə.

Necə də şirindi sevgi, məhəbbət,
Nə qədər bədbəxtdi sevmirsə xilqət.
Ruhumu çulğadı o ülvi niyyət,
Sanıram ki, zaman dayandı yenə.

Deyirdim ki, bəsdi, sevmərəm daha,
Sirr deyil, əyandı böyük Allaha.
Əmrə boyun əymək qalır Pənaha,
Yaxşı ki, fələklər sayandı yenə.

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

GƏRƏK

Hansı bir iş üçün yönəlsə əlin,
Əvvəl Yaradanı anasan gərək.
Haqqı ödənilir hər bir əməlin,
Bu sadə hikməti qanasan gərək.

Gülün tikanları didməyib xarı,
Odur ki, cılızdı əhdi, ilqarı.
Duya bilmək üçün güllü baharı,
Qışın şaxtasında donasan gərək.

Azadlıq, demişik neçə qərinə,
Çəkib həsrətini nə qədər sinə.
Canında bir qətrə od qalsa, yenə
Onun eşqi ilə yanasan gərək.

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

GƏLMƏDƏDİR

Düşünürdüm ki, daha bitdi dözüm,
Gördüm o nurlu zaman gəlmədədir.
O ala gözlərə həsrətli gözüm,
Sevinc selində çimib gülmədədir.

Bu yana döndərib ay üzü yarım,
Şəkərlə bala tutub sözü yarım.
İnsafa gəlib, odur, özü yarım
Vüsalından mənə pay bölmədədir.

Busə də verdi yarım, bircə dənə,
Bir ömür bəs edəcək, sanma sönə.
Ay Pənah, gördü bunu, çətin dinə,
Nadan əğyar gəbərir, ölmədədir.

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

HƏSRƏTLİSİYƏM

Get, get, söyləmisən hər dəfə mənə,
Mənsə gəllərinin həsrətlisiyəm.
Acı da dindirsən əzizsən, ancaq,
Şirin dillərinin həsrətlisiyəm.

Günümü ömürlük etsən də qara,
Sadiq qalasıyam əhdə, ilqara.
Bir gün məni çəkər olsa da dara,
Qara tellərinin həsrətlisiyəm.

Çövrünü çəkmək də mənə şəkər, bal;
Odur ki, demirəm, gəl canımı al.
Yanağın, buxağın xəyaldır, xəyal,
Şümşad əllərinin həsrətlisiyəm.

Həsrətin gözümdən axıdır qanı,
Beləmi adlasın ömrün hər anı?
Mənə tuş olsa da təkcə tikanı,
Yenə güllərinin həsrətlisiyəm.

Eşqə könül verdin, Pənah, döz indi,
Aşiq o kəsdir ki, bunda mətindi.
Bu zülmə bir gün də dözmək çətindi,
Mənsə illərinin həsrətlisiyəm.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

BİLMƏRƏM

Eşqsiz ötən hər gün puçdu, hədərdi,
Mən onu ömürdən saya bilmərəm.
Əzabına dözmək əsil hünərdi,
Bircə an kənara qoya bilmərəm.

Könlümdə bir yolluq yurd saldın, ey yar,
Ömrüm xəzan bilməz bahardır, bahar.
Vəslinə can atır duyğusuz əğyar,
Mən belə istəyi duya bilmərəm.

Pənaha arzusan, diləksən, gülüm,
Bütün qəşənglərdən qəşəngsən, gülüm!
Ən zərif, ən gözəl çiçəksən, gülüm,
Əllərim quruyar, qıya bilmərəm.

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

BİLMƏRƏM

Məni yandırsa da səməndər kimi,
Eşqini başımdan ata bilmərəm.
Elə inləyir ki könlümün simi,
Nə gecə, nə gündüz yata bilmərəm.

Məhəbbət deyilən o sirrli xəyal,
Bir tərəfdən zəhər, bir tərəfdən bal;
Yarımçıq aşiqlər diləyər vüsal,
Mən ounun əlindən tuta bilmərəm.

Eşqə yad, həyata tam biganədi, -
Pənah eşq ucundan bir divanədi.
Bilmirəm könlümün istəyi nədi,
Odur ki, bir yana çata bilmərəm.

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

BİLMİRƏM

Gülüm, hərdən elə gəlir ki mənə,
Eşqinin Məcnunu ola bilmirəm.
Dözüb ayrılığın hər cəfasına,
Hicranla qol-boyun ola bilmirəm.

Vüsal ətir saçır müşg-ənbər kimi,
Çıxıram yoluna səfərbər kimi.
Daim yanmaq üçün Səməndər kimi,
Canımı odlara sala bilmirəm.

Gecəli-gündüzlü çəkməyirəm ah,
Cövründən yayınır, edirəm günah.
Çevrilib oluram bir özgə Pənah,
Özümü özümdən ala bilmirəm.

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

YENƏ

O baxış, o duruş, o qiyafədə
Yarım göz önündə dayandı yenə.
Könüldən könülə yol var deyirlər,
Məni yada saldı, Ay andı yenə.

Sevgi nəzər salsa hansı xilqətə,
Yer qalmaz qəlbində kinə, nifrətə.
Dünya gözlərimdə döndü cənnətə,
Aləm al şəfəqə boyandı yenə.

Daşlar da dil açdı, oxudu şən-şən,
Dağlardan dağılıb getdi duman, çən.
Ay Pənah, hər anı ömürdən edən
Zərrin duyğularım oyandı yenə.

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

1. DAYANARMI

Oğlum Abdulla əsgəri xidmətdə çox ağır xəstələndikdən sonra xəstəxanada yatarkən

Allah, kərəm eylə, verdiyin dərdə
Əriyər, qəlbimdə yağ dayanarmı?!
Minbir dərdli canım qalıbdı yerdə,
Hətta olsa belə sağ, dayanarmı?!

Bir oğul vermişdin əməli bahar,
Bəs niyə yazında yağdırırsan qar.
Bilməsin dərdimi yaxınlar, dostlar,
Dağa da demərəm, dağ dayanarmı?!

Göylərdə gəzirdi şair xəyalım,
Bir anda pozulub getdi cəlalım.
Qaralar geyindi yaşılım, alım,
Olsa bircə varaq ağ, dayanarmı?!

Özüm də bilmədən nə vaxtdan bəri,
Demə yaşamışam xöşbəxt illəri.
Belə ki, başlayıb xəzan yelləri,
Körpə bağça nədi, bağ dayanarmı?!

Sanırdım əbədi vermisən mənə,
Bahar selləri tək çağlayan sinə.
Əlac eləməsən əgər dərdinə
Pənah Göyçə bir də şax dayanarmı?!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

2. OĞUL

Bir an insaf elə, aç gözlərini,
Məni diri-diri yandırma, oğul!
İki il həsrətdə qoymusan məni,
İndi də bu sayaq dondurma, oğul!

Sən ki, od oğluydun, od parçasıydın,
Xəzan tanımayan gül butasıydın.
Bir nəslin həm oğlu, həm atasıydın,
Saralmış qönçəni andırma, oğul!

Ömrümə mayakdı ala gözlərin,
Dərdimə dərmandı şirin sözlərin.
Oyan ki, taqətdən düşür dizlərim,
Pənaha hər şeyi dandırma, oğul!

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

3. QALIBDI

Həkim, qurban olum, əl saxla bir an,
Mənim Məcnun balam darda qalıbdı.
Hələlik qoy qalsın o dava dərman,
Gör onun Leylisi harda qalıbdı.

Odur sağ qanadım, odur gümanım,
Odur bu dünyada şöhrətim, şanım.
Cismimdən quş kimi çıxıbdı canım,
Diz çöküb önündə, orda qalıbdı.

O, hələ yarı gül, yarı qönçədi,
Billur duyğuları teldən incədi.
Dünyada hər şeydən sevgi öncədi,
Deməli əlacı yarda qalıbdı.

Niyə peymanına gəlmir Afəti?
Onun pak eşqini bölmür Afəti?
Niyə bu halını bilmir Afəti,
Yoxsa meyli qonub xarda qalıbdı?

Ay Pənah, kim deyir solubdu dünya?
Kim deyir mə'nasız olubdu dünya?
İnanma yalanla dolubdu dünya,
Sevgi də, vəfa da, yar da qalıbdı.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

DİNLƏ, ÜRƏK!..

Hər yetən gözələ
Söz açma, dinmə.
Axı, məğrur idin,
Şahlıqdan enmə.

Könül! Beləsinə aşiq olunca,
Amansız odlara kaş qalanaydın.
Səni saymayana ürək açınca,
Toxunub daşlara parçalanaydın.

İnan ki, göylərdən ensən görərsən,
Əqlim, düşüncəmin qandalısan sən.
Layiqsən, həssassan, sevə bilirsən,
Bu sirri qanana arxalanaydın.

Hələ bir özünü haqlı sanırsan,
Gizli alışırsan, gizli yanırsan.
Saf bir məhəbbətdən alovlanırsan,
İstərəm nifrətdən çalxalanaydın.

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

EYLƏMİR

Məhəbbət adlanan o böyük əməl
İnsanı ucaldır, talan eyləmir.
Sevən ürəklərdə həmişə yazdı,
Həsrət, hicran onu al qan eyləmir.

Ruha qida, ürəklərə atəşdi,
Duyanlara ulduz, Aydı, Günəşdi.
İnsan deyil, insanlara yoldaşdı,
Ondan kənar yerdə cövlan eyləmir.

Fərqi yox şah olsun, ya da ki nökər,
Hamını bir cürə sınağa çəkər.
Yamanı tanımır o nazlı dilbər,
Yaxşıya dağ çəkir, yaman eyləmir.

İnsan yüz büdrəsə irəli baxar,
Bu sifət bəşərin xislətində var.
Pənah, qəm oduna olsa giriftar,
Nahaq yerə könül fəğan eyləmir.

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

GÖZLƏRİM

Gözlərini özlərində görəydi
Sənin yollarında qalan gözlərim.
Heç olmasa uzaqdan gül dərəydi,
Həsrətlə, hicranla dolan gözlərim.

Görsə ki, bülbül yox xar qonur bağa.
Az qalır bulud tək boşala, yağa.
Artıq yaxınları qovur uzağa.
Alıcı quş kimi alan gözlərim.

Ay Pənah, tərsinə işləyir zaman;
Anlamır nə dostu, nə yadı insan.
De necə sevinsin, olsa da bir an,
Yüz nakam şahidi olan gözlərim.

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ÜZÜNƏ

Bir gözəlin əsiriyəm mən indi,
Günəşdən nur, al çilənib üzünə.
Zalımın balası elə şirindi
Elə bil ki, bal çilənib üzünə.

İlahi, anlaya bilmirəm qəti;
Necə xəlq etmisən belə afəti,
Hər birisi bir gözəlin şöhrəti,
Neçə-neçə xal çilənib üzünə.

O seyrə çıxmasa çöl-çəmən gülməz,
Pənah ondan özgə səadət bilməz,
Dili söyləsə də məndən kənar gəz
Getmə, dayan, qal çilənib üzünə.

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

BƏLKƏ DƏ SƏNSƏN …

Ürək boşdu yaş ötsə də yarıdan,
Onun vəfadarı bəlkə də sənsən!?
Dəli könül rahat olmur bircə an,
İstədiyi yarı bəlkə də sənsən!?

Sanma gözüm hər çeşmədən su içir,
Öz tayını hey axtarır, hey seçir.
Neçə ildir ömrüm baharsız keçir,
Ömrümün baharı bəlkə də sənsən!?

Oğrun-oğrun gəl söyləyir gözlərin,
(Heyhat, ona uyğun gəlmir sözlərin).
Hara getsən çəkir məni izlərin,
Pənahın dildarı bəlkə də sənsən!

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

BİLMƏZ

Nəhayət ömrümə gəlibdi bahar,
Daha şaxta, dolu, çən düşə bilməz.
Ömrün hər anının öz aləmi var,
Sevinc də, kədər də tən düşə bilməz.

Can kəlməsi əksik olmur sözündə.
Sədaqətdir şölələnən gözündə.
Ən xöşbəxt insanam mən yer üzündə
Heç kəsin bəxtinə sən düşə bilməz.

Kədəri, möhnəti biz silməliydik,
Sevinci, şadlığı tən bölməliydik.
Gec-tez biz sənlə rast gəlməliydik
Pənah taleyindən gen düşə bilməz.

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

TƏZƏLƏNDİ

Sənin gəlişinlə ey nazlı sənəm
Dəyişdi, ömrümdə il təzələndi.
Başqa don geyindi gözümdə aləm,
Könül rübabımda tel təzələndi.

Oyatdın sinəmdə susmuş ilhamı,
Yenidən alışdı könlümün şamı.
Çin oldu qəlbimin hər arzu-kamı,
Nəğməm təzələndi, dil təzələndi.

İlhamım da təzə, sözüm də təzə,
Baxışım da təzə, gözüm də təzə,
Yenidən doğuldum, özüm də təzə,
Pənah təzələndi, bil təzələndi.

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

SƏN GƏLDİN

Sən gəldin, həyatım tamam dəyişdi;
Əzablı günlərim qaldı arxada.
Özüm də bilmirəm bu necə işdi,
Hər şey gözəlləşib sanki dünyada.

Baxıram, gözümdə kainat gülür,
Yarpaqlar necə xoş pıçıldaşırlar.
Göydən yer üzünə şəfəq süzülür,
Elə bil yadlar da doğmalaşırlar.

Könlümdən gündə bir şərqi yüksəlir.
Gözümdən getməyir surətin bir an.
Günlər bir-birindən daha xoş gəlir,
Şahnaz üzərində köklənib cahan.

Ömrümün olmazdı bircə xoş anı,
Könlüm varlığına vurulmasaydı.
Çoxdan dağılardı, qalmazdı cahan,
Məhəbbət üstündə qurulmasaydı.

Deyirlər ki, heç nə əbədi deyil;
Demirəm eşqimiz qoy belə qalsın.
İllərin üstünə qalandıqca il,
Durulsun, saflaşsın, daim ucalsın.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İNCƏSƏN

Zərif gözəl çoxdu bizim diyarda,
Bir dənə sən incələrdən incəsən.
Qayğısız bir kəpənəksən, mələksən,
Nur danəsən, incələrdən incəsən.

Aman allah, hər biri bir piyala,
Şəhla gözlər yaranıb ki, can ala.
Səni görsə daş da gedər xəyala,
Dürdanəsən, incələrdən incəsən.

Hər gələndə könlümə nur saçırsan,
Xəyalımda yeni dünya açırsan.
Yerimirsən gülüm, vallah uçursan,
Bir dənəsən, incələrdən incəsən.

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

NARIN–NARIN

Pənah, eşqə düşdün, bəxtin oyandı,
Alış narın-narın, yan narın-narın.
Ömrünə gün doğdu, əlvan boyandı,
Üfüq narın-narın, dan narın-narın.

Xöşbəxt varlıq varmı sevən can kimi!
Məhəbbətli günlər keçir an kimi.
Sən böyüt eşqini bir fidan kimi,
Səslə narın-narın, an narın-narın.

Al şəfəq çilənir arana, dağa,
Yeni həyat gəlir bağçaya, bağa.
Məhəbbətə dönür başdan ayağa
Ürək narın-narın, qan narın-narın.

Daha can evinə qoyma möhnəti,
Qardaşlığa çağır bütün xilqəti.
Hər cür yamanlığı, kini, nifrəti
Unut narın-narın, dan narın-narın.

Kim istəməz məhəbbətə qol qoya!
Xöşbəxt o kəsdi ki, dost onu duya.
Hardan gəlir, hara gedir bu dünya,
Düşün narın-narın, qan narın-narın.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

YAXIRSAN

Hara baxsam göz önündə sürətin;
Sən həm Günəş, həm də Ayla çıxırsan.
Ətrin gəlir sübh çağının mehindən,
Hər ulduzdan dönüb mənə baxırsan.

Sənsən gülşən edən çölü-çəməni,
Zirvələrə səsləyirsən sən məni.
Şəlalədən dinləyirəm nəğməni,
Ürəyimdə qanla birgə axırsan.

Yox kəlməsi əzbər olub dilində.
(Tikanı var axı qızılgülün də)
Məst oluram mən səadət gölündə,
Sən nə qədər yandırırsan, yaxırsan.

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İNANMA

Dedin ki, heç kəsə inam qalmayıb,
Könlüm üsyan edir; ona inanma!
Dönüklərdə heç vaxt vəfa olmayıb,
Lap Qurandan girə dona, inanma.

Nadan hardan bilsin məhəbbət nədir?!
Əhdə, sədaqətə tam biganədir.
Ona həyat özü bir əfsanədir,
Eşq oduna düşə, yana, inanma.

Həyatda məhəbbət yaşadır məni,
İnam və sədaqət yaşadır məni,
Sevimli bir xilqət yaşadır məni,
Qəlbim ondan dönə, dana, inanma.

Duyan ürəklərdə coşar məhəbbət.
Keçilməz sədləri aşar məhəbbət.
Pənah, həyat ki var yaşar məhəbbət,
Cılızlaşa, yetə sona, inanma.

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

AY QIZ

Şair doğulmadım, bilirəm qəti,
Bu günsə yazmaya bilmirəm, ay qız!
Sənə məhəbbəti, sənə həsrəti
Nəğməyə düzməyə bilmirəm, ay qız?

Ömrümün, günümün belə çağında,
İstədim tər töküm əmək bağında.
Surətin gözümdə, leyli dağında
Məcnun tək gəzməyə bilmirəm, ay qız!

Xəta dilinkidir, töhmət başadır.
Nifrətlə məhəbbət daim qoşadır.
Pənahı yenə də ümid yaşadır,
Onuncün dözməyə bilmirəm, ay qız!

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

XOŞDU

Çoxları qəlbimdə dolandı getdi,
Təkcə sənin adın dilimdə xoşdu.
Vəslinə yetməyə ümidim itdi,
Hərdən əlin olsun əlimdə, xoşdu.

Heç olmasa baxım uzaqdan sənə,
Qayıdaq yenə də o keçmiş günə.
Nə qədər bacarsan zülm elə mənə,
Xoşdu, səndən gələn zülüm də xoşdu.

Varaqla tarixi, keçmişi ara;
Ürəkdən sevənlər yetişmir yara.
Pənahı çəksələr saçından dara,
Qucağında tapsa ölüm də xoşdu.

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

GÜLÜM

Şəhla gözlərindən ayrı düşmüşəm,
Gün nədi, anları sanıram gülüm.
Nə qədər xoşbəxtəm, xoşbəxtəm ki mən,
Sənin atəşinlə yanıram gülüm.

Qayada kəkliyə, kolda turaca,
Əlvan çiçəklərə, yaşıl ağaca,
Coşqun dağ çayına, düzə, yamaca;
Hara baxsam, səni anıram gülüm.

Sevgidir yaşadan bütün xilqəti;
Onsuz həyat yoxdur, bilirəm qəti.
Mən sənsiz Günəşi, eşqi, nifrəti,
Bütün kainatı danıram, gülüm.

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

SƏNSİZLİKDƏN QURTAR

Sevincimi aparmısan özünlə
Sən gedəli danışmıram, gülmürəm.
Aylıq həsrətinə tapılmır tabım,
Qırx il necə yaşamışam, bilmirəm.

Kimə, bəxş eləsə ayrılıq, həsrət,
Həm də ona dözüm verir təbiət.
Səninçün ağlamaq özü səadət,
Eynim yaşı axıb gedir, silmirəm.

Hicran şərbətiylə doldurub camı,
Sızlatdın sinəmdə yenə ilhamı.
Min il də gəlməsən, görər ki hamı,
Gözləməkçin mən yolunu, ölmürəm.

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İLAHİ

Səba yeli xəbər verə bu səhər,
Deyə gəlir o sultanım, İlahi.
Könül piyaləmə əzilə şəkər,
Keçə gecəm, gülə danım, İlahi.

Hicran günlərini necə atım mən,
Alan da tapılmır müftə satım mən.
Heç olmasa yuxu gəlsin yatım mən,
Görüm gəlib din-imanım, İlahi.

Kim qurban olmazdı belə afətə,
Gözündə çağlayan mehrə, ülfətə.
Ya qovuşum, çatım mən səadətə,
Ya alışım, tamam yanım, İlahi.

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

HARDASAN

Kəklik gülüşünə həsrət qalmışam,
Bir görəydim ey dildarım, hardasan?
Bu kiçik əksinə mehir salmışam
Ay ilk sevdam, ilk nübarım, hardasan?

Olmasan da, yoxdur özgə təhərim,
Sənindədir hər açılan səhərim,
Yay və payız şirin barım, bəhərim,
Yazda gülüm, qışda qarım, hardasan?

Tək sənsən həmdəmim bu kainatda,
Sənsiz yoxdu gözüm toyda, büsatda.
Tez qayıt ki, nizam olsun həyatda
Mehribanım, nazlı yarım, hardasan?

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

OLMAZ

Neçə vaxtdır qayıtmısan səfərdən,
Gəlib köhnə dostu yoxlamaq olmaz?
Ömürlük vermişdim sənə qəlbimi,
Heç olmasa bir ay saxlamaq olmaz?

Deyirdin ömürdən bərabər keçək,
Əcəl şərbətini birlikdə içək.
Bir gün atılacaq dərilən çiçək,
Onu bircə yol da qoxlamaq olmaz?

Nadanlar anlamaz qəbahətini...
Canilər düşünməz cinayətini.
Ay Pənah, itirmə dəyanətini,
Dönük zərbəsindən laxlamaq olmaz!

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

OLAYDI

Canan gəlib göz önündə dayanıb,
İlahi, yuxusa doğru olaydı.
Bir anlıq görünüb, yüngülcə anıb,
Çıxıb getməyəydi, qonaq qalaydı.

Ağır düşüncələr qəlbimi əzir;
Axı sevə-sevə niyə gen gəzir?
Candan əziz nə var, canımdı nəzir,
Tanrı ürəyinə insaf salaydı.

Sevgidə ucalıq vardırsa nəsə,
Aşiqlər anlayar, düşməyin bəhsə.
Qalmayaydı canım can alan kəsə,
Ay Pənah, alaydı, canan alaydı.

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

YENİDƏN

Çəkişməsən bərkişməzsən deyiblər;
Gəl barışaq, deyək-gülək yenidən.
Bağça salaq çiçəkləri təzə, tər
Hicranın bağrını dələk yenidən.

Dil küsübdü, ta ki ürək küsməsin,
Qəlblərin bir döyünməsi kəsməsin.
Elə edək kükrəməsin, əsməsin
Aramızdan soyuq külək yenidən.

O gündən ki sənlə ülfət qatmışam,
Xəyal yetməz səadətə çatmışam.
Küsü nədi, yuxu imiş, yatmışam
Oyat məni, dilə gələk yenidən.

Sevinc sənin olsun, qəm mənim olsun,
Bütün sənin olsun, kəm mənim olsun,
Nəğmədə zil sənin, bəm mənim olsun
Hər şeyi bu sayaq bölək yenidən.

Əğyar itsin, daldalarda sürünsün.
Sonadək yolumuz qoşa görünsün.
Aydınlaşsın, al şəfəqə bürünsün,
Pənah, arzu, amal, dilək yenidən.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ƏLVİDA

Ucuz tutdun, sən bu eşqi əzəldən,
Sən ey mənim ruhum, canım, əlvida,
E'tibarı kim görübdü gözəldən,
Bu cahanım, o cahanım, əlvida.

İstəyinlə sən könlümə ad oldun,
Bil, ömürlük damağımda dad oldun.
Nə səbəbdən dönük çıxdın, yad oldun,
Qibləgahım, din-imanım, əlvida.

Əvvəlcə həyata çağırdın məni,
O gündən tanrıma tay bildim səni.
Nə tez dedin, unut olub kecəni,
Söndü ruhum, dondu qanım, əlvida.

Ey ilk məhəbbətim, son məhəbbətim,
Kədərim, həsrətim, qəmim, möhnətim,
Əhdinə sadiqdi bil təbiətim,
Mən özümü necə danım, əlvida.

Mənə təkcə bircə dəfə can dedin,
Əbədilik alış dedin, yan dedin.
Sən Pənaha məhəbbəti dan dedin
Ola bilməz belə anım, əlvida.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ARALANMIŞAM

Məndən təzə şe'r istəmə qardaş,
Şe'rdən, sənətdən aralanmışam.
Hərə bir yerini tutub inləyir,
Mənsə yüz yerimdən yaralanmışam.

Könlüm istəyini anlamadı yar,
Çulğadı ruhumu sükutu-məzar.
Yüz müşkül əlində qallmışam naçar,
De hansı birindən çaralanmışam.

Ruhum sönüb gedib, tükənib sözüm,
Bir könül həmdəmi axtarır gözüm.
Sınaq da olmazdı bu qədər uzun,
Haqqın varlığından qaralanmışam.

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

SONANIN

Bir gül butasıdı, təzədi, tərdi,
İsmətdi, həyadı özü Sonanın
Əgər yeri gəlsə ər oğlu ərdi,
Qılıncdan kəskingi sözü Sonanın.

Qoy şərqisi əksilməsin dilindən,
Şanəsi düşməsin ənbər telindən.
Xoş gün alsın taleyinin əlindən,
Qalmasın yollarda gözü Sonanın.

Ondan uzaq olsun hər qəza, qada.
Xoş çatsın sədası qohuma, yada.
Hərdən loğmanı da bir salsın yada,
Könlü unutmasın bizi Sonanın.

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

TEZ QAYIT

Orada vətənin, anan qalsa da,
Ruhum, canım, iki gözüm tez qayıt!
Hicranın vüsal tək şirin olsa da
Sənsizliyə yoxdu dözüm, tez qayıt!

İki gündür yoxsan, sanki il keçib,
Dünyanın kədəri qəlbimə köçüb.
Könlüm bu dünyada tək səni seçib,
Təkcə sənlə gülür üzüm, tez qayıt!

Səadət heç kəsə gəlməsin asan,
Vüsal şirin olmaz, hicrə yanmasan.
Aya dönür, ilə dönür hər bir an,
Qurban olum sənə özüm tez qayıt!

Sənli evim kainatı tutardı,
Sənsizdi, kainat başıma dardı.
Bilmirəm bayırda qışdı, bahardı,
Pozulubdu nizam, düzüm, tez qayıt!

Rəhm eylə əzizim, eyləmə günah,
Qıyma ki ömrümə dönsün aman, ah.
Əgər istəsən ki yaşasın Pənah
Tez ol qayıt, şirin sözüm, tez qayıt!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

BİZ

Kim olmayıb ayrılığın əsiri?!
Gəl bir olaq ayrılığı yoraq biz!
İnsan eşqsiz nə ölüdü, nə diri,
Verək yalnız məhəbbətdən soraq biz!

Güya daha sevən ürək qalmayıb,
Yalandır ki sevənlər kam almayıb.
Xoş diləklər saralmayıb, solmayıb,
Olaq eşqin tellərinə daraq biz!

Sənsiz könül qanadsızdı, yetimdi.
Gəl birləşək, dünya ölüm-itimdi.
Sənli an ən böyük səadətimdi,
Səadətin keşiyində duraq biz!

Həyat bizi yollarında yormamış,
Nə çox iblis, aramızı vurmamış.
Hicran eşqin qanadını qırmamış,
Hicransız, həsrətsiz həyat quraq biz.

Sənə inanıram şəksiz, şübhəsiz,
Pənahın ömr edib ləkəsiz, təmiz.
Şe'rlərdə qoy yaşasın eşqimiz
Ölümün də ümidini qıraq biz.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

RAZIYAM

Naməlumluq məndə qoymayıb aram,
Gen gəzirsən niyə, bilim, razıyam.
Heç olmasa mənə de ki donqaram,
Düz çıxsın, əyilsin belim, razıyam.

Bir vaxt görüşərdik biz gülə-gülə,
Deyirdik qoruyaq, düşməsin dilə.
Həsrətəm yanağa, buxağa, telə,
Toxunmağa gəlməz əlim, razıyam.

Yox icazən, bağçanıza enmərəm,
Bəxt atına minmə desən minmərəm.
Xoşun gəlmir danışmaram, dinmərəm,
Hesab et ki laldı dilim, razıyam.

Qoy sən deyən olsun, gəzməyək qoşa,
Səməndər quşu tək düşüm atəşə,
Hər arzum, diləyim toxunsun daşa,
Razıyam, razıyam gülüm, razıyam.

Yalnız icazə ver, sevimli canan,
Sənin xəyalınla olum hər zaman.
Söyləsən ki, Pənah yığış dünyadan
Səadətdir belə ölüm, razıyam.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

FƏRYAD

Bəxt ulduzum doğdu, yarım çağırdı,
Kükrədim, çağladım, sel kimi getdim.
Fərqinə varmadım yoldu, cığırdı,
Sevinclə, həvəslə, yel kimi getdim.

Təzə barışmışıq, elə bilirəm,
Qurtardı bir yolluq küsü də, naz da.
Onun xəyalıyla söhbət edirəm,
Kim tufan gözləyir çiiçəkli yazda.

Ey qohum, ey qardaş, ey dost, ey tanış,
Ey çiçəkli bahar, ey payız, ey qış,
Ey anamız Günəş, ey ulduz, ey Ay,
Ey arxalı dağlar, ey dəniz, ey çay,
Bütün müqəddəslər, gəlin köməyə!
Yar məni çağırıb unut deməyə.

Hanı inandığım böyük ədalət,
Varsan gəl ortaya, inansın xilqət.

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

TƏCNİSLƏR

1111111247899

(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ALA

Eşqə düşən qəlbi müqəddəsə yaz,
Bələnir yaşıla, bürünür ala.
Bütün fəsillərdə hökm eləyir yaz,
Tanımır pisliyi, yad olur ala.

Ömrüm gözləməklə olubdu yarı.
Bəxt oyanıb deyir, daha gəl yarı.
Mənə həmdən edib bir nazlı yarı –
Saçları qızıldı, gözləri ala.

Dodaq qönçə, dişlər sanki incidi,
Əzabı da xoşdu, buyur inci di!
Hansı aşiq zərrə qədər incidi,
Qıymadı canını belə yar ala?

Ədası şirindi, sözü şirindi;
El onu bəyənib, deyir Şirindi.
Pənah, damağını eylə şirin di,
Ömrün səfasını bəsincə al, a!

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

GÖZƏLƏ

Hey deyirik qəlbən gözəl ola yar,
Yenə baxır gözlərimiz gözələ.
Rəhmsizdi hər gözləri ala yar,
Bu cəhətdən tay tapılmaz Gözələ.

Yar sallandı, qüsursuzdu göz, əl, sev,
Ona görə yaranıbdı gözəl, sev!
Gözəl nazlan, gözəl naz al, gözəl sev,
Bəlkə ola ilqarın da gözəl, ə!

Kim görüb ki, paydan artıq tox ala?
İnsansansa mütləq gözü tox ol, a!
İnanma ki, hər sərvətli tox ola,
Qəlb kasıbsa baxacaqdır göz ələ.

Biz bir canıq, nə salmısan mən, sən, ə!
Bir arzum var, gülüm, olum tən sənə.
Can deməzsən, lap ötsə də min sənə,
Heç olmasa hərdən-hərdən göz ələ!

Avand olar işi tutsan ürəkdən,
Kal olmasa, bir də olsa ürək dən.
Göstəriş ki, düz gəlmədi ürəkdən,
İş əyilər, ha düz olsa göz, əl, ə!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

GƏLƏ - GƏLƏ

Bir də baxdım ömür keçdi adladı,
Həftə gələ-gələ, ay gələ-gələ.
Kim bilmir ki, hər bir dövran adladı;
Sevdalı bir dövran, ay, gələ, gələ!

Neçə gündü sənsiz qalıb yanım, a;
Gülüm, qıyma həsrətindən yanım, a!
Vəfalı dost səhər gəlsə yanıma,
Axşam gözlərəm ki, ay gələ, gələ!

Bəsdi axı, insafa gəl, gözəl di,
Cüt busə ver, istədiyim göz, əldi.
Sən kamilsən, hər bir ədan gözəldi,
Lap dönüb olubsan Ay, gələ-gələ.

Əllər sevdi, baxan yazıq göz oldu,
Cismim, canım gözləməkdən göz oldu.
Hicran yaram axı nə vaxt göz oldu,
Ötdü həftə, keçir ay, gəl ə, gəl ə!

Sərt baxırdın, qaşların da yay idi,
Bir gülümsə, sığallansın yayı di.
Biz sənlə görüşəndə yay idi,
Demə ki, gərək o ay gələ, gəl ə!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Gözləməkdən yerdə qalıb yanım, a,
İnsaf elə, hicran ilə yanıma.
Özün söylə, necə dözüm, yanıma
Gecdən-gec, ötdükcə ay, gələ-gələ?

Bir insafsız, eşidirəm o gün, ə,
İlə gəlir, və'də verib, o, günə.
Pənah canı qurban deyib, o günə,
Ömrünə sənin tək Ay gələ, gələ!

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

A YANA, YANA

Aşiqlər yaşayır bir ömür boyu
Eşqin odlarında a yana-yana.
Alovlara bülənd olsa da boyu
Gizlənər, istəməz əyana yana.

Məhəbbət göylərdən daha dərindi,
Qoy əğyar anlasın onu dərin di!
Desən alovlardan bəhrin dər indi,
Yavaşca sürüşər a yana, yana.

Meydanda tanınar quran, düzən ər;
Elə bilərsən ki, çıxıb düzə nər.
Nahaq deməyiblər axı düzə nər,
Dönməz haqq yolundan, ay ana, yana.

Günəş olar düşsə Aya eşq odu.
Xöşbəxtsən qazansan, aya, eşq odu.
Hər istək eşq deyil, aya, eşq odu
Can aya, ilə yox, ay ana yana.

Mərd əlində batmaz, istər gizlə nər,
Namərd dərhal satar, deyib, gizlən, ər!
Xəsisin nəyi var dərhal gizlənər,
Toxgözün nəyi var ayan-ayana.

Yüz dəfə can desən qaradinməzə,
Yenə qiymət qoymaz, susar, dinməz, ə!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Könül, ömür boyu danış, din məzə;
Kaş məni ananda, aya, nay ana.

Haqqı gen günündə ara, ana san,
Hünər deyil onu darda anasan.
Eşq odu, Pənaha təkcə anasan,
İstər sev, istərsə, ay Ana, yana!

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

AY ANA, ANA

Sənə tay bir qüvvə yoxdu dünyada
Elə müqəddəssən ay Ana, Ana!
Səcdənə dayanır hamı, Dünya da,
Ömrü başa vurur, ay, ana-ana.

Tanımışdım səni, Allah, səni din
Cismim, canım, eşqim, ruhum sən idin.
Ömür boyu dinləyərdim səni, din,
Könlüm dönməz səndən a yana, Ana!

Yaranıb cahanda hər şey yerində;
Ay tək sevgilisi vardır Yerin də.
Bizə, qardaş, tanış, yar öz yerində,
Kim yanar, necə ki, a yana Ana?

Ömür dedikləri qurma, hörmədi,
Eşqə biganələr onu hörmədi.
Könül, necə deyim sən də hörmə di,
Yarım nəzər saldı, ay Ana, ana!

Aşiqin ömrünə hicran anadı,
Vüsal olsa-olsa ancaq anadı.
Canı qurban verdim, dedim an adı,
Özgə nə edim ki, ay Ana, ana?

Könlüm həsrətindən tapıbdı yara,
Şəfa tapar əgər onu yar yara.
Belə şirin olmaz, yəqin yar yara,
Yetişsə tezliklə, ay ana, ana.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sevən qəlbim çoxdan qalıbdı yarda,
İlahi qədrini biləydi yar da.
Çox yox, bu sükutu parçala, yar da,
Qıy könlün könlümü ay ana ana.

Nə olar desən ki, gəl bir yol yarı,
Axı ömür çoxdan olubdu yarı.
Aşiq ömür boyu gözlər ki, yarı
Bəlkə bircə dəfə ay ana, ana!

Mərdlik ki var, qəlbdə olan közlədi,
Qoy alışsın ətəklə di, közlə di!
Əğyar desə sevda məni közlədi,
İnanma aşiq tək a yana ana.

Sanma el aşiqə yanası deyil,
Yaxşı çoxdu, dörd bir yan asi deyil.
Əğyarda qəlb hanı yanası deyil,
Gərək yarı ürək a yana, ana.

Ürəksizə nə fərqi var yan, baxar,
Fərq anlamaz, desələr ki, yan bax ar!
Vəfasız dost dərhal səndən yan baxar,
Nəzərin yayınsa a yana ana.

Halal olsan çıxasısan düzə düz.
Ömür boyu hər bir işi düzə düz.
Gözəl olur sevda olsa düzə-düz,
Kim istər dost onu a yana ana?

Nə tez keçdi, bir ötmədi yaş aram,
Nə etməli, gərək olaq yaşa ram.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Nəzər kəsmə, sənsiz çətin yaşaram,
Gərək yar yarını ay ana, an a!

Gözün aydın, könül, rahat yan andı.
Aşiqi yaşadan sevgi, ya nandı?!
Gülüm, mənim ruhum çoxdan yanandı,
Qıyma cismim, canım a yana, an a!

Gülüm, düz çıxmasa əgər yar andı,
Ürək sağalmayan qanlı yarandı.
Görərsən bir yeni Pənah yarandı,
Onu bir yol sən tək Ay ana, ana!

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

SAÇAĞI

Şair Məhəmməd Ərğəvana

Dünyamıza həyat verən Günəşdi,
Gümüşdəndi, qızıldandı saçağı.
Aqil olan, sən də ol bir Günəş, di
Əməlimlə hər gün, hər an saç ağı.

Qəlb deməsə, sarılsa da cana can,
Məlhəm kimi yayılarmı cana «can»?!
İnsan oğlu, candan söylə «cana» «can»,
Nə hirsli bax, nə dilindən saç ağı.

Olmasaydı Yetim kimi yaxşı yar,
Dastanlaşa bilərdimi Yaxşı, yar?
Nə iş görsən yaxşı başla, yaxşı yar,
Nə pislik et, nə əvəz al saç ağı.

Haqqa yaxın olasıdı haqq olan,
İnsan, sənə yaraşarmı haqq ol, an?
Pənah Göyçə, ömür boyu haqq ol, an,
O vaxt yox ki, geyməlidi saç ağı.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

QƏZƏLLƏR

1111111247899

(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ELƏDİ

Ayrılıq meydan alıb gör necə bir qan elədi;
Sənə vurğundu deyə, könlümü şan-şan elədi.

Baxma həsrət qudurub min bəlaya saldı məni,
Həm də könül evimi aldı çıraqban elədi.

O qədər arxayınam məhəbbətin qüdrətinə,
İnanardım desələr, eşq daşı insan elədi.

Həsrətə düşsə, dağın təkində vulkan oyanır,
Amma dözdü ürəyim, sirrini pünhan elədi.

Nə qədər pünhan ola, sevgi izsiz itə bilməz.
Geç-tez ellər götürüb, görürsən, dastan elədi.

Hicranın zülmü ilə cilalanır məhəbbətin,
Qoşadı xeyirlə şər, ey könül, inan, elədi!

Axı bülbül kim idi, gül onu ovsunlamamış,
Yara eşqi Pənahı belə qəzəlxan elədi.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İNCİMƏ

Könül, sevgi ahu-zardı, ahu-zardan incimə;
Yandırdıqca yaşadır, elə nardan incimə!

Günü-gündən soyuyur ayrılığın buz nəfəsi,
Peşəsi dondurmaqdı, əsla qardan incimə!

Aşiq olan doyarmı eşqin əzablarından,
Sənə qalan tək odur, intizardan incimə!

Xara gülün vüsalı, bülbülə fəğan düşür;
Dünya ilə yaşıddı, bu bazardan incimə!

Ömrün payız çağında gördün beş günlük bahar,
Büna şükr etmək gərək, sonbahardan incimə!

Məhəbbət aləmində bir ixtiyar dilərsən,
Aşiqdən gen dolanır, ixtiyardan incimə!

Bütün əzablarını gedib yozur tərsinə,
Elə bədbəxt doğulub, sən əğyardan incimə!

Vüqarın imkan vermir yardan vüsal umasan,
Ona eşq olsun deyək, gəl vüqardan incimə!

Günü-gündən artırır zülmünü, cəfasını,
Ləyaqətlə qəbul et, Pənah, yardan incimə?

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

DEYİL

Səməndərə döndü könül, şükr olsun ki, sönən deyil,
Süzdü eşqin göylərinə, bir də geri dönən deyil.

Ürək hər gün nəğmə qoşur məhəbbətin camalına,
Köklənibdi «Şahnaz» üstə, özgə kökdə dinən deyil.

Aşiq olan ülfət bağlar hicran ilə, həsrət ilə,
O, vüsalın köhləninə könül verib minən deyil.

Gəl aşiqə dayan demə, yanmaq ona bir adətdi,
Pərvanə tək uçur oda, daldalarda dinən deyil.

Eşq dediyin insanlıqla qoşa gəlib bu cahana,
Əğyar hardan anlasın ki, bu gün deyil, dünən deyil?!

Məhəbbətə yad sinədən kim görüb ki, nəğmə gələ,
Ey biganə, zəhmət çəkmə, yeri sənin sinən deyil.

Eşq oduna yüz ömür də yansan Pənah, bəs eləməz,
Bil qədrini hər bir anın, çünkü geri dönən deyil.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

GÖZ GÖZƏ SATAŞANDA

Sirrimiz olur əyan, göz gözə sataşanda,
Eşqimiz tapır bəyan, göz gözə sataşanda.

Qışın oğlan çağında çiçəkləyir çöl, çəmən,
Al geyinir bu cahan, göz gözə sataşanda.

Neçə kitaba sığmaz söhbət üçün, söz üçün
Kifayətdi bircə an, göz gözə sataşanda.

Bəlkələrin əlində hər nə qədər inləsə,
Cavab alır yazıq can, göz gözə sataşanda.

Deyirlər güzgüsüdü gözlər insan qəlbinin,
Saflaşır bədəndə qan, göz gözə sataşanda.

Milçəyə də dəyməmiş ipək qəlbli bir aşiq
Dönüb olur qəhrəman, göz gözə sataşanda.

Payız gəlmiş ömrünə, gözün aydın, ay Pənah,
Söküldü bir qızıl dan, göz gözə sataşanda.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

NƏ ŞAHANƏDİ

Sən, ey gözəllər gözəli, camalın nə şahanədi;
Gözlərin bir yana dursun, hilalın nə şahanədi!

Sən qibləsən, sən Məkkəsən, şübhə yoxdu, ey sərvinaz,
Ürəklərə hakim olan xəyalın nə şahanədi!

Tamam özgə rövnəq verir sənin günəş camalına,
Zənəxdana qonşu düşən o xalın nə şahanədi!

Kim hazırdı ömür boyu pünhan-pünhan yansın oda? –
Aşiq sezir baxımından, sualın nə şahanədi!

Gülümsəsən, ey mö'cüzə, daşlar belə çiçək açır,
Əğyar yazıq duya bilməz, məlalın nə şahanədi!

Səni görən hər bir bəşər hicranının odundadı,
Bir söyləyən varmı görən, «vüsalın nə şahanədi»!

Sən Pənaha bir dəfə də dönüb nəzər salmamısan,
Qurban olum kamalına, kamalın nə şahanədi!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

SƏNLİDİ

Sənin üçün yaşayıram, gülüm, hər anım sənlidi,
Ruhum, eşqim, səadətim, varlığım, canım sənlidi.

Gəlişinlə, ey sərvinaz, tam olubdu xöşbəxtliyim,
Sənsiz nəyə gərək idim, şöhrətim, şanım sənlidi.

Hərdən mənə elə gəlir, dönüb tamam sən olmuşam;
Vuran qəlbim, görən gözüm, iliyim, qanım sənlidi.

Hər birinin öz yeri var, heç birindən doymaq olmaz,
Çünki sevincim, şadlığım, ahım, amanım sənlidi.

Nə olsun ki, bu günəcən yetməmişəm vüsalına,
Səadətim hüdud bilməz, axı hicranım sənlidi.

Xaliq məni sənin üçün gətiribdi bu dünyaya,
Şübhəm yoxdu, mehribanım, həm o cahanım sənlidi.

Mənə özgə nə lazımdı, - sən Pənahın pənahısan,
Ən kamil inamım vardır, dinim, imanım sənlidi.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

A SƏRV BOYLU

Heç gözünə dəyərəmmi, desən, gəlmə, a sərv boylu? –
İnsaf elə, o söz ilə könlüm dəlmə, a sərv boylu!

Hicranın da, həsrətin də həm doğmadı, həm də şirin,
Qoy toxunsun həyatıma ilmə-ilmə, a sərv boylu!

Tale özü əzəl gündən məni yazdı atəşlərə,
Layiqincə qoy kam alım, sən də silmə, a sərv boylu!

Məgər ömür bəs edərmi doyum sənin hicranından,
Hər nə qədər yalvarsam da yola gəlmə, a sərv boylu!

Qıyarammı ipək kimi zərif qəlbin kədərlənə,
Sənsizlikdən nə çəkirəm görmə, bilmə, a sərv boylu!

Sənə gələn kədər, bəla dolsun mənim ürəyimə,
Sevinc payım sənin olsun, onu bölmə, a sərv boylu!

Pənah çoxdan bezar olub bu dünyanın zillətindən,
Köç edərmi bu dünyadan, desən, ölmə, a sərv boylu?!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

KAŞ SƏN OLAYDIN

Ay şirin qız, ömrümə dan kaş sən olaydın!
Gözümdə nur, canımda can kaş sən olaydın!

Əqlim ilə ürəyimin dilbir olduğu,
Bəyəndiyi nazlı canan kaş sən olaydın!

Eşq oduna Səməndər tək yanasıyam mən,
Bircə dəfə məni anan kaş sən olaydın!

Ömür boyu camalına nəğmə qoşuram,
Uyğudaca gələn mehman kaş sən olaydın!

Başsız əsən küləklərə bənzər həyatım,
Başdan başa ona sultan kaş sən olaydın!

Deyirlər ki, tək doğulmur dünyada heç kəs,
Mənim yarım, o mehriban, kaş sən olaydın!

Bircə dəfə nəzər salıb deyəydin, Pənah,
Mənə Məcnun, mənə Sənan kaş sən olaydın!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

EYLƏ

Vüsalla kim yüksəlib, gülüm, onu dar eylə;
Sən mənim nəsibimi həsrət, intizar eylə!

Ömrümün çox payını yandım Səməndər kimi,
Yerdə nə qalıbdısa götür boran, qar eylə!

Dilim gələsi deyil vüsalını diləyim,
Həsrətini çəkməyə külli ixtiyar eylə!

Min illərdi dolanır eli Qeysin fəryadı,
Qoy ucalsın sinəmnən nalə, ahu-zar eylə!

Gərək aşiqin canı əzablarda qovrula,
Yaz məni səhralara, eylə, bəxtiyar eylə!

Hicranına yandığım günlərdi ömrün yazı,
Ömrümü başdan başa o sayaq bahar eylə!

Bir anlıq vüsalına yetmək üçün bir zaman,
Ömrümü sona kimi al hicrana yar eylə!

Zülmünü çəkmək üçün yaşayıram dünyada,
Nəzər çəkmə üstümdən, daim məni var eylə!

Pənah, düşmək istəsən aşiqlər cərgəsinə,
Sən hicran şərbətilə könlünü xumar eylə!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

NECƏ ƏZİZDİ

Könlümə yanğın salan sözün necə əzizdi!
Məni səməndər edən közün necə əzizdi!

Həsrətin sinəm üstə çalın-çarpaz dağdı, dağ,
Mübarəkdi əzizim, izin necə əzizdi!

Bizim güllü bağçadan yan keçərək hər zaman,
Yad bağına dönsə də, izin necə əzizdi!

Bircə dəfə bu yana dönməyibdi, ilahi,
Bir qətrə üz verməyən üzün necə əzizdi!

Bu günəcən şəfqətlə baxmayıbdı üzümə,
Əğyarı hey izləyən gözün necə əzizdi!

Xəyalən də cürətim yoxdu öpüm telini;
Diz çökərək qucduğum dizin necə əzizdi!

Sənin parlaq xəyalın xöşbəxt edib Pənahı,
Dərk edə bilərəmmi özün necə əzizdi?!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

HƏSRƏT QOYMA

Şümşad əllim, əllərimi əllərinə həsrət qoyma,
Qibləm, məkkəm, din-imanım tellərinə həsrət qoyma!

Sənsiz keçən anım belə bir dözülməz məşəqqətdi,
Gəl rəhm elə, aylarına, illərinə həsrət qoyma!

Heç olmasa qulluğa qoy, öz bağına bağban elə,
Gözlərimin oxşadığı güllərinə həsrət qoyma!

Sənin səsin mənim üçün bir misilsiz musiqidi,
Xüsusən də «gəl» deyəndə, «gəl»lərinə həsrət qoyma!

Ayrı cürə olardımı, candan sevən Məcnun olur,
Qovma məni səhralara, ellərinə həsrət qoyma!

Sən dinməsən, mənim üçün bütün dünya yasa batar,
Susma gülüm, şirin-şəkər dillərinə həsrət qoyma!

Bilirəm ki, sən Pənahı yazasısan sürgünlərə,
Ricam budu, sizin elin yellərinə həsrət qoyma!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

MÖHTACIYAM

O qoşa bəxt ulduzum gözlərinin möhtacıyam,
Salıblar könlümə od, közlərinin möhtacıyam.

Ən kamil musiqidi, şeyda bülbül şərqisidi,
Gül dodağından qopan sözlərinin möhtacıyam.

Gah qışın sərt boranı, gah mülayim yaz günüsən,
Hamısı xoşdu mənə, üzlərinin möhtacıyam.

Ayrılıq yazdı mənə çərxi fələk ömrü tamam,
Mən sənin vüsal deyən izlərinin möhtacıyam.

Özgə bir söz hələ ki, sən Pənaha söyləmədin,
Ona da olma xəsis, «döz»lərinin möhtacıyam.

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

OLMAZ

Məcnun çox da öyünməsin, mən tək dili nalan olmaz.
Hicran çəkən aşiq solar, mənim kimi solan olmaz.

Çox gözəlsən ey sərvinaz, səni görən aşiq olur,
Mən aşiq yox, divanəyəm, olmaz, bu cür olan olmaz.

Tarix bilir kimdi əğyar, heç olmasa sən aldanma,
Mənim kimi ömrü boyu yollarında qalan olmaz.

Hər gün, hər an, ruhum, qəlbim sənli, təkcə sənli olur,
Heç bülbül də öz gülünə belə mehir salan olmaz.

Yaradanım məni ancaq sevmək üçün xəlq elədi,
Bu gün eşqin rübabını mənim kimi çalan olmaz.

Eşq əzabdı, eşq zillətdi, özgə tale olmasa da,
Bu dünyanın xöşbəxtiyəm, sevən könül talan olmaz.

Pənah səni düşünməkdən dönüb tamam sən olubdu,
Bunu sənə könlüm deyir, ürək deyən yalan olmaz.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

GƏL, GƏL

Ey sərvinaz, həsrətindən oda düşdü sinə, gəl, gəl!
Şeyda könlüm susub sənsiz, yoxdu ümid dinə, gəl, gəl!

Eşqin zümrüd göylərinə birdəfəlik ucalmışam,
Sən də yüksəl, sən də ucal, ver əlini mənə, gəl, gəl!

Könül verib, könül alıb qoşa gedək ölməzliyə,
Qoşa yanan sevda odu mümkün deyil sönə, gəl, gəl!

Hər görəndə camalını eşqim odu tüğyan edir,
Mən yanmaqla yaşayıram, qayıt, dönə-dönə, gəl, gəl!

Həsrətindən eynim yaşı boz-bulanıq selə bənzər,
Bir baxışla qurut onu, qıyma gölə dönə, gəl, gəl!

Günəş bütün kainatı öz eşqiylə yaşadırsa,
Sən də mənim Günəşimsən, qoyma ömrüm sönə, gəl, gəl!

Yaradanım qadir Allah, peyğəmbərim Məhəmməddi,
Sən Pənahı yetirmisən sevgi adlı dinə, gəl, gəl!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

DURMA GƏL

Həsrətindən oda düşdü, yandı canım, durma, gəl!
Sənsizlikdən getdi əldən din imanım, durma, gəl!

Məcnun kimi, Sən'an kimi sevən kəslər duyulmaz,
Bu cahanda təkcə sənsən mehribanım, durma, gəl!

Sənsiz dünya başdan-başa yaddır mənim könlümə,
Sənli olmuş günləri də qıyma danım, durma, gəl!

Məhəbbətsiz, səadətsiz nəyə dəyər bu cahan,
Məhəbbətdi var-dövlətim, şərəf-şanım, durma, gəl!

Ömür keçir, Tanrı bilir bundan sonra nə qalıb,
Fəlakətdi sənsiz ötən hər bir anım, durma, gəl!

Yaradansız yaşar dünya, yola getməz böyüksüz,
Sənsən mənim həm Xaliqim, həm Sultanım, durma, gəl!

Sənin ala gözlərindi bəxt ulduzu Pənahın,
Sən baxmasan bəzənərmi kəhkaşanım, durma, gəl!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

GETDİ

Allah, Allah, nə üçün getdi, alagöz getdi? –
Bağrımın düz başına qoydu yanar köz, getdi.

Nigaran qoydu deməyin, canımı atdı oda,
Nədi bu əmrə səbəb, olmadı bir söz, getdi.

Bir ömür gözlədiyim vəsli bircə an oldu,
Daha hicran gələcək, süz, onu bol süz, getdi.

Xoş məqamda yaradıb xalıq onu, yox şübhə,
Ola bilməz ona tay, dur cahanı gəz, getdi.

Nə qədər ömr eləsəm, ruhum ona bir kölgə,
Ha yana getsə belə, sanmasın mənsiz getdi.

Onun eşqiylə könül saflaşıb oldu gövhər,
Cahana nur saçacaq, qoydu elə iz getdi.

Bu qədərmiş Pənahın dövranı bu dünyada,
Dözə billəmmi bütün dünya desə döz, getdi!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

GÖZƏLİM

Sən təki qızlar olur yurda şərəf, şan, gözəlim!
El sənə heyran olub, sən kimə heyran, gözəlim!?

Hələ var imkanımız, can deyib, gəl, can eşidək,
Özgə cür, özgə sayaq saflaşarmı qan, gözəlim!

Könlümə köç eləyib yurd salmısan birdəfəlik,
O əziz ismin olub dilimdə hər an gözəlim!

Yüz ömür nazını çəksəm yenə doymazdı gözüm,
Sənin eşqinlə axır varlığımda qan, gözəlim!

Eşq üçün doğulmusan, baxma yana, baxma bir an,
Cahana eşqi ilə şərəfdi insan, gözəlim!

Eşqə yandıqca canım yüksəlirəm mən, ancaq,
Necə deyim ki sənə, sən də alış, yan, gözəlim!

Öyünməsin Pənahın, mən də qəzəlxanam deyə,
Dəyərmi bir telinə min belə dastan, gözəlim!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

OLMUŞAM

Şükr olsun taleyə ki, mən sənə heyran olmuşam,
Eşqinlə ucalmışam, eşqinə qurban olmuşam.

Sən mənə «çor» da desən dilimdə təkcə «can» olur,
Nurlanıb qəlbim, ruhum, tamam çırağban olmuşam.

Gəz bütün bu cahanı, mənim kimi xöşbəxt hanı,
Həsrətindən baxma ki, sinəsi şan-şan olmuşam.

Eşqsizsə sultan əsla sultan deyil, füqarədi,
Sənin eşqinlə dönüb cahanda sultan olmuşam.

Neçə ki sən yox idin, bir kötüyə təndi canım,
Qəlbimə köç etmisən, ən kamil insan olmuşam.

Baxma ki məni fələk səndən uzaqlara salıb,
Orda can, burda ürək, səninlə hər an olmuşam.

Eşqinə sadıq olan ellərin istəklisidi,
Ay Pənah, Məcnunsayaq dillərdə dastan olmuşam.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

OLACAQ

Gələcəkdir o zaman, huri mənə yar olacaq,
Söz verib söz alacaq, əhdə vəfadar olacaq.

Ürəyimdə bir ümid güllənəcəkdir əbədi,
O bağa bağban olam, bir gün ixtiyar olacaq.

Ayrılıq hakim olub ömrü-günü çulğaladı,
Xeyirlə şər qoşadı, demək sonbahar olacaq.

Ey könül, qəbul elə hər cürə zülmü, əzabı,
Sevgidə qaydadı bu, şaxta, boran, qar olacaq.

Xoş vüsal eşqi ilə etsə də pərvaz ürəyim,
Bu da xoşdur ki, mənə bollu intizar olacaq.

Gülü qönçədi deyə şeyda yenə şövqə gəlib,
Binəva bilmir axı, olmalıdı, xar olacaq.

Ali bir eşqi yazan aşiqə ölmək nə gəzir,
Dünya durduqca qəzəllərdə Pənah var olacaq.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

KÜSMƏK OLARMI

Allah, Allah, belə yardan küsmək olarmı?! –
Xəzan bilməz bir bahardan küsmək olarmı?!

Mən aşiqi nəzərindən atır, qoy atsın,
Məgər külli-ixtiyardan küsmək olarmı?!

Eşqə düşən hər xilqətə dözüm gərəkdi,
Yar yolunda əzablardan küsmək olarmı?!

Ağır gəlsə, çətin düşsə xoş olur vüsal,
Elə isə intizardan küsmək olarmı?!

Qəlbimizə od salsa da öz fəryadıyla,
Bülbül kimi nəğməkardan küsmək olarmı?!

Ömrümüzdə hər bir anın öz yeri vardır,
Vaxtlı, vaxtsız yağan qardan küsmək olarmı?!

Əzablarda bişməyincə ucalmaz aşiq,
Pənah, onda sitəmkardan küsmək olarmı?!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

BEŞLİKLƏR

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

YAŞAMAQ OLAR

Ötüb keçəcəkdir boran, qar yenə,
Yaşıl don geyəcək o dağlar yenə.
Zümzümə edəcək bulaqlar yenə.
Yenə gül – çiçəklə gələcək bahar;
Bax belə ümidlə yaşamaq olar!

Hələ bağçaların havası sağdır,
Nə qədər Qızıl Gül açılacaqdır.
Bülbülün nəğməsi saçılacaqdır,
İtib yox olacaq həsrət, intizar;
Bax belə arzuyla yaşamaq olar!

Şahinlər, tərlanlar meydan alacaq,
Yapalaq bir küncə girib qalacaq.
Vüsala qovuşan aşiq olacaq,
Bir yolluq nəzərdən itəcək əğyar;
Bax belə inamla yaşamaq olar!

Təbəssüm qonacaq əsmər üzünə,
Sürmə çəkiləcək ala gözünə.
Şirin söz qatacaq hərdən sözünə,
Nazından bir an da qalmayacaq yar;
Bax belə diləklə yaşamaq olar!

Əsla mümkün deyil sönə ilhamım,
Bir himə bənddir ki, dinə ilhamım.
Eh, nələr deyəcək yenə ilhamım,
Ömürlük edəcək məni bəxtiyar;
Bax belə bəxt ilə yaşamaq olar!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ŞAİR OLAN KƏS

Məcnun tək eşqində sədaqətlidi,
Fərhad tək işində dəyanətlidi,
Hər insan oğluna xoş niyyətlidi –
Əməli, amalı, eşqi müqəddəs,
Bax, belə doğulur şair olan kəs.

Gecə də, gündüz də qələmi əkər,
Könüllər mülkünü yaradar, tikər.
Hər pisin yerinə xəcalət çəkər,
Bəşərin dərdini bölməyə bilməz,
Beləcə ömr edər şair olan kəs.

Dünyanın kədəri, qəmi onundu,
Qayğısı, kəsiri, kəmi onundu.
Kim görüb sevinci, dəmi onundu –
Əks edər qəlbində hər haray, hər səs,
Özgə cür olarmı şair olan kəs?!

Hərdən neçə əsr qabağa baxar,
Hərdən ötənlərin seyrinə çıxar.
Düyan könüllərə nur olub axar,
Kimsə narahatsa yuxusu gəlməz,
Beləcə yaşayar şair olan kəs.

Bir çiçək şaxtadan donası olsa,
Bir çəmən quraqdan yanası olsa,
Kim isə əhdini danası olsa
Qayğılı dolanar, çöhrəsi gülməz,
Ay Pənah, belədi şair olan kəs.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

NAZ ELƏ

Çox sevdaya düşsəm də mən
Əbədilik eşqim sənsən.
Uzaq dolan, məndən gizlən,
Qoy düşməsin bu sirr elə,
Hələ naz elə, naz elə!

Qoy sevinsin hələ əğyar,
Bunun da öz aləmi var.
Gendən baxım sənə, ey yar,
Bibər də qat şirin dilə,
Gülüm, naz elə, naz elə!

Nəvazişlə baxsan mənə,
Dərhal da ciddiləş yenə.
Könül açsam əgər sənə
Yox de, ancaq gülə-gülə;
Belə naz elə, naz elə!

Söyləsəm ki, «ey mehriban,
Həsrətindən alışdı can».
De ki, «bir az uzaq dayan».
Yaxın qoyma qara telə,
Mənə naz elə, naz elə!

Nalə çəkər, fəğan salar,
Aşiqlərdə bu qayda var.
Mən də elə, sən ey nigar,
Göz yaşım dönsə də selə
Yenə naz elə, naz elə.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

GÖZLƏRİNƏ BAXAYDIM

Səni gördüm getdi əldən ixtiyar,
Ürəyimə hücum çəkdi arzular;
Əvvəl başdan ey mehriban, ey nigar,
Damarında sevgi olub axaydım,
Qalan ömrü gözlərinə baxaydım.

Səhər-səhər səsləyəydin sən məni,
Qoşa çıxıb dolanaydıq çəməni.
Bahar mehi oxşayaydı çöhrəni,
Saçlarına dağ çiçəyi taxaydım,
Qalan ömrü gözlərinə baxaydım.

Bu təklikdən ömrüm-günüm talanıb,
Axı məni mən istəyən kim anıb?
İcazənlə hicranına qalanıb
Varlığımı yandıraydım, yaxaydım,
Qalan ömrü gözlərinə baxaydım.

Aramızda şirin dillər olaydı,
Tər çiçəklər, təzə güllər olaydı.
Neçə-neçə aylar, illər olaydı,
Sevincimdən şimşək olub çaxaydım,
Qalan ömrü gözlərinə baxaydım.

Ömür boyu yanmaq olub adətim,
İstəyimdi, yetiribdi niyyətim.
Çox ummağa tapılarmı cür'ətim,
Bir yol sənin əllərini sıxaydım,
Qalan ömrü gözlərinə baxaydım.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

KİMDƏN XƏBƏR ALIM

Oğrun-oğrun baxıb keçdin,
Ürək dedi, məni seçdin.
Qurban olum, bir kəlmə din;
Həqiqətsən, ya xəyalım –
Bunu kimdən xəbər alım?!

Səndən uzaq qalmaq olmaz,
Nə də dilə salmaq olmaz.
Yaddan ülfət almaq olmaz;
De, başıma nə daş salım,
Səni kimdən xəbər alım?!

Eşqsiz cahan quru səsdi,
Eşqsiz ömür boş, əbəsdi.
Sorağın da mənə bəsdi
Ay sevincim, ay məlalım,
Səni kimdən xəbər alım?!

Ürəyimdə közüm sənsən,
Görən iki gözüm sənsən,
Gecə, gündüz sözüm sənsən, -
Səndən ayrı necə qalım;
Səni kimdən xəbər alım?!

Məndən uzaq gəzsən belə,
Hicran meyi süzsən belə,
Pənahı lap üzsən belə
Könlümdəsən ay maralım,
Onda kimdən xəbər alım?!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

NİYƏ AÇIM

Oğrun baxıb durdun uzaq,
Bu rəftarı necə yozaq?
Sən taleyin hökmünə bax
Həm dərdimsən, həm əlacım;
Mən bu dərdi kimə açım?!

Günəş kimi çıxanda sən,
Nə həddim var görünüm mən?
Nə biləsən həsrətindən
Dən-dən oldu şəvə saçım;
Mən bu dərdi kimə açım?!

Cüt qardaşdı sevinc, kədər,
Heç birisi gəlmir hədər.
Yalnız əzab tapsam əgər
Mümükün deyil uzaq qaçım;
Mən bu dərdi kimə açım?!

Ərisəm də gilə-gilə
Demərəm ki, əlac eylə.
Bir şam kimi, özün söylə
Sönüm, yoxsa şəfəq saçım? -
Mən bu dərdi kimə açım?!

Kimdi Pənah, o bəxtiyar,
Öz qəlbində cavab axtar.
Mənim üçün nə fərqi var
Sən cəzamsan, yoxsa tacım?
Mən bu sirri kimə açım?!
Necə açım?

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ÜRƏKLƏR DANIŞANDA

Yenə gəlib üz-üzə
Dayanmışıq göz-gözə.
Yoxdur ehtiyac sözə,
Bir qaydadır hər yanda,
Ürəklər danışanda!

Bəxt oyanıb olar yar,
İnsanlar doğmalaşar.
İtər nəzərdən əğyar,
Heçə dönər bir anda,
Ürəklər danışanda!

Coşar canda dəyanət,
Hünər olar bir adət.
Gülüş, sevinc, səadət
Hakimləşər cahanda,
Ürəklər danışanda!

Nə sınar, nə qocalar,
İnsan yalnız ucalar.
Paxıllıq, həsəd, azar
Məgər qalarmı qanda,
Ürəklər danışanda?!
Ürəklər danışanda…

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

SAZ DİLLƏNƏNDƏ

Lacivard göylərdən neçə qat dərin,
Aran kimi isti, yaylaq tək sərin,
Bülbül nəğməsindən mə'nalı, şirin;
Dünya büləND olur şəkərə, qəndə,
Saz dillənəndə!

Xəyal qanadlanıb eli dolaşır,
Həyat eşqi qanda çağlayır, daşır,
Beyin aydınlaşır, ürək saflaşır,
Yenidən doğulur duyan hər bəndə,
Saz dillənəndə!

Qərib gəlir deyə elə ün düşür,
Qara Keşiş itir, didərgin düşür,
Ərzurumun gədiyinə gün düşür,
Bir könül də qalmır dumanda, çəndə,
Saz dillənəndə!

Zildə fəğan edib enəndə bəmə,
Mizrab sığal çəkir inləyən simə.
Mənə elə gəlir, edir zümzümə,
Sakit dura bilmir daşlar da gendə,
Saz dillənəndə!

Ay Pənah, Günəş tək yanır ürəyim,
Hicranı, həsrəti danır ürəyim,
Dünyanı bir cənnət sanır ürəyim,
Özgə bir əhənglə vurur sinəmdə,
Saz dillənəndə!
Saz dillənəndə!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ÇAL AŞIQ

Kimi deyir nə namərddi bu dünya,
Kimi deyir tamam dərddi bu dünya.
Doğrudan da xeyli sərtdi bu dünya;
Qoy geyinsin gözümüzdə al, aşıq,
Bas sinənə telli sazı, çal, aşıq!

Elə din ki, ellər sənə hay desin,
Ələsgərə, Ədalətə tay desin.
Elə din ki, ulduz dinsin, Ay desin…
Elə din ki, ürəklərdə qal, aşıq,
Bas sinənə telli sazı, çal, aşıq!

Fürsət keçsə daş ürəkli əğyara
Şeyda bülbül susasıdı aşkara.
Qoy meydanı tək almasın gitara,
Nəzilməsin o müqəddəs yol, aşıq,
Bas sinənə telli sazı, çal, aşıq!

Nalə ilə hey açılır sabahı,
Axı nədir sevənlərin günahı?
İnsaf elə, qat onlara Pənahı,
Özün sınıq könülləri al, aşıq,
Bas sinənə telli sazı, çal, aşıq!
Çal, aşıq!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

YURDUMUZUN NƏĞMƏLƏRİ

Mayasını alıb eldən,
Baldan daha şirin dildən.
Süzülübdü sarı teldən,
Gör neçə min ildən bəri,
Yurdumuzun nəğmələri.

Dədə Qorqud töhvəsidi,
Koroğlunun nə'rəsidi.
Aşiqlərin qibləsidi;
Həm dayağı, həm hünəri,
Yurdumuzun nəğmələri.

Məhəbbətlə göz-gözədi,
Səadətlə üz-üzədi.
Elə bil ki, mö'cüzədi;
Ürəklərdən qovur şəri
Yurdumuzun nəğmələri.

Onlar elin şöhrətidi,
Ən qiymətli sərvətidi.
Duyan qəlbin qüdrətidi,
Dilə salır hər zəfəri
Yurdumuzun nəğmələri.

Xoş məramla, xoş diləklə
Qanadlanır eldən elə.
Bircə anda alır ələ,
Əfsunlayır hər bəşəri,
Yurdumuzun nəğmələri,
Yurdumuzun nəğmələri!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

BİR YUXUMA GƏL BARI

Səni tale yetirdi,
Nankor dilim itirdi;
Gözlərim tor gətirdi,
İzləməkdən yolları, -
Bir yuxuma gəl, barı!

Hicrandı verən səda,
Düşmüşəm yaman oda.
Heç olmasa uyğuda
Qoy uçsun qəm hasarı, -
Bir yuxuma gəl, barı!

Arzular çilik-çilik,
Ruhuma yaddı dinclik.
Keçib gedibdi gənclik,
Ömür də çoxdan yarı, -
Bir yuxuma gəl, barı!

Ümidim, sabahımsan,
Sevincimsən, ahımsan.
Sultanımsan, şahımsan,
Bir an unut vüqarı, -
Gəl, yuxuma gəl, barı!

Hər yan keçdikcə məndən,
Saçlarımda artır dən.
Ürək çıxıb sinəmdən
Boylanır sənə sarı, -
Bir yuxuma gəl, barı!
Gəl, yuxuma gəl, barı!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ALA GÖZLƏR

Savab qazan, a gül yanaq,
Ol ömrümə nurlu çıraq;
Heç olmasa bir dəfə bax,
Xəyalımda qala gözlər.
Ala gözlər, ala gözlər!

Mehrim sizin elə salsam,
Kandarında düşüb qalsam,
Durub sənə qurban olsam
Gələrdimi yola gözlər?
Ala gözlər, ala gözlər!

Gör ürəyim nələr umdu, -
Bir də görəm qəyyumumdu.
O dünya da qəbulumdu,
Əgər yola sala gözlər, -
Ala gözlər, ala gözlər!

Hər sınağa mən gedərdim.
Ondan özgə yoxdu dərdim.
Qalan ömrü puç edərdim;
Bir gün həmdəm ola gözlər,
Ala gözlər, ala gözlər!

Eh, üstümdə çox haqqı var,
Baxma vaxtsız qocaldıblar.
Ürəyimdə ucaldıblar
Məhəbbətə qala gözlər,
Ala gözlər, ala gözlər!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qurban olum, dostu tanı,
Mənim kimi sadiq hanı?!
Ahım yaxar bu dünyanı,
Baxsa sağa, sola gözlər,
Ala gözlər, ala gözlər!

Səadəti olacaq bol,
Yaz Pənahı onlara qul;
Ya qəlbimin həmdəmi ol,
Ya odlara qala, gözlər!
Ala gözlər, ala gözlər!
Ay başıma bəla gözlər!

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İLK MƏHƏBBƏT

Göylər kimi dərinsən sən,
Kim deyir ki, sərinsən sən?!
Xəyal qədər şirinsən sən, -
Əsirindi bütün xilqət,
İlk məhəbbət, ilk məhəbbət!

Sən taleyin düzgüsüsən,
Ən müqəddəs cizgisisən,
Sevən qəlbin güzgüsüsən,
Yoxdu sənə tay bir ne'mət,
İlk məhəbbət, ilk məhəbbət!

Niyə bəxti qarasan sən? –
Tam deyilsən, parasan sən.
Tarixləri arasan sən, -
Cehizindi hicran, həsrət,
İlk məhəbbət, ilk məhəbbət!

Nə zərifsən, - çiçək kimi,
Arzu kimi, dilək kimi!
Eyləyirsən mələk kimi,
Hansı qəlbə salsan şəfqət,
İlk məhəbbət, ilk məhəbbət!

Hansı qəlbdə gülün bitsə,
Təzətərsən min il ötsə.
Kimdə sənə inam itsə
Varlığını didər dəhşət,
İlk məhəbbət, ilk məhəbbət!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Vüsalına yetsə insan,
Ömr edərdi, sanki dastan.
Ürəyində çağlayan qan
Daşıyardı hünər, qeyrət,
İlk məhəbbət, ilk məhəbbət!

Sən Pənahı talasan da,
Məşəqqətə calasan da,
Yanar oda qalasan da
Yenə sənsən, sən, səadət,
İlk məhəbbət, ilk məhəbbət!

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

GƏRƏK DEYİL

Bəxt üzümə gülər olsa,
Hər sevincdən bölər olsa,
Kədərimi silər olsa,
Ömür yazsa yüz il, min il,
Sənsiz mənə gərək deyil!

Cüt qardaşdı sevinc, kədər,
Sənli olsa deyil hədər.
Təkcə xeyir gəlsə əgər,
Bir dəfəlik, əzizim, bil,
Sənsiz mənə gərək deyil!

Bu günü də, dünəni də,
Sabah adlı gələni də,
Bax bu şirin nəğməni də
Öz əlinlə kökündən sil,
Sənsiz mənə gərək deyil!

Məhəbbətlə vuran ürək,
Minbir arzu, minbir dilək,
Şehli çəmən, zərif çiçək,
Bahar kimi gülgün fəsil
Sənsiz mənə gərək deyil!

Şe'riyyətdə olsam qaya,
El Pənahı salsa saya,
Lap ucalsam Günə, Aya,
Duyur könül, söyləyir dil,
Sənsiz mənə gərək deyil,
Sənsiz heç nə gərək deyil!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ÜLVİDİ MƏHƏBBƏTİM

Dilimin nəğməsidi,
Ürəyimin səsidi,
Həyat təranəsidi,
Müqəddəsdi niyyətim, -
Ülvidi məhəbbətim, -

O, Günəşdi, Ay deyil,
O, ümmandı, çay deyil.
Deməyin ki, tay deyil,
Sanmayın qəbahətim, -
Ülvidi məhəbbətim!

Gözlərimə işıqdı,
Ömrümə yaraşıqdı.
Qızılgüldən də şıqdı,
Ümidim, səadətim, -
Bu ülvi məhəbbətim.

Sanmayın sönəsidi,
Zirvədən enəsidi.
Dastana dönəsidi
Bu misilsiz sərvətim, -
Ülvidi məhəbbətim.

İki qəlbə sabahdı,
Həm odu, həm Pənahdı.
Toxunmayın, günahdı;
Amandı, qalar yetim.
Bu ülvi məhəbbətim,
Bu ülvi məhəbbətim!!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

BU YANDAN DA SƏN

Yan ötdü ömrümnən qızıl sonbahar,
Hökmüran kəsildi həsrət, intizar.
Çulğadı ruhumu şaxta, boran, qar,
Elə bil olmuşam bir heçliyə tən, -
Bu yannan da sən …

Həyat eşqim tamam söndü elə bil,
Bayquşlar üstümə dindi elə bil.
Qəlbim viranəyə döndü elə bil,
Nə gələn görünür, nə də bir gedən,
Bu yannan da sən …

Hanı xoş bir anım illər içində?!
Qalmışam tufanlar, sellər içində.
Yaman təklənmişəm ellər içində,
Boğur varlığımı çiskin, duman, çən,
Bu yannan da sən …

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

BALAKƏNLİ GÖZƏLLƏRƏ

Necə deyim dünən fələk
Yenə mənə qurdu kələk? –
Oyatdı min şirin dilək,
Rast gəlməklə bircə kərə
Balakənli gözəllərə.

Xəyalımda xoş iz oldu, -
Günəş kimi təmiz oldu.
Hər ikisi əziz oldu,
Doğmalaşdım birdən birə,
Balakənli gözəllərə.

Bir Şamxorlu əsmər sona,
Kimə baxsa düşər qana;
Gözlər mə'sum, kirpik şana…
Tən gəlibdi özgə cürə,
Balakənli gözəllərə.

Elə-belə uymaq olmaz,
Gördün, yana qoymaq olmaz,
Xəngəlindən doymaq olmaz, -
Vurulmadım bica yerə
Balakənli gözəllərə.

Qaşları tək kaman yoxdu,
Kim tuş olsa aman yoxdu.
Yox, xilasa güman yoxdu,
Pənah gərək könül verə
Balakənli gözəllərə.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

NECƏ DÖZÜM

Aman allah, nə qəşəngdi,
Elə bil ki, tər çiçəkdi.
O, huridi, o, mələkdi;
Gözdə sürmə, əldə xına,
Necə dözsün ürək buna?!

Oğrun baxdı, şirin güldü,
Camalından nur töküldü.
O, sonadı, könlüm göldü,
Bir dəfə də qonmur ona,
Necə dözsün ürək buna?!

Hicranını sel elədi,
Bir görmədim əl elədi.
Könlümü tel-tel elədi,
Cəfasından gəldim cana,
Necə dözsün ürək buna?!

Yad gözlərə baxsa bir gün,
Yad əlləri sıxsa bir gün,
Yad ellərə axsa bir gün,
Olasıdı şana-şana,
Heç dözərmi ürək buna ?!

Oda yaxır hey Pənahı,
Sevgisidi baş günahı.
Az çəkdirsin ona ahı,
Düşəsidi bir gün qana,
Dözə bilməz ürək buna!
Dözə bilməz ürək buna.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

BİLMİRƏM

Ömür boyu anasıyam onu mən,
Bəxt ulduzum sanasıyam onu mən.
Baxışından qanasıyam onu mən,
Bir dönüyü niyə andı, bilmirəm,
Kim itirdi, kim qazandı, bilmirəm.

Bir dəfə də göz yaşımı silmədi,
Bir dəfə də danışmadı, gülmədi.
Kədər nədi, sevincimi bölmədi, -
Eşq qəlbimdə nədən yandı, bilmirəm,
Kim itirdi, kim qazandı, bilmirəm.

Yollarını gül-çiçəklə bəzərdim,
Arxasınca kölgəsi tək gəzərdim.
Hər zülmünə şikayətsiz dözərdim.
Nədən məni özgə sandı, bilmirəm,
Kim itirdi, kim qazandı, bilmirəm.

Heç kim onu sevə bilməz mənim tək,
Bilirəm ki, cüt doğulub bu istək.
Hicran ilə cilalanar hər dilək,
Eşqsiz cahan nə cahandı, bilmirəm,
Kim itirdi, kim qazandı, bilmirəm.

Eşq oduna alışmışam, sönmərəm,
Ölsəm belə, öz əhdimdən dönmərəm.
Sədaqət tək bir zirvədən enmərəm,
Bəs Pənahı nədən dandı, bilmirəm,
Kim itirdi, kim qazandı, bilmirəm.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

AXI İNSAN DOĞULMUSAN

Peşən olsun halal zəhmət,
Heç bir kəsdən çəkmə minnət.
Bir dəfəlik elə adət,
Haram tikə görməsin can, -
Çünki insan doğulmusan.

Yaxşılıq et, başa qaxma,
Qəlb sındırma, könül yıxma.
Sellər kimi başsız axma,
Sadə yaşa hər gün, hər an, -
Axı insan doğulmusan.

Daim bekar qalsın gərək
Sol çiyninə qonan mələk.
Qoy bu olsun ən baş dilək,
Təmiz axsın qəlbində qan, -
Çünki insan doğulmusan.

Paxıllığı bilmə qəti,
Çünki puçdur aqibəti.
İnsanlara məhəbbəti
Həyatının mə'nası san, -
Axı insan doğulmusan.

Qov iblisi, qov şeytanı,
Azad elə ondan canı.
Haqqa tapın, haqqı tanı,
Yaradanın eşqiylə yan, -
Axı insan doğulmusan,
Bil ki, insan doğulmusan.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

KÖNLÜMƏ YIĞILMISAN

QƏMƏR xanıma

Yaylaq kimi sərinsən,
Göylər qədər dərinsən,
Baldan min qat şirinsən, -
Heç bilmirəm mələkmi,
Nəğməmi, nağılmısan.

Gözlərin nur çeşməsi
Avazın eşqin səsi.
Əgər desəm kəsəsi
İlahinin nurusan,
Göylərdən sağılmısan.

Qayğıkeş əllərinlə,
Mehriban dillərinlə,
Sadiq əməllərinlə
Bütün duyğularımdan
Könlümə yığılmısan.

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

AY GECİKMİŞ MƏHƏBBƏTİM

Mən bilirdim gələcəksən,
Əhvalımı biləcəksən,
Kədərimi siləcəksən,
Mənim sonsuz səadətim,
Ay gecikmiş məhəbbətim.

Sən zirvədə qarımsan,
Şah budaqda barımsan,
Əhdimsən, ilqarımsan,
Həm sevincim, həm həsrətim,
Ay gecikmiş məhəbbətim.

Mən sanırdım qocalmışam,
Son fəsiləm, qarlı qışam.
Sən gələli ucalmışam,
Artıb dizimdə taqətim,
Ay gecikmiş məhəbbətim.

Məhəbbətin həddi olmaz,
Sevən ürək ciddi olmaz,
Bəs yaş fərqi, səddi olmaz!?
Şöhrətim ya qəbahətim,
Bu gecikmiş məhəbətim?!
Ay gecikmiş məhəbbətim.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

UNUT MƏNİ, AT MƏNİ

Nə oldu ki harayıma gəlmədin?
Axı niyə sevincimi bölmədin?
Sevilməyin qiymətini bilmədin,
Nədən, niyə – üzür xəyalət məni
Belədirsə, bir dəfəlik at məni.

İzləmirəm, sən də məni izləmə,
Zəng etmirsən, zəngimi də gözləmə.
Nə könlümün yarasını közləmə,
Nə də hicran ocağına çat məni,
Bacarırsan, unut məni, at məni.

Gəzdiyimiz cığırlardan keçmərəm,
Hicranını şərbət kimi içmərəm,
Qaraltını neçə tindən seçmərəm,
Sən də yadlar cərgəsinə qat məni,
Bacarırsan, unut məni, at məni.

Qoy çəmənlər özgələri səsləsin,
Tinlər daha başqa cütü bəsləsin.
Səadət ver qəlb evinə bir kəsin,
Nə çox əğyar, get əğyara sat məni.
Bacararsan?
Bacararsan, unut məni, at məni.
Unut məni, at məni.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

MÜXTƏLİF ŞEİRLƏR

1111111247899

(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ONU GÖRMƏYƏCƏKSƏN

Bir insafla hesab çək,
Bəs deyilmi, ey mələk!
Arxan ilə kölgə tək
Sürünümmü yenə mən?
Onu görməyəcəksən.

Qədirbilməzə görə
Oda yandım min kərə.
Niyə havayı yerə
Artsın saçlarımda dən?
Onu görməyəcəksən.

Ürəyimi bilmədin,
Göz yaşımı silmədin,
Görüşə də gəlmədin,
Mən olum Məcnuna tən?
Onu görməyəcəksən.

Salmırsansa yadına
Niyə düşüm oduna?
Nəğmə qoşub adına
Deyim dünyada təksən?
Onu görməyəcəksən.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bilməm nədən alışdım,
Artık-əksik danışdım.
Axı bir həqiqət var,
Ömrün son günü, ey yar,
Ürəyimi yarsalar
Olmayasan orda sən –
Onu görməyəcəksən,
Onu görməyəcəksən.

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

QİBTƏ

Günəş, Günəş, ay Günəş,
Sən ey Haqqa tay Günəş!
Bircə dəfə mən sənin,
Kaş, yerinə olaydım;
O qızın baxçasına
Bəs deyincə dolaydım.
Hər səhər olduğu tək
Baxıb gülümsəyəydi,
Könlümdəki möhnəti
Əbədilik siləydi.

Yer üzündə ən xöşbəxt
Bir varlıqsan, ey külək,
Yəqin ki, ürəyində
Qalmayıbdı bir dilək.
O qız çölə çıxan tək,
Əsib həyət boyunca,
Oynayırsan xurmayı
Saçlarıyla doyunca.
O tellərə bircə yol
Daraq olsa əllərim,
Səadətlə dolardı
Günüm, ayım, illərim.

Məndən çox bəxtiyardı
O çiçəklər, o güllər.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Su verir, qulluq edir
Onlara gül tək əllər.
Səhər, axşam baş çəkib
Hər birini yoxlayır,
Neçə bəxtəvərini
Əzizləyir, qoxlayır.
Kaş bir dəfə görəydi
Könlümdəki yanğını,
Bəlkə də su səpərdi,
Eh, məndə o bəxt hanı?!

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

BƏLKƏ SEVGİ GƏLƏCƏK

Nə vaxtdı ayrılmışıq,
İllər ötüb o gündən.
Hicran ilə qolboyun,
Həsrət ilə qoşa, tən
Keçsə də hər bir günüm,
Xöşbəxt idim, ey gülüm!
Özün olmasan belə
Məhəbbətin var idi,
Onu yaşadan könlüm
Necə bəxtiyar idi.
Hər gün xatirələrdən
Təzə mahnı oxudum,
Hicran, həsrət nəqşəli
Neçə xalı toxudum.
Eşqin bir tonqal kimi
Ürəyimdə yanardı,
Ondan başqa hər nə var
Tanımazdı, danardı.
Aylar, illər ötdükcə
Səngiyirdi o tonqal;
Ən canlı xatirələr
Dönüb olurdu xəyal.
Könlümdəki o məşəl
Artıq dönüb bir şama,
Öləziyir, titrəyir,
Çətin qala axşama.
Son günlər ürəyimdə
Bir misra da yaranmır,
Nə hicranda yuyunmur,
Nə həsrətdə daranmır.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Göylər Aysız, Günəşsiz,
Üfüq tutqun, duman, çən…
Eşqsiz keçən günlərə
Necə ömür deyim mən?!

Sanardım ki, sevgisiz
Yaşamaram bircə an;
Biz saymaqla deyilmiş,
Özgə cür sayır zaman.
Niyə unutdum səni,
Nə vəd edir gələcək?
Bəlkə belə yaxşıdı,
Yeni sevgi gələcək?!

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

PAYIZ

Qızıl payız, gözəl payız, gəlibsən yenə,
Səndə bütün fəsillərin nişanəsi var.
İlk günlərin yazı, yayı andırır mənə,
Son günlərin yer üzünə ələyəcək qar.

Gəlişinlə toy paltarı geyibdi hər yan,
Bu günlərdə səadətin nəfəsi vardır.
Yaşamaqdan, yaratmaqdan doymayıb cahan,
Baxçalarda qızıl güllər qatar-qatardır.

Öz yükünü yerə qoyur hər barlı budaq,
Baş qaldırıb əməlinə baxır vüqarla.
Zəhmət sevən hər kəs yenə çıxır üzü ağ,
Hələ əmək itirməyib nə bağ, nə tarla.

Sentyabr yazın, yayın eşqiylə yaşar,
Oktyabr hər ne'məti yığar anbara.
Noyabrda yağış deyil bərəkət yağar,
Dekabrsa öz könlünü verəcək qara.

Dağlar, düzlər uyuyacaq, belədir adət,
Yavaş-yavaş damarında qanı donacaq.
Üç ay boyu ağ yataqda yatan təbiət,
Öz vaxtında bahar adlı bir qız doğacaq…

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

YAXŞI Kİ, DOĞULMUŞAM

Bir zaman düşünərdim:
«Fanidi, heçdi cahan,
Daha yaxşı olardı
Heç doğulmasa insan.
Hardan biləsi idim
Gəlməmişəm cahana?
Az çəkərdi əziyyət,
Şübhəsiz, ata, ana.
Yuxu kimi, an kimi
Ömür keçib gedəcək,
Ölümsə varlığımı
Bir gün əsir edəcək;
Minbir əzab verərək
Nəştərini çalacaq,
Həyat adlı, can adlı
O ne'məti alacaq.
Ölüm varsa qabaqda
Doğulmağa nə hacət?
Niyə bu "zarafatı"
Düşünübdü təbiət?!»

İllər ötüb keçdikcə
Başqa cürə quruldum;
Həyatda hər ne'mətə
Dönə-dönə vuruldum.
Nə mə'nalar oxudum
Anamın gözlərindən,
Varlığım nurla doldu
Bal kimi sözlərindən.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Gözlərimlə oxşadım
Üfüqun al rəngini,
Duydum axar suların
Əfsunlu ahəngi.
Yazda gülə vuruldum,
Qışda xoşladım qarı.
Əks olundu könlümdə
Dağların dağ vüqarı.
Sonsuz bir səadətlə
Çəməndən çiçək dərdim,
İntizar çəkə-çəkə
Onu yara göndərdim.
Alqış, alqış taleyə
Bir səhər oldum ata;
Duydum ki, nəyə görə
Gəlmişəm bu həyata.
Bu dünyada kim doyub
Körpə təbəssümündən?!
Aydınlaşdı duyğular,
Keçdi duman, ötdü çən.
Elə ki, körpə balam
Ayaq tutub yeridi,
Könlüm qəmə yad oldu,
Bir dəfəlik kiridi.

Yerdən, göydən, üfüqdən,
Bə'zən bir damla sudan,
Ruhumu çulğalayan
Saya gəlməz arzudan,
Cismin, canım, varlığım
Sağdı sonsuz səadət;
Kainata vurğunluq
Oldu mənə bir adət.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Həyatın bir anını
Dərindən duymaq üçün,
Bu dünyada zərrəcə
Nişanə qoymaq üçün,
Eh, bir dəfə nədir ki,
Min yol ölməyə dəyər;
Dünyaya gəlib deyə
Şükr etsin gərək bəşər!

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

YADLAŞMAYIR MƏHƏBBƏT

Təzə tanışlıqla köhnə dostluğun
Fərqi var qış ilə yaz arasında.
AŞIQ ƏLƏSGƏR

Bir qəriblik, bir təklik
Əlində əsirəm mən.
Bu çoxdandı, lap çoxdan,
Səndən ayrı düşəndən.
Birdən elə gəlir ki,
Min il keçib o vaxtdan.
Birdən də elə gəlir
Ötüb cəmi bircə an.
Birdən uzaq olursan
Uzaq ulduzlar kimi,
Birdən sənə köklənir
Könlümün hər bir simi.
O zamandan neçəsi
Könlümə həmdəm oldu,
Tez gəlib tez getdilər,
Mənə qalan qəm oldu.
Onlar bir yuxu kimi
Qalıbdı yaddaşımda,
Sənli keçən anlarım
Hey dolanıb başımda.
Ancaq, o duyğuları
Xoş bir xəyal sanardım;
Nə həsrətdə qovrular,
Nə hicranda yanardım.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bəxtə ümid bağlayıb
Taleyi izləyərdim,
Kimisə arayardım,
Kimisə gözləyərdim.

Bir anlığa sənlə
Dünən gəldik üz-üzə,
Əvvəllər olduğu tək,
Gülüm, baxdıq göz-gözə.
Mənə elə gəldi ki,
Bizim axır görüşdən
Heç bir an da keçməyib,
Könlüm ayrılıq adlı
Şərbəti də içməyib.
Heç bir kəsi nə gəzmiş,
Nə də ki, izləmişəm;
Mən sənlə növbəti
Görüşü gözləmişəm.
Elə dünən ayrılıb
Bu gün görüşmüşük biz,
Qoşa olub, qoşadı,
Cüt vüracaq qəlbimiz…

Bülbül xöşbəxt olur gül budağında,
Aşiq ömrü keçir eşq sorağında;
Ona yer düşsə də cənnət bağında,
Sevdalı dəmlərdə gözü qalacaq;
Məhəbbət olubsa izi olacaq!

Onu əllərimiz unutsa belə,
Dönük dillərimiz unutsa belə,
Neçə illərimiz unutsa belə
Qəlbin özəyində közü qalacaq;
Məhəbbət olubsa izi olacaq!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Eşqi dastan edib dillər yaşadır,
Aşığın sazında tellər yaşadır,
Yazıb yaddaşına ellər yaşadır;
Bu dünya durduqca sözü qalacaq,
Məhəbbət olubsa izi olacaq!

Meşəni yanğın alsa
Hey kükrəyər, hey coşar,
Bəs tanımaz, hədd bilməz
Bəndi, bərəni aşar.
Görərsən söndü getdi,
Əgər başlasa leysan.
Bircə qığılcım qalsa
Ondan aman, əlaman.
Kül altında gizlənib
Hər an gözləyər fürsət.
Külək adlı aşiqi
Gəlib çıxsa nəhayət
Əvvəlkindən də güclü
Yanğın çıxar meydana…
Məhəbbət də belədi,
Yadlaşmayır insana.
Əbədi bir qığılcım
Ondan qalır yadigar,
Nə vaxt baxsan görərsən
Külün altında köz var!..

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

QONŞU YAXIN OLANDA

Qonşuluq deyilən şey
İnsanlıqla əkizdi.
Yaxşı qonşu dünyada
Hər bir şeydən əzizdi.
Xeyir olsun, ya da şər,
Hamıdan tez gələcək.
Nə çatışmır, nə yoxdu,
Hamıdan tez biləcək.
Üzə çıxan kəm-kəsir
Düzələcək bir anda, -
Qonşu yaxın olanda.

İnsan nədi, - səs, soraq;
Ya yaxşıdı, ya da pis.
Bə'zən mələk donuna
Geydirilir bir iblis.
Çox zaman da yaxşını
Pis qələmə verirlər, -
Bu yaxşını əridir,
Olsa da lap şirü-nər.
Sorağın xoş çıxacaq,
Xoş gəzəcək hər yanda, -
Qonşu yaxın olanda.

Hər gün, hər an neçə yol
Üz-üzə gəlmirikmi ? –
Əgər qonşu yaxşısa
Bir deyib gülmürükmü?
İraq sizdən, pis olsa

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Zəhər olmurmu həyat,
Çarx olub başımıza
Dolanmırmı kainat?
Qara çörək şəkərdən
Şirin olur dəhanda, -
Qonşu yaxın olanda,
Qonşu yaxşı olanda.

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

TƏK AYAQLI QƏRİNƏYƏM

Həyat adlı bu qaç-qovdan
Bircə anlıq ayrı düşsəm,
Varlığımı duman kimi
Çulğalayır kədər, ələm.
Görürəm ki, duyuram ki,
Ömür çoxdan olub yarı,
Saçlarıma ələnibdi
Bir qeyrətli qışın qarı.
Ancaq, şükür yaradana,
Hələ dizdə taqətim var,
Uzaq gəzir ünvanımdan
Ağrı, acı, azar-bezar.
Bir də, dünya dağılmaz ki,
Can evimdən qovulsa qəm, -
Düşünsəm ki, mən yenə də
Tək ayaqlı qərinəyəm?!

Bu həyata, bu cahana
Heyran, vurğun ürəyimlə,
Səadətə, eşqə bağlı
Min-min arzu, diləyimlə,
Bir afəti görən zaman
Yarpaq kimi əsməyimlə, -
Mənə niyə baxmır deyə
İnciməyim, küsməyimlə,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Hər gün, hər an qüvvələnən
Tikib-qurmaq eşqim ilə,
Bəxt deyilən o ceyranı
Qovub yormaq eşqim ilə,
Ömrün bahar çağlarına
Təranələr qoşan neyəm;
Zaman aciz qalıb hələ,
Tək ayaqlı qərinəyəm!

Axı hələ gəl-gəl deyən
Bir gözəllə rastlaşanda,
Vulkan kimi təlatümlər
Gəzir canda, axır qanda.
Sanıram ki, indi o da
Dönüb mənə baxacaqdır,
Gölərindən gözlərimə
Bir təbəssüm axacaqdır.
O keçərək saymazyana,
Tamam görmür sanki məni,
Baxışlarım incik-incik
Sığallayır o çöhrəni.
Hardan duysun o şux afət,
Nə bilsin ki, axı bu dəm,
Sanıram ki, mən hələ də
Tək ayaqlı qərinəyəm!

Zaman ki var, dayanmadan
Öz işini görür fəqət,
Yavaş-yavaş gedəsidi
Dizdən təpər, candan taqət.

Altmış, yetmiş, səksən, doxsan, -
Bir gün mən də köçəsiyəm,
Ölüm adlı o şərbəti

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Şübhəsiz ki, içəsiyəm.
O vaxt məni yarsa cərrah
Gözlərinə gələcək nəm,
Görəcək ki, qəlbən hələ
Tək ayaqlı qərinəyəm!..

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

GÖRÜŞ

Düz bir ildir ayrılmışıq
Sənin ilə, ey mehriban!
Hicranından, həsrətindən
Yanıb ciyər, dağlanıb can.
Özün hələ görünmürsən,
Ancaq, odur, səsin gəlir.
Tələsirəm görüşünə,
Necə, - hicran çəkən bilir.
Ah, xöşbəxtəm, görürəm ki,
Sən də mənə can atırsan,
Duyuram ki, sən də mənsiz
Nə dincəlir, nə yatırsan.
Üz-üzəyik, göz-gözəyik,
Nəhayət ki, çatdım sənə;
Sənin nadir gözəlliyin
Gözlərimə axdı yenə.
Vüsal ki var, el bilir ki,
O ne'mətdən doymaq olmaz, -
O gəldisə, daha özgə
Heç bir şeyə uymaq olmaz
Anam Xəzər, gözüm aydın.
Nəhayət ki, gəldi o an,
Dalğaların məhəbbətlə
Öpür onun ayağından.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ANAMDI

Yaradanım anamdı!
Ruhum, eşqim, həvəsim,
Qəlbim, canım anamdı!

Mülayim laylasından
Saflaşdı qəlbimdə qan,
Anladım, - qanad nədi!

Süd əmməsəm əgər mən
Müqəddəs döşlərindən,
Bilərdimmi söylə sən,
Ətir nədi, dad nədi.

Yeriməyi öyrətdi,
Kiriməyi öyrətdi,
Gördüm ki, ustad nədi.

Ayağıma dəydi daş,
Gözlərindən axdı yaş, -
Duydum ki, fəryad nədi.

Anama qurban olum,
Əgər məni doğmasa
Bilməzdim həyat nədi.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

QƏDRİNİ BİLSƏYDİK

Kim bilmir ki, sevgisiz
Səadət ola bilməz;
Sevgi adlı qanadsız
İnsan ucala bilməz!
Kim bilmir ki, sevgisiz
Ömür bir əfsanədi, -
Qəfəsdi, viranədi?!
Kim bilmir ki, hər insan
Bir sevdanın oğludu, -
Həyatın mənası da
Əvvəl ona bağlıdı?!
Kim bilmir ki, sevgidi
Yer üzünə şərəf, şan, -
Onsuz gözəlliyini
İtirərdi bu cahan?!
Kim bilmir ki, insanı
Eşqə ümid yaşadır? –
Hər kəs gəzir tayını,
İnanır ki, qoşadır.
Kim bilmir ki, sevgiyə
İnanmıram deyənlər,
Hər gün bir özgəsiylə
«Vüsal» donu geyənlər,
Güya azad, qayğısız
Yaşasa da dünyada,
Əslində düşdüyündən
Təklik adlı bir oda,
Ürəyinin başını

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Hey sızladır bu nisgil;
İnsan insan öz xislətinə
Yadlaşsın, mümkün deyil!
Gün kimi aydındı ki,
Hər kim tapsa tayını,
Bolabol alacaqdır
Öz səadət payını.
Gərək onu qorusun
Gözünün giləsi tək,
Ondan alsın nurunu
Qəlbindəki hər dilək.

Əfsuslar ki, həyatda,
Yazıqlar ki, çox zaman
Sevginin, səadətin
Qədrini bilmir insan…

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

NİYƏ BİRLƏŞMİRİK

Yuxudan oyanmışam,
Göz önündə sürətin;
Min illik hicran belə
Onu soldursun çətin.
Əksinə, duyğularım
Darandıqca daranır,
Hər gün qəlbim eşqinlə
Əvvəlkindən gur yanır.
O, hicranın, həsrətin
Sınağından çıxdıqca,
Sabaha eşqimizin
Gözləriylə baxdıqca,
Duyuram, yoxdu hicran,
Hər gün, hər an birik biz,
Birdir, bir də vuracaq
Cüt doğulan qəlbimiz!

Bilirəm ki, bax bu an
Düşünürsən sən məni;
İlahi bir təbəssüm
Çulğalayıb cöhrəni.
Sanırsan ki, əllərim
Yenə əllərindədi,
Nəfəsim daraq olub
İpək tellərindədi.
Dinləyəcəksən indi
Ürəyimin səsini,
Əbədi sevgimizin

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Növbəti nəğməsini.
Tamam eyni haldayıq,
Deyir qəlbimdə bir səs;
Bu eşqin qaydasıdı,
Özgə cür ola bilməz!

Bəs niyə birləşmirik,
Nədir saxlayan bizi? –
Yoxsa bu ayrılıqdı
Yaşadan eşqimizi?..

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

DƏDƏ PALID

Nabrandakf «Xəzər» turist bazasının
həyətində nəhəng palıda

Palıd, ay Dədə Palıd,
Bir kəndi saxlayırsan
Sərin kölgəndə, Palıd!
Torpaqdan güc almısan,
Yəqin ona görə də
Bu qədər böyümüsən,
Bu gədər ucalmısan.
Buludlara toxunan
Nə vüqarlı başın var!
Söylə, neçə yaşın var?
Azəri torpağında,
Bu boyda, bu buxunda
Neçə yar-yoldaşın var!?
Elə bağlanmısan ki,
Torpağa, Dədə Palıd,
İldırımlar acizdi,
Heçdi önündə, Palıd!
Torpağa bağlanmağı
Mən səndən öyrənmişəm.
Keşiyində dayanmaq
Əzəldən olub peşəm.
Məni də heç bir qüvvə
Ondan qopara bilməz,
Alıb apara bilməz!
Palıd, ay Dədə Palıd,
Biz sənlə qardaşıq,
Cütük, bəlkə də, Palıd!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

YENƏ

Yenə qələmimi aldım əlimə,
Yenə «yenə», sözü düşdü dilimə.
Yenə təslim olur şaxta, boran, qar;
Yenə qatarlanır səyyar buludlar.
Yenə bahar adlı mö'cüzə gəlir;
Quşların şərqisi yenə yüksəlir.
Yenə də durulur bulanmış sular.
Yenə də köksümə sığmır arzular.
Hər çəməndə məclis qurulur yenə.
Hisslərim daranır, durulur yenə.
Yenə gülümsəyir anamız Günəş,
Onundu hər qəlbdə közərən atəş.
Yenə gəl-gəl deyir təbiət mənə,
Şe'rə, şe'riyyətə köklənir sinə.
Yenə xumar-xumar söküldükcə dan,
Sarır varlığımı özgə həyəcan.
Quş tək qanadlanıb keçdikcə illər,
Ömrü zəmi kimi biçdikcə illər.
Hər dəfə qələmim yazaraq, «yenə»;
Boşalmaz həyatı duyan bir sinə;
Karvanım mənzilə yetəndə mənim,
Daşa çırpılanda bir gün yelkənim,
Bir özgə nəğməkar deyəcək, «yenə»;
Həyat dedikləri mümkünmü sönə?!
Eşq olsun, eşq olsun əbədiyyətə;
Eşq olsun əbədi şe'rə, sənətə!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

MƏNİ DƏLİ ELƏMƏ

Heç bilmirəm nə zaman
Qəlbimə hakim oldun,
Harda, necə, a ceyran,
Yol tapıb ora doldun.
Heç olmasa sakit ol,
Ahu kimi mələmə,
Məni dəli eləmə!

Mən sənə demədimmi,
Məndən kənar dolan, gəz!
Kim deyir eşqə yanan
Bir daha yana bilməz?!
Əfsunlu baxışları
Yalvarıram, çiləmə,
Məni dəli eləmə!

Eşq üçün nə yaşdasan,
Bunun əsla fərqi yox;
Gec gəldikcə aşiqi
Yandırırmış daha çox.
Qoy uzansın sonbahar,
Hicran, həsrət ələmə,
Məni dəli eləmə!

Bilirdim bir də sevsəm
Qaynayıb daşasıyam,
Məcnun yalan olası,
O həddi aşasıyam.
Ona görə deyirdim
Eşqi mənə diləmə,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Məni dəli eləmə!

O qədər incəsən ki,
Elə bil bir çiçəksən;
El görür ki, bəşər yox,
Bir pərisən, mələksən.
Qoy hüsnündən zövq alım,
Salma dərdə, ələmə,
Məni dəli eləmə!

Sevda qəlbi alovdan
Bəd yandırır, ey nigar!
Bu sirri kimə açım,
Onu bir duyanmı var?!
İş-gücü atıb yana
Sarılımmı qələmə?
Məni dəli eləmə!

Yaxşı, di qoy gizlicə
Həsrətinə qalanım.
Sevgi yanmaqdı, ona
Mən də doyunca yanım.
Vüsalına dözmərəm,
Yox, o dona bələmə,
Məni dəli eləmə!
Məni dəli eləmə!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

HƏM DƏ QƏLBƏN GÖZƏL OL

Qızım ARZUYA

Ay mənim gözəl qızım,
Ay mənim dəcəl quzum!
Nə qədər də incəsən,
Elə bil ki, incisən.
Sən arzusan, diləksən.
Sən pərisən, mələksən!
Xəyal qədər şirinsən,
Natəvansan, Şirinsən.
Tərif şirin, tərif bal,
Layiqisən, bol-bol al!

Ancaq, ay dəli ceyran,
Unutma ki, bircə an,
Ülvi-ülvi arzular
Ürəyinə olsa yar,
Bal kimi olsa dilin,
Qayğı çəkərsə əlin,
Həlim olsa rəftarın,
Başa varsa ilqarın,
Çor deyənə can desən,
Sonacan, hər an desən,
Min qat gözəl görünər,
Aləm nura bürünər
Sənin Ay camalından;
Səndən danışar hər yan.

Atalar buyurub düz, -
Ürəkdən nur alır üz!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

GƏZƏCƏKSƏN MƏNİ SƏN

Bu gün kimsən, ey mələk, -
Bir qayğısız kəpənək.
Aşiqlərin dövrənə
Dolanır pərvanə tək.
Gözün gülər, könlün şən,
Gəzərsənmi məni sən?!

Günəş tək çıxan zaman
Səndən danışır hər yan.
Bizim zəmanəmizə
Sənsən sultan, sənsən xan.
Mənimsə saçlarımı
Çoxdan əsir edib dən,
Gəzərsənmi məni sən?!

Edirsən aləmə naz,
Yəqin özgə cür olmaz.
Gözələ çox göz baxar
Tək birinə gələr yaz.
İlk baxışdan sənlə
Çətindi tutulaq tən,
Gəzərsənmi məni sən?!

Əfsus ki, bu olacaq,
Bir gün rəngin solacaq.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sənə ancaq saralmış
Xatirələr qalacaq.
Ürəyin tənha qalıb
Sıxılanda kədərdən
Gəzəcəksən məni sən,
Cəzəcəksən məni sən!

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ƏBƏDİ BAHARIMSAN

Anama qurban olum,
Elə böyüdüb məni,
Yay kimi əyəsiyəm
Ən qüdrətli düşməni.
Qədərində hörmətim
Vardır yaxına, yada,
Ancaq heç bir kimsəyə
Baş əymədim dünyada.

Səni gördüm, bir anda
Qətiyyətim əridi,
Hara getsən arxanca
Qəlbim, ruhum yeridi.
Qərarım da sən oldun,
Baharım da sən oldun,
Dəyanətim, qüdrətim,
Vüqarım da sən oldun,
Əminəm, gedibsə də
Əlimdən ixtiyarım,
Mum kimi yumşalsa da
Dağlar sayaq vüqarım,
Şübhəm yoxdu qətrəcə,
Yer üzündə, ey sənəm,
Bir xöşbəxt insan varsa
Şübhəsiz ki, o mənəm.
Neynəyirəm vüqarı, -
Sən mənim vüqarımsan.
Qışın dəxli yox mənə, -
Əbədi baharımsan.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ÖTƏN GÜNLƏR

Keçən günə gün çatmaz,
Calasan günü günə.
EL MƏSƏLI.

Kim ötən günlərindən
Şirin söhbət salmayır;
Xatirələr əlində
Hərdən əsir olmayır?!
Necə də şirin olur
Ötənlərin hər anı.
Bə'zən o xatirələr
Yaşatmırmı insanı?
Göy-göldə, Hacıkənddə
Nə ləzzətlə gəzərdik,
Bənövşəni, nərgizi
Nə həvəslə üzərdik?!
Hər bir təzə paltara,
Ucuz olsa da belə,
Aylarla sevinərdik,
Gəzərdik gülə-gülə.
Sonsuz sevinc içində
Gözlərdik hər bayramı,
Yeyilən ne'mətlərin
Getmir ağızdan tamı.

Beləcə boylandıqca
Ötüb keçən illərə,
Elə bil ki, çıxıram
Bir aydınlıq səhərə.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Onu da bilirəm ki,
İllər gəlib keçəcək,
O vaxt könlüm həsrətlə
Bu günü yad edəcək.

Ey könül, gəl bu günü
Sevinc ilə vur başa,
Sabahı bundan şirin,
Bundan şərəflə yaşa!

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

SƏNDƏ GÜNAH YOX…

Sən, ey mənim ümidim,
Sən, ey mənim gərəyim,
Təzəcə öyrəşirdi
Sənsizliyə ürəyim.
Yenidən çevirmisən
Ay üzünü bu yana,
Bir daha tuş etmisən
Varlığımı tufana.
Bilirəm, bir-birinin
Taleyiyik, biz, gülüm,
Taleləri fələk yox,
Ayıra bilməz ölüm.
Gəl, yaxın gəl, qoy olsun
Əllərimdə əlllərin,
Dağılsın üz-gözümə
Meh əsdikcə tellərin.
Bir cüt göyərçin kimi
Duraq nəfəs-nəfəsə,
Sevən qəlblər azaddı,
Sığa bilməz qəfəsə;
Sən qanad ol, qoy eşqin
Göylərində dolanım,
Qıyma hicrana düşüm,
Qıyma oda qalanım.
Sənin hər gəlişindən
Neçə nəğmə dil açır,
Təkcə sənə, mənə yox,
Bu cahana nur saçır.
İstərəm, şənə vüsal

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Nəğmələri oxuyum.
İstəmirəm hicranı
Vərəqlərə toxuyum.
Sən nə yardan doyursan,
Nə kənara qoyursan.
Hər ürək öz tayını
Ömür boyu soraqlar,
Gecə nədi, gündüz də
Gəzər əldə çıraqlar.
Həyatın bir qaydası
Yandırıb yaxır məni;
Tapanlar bir-birinin
Niyə bilmir qədrini?!
Niyə görmür, başına
Qonub səadət quşu,
Niyə uçub getməmiş,
Özünə gəlmir huşu?
Aydındı ki, mən sənə
Nahaqdan yalvarıram;
İşığı öz dibinə
Sala bilib hansı şam?

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

DUYMUŞAM

Yenə mənzilimə qonaq gəlib şam,
Sıxır varlığımı bu qərib axşam.
Ayın qaranlığı, göylər dumanlı,
Hər tərəf pəcmürdə, ahlı, amanlı …
Elə bil rəngini itirib aləm,
Könlümə yad olub həm sevinc, həm qəm.
Yaman yetimləşib dünya gözümdə,
Qətiyyən deyiləm özüm özümdə.
Heç vaxt düşməmişəm belə bir hala,
Varlığım laqeyddi hətta vüsala.
Min alqış hicranla ötən günlərə;
Həsrətdən yansam da gündə min kərə,
İnamla baxırdım sabaha yenə,
Qadağan etsən də, əzizim, mənə,
Sənin xəyalınla yaşardım hər an.
Deyərdim, nə fərqi, sənlisə cahan,
Başdan başa mənə cənnətdi demək.
Bülbül tək çırpınıb sinəmdə ürək
Sənin həsrətinlə elə coşardı,
Bir-birindən gözəl nəğmə qoşardı.

Yəqin unutmusan məni bu axşam;
Ayrı cür olarmı, dərhal duymuşam…

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

TƏƏSSÜF

Gör bir neçə il keçib,
Aman allah, bu nədi? –
O günlər yada düşdü,
Yenə qəlbim göynədi.
Ah, necə də gənc idik,
Tələbəydik o zaman;
Bir də gördüm mən sənin
Əsirinəm, a ceyran!
Düz iki il sərasər
Yandım eşqin oduna,
Hər arzum, hər diləyim
Bağlanardı adına.
Arzu qanadlarında
Hey uçduqca uçardım,
Sən bunlardan xəbərsiz,
Mənsə səndən qaçardım.
Mənim xəyallarımda
Qəlblərimiz bir idi,
Həyat yolumuz qoşa,
Ruhumuz əlbir idi.
Hər gün sənlə ömrü
Özgə cür yaşayardıq,
Hər dəfə də başacan
Səadət daşıyardıq.
Ağlıma gəlməzdi ki,
Tale özgə cür yaza;
Sən mənimçün dönəsən
Bir əlçatmaz ulduza.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

*****

Əsil tələbə idim,
Təqaüdlə yaşardım.
Arzuların gücüylə
Qaynayardım, daşardım…
Sən isə zəngin idin,
Tanımazdın ehtiyac,
Deyərdin, dərd nə gəzir,
Olmasın ona əlac.
Mən də belə düşünüb
Qəlbimi açdım sənə,
Rişxəndlə, istehzayla
Gör nə dedin sən mənə:
«Ağlın olsun bir gilə,
Get axtar, tayını tap!»
Sonsuz səadət dönüb
Oldu sonsuz iztirab.
Bir uçurum ayırdı
Sanki o andan bizi;
Yalvardım könlümə ki,
Sevmə ləyaqətsizi!
Bilmədin, baş qismətin
Mənim məhəbbətimdi,
Əhdimə, ilqarıma
Sonsuz sədaqətimdi.
Qəlbinə yaxşı baxsan
Orda tapardın məni,

Mən buna əminəm ki,
Sevməz idim özgəni.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İllər keçdi o gündən,
Gəlib ömrün payızı,
O cür sevə bilmədim
Mən daha heç bir qızı.
Gör nə qədər gözəl var,
Hər biri mələk kimi,
Biri birindən gözəl,
Gül kimi, çiçək kimi.
Yalvarıram könlümə,
Sev onlardan birini,
Unut o keçmişləri,
Tap layiqli yerini.
Könlümsə oyanmayır,
Bu yolda dayanmayır.
O zaman çəkilsə də
Qururla bir kənara,
Görünür ki, hələ də
Əsirdi ilk ilqara…
Az qala yarım əsr
Yaşamışam dünyada,
O illər həyatımda
Sanki yaşıl bir ada…
Tək onları sanıram
Mən ömürdən, a dildar;
Eşqsiz keçən illəri
Çulğalayır boran, qar.
Bir təəssüf hissinin
Əsiriyəm o vaxtdan;
Kaş ürək açmayaydım

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Gedib sənə o zaman.
Arzular dünyasında
Yaşayaydım, ey pəri,
İki yox, çox olaydı
Ömrün bahar illəri…

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

HƏR ŞEYİN SAFI

Yersiz tənqid güllə tək
Tə'sir edir insana.
Haqlı tənqid özü də
Əzab verir çoxuna.
Ondan saflaşasıdı
Ancaq qananın qanı,
Tənqid adam etməyib,
Bir duyğusuz insanı.
Layiqli bir tərifə
Yoxdu cahanda əvəz,
O, ən şirin ne'mətdi,
Heç zaman ziyan verməz.
Yersiz tərif hər dərddən
Daha böyük bəladı,
Bunları anlayan kəs
Yenilməyən qaladı.

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ERMƏNİ XALQINA

Sən, ey bütün tarix boyu
Dönə-dönə əzilən xalq!
Haqlı yerə güzəranı
Göy əskiyə düyülən xalq!
Niyə bu gün taleyini
Tapşırmısan daşnaklara?
Odur sənin bədənində
Sağalmayan qara yara.
Sən, ey başi cüt qapazlı,
Sən, ey üzü tüpürcəkli!
Sən, ey bədbəxt, sən, ey yazıq, -
Dəvə kinli, qurd ürəkli!
Bəsdir, oyan bu qəflətdən,
Aç gözünü, ətrafa bax!
Nə çəkmisən bu günəcən
Gəlməyibdi, əsla, nahaq.
Bax, gör bu gün hansı gündü,
Köhnə dünya harda qalıb?!
Sən yatmısan, bəşər oğlu
Haralara, gör, ucalıb?!
Öz səhvini anlamırsan,
Özgələrdən ibrət götür;
Xatirinə Napalyonu,
«Füreri», «Duçanı» gətir.
Sadəlövhlər sevmirdimi
O baş kəsən cəlladları? –
Xalqlar çəkir cəzasını
Yada versə ixtiyarı!
Heç olmasa axırıncı
Pəstahanı sal yadına;

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Dünən sənə özgələrin
Bədbəxtliyi hesabına,
Bütün ölkə, bütün cənnət
Vəd edirdi Andronik, -
Onun murdar xülyaları
Olmadımı çilik-çilik?!
Başa düş ki, nağıl deyil,
Yer üzündə var ədalət.
Bil ki, onu taptalamaq
Heç bir kəsə deyil qısmət!
Andronik fikirlidir
Bu gün Vazgen, Zori, Silva.
İmkan vermə o mənfurlar
Ürəyində sala yuva.
Yaxşı bil ki, əks halda
Yüzüncü, ya mininci yol,
Öz payını alacaqsan,
Kötək payın olacaq bol!

1988

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

SƏN

İlahiyə min şükür,
Nadir yaradıb səni;
Qələmdə qüdrət hanı,
Təsvir edə çöhrəni?!
Nə qədər də həssasdı,
Mehribandı əllərin,
Seyrindən doymaq olmaz
O ətirli tellərin.
Dodaqların qönçə tək,
Sinən andırır qarı.
Tək bircə kirpiyinə
Dəyməz dünyanın varı.
Ulduz nədi, gözlərin
Al Günəşin özüdü,
Varlığımı isidən
Alovudu, közüdü.
Sən güləndə sanıram
Bahar gəlir cahana,
Axı, o an camalın
Nur çiləyir hər yana.
Nə arıqsan, nə köksən,
Kamilliyə misalsan,
Səadət sanır onu
Hicranına yanan can.
Hər əzan, hər hüceyrən
Candan əzizdi mənə,
Min ömür sənli olsam
Vallah doymazdım yenə.
Necə gözəl olsa da
Sənin hüsnün, camalın,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ondan daha üstündü
Mərifətin, kamalın.
Ən kamil, qadir usta
Təbiətin özüdü,
Sən, sənin gözəlliyin
Onun axır sözüdü.
Odur ki, onun ilə
Yarışa girməmisən,
Hüsnünə, camalına
«Düzəliş» verməmisən.
Qəlbimdəki surətin, ay qız,
Belədir, belə;
Özün kimsən, bilmirəm,
Tanış deyilik hələ.

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

BAHAR

Yenə gəldi nazlı bahar, füsünkar bahar;
Dağlar, düzlər təzə eşqlə durdu yuxudan.
Al Günəşin gülüşüylə əridikcə qar,
Güllü bayram paltarına büründü hər yan.

Nazlı bahar, gör neçə yol görmüşük biz;
Hər gəlişin şirin olur ilk vüsal kimi.
Sən yaradan, mən yaradan, birdir qəlbimiz,
Gəl qol-qola seyrə çıxaq bütün aləmi.

Hələ dünən çılpaq olan budaqlara bax,
Bu gün təzə gəlin kimi bəzənib durub.
Hər tumurcuq, hər bir qönçə, hər yaşıl yarpaq,
Varlığında həyat adlı bir büsat qurub.

Ay sərçələr, boz sərçələr, eşq olsun sizə,
Necə sadə, necə aydın bir nəğməniz var.
Bə'ziləri baş endirib qoy eşqinizə,
Dərk eləyib bilsin nədir dözüm, e'tibar.

Dağ da, daş da köklənibdi həyat eşqinə;
Qumlu bulaq gecə-gündüz zümzüməsində.
Meh əsdikcə ləngər vurur zəmilər yenə,
Min simfoniya qanadlanır onun səsində.

Qaranquşun uçuşunun öz aləmi var,
O da duyur bahar nədi, gözəllik nədi.
Dörd göz ilə yol gözləyir körpə balalar,
Buna laqeyd olan varsa, o, divanədi.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ağ buludlar zümrüd göydə yelkən açanda,
Mənim səyyar qəlbimi də alıb aparır.
Bağçlarda Qızılgüllər ətir saçanda,
Dəli könlüm bülbül kimi fəğan qoparır.

Bahar, bahar əməlinə heyrandı cahan,
Cana gəlir nəyə dəysə sənin nəfəsin.
Sən gələndə elə bil ki, dirçəlir insan,
Arzususan, diləyisən, demək, hər kəsin.

Yaşıl çəmən, zərif otlar, körpə quzular…
Daş da heyran kəsilərdi bu gözəlliyə.
Körpəliyin gözəllikdə ayrı yeri var,
Qul oluruq uşaqlara körpədir deyə.

İlıq Günəş, mülayim meh, quşların səsi,
Aman allah, bir-birinə yaraşır necə!
Elə bil ki, kəsilibdi şərin nəfəsi, -
Yola gəlib dilbir olub gündüzlə gecə.

Mən də gərək səndən alım eşqi, ilhamı.
Səndən qadir ustad hanı, axı cahanda?!
Gəlişinin sorağını alınca hamı,
Bir oyanış, bir təlatüm duymurmu qanda?!

Qatarlanıb hey çalışır, sökülməmiş dan,
Qarışqalar çoxdan bilir, gəlmisən, bahar!
Onlardakı əlbirliyə heyrandı insan, -
Onda bizim gələcəyin nişanəsi var.

Beş-üç gündə üzüm elə öyrənib sənə,
İnanmıram gələ bilər yenə qarlı qış.
Bir də, olsun, gələcəksən vaxtında yenə,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Əhsən, əhsən bu düzümə, alqış, min alqış!

Yenə gəldi nazlı bahar, füsünkar bahar,
Dağlar, düzlər təzə eşqlə durdu yuxudan.
Al Günəşin nəfəsiylə əridikcə qar,
Güllü bayram paltarını geyindi hər yan.

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

YARADANIN EŞQİ İLƏ

Çaylar daşır, sular coşur,
Tükənməyən nəğmə qoşur.
Meh əsdikcə hər bir yarpaq
Bəstəkara çevrilir, bax.
İnsanlar da öz dilində
Neçə nəğmə qoşur gündə.
Hər canlının, hər varlığın
Öz şərqisi yığın-yığın;
Hər gün, hər an başdan başa
Bütün düyna gəlir dilə, -
Yaradanın eşqi ilə.

Dünya sonsuz bir tamaşa,
Mö'cüzədi başdan başa.
Ah, çiçəklər nə gözəldi,
Hər birisi zərdi, ləldi.
Darananda tovuz quşu
Başdan tamam alır huşu.
Civildəşən boz sərçələr
Sonsuz həyat eşqi çilər.
Görürsən ki, xırda bir dən,
Nəhəng çinar olur birdən.
Bir zamanlar Ağsu çayı
Çevrilibdi bir Göy-gölə,
Yaradanın eşqi ilə.

Qəlbim, ruhum olmur aram,
Vurulmaqdan yorulmuram.
Göydən yerə nur tökülür,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Hara baxsam könlüm gülür.
Ürəyimdən gəlməsə səs,
Dünya mənə olar qəfəs.
Bu gün vüsal, sabah hicran. –
Nəğmə qoşur ruhum hər an.
Yoxdu ona gündüz, gecə,
Səadətlə, bax beləcə,
Könlüm dönüb sarı simə.
Enir bəmə, qalxır zilə, -
Bir Sultanın eşqi ilə!
Yaradanın eşqi ilə!

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

NİFRƏTİM BÖYÜKDÜ

Bu geniş dünyada, bu şən həyatda,
Ən əziz, ən doğma insansan mənə.
Bax buna görə də söhbət zamanı,
Bütün həyatımı danışdım sənə.

Eşitdin neçə qız xoşuma gəlib,
Gözümün içinə dedin, - yamandır,
Görünür vurulmaq, sonra unutmaq
Sənə su içməkdən daha asandır.

Bəlkə töhmətində haqlı deyilsən?!
Əyləncə gəzmədim, qəm, kədər yedim.
Neçə qız bəyəndim, amma bil ki sən
Mən təkcə birinə sevirəm dedim.

Vurulmaq məhəbbət deyildir hələ.
Bir az da məğruram təbiətən mən.
Şikayət etmirəm taleyimdən ki,
Nifrətim böyükdür məhəbbətimdən.

Baxma ki, əzizim sevmişəm səni,
Baxma ki, sevirəm həyatım qədər,
Ancaq yeri gəlsə məhəbbətini
Qoparıb daşlara çırparam gedər.

Neyləyim, beləyəm, çünki əzəldən,
Nifrətim böyükdü məhəbbətimdən.

1967

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ÖMRÜMƏ SƏN GƏLMİSƏN

Gözüm gəzib hər zaman,
Sanki boş idi cahan.
Min-min gözəl olsa da,
Hər gün yüz can alsa da,
Qoymayıb könlüm yaxın;
Hurisən, mələkmisən
Sən ömrümə gəlmisən?!

Çəmində milyon çiçək,
Biri birindən göyçək.
Şərqi deyir torağay
Gülür göydə Günəş, Ay
Haray çəkir ürəyim;
Qoy eşitsin çöl, çəmən,
Ömrümə sən gəlmisən.

Tənhalığı, hicranı,
Qasırğanı, tufanı,
Əzabı, əziyyəti,
Dərdi, qəmi, möhnəti
Qovmusan məndən uzaq;
Bircə yolluq silmisən,
Örmümə sən gəlmisən.

Çox əzablar çəkmişən,
Çox zəhərlər içmişəm.
Atalar deyib bunu,
Ya əzəli, ya sonu,
Hər bəşər övladının.
Bilsin dost, bilsin düşmən
Ömrümə sən gəlmisən,
Ömrümə sən gəlmisən!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

MƏHƏBBƏT QADİRDİR

Tökülən dolarmış, mö'cüzəyə bax,
Uçan ox qayıdıb dönərmiş geri.
Yenə çağlayarmış qurumuş bulaq,
Ölü canlanarmış, olarmış diri.

Susuz səhralara leysan yağarmış.
Yanıq kötük yenə açarmış çiçək.
Gecənin yarısı günəş doğarmış.
Əl çatmaz xəyallar olarmış gerçək.

Əvvəllər bu cürə mö'cüzələrə
Əsla inanmazdım, görməsə gözüm.
İndi inanıram, belə şeylərə
Məhəbbət qadirdir, şahidəm özüm.

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

AND

Ay mənim sevgilim, körpə ceyranım,
Eşqim, məhəbbətim, ciyərim, canım,
Səhralar qoynuna alsa da məni,
Tale qürbətlərə salsa da məni,
Çaxsa ildırımlar, qopsa tufanlar,
Bu yolda olsa da min boran, min qar,
Qəlbimdə bir damla qanım qalsa da,
Ölüm kölgəsini mənə salsa da,
Göydə əbədilik Günəş sönsə də,
Kainat soyuyub buza dönsə də,
Mənim məhəbbətim sönməyəcəkdir,
Qəlbim bir an səndən dönməyəcəkdir.

Ancaq bir şərtlə ki, sinəndə gərək,
Təkcə mənim üçün çırpınsın ürək.
Damarında qanın eşqimlə axsın,
O şəhla gözlərin tək mənə baxsın.
Mənə şərqi desin qəlbinin neyi,
Yeməyi, geyməyi, deyib-gülməyi,
Mənim xatirimə edəsən gərək.
Bütün varlığınla sevəsən, gərçək.

Lakin canım-gözüm, atalar deyir,
Sən şər söyləməsən gəlməyir xeyir.
Belə köklənməsə qəlbinin simi,
Bil ki, ömrümüzün baş şərqısını,
Mənimlə bir dildə əgər ötməsən,
Ya da, bu sevdada dönüklük etsən,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Dilimin ən şirin sözü də olsan,
Çırpınan qəlbimin özü də olsan,
Qoparıb sinəmdən atasıyam mən,
Əbədi zülmətə batasıyam mən.

Neyləyim ki, mən də belə yarandım,
Budur sədaqətim, elədir andım.

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

MƏN BELƏ, SƏN ELƏ

Varsan – xöşbəxtəm, amma
Əzizim, gəl qınama;
Hicran qəlbi dağlayır,
Həsrət yaşı çağlayır,
İslanır yanaqlarım.
Sənınsə yanaqların
Qızıl gül kimi açır,
Əğyara ətir saçır.

Xoş xəyal tək gəlişin,
Kəkliksayaq gülüşün,
Silir könlüm pasını.
Əlinin təmasını
Axtarır barmaqlarım.
Sənınsə barmaqların
Təzə gül, çiçək dərir,
Əğyara pay göndərir.

Elə ki axşam olur,
Qəlbim həsrətlə dolur.
Qurban olum mən sənə.
Bir yuxuma gəlsənə,
Söyləyir dodaqlarım.
Sənınsə dodaqların
Heç bilirsən neylədi?
Daha gəlmə, – söylədi.
Məni dəli eylədi…

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

GÖZLƏYİRƏM

Məni yalqız qoyub çıxırsan yola,
Bu hicran, bu həsrət kövrəldir məni.
Ürəklə deyirəm uğurlar ola
Qəlbim, ruhum, hər an gözləyir səni.

İkimiz əvəzdən eylə ziyarət,
Yolunu gözləyən əziz ananı.
Bütün analara qayğı, məhəbbət,
Onlarsız keçməsin ömrün bir anı.

Nə yaxşı, dünyaya gətirib səni,
Çəkib hər qəhrini, böyüdüb belə.
Sonsuz əzablardan qurtarıb məni
Ömrüm göz önündə gedirdi yelə.

Öpürəm əlindən mən hörmət ilə,
Deyirəm, həyatda var ol, ey qadın!
Ömrün başdan-başa dolsun gülüşlə
Duyanlar yanında əzizdir adın.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İNAMLA SEV

Kiçik otağımda oturmuşam tək,
Sənin xəyalınla söhbətdəyəm mən.
Ruhuma, könlümə inci səpərək
Yenə kəkliksayaq deyib gülürsən.

Telefon səslənir, yenə görürsən,
Sözünün üstünə çıxmısan gülüm.
Ayrı cür olmazdı, bunu bil ki sən
Yoxdu səndən özgə fikrim, xəyalım.

Dünən zəng etmişdim, yox idin evdə,
De görək haraya getmişdin, - dedin.
Qəfildən başlayan bir tufan kimi
Bütün varlığımı alt-üst eylədin.

Bir az narahatlıq, bir azca tələş,
Bir də inamsazlıq duydum səsindən.
Sıxıldı ürəyim, ağırlaşdı baş,
Yersiz danlağının hər kəlməsindən.

Gəl əyri oturaq, gəl danışaq düz,
Ay arzum, diləyim, gümanım mənim,
İstər gecə olsun, istərsə gündüz,
Səninlə olubdu hər anım mənim.

Əzizim bir an da, unutma bunu
Şübhəli yaşamaq şərəfsiz, çətin.
Düşün sədaqətin nə olduğunu,
Şübhə qayçısıdı saf məhəbbətin.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

YENƏ DURAQ ÜZ-ÜZƏ

Dedin qurtardıq daha,
Yandırıb yaxdın məni.
Heç çıxmayım sabaha,
Mən də istəsəm səni.

Zəng etsəm sənə bir də,
Barmaqlarım tökülsün,
Elə durduğum yerdə
Qəddim yay tək bükülsün.
Məktub yazmaq istəsəm
Sınsın biləkdən əlim,
Əgər çağırsam səni
Lal olsun, sussun dilim.
İzinə düşsəm sənin
Yeriməsin dizlərim,
Gəzdiyimiz yollardan
Yoxa çıxsın izlərim.

Yox! Hamısı bunların
Birdən olsun, razıyam.
Belə taledən, gülüm,
Sanma ki narazıyam.
Əvəzində bircə yol,
Yenə duraq üz-üzə.
Əvvəllər olduğu tək;
Təbəssümlə, göz-gözə.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ÜRƏKLƏR AŞİQ OLSA

Məlum deyil kim küsüb,
Kimin günahı nədir,
Hicran döyüb qapını;
Boş bir şey bəhanədir.

Guya möhkəm inciyib
Gen gəzsək də yenə biz,
Əvvəlkindən də yaxın,
Bir döyünür qəlbimiz.

Zəng edir, susur, dinmir,
Bilirəm ki, özüdür.
Sükutun nəql etdiyi
Onun ürək sözüdür.

Zəng edirəm, dinmirəm,
Bilirəm ki, bax bu an
Duyur mənəm, barəmdə
Xoş düşünür o ceyran.

Dünya dönür cənnətə,
Ürəklər aşiq olsa.
Küsüşmək də həyatdı,
Sonu barışıq olsa.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

NECƏ DƏYDİM QƏLBİNƏ

Yaz görməmiş ömrümü
Yenə boran, qar aldı.
Könlümün bağçasını
Şaxta vurdu, saraldı.
Batdı Günəş, söndü Ay,
Ulduzlar da qaraldı, -
Axı nə oldu yenə?
Nə vaxt incitdim səni,
Necə dəydim qəlbinə?

Niyə buludlar aldı
Üstünü səadətin?
Nədən uğursuz oldu,
Sonu bu məhəbbətin?
Sən susdun, elə bil ki
Sonudur kainatın.
Axı nə dedim sənə?
Nə vaxt incitdim səni,
Necə dəydim qəlbinə?

Səməndər quşu kimi
Hey yanaram, ölmərəm.
Gəlməmək mümkün deyil,
Çağırmasan gəlmərəm,
Kim ağlasa ağlaram,
Dünya gülsün, gülmərəm,
Ahım yandırar səni
Ona dözə bilmərəm.
İnsaf et söylə mənə,
Nə vaxt incitdim səni,
Necə dəydim qəlbinə?

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İKİLƏŞDİN…

Sən mənim qəlbimdə ikiləşmisən;
Birinci də sənsən, ikinci də sən.

Birinci ruhumdu, səadətimdi,
İkinci səhvimdi, qəbahətimdi.

Birinciylə qış da mənə bahardı,
İkinciylə yay da borandı, qardı.

Birincini könlüm sevər, əzizlər.
İkincini nə axtarar, nə səslər.

Birincisi əvəzi yox bir inci,
Az qiymətli qara puldu ikinci.

Birinciylə həyatıma gəlib yaz,
İkincini görsəm könlüm tanımaz.

Birinciylə kədər nədir, bilmərəm,
İkinciylə istəsəm də gülmərəm.

Birincini səsləməkdən bezmirəm,
İkincini axtarmıram, gəzmirəm.

Birisi könlümə əbədi sirdaş,
O biri qəlbimdən asılı bir daş.

Birincisi mərddi, sanki bir ərdi,
İkinci yelbeyin, dəymə-düşərdi.

Niyə ikiləşdin axı sən belə!
Əvvəl birinciydin, qalmadın elə!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

BU QƏDƏRMİŞ MƏHƏBBƏTİN

Ömür boyu izləmişdim,
Qırx il səni gözləmişdim.
Məhəbbəti birgə andıq,
Bir alışdıq, qoşa yandıq.
Birdən-birə dönük çıxdın,
Məhəbbəti sönük çıxdın.
Kiçik bir səddi aşmağa
Tapılmadı qətiyyətin,
Bu qədərmiş məhəbbətin.

Söylədin ki, yoxdur inam
Və olmayıb heç bir zaman.
Hardan bilsin qəlbi boşlar,
Sevən qəlbdə inam olar!
Belə dedi rəfiqən də,
Eşqə inam yoxdu səndə,
Sevməmisən indiyədək.
Düz çıxdı falı qeybətin
Beşgünlükmüş məhəbbətin.

Səadəti izləməsə,
Ömür boyu gözləməsə,
Yüz il keçsin, amma bir an
Yaşamadı demək insan.
Xoş duyğular daşımasan,
İnam ilə yaşamasan,
Gül açarmı arzuların,
Bar verərmi xoş niyyətin? -
Bu qədərsə məhəbbətin?!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Gözəllərə yox etibar,
Bir dəfə də oldu aşkar.
Ancaq bil ki, ey mehriban
Hər haqqına çatır insan.
Məhəbbəti hədər bildin,
Onu gəldi-gedər bildin.
Hələ yar da tapdın mənə.
Aşdı-daşdı «mərhəmətin»
Bu qədərmiş məhəbbətin!
Heç yox imiş məhəbbətin.

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

QINAMIRAM SƏNİ

İsidə bilməz Günəş,
Gur işıqlı olmasa.
Xoşbəxt etməz məhəbbət,
Qarşılıqlı olmasa.

Sanki külək əsdi sakit bir göldən,
Tüstülü bir ocaq alışdı, yandı.
Özüm də bilmirəm nə üçün, nədən,
Ölüm yuxusundan qəlbim oyandı.

Qışın oğlan çağı oldun həmdəmim,
Könlümün bağçası min gül bitirdi.
Dəyişdi rəftarın, çölüm, çəmənim
Yazın ortasında xəzan gətirdi.

Bilirdim nə vaxtsa sevəcək könlüm,
Sevdim, kim bilmir ki o səadətdir.
Tapmaq və itirmək, bil ki sevgilim,
Dünyada ən böyük bir fəlakətdir.

Həyatda sənlə olmuşam xoşbəxt,
Sənli məhəbbətim yaşadıb məni.
Söndü gedişinlə son ümid əlbət,
Ancaq qınamıram yenə də səni.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

BARIŞIQ GƏLİB

Altı ay mənimlə mehriban oldun,
Altı ay adladı altı an kimi.
Küsüşdük, dörd ayda saralıb soldum,
Keçdi bir ömürlük bəd zindan kimi.

Axır ki araya gəlib barışıq,
Eşqin səmaları təmizlənibdi.
Çulğayıb könlümü mavi bir işıq;
Sənin gözlərindən nur ələnibdi.

Min-min zərrəsi var səadətimin,
Onların çoxundan keçərdim, inan.
Sənli anı üçün məhəbbətimin, -
San ki şahid durur bu əhdə cahan.

Daha çatılmayır rüzgarın qaşı,
Xəzri sakitləşib mehə dönübdü.
Hicran günlərinin acı göz yaşı,
Çəmənə çilənmiş şehə dönübdü.

Nə işdən yapışsan mənə ram olur,
Bir anın içində düzəlir, gedir.
Aləm başdan-başa sevinclə dolur,
Günəş heyran-heyran yeri seyr edir.

Həsrət uzaqlaşıb qınına girir,
Yollar eşqimizə diləyir uğur.
Buludlar çəkilib Aya yol verir,
O da yolumuza bol-bol nur saçır.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Biryolluq araya gəlib barışıq,
Eşqin səmaları təmizlənibdi.
Çulğayıb aləmi mavi bir işıq;
Sənin gözlərindən nur ələnibdi.

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

QORU SƏADƏTİ

Böyükdür ürəyin, şübhə yox buna,
Boğmaq istəyirsən məhəbbətini.
Bilmədən o adam layiqmi ona,
Hədiyyə edirsən səadətini.

Belə bir hədiyyə çatmaz ünvana,
Dolan bu dünyanı, başdan-başa gəz.
Özü səadəti qazanmayana,
Fələk də zənbildə göndərə bilməz.

Bir də ki, əzizim iki insana
Taleyin verdiyi səadət payı,
Çatsa üçüncüyə, bir başqasına
Zülmət çulğalayar Günəşi, Ayı.

Yüz ölç, bir biç deyib axı atalar,
Tələsmə, hər şeyi səbr düzəldər.
Dəliyə bayramdı, nə qədər ki var,
Deyirlər qozbeli qəbir düzəldər.

Nadan səadətə rast gəlsə belə
Nə görməz, nə də ki qədrini bilməz.
Özü öz əliylə sovurar yelə;
O da məlumdur ki, tökülən dolmaz.

Hər şeyin yerini biləsən gərək;
Sınan ürək bir də bitişə bilməz
Müqəddəs hisslərlə vurmayan ürək,
Heç vaxt səadətə yetişə bilməz.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bil ki mərd yaşayıb bizim babalar,
Ümid olmayıblar allah kərimə.
Səadət yolunda vuruşub onlar,
Qalxıblar uğrunda ölüm-dirimə.

Sən də qiymətini bil səadətin,
Onu heç bir kəsdən oğurlamadın.
İkinci səadət tapılsın çətin
Qoru nəzərindən nadanın, yadın.

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

BAHAR GƏLİR

Yenə bahar adlı o böyük ustad,
Bizim ana yurda gəlir, xoş gəlir.
Duyan ürəkləri eyləyərək şad,
Yaratmaq eşqiylə lap sərxoş gəlir.
Onun yaratdığı xoş lövhələri,
Təsvir edə bilməz heç kəs, heç zaman.
Bir kiçik qönçənin həyat eşqini
Ən dahi bir rəssam çəkəmməz inan.

Hanı o tablo ki, kiçik talanın
Könüllər oxşayan minbir rəngini,
Lalənin, nərgizin xoş əhəngini,
Zərif bənövşənin əyri boynunu,
Sünbülün meh ilə şirin oynunu,
Qönçədən boylanan al ləçəkləri,
Min ətir qoxuyan tər çiçəkləri,
Üç yarpaq yoncanı, sürünən tağı,
Sübh şehdən yuyunan yaşıl yarpağı…
Deməklə bitməyən tər gözəlliyi,
Ruha qida verən hər gözəlliyi,
Əks etsin, göstərsin, söyləyə bilsin,
Hər qəmli ürəkdən möhnəti silsin?!

Hanı o mahnı ki, bülbül səsini,
Onun ürək yaxan zəngüləsini,
Titrəyən yarpağın pıçıltısını,
Kiçik şəlalənin şırıltısını,
Damcı bulaqların zümzüməsini,
Axan dağ çayının şaqraq səsini,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Olduğu kimi də söyləyə bilsin,
Dinləyən hər ürək ilhama gəlsin?!

Hanı o şe'r ki, vüqarlı dağlar,
Yaşıl don geyinən çiçəkli bağlar,
Gün düşməz dərələr, sərin meşələr,
Həyata səsləyən xoş mənzərələr,
Keşikçi timsalı nəhəng qayalar,
Vətən torpağında gül açan nə var,
Olduğu kimi də dillənə bilsin
Şair olmayan da ilhama gəlsin?!

Əzizim saydığım məziyyətləri
Tək bahar bəxş edir, odur yaradan,
Varlığın ən böyük bir sənətkarı
Varsa da bahardır, söyləsəm, inan.
Gəlin yaratmağı ondan öyrənək,
Bu xoş gəlişinə min alqış deyək.

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

RÜBAİLƏR

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ömrümün payızında könlüm çıxdı yazına;
Pərvanə olmaq kimi səadət çatdı ona.
Sanırdım ki, bu işə üsyan edəcək,
O da, eşq olsun, dedi, qəlbimin sövdasına.

Könlüm hər vurulanda sandı bunu səadət,
Ağlım üsyan etdi ki, fəlakətdi, fəlakət.
Sənin gəlişin ilə baş veribdi mö'cüzə,
Ağlım ürəyim ilə dost olubdu nəhayət.

Ömrün sonbaharında gəldi mənə məhəbbət;
Kim vaxtında tapıbdı, yəqin belədi adət.
Ömrün son günündə də yetişsəydim mən sənə,
Yenə də tam olardı səadətim, ey afət!

İnsaf deyil xeyir götür yaşa, dan, -
Sonra da de, açıl səhər, yaşa, dan!
Dörd qüvvədi, - düzlük, Günəş, yar, ana,
Bu dünyada varlığımı yaşadan.

Həsrət uzandıqca, artıqca hicran,
Mənə daha əziz olursan inan.
Ay ellər, deməyin, gözdən uzaqsa
Gec-tez könülə də yad olur insan.

Beş il hicran çəkdim, dözdüm bu hala;
Daha da yüksəldin, döndün xəyala.
Beş gündə gözümdə adiləşmisən,
Bilsəm can atmazdım, əsla, vüsala.

Eşqinlə qəlbimdə durulduqca qan,
Səni özgələri cəzb edir, aman!
Ancaq sönən deyil ümid çırağım, -
Gec-tez seçəcəksən safı saxtadan.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Nə qədər hicranla zülm etsən mənə,
Arzu edirəm ki, çoxalsın yenə.
Beləcə əsrarlı qurulub həyat,
Beləcə saflaşır, ucalır sinə.

Deyirsən ki, guya sevirsən məni;
Sən bu istəyinə əminsən yəni?
Sevgi cüt doğulur, duyardım bunu,
Çıraqla gəzirəm məni sevəni.

Səhər şehi Qızıgülə yaraşır.
Tər çiçəklər qara telə yaraşır.
El qəlbinə köklənibsə bir ürək,
Hər nəğməsi yurda, elə yaraşır.

Yaxşı ki var, kövrək olur, yaman yaşayır.
Yaman elə toxumdu ki, yaman yaşayır.
Yüz «çor» desən, iş görəcək bəlkə yüzü də,
Min «can» desən, onun çoxu bir an yaşayır.

Kimlər gəldi-gedər, kimlərdi ölməz? -
Bu sorğunun cavabını ürəklərdə gəz.
Əmələri el qəlbində yurd salmayanı,
Xeyri yoxdu, min heykəl də yaşada bilməz.

Bəlkə yuxu imiş o sənli günlər?
Bəlkə xəyal imiş o gülgün səhər?
Gəldin də, getdin də, - nə dəyişdi ki,
Ruhuma, qanıma qatılıb zəhər?

Ey ürək, nə üçün məğrursan belə? -
Güzəşt hissi yoxdu səndə bir gilə.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sənin ucbatından tənha qalmışam,
Ömrümü, günümü vermişəm yelə…

Bir budaq sındırıb baxçanda külək, -
Alıb bağlayırsan, sağalsın gərək.
Qəlbimə dağ çəkib qoymusan yana,
Sanki xəbərsizsən bundan ey mələk.

Elə bil ki, bir duyğusuz kötüyəm, daşam;
Yaz günündə payız nədi, boranlı qışam.
Özgə cür də ola bilməz, düşünsən dərin,
Axı, bu gün bir misra da yaratmamışam.

Həyatın qədrini bilmək gərəkdi,
Yerində ağlayıb, gülmək gərəkdi.
Ömür amanatdı, yeri gələndə,
Şərəflə, mərdliklə ölmək gərəkdi.

Bu da bir adətdi yəqin bəşərə, -
Həsrətlə boylanır ötən günlərə.
Bir vaxt bu günlər də keçmiş olacaq,
Gəlin keçirməyək bihudə yerə.

Keçmişə həsrətlə boylanırıq biz,
Sabaha inamla vurur qəlbimiz.
Niyə unuduruq bir həqiqəti, -
Bu gün olmalıdı onlardan əziz.

Qoy həyat eşqiylə döyünsün ürək,
Hər günün, hər anın qədrini bilək.
Həyatı bir yana, hər bir insanın,
Ölümü də yersiz olmasın gərək.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bir başda bu qədər tufan olarmı?!
Bir qəlbdə bu qədər fəğan olarmı?!
Əgər bir də gəlmək mümkün deyilsə,
Belə taleli də peşman olarmı?

Elə düşmüşəm ki, eşqin gölünə,
Ölüncə odlarda yanacaq sinə.
Görünür yaxşıyam gözündə Haqqın,
Yoxsa belə tale yazmazdı mənə.

Nə vaxt səni görmüşəm, gözlərim xoşbəxt olub,
Saflaşıb duyğularım, sözlərim xöşbəxt olub.
Ölməzdim bizə gəlsən, dayansaydıq üz-üzə,
Görsəydim toxunublar, - dizlərim xöşbəxt olub.

Tülkü hiyləgərdi, qorxaqdı çaqqal,
Bibər zəqqum kimi, şipşirindi bal.
Təbiət onları yaradır elə,
Tək insana deyir, nə istəsən al!

Bu ağdı, o qaradı, - göz görür, ağıl kəsir;
Nə yaxşıdı, nə pisdi, - axı, çoxdan deyil sirr.
Necə də mürəkkəbdi insanın təbiəti, -
Çox zaman yaxşıya yox, yamana olur əsir.

O, «zövqü», «səfanı» şərabdan aldı,
Bu isə tüstüylə «qalxdı», «ucaldı».
Yazıqlar, nadanlar bilmədilər ki,
Həyatın bu üzü şəkərdi, baldı.

Sən mənim gözümdə bir al səhərsən,
Hurisən, pərisən, qeyri bəşərsən.
Uzaqdan uzağa sevəcəm səni,
Qorxuram əl versən adiləşərsən.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Nə qədər ki, sən yox idin əzab idi bu həyat,
Qəfəs idi, məhbəs idi başdan-başa kainat.
Eşqsiz keçən illərimdən dəfə-dəfə şirindi,
Xəyalınla yaşadığım hicran dolu hər saat.

Aralıqda eşq vardısa ayrı düşdük nədən biz?
Xatirələr Günəş kimi ləkəsizdir, ləkəsiz.
Hicran, həsrət sevinməsin, puçdu onların sonu,
Sevən qəlblər geci-tez birləşəcək, şübhəsiz.

O günləri ana-ana xoşbəxtəm,
Hicranına yana-yana xoşbəxtəm.
Deyirlər ki, sevgi qoşa doğulur,
Bunu doğru sana-sana xoşbəxtəm.

Elə bil üstümə yeridi dağlar,
Çulğadı ruhumu şaxta, boran, qar.
Dünyada heç bir şey səbəbsiz deyil,
Əzizim, xəbər ver, başında nə var?

Mənə söyləyirlər ki, yetər bu qədər həvəs;
Yolunu gözlədiyim guya daha bəsdir, bəs.
Son günümdə olsa da, gəlməlidi vüsalın,
Sevgi çiçək açmasın, qətiyyən ola bilməz.

Dünya qışda ağ geyinir, bu rəngi gözəl,
Yaz, yay, payız minbir rəngli, çələngi gözəl.
Bir qətrə də uyğunsuzluq yoxdu işində,
O, bir kamil nəğmədir ki, ahəngi gözəl.

Mən daha inanan deyiləm sənə, -
Dil öz qərarını bildirdi yenə.
Dedim, axı nə vaxt sən deyən olub,
Bəlkə özgə qərar verəcək sinə.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Dil hər nə söyləsə çəksin qızıl tək, -
Özünü hörmətdən salmasın gərək.
Özgə hər nə desə mənası yoxdu,
Əgər öz hökmünü veribsə ürək.

Dilim təzə dosta mehrini salır,
Gözlərim nurunu hüsnündən alır,
Əllərim adına gül, çiçək dərir…
Ürəyimsə sənin yanında qalır.

Fələk istəyinə yetəndən bəri,
Vəslinə ümidim itəndən bəri,
Tamam son qoyuldu şübhələrimə, -
Gördüm ki, sevirəm səni, ey pəri!

Ömür boyu təkcə sevinc almayıbdı, bir nəfər,
Tək zülüm də, tək əzab da gələ bilməz, müxtəsər.
Sevinc, kədər cüt doğulub, hər ikisi əzizdi,
Yaşamaqdı, yaşamaqdı baş səadət, ey bəşər!

Vüsal necə şirin olur, yaxşı bilir hər insan, -
Ona görə ömür boyu atasıdı ona can.
Pənah Göyçə, aqil tərpən, könül bağla hicrana,
Aşiqlərin qapısını odur döyən çox zaman.

Hər bir işi bizimlədi, yoxdu bir özgə dərdi;
Bir əlingə şərbətdisə, o birində zəhərdi.
Şərbətini nuş edən tək qonaq edir zəhərə,
Ona görə fələk ilə yola getmək hünərdi.

Hicranını çəkmək sənin nə şirindi, ey mələk;
Sanıram ki, ürəyimdə yoxdu özgə bir dilək.
Qiymətini bilmək üçün, qismət olsa, vüsalın,
Aşiq hicran badəsini sonacan içsin gərək.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ey sərvinaz, bil ki, sənin hicranından doymaram,
Vüsal deyə, görüş deyə xəyallara uymaram.
Gözlərimin qabağından bir an getsə surətin,
O günümə puç deyərəm, onu ömür saymaram.

Çinar yıxılarmı kök çürüməsə?
Can sakit olarmı dil kiriməsə?
Vətənin dərdinə dərman tapılmaz,
Yerindən tərpənib el yeriməsə!

İbrəti ellərdən alasan gərək;
Dinməmək qızıldı, özün hesab çək.
Ancaq elə bil ki, heç yaşamadı,
Əgər boşalmasa dolu bir ürək.

Həyat deyilənin saysız üzü var,
Onun hər birini sevirdim, aşkar.
Sən onun cəmisi bir üzü idin,
Getdin, bütün üzlər oldu tarımar.

Deyirdim sənindi, sənindi bu can,
Sənsiz yaşamaram həyatda bir an.
Sən getdin, qəlbimdə eşqin yaşayır,
Əvvəl də o imiş məni yaşadan.

Əzizim, dünyada rahat dolan, gəz;
Paxıl nə uydursa eynimə gəlməz.
Sənə özüm kimi inanıram mən,
Onu heç bir qüvvə sarsıda bilməz.

Mənim məhəbbətim saralmaz, solmaz;
O, - inci, o, - gövhər, o, - ləl, o, - almaz!
Əgər təməlində inam olmasa,
Necə qurursan qur, əməl bənd almaz.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yar bağında izim yoxdu,
Məclisində sözüm yoxdu…
Bu dərd daşı əridərdi, -
Tükənibdi, dözüm yoxdu.

Yar, - arxamca gəlmə, deyir,
Qaçıb eşqdən ilmə, deyir.
Ağlım, - yetər, daha bəsdi,
Könlüm, - onsuz gülmə, deyir.

Dedilər, çox isti keçir havalar.
Dedilər bərk gəldi bu il şaxta, qar…
Səni sevən gündən mənim dünyamda
Bircə fəsil qalıb, oda ki, bahar.

Bilirdim gözəldi güllər, çiçəklər.
Duyurdum, şirindi sağlam diləklər…
Tamam özgə rəngə boyandı cahan,
Könlümə yatandan şümşad biləklər.

Ölümün üstünə güləsiyən mən,
Verdiyi fərmanı siləsiyəm mən.
Sevgi nəğmələrim hər səslənəndə,
Dünyaya yenidən gələsiyəm mən.

Bircə dəfə mənə gəl deməmisən,
Heç bayram günü də gül deməmisən…
Bütün varlığımla minnətdaram ki,
Məni ürəyindən sil, deməmisən.

Şükürlər olsun ki, gözüm deyil ac;
Nə sərvət gəzmişəm, nə də qızıl tac.
Qanan dinləyici həsrətindəyəm,
Özgə heç bir şeyə deyiləm möhtac.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Nizami nə qədər tənqid olubdu,
Müşfiq, Vurğun onu bol-bol alıbdı.
«Dahi» tənqidçilər qapsın qələmi, -
Axı Pənah Göyçə şe'rə gəlibdi.

Bülbül nəğməsini duymur qarğalar,
Üstəlik məsxərə eyləmirmi xar?!
Gözəl nəğmələrin varsa, ey könül,
Bil ki, tə'rifdən çox söyülməyin var.

Saymır tufanları yalçın qayalar, -
Lap min il əssə də ondan nə salar?!
Heç bir soraq yoxdu tənqidçilərdən,
Nizami sənəti parlayır par-par.

Milyon illər boyu yaxşıyla yaman
Çarpışıb, bu yolla yüksəlib insan.
Bu günsə çəkişmə ölüm deməkdi,
Həm ona, həm buna, - dəyişib zaman.

Döyülən, əzilən hər kəs, hər nəfər
İstər əvəz çıxsın, qazansın zəfər.
Əzilən tərəfə kömək edəndə,
Gərək nəzarətdə saxlasın bəşər…

Kim bilmir ən böyük müəllimdi el, -
O, hər kəsə deyir, öz yerini bil.
O da var ki, yaxşı bilsə də bunu
Yerinə qoyulur hansı bir aqil?!

Deyirik, nə üçün yoxdu həqiqət? –
Niyə öz yerini almır hər xilqət?
Dahi yetişərmi zillət çəkməsə? –
Deməli işini bilir təbiət.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Hələ kamillikdən uzaqdı, hər an
Beləcə düşünür hər aqil olan.
Bax buna görə də qalır kənarda,
İrəli soxulur yarımçıq, nadan.

Nadanlar kef görür ömrü uzunu,
Aqillər dərd çəkir, bilirik bunu.
Belə ədalətli bölgü olmasa,
Həyat adiləşər, sevmərik onu.

Qurmaqdan doyarmı yaradan bir əl? –
Bu istək müqəddəs, bu istək gözəl.
Nə duyğu yönəldir sökən əlləri? –
Onlar niyə vardır, anla bunu gəl.

Özgənin yerinə göz tikmək, - bəla,
Şöhrətpərəstlikdi, düşmə o hala.
Layiq olduğuna çatmaq istəyi,
Bunun ilə bağlı deyildir əsla.

Məni şair etdi hüsnün, camalın,
Min nəğmə yaratdı kişmişi xalın.
Məgər təsəvvürə sığa bilərmi,
Nələ qadirdi sənin vüsalın?!

Ürək deyir, - vüsal eşqin gülüdü, -
Axı özü onun bir bülbülüdü.
Ağıl yenə durub edir e'tiraz,
Deyir ki, sonudu, ancaq külüdü.

Nə yaxşı ki, çirkin doğulmuşam mən,
Ona görə məndən kənar gəzdin sən.
Hicranda, həsrətdə yanmayan könül,
Nə yaza bilərdi axı sevgidən?!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sənətə gəlməkdə gecikdim yaman,
Gecikdi var-dövlət, gecikdi ad-san.
O zaman gəldi ki, yox mənə xeyri,
Belədi, belə də olub hər zaman.

Atamızdı, anamızdı bu dünya,
Bircə dənə sonamızdı bu dünya.
Qorumasaq, əlimizdə solacaq,
Evimizdi, xanamızdı bu dünya.

Qoy dünya söhbətsiz, sözsüz qalmasın,
Ocaqsız, alovsuz, közsüz qalmasın.
Lazım olmasaydıq yaradardımı? –
Elə dolanaq ki, bizsiz qalmasın.

Çox zaman görürsən iş görəndə biz,
Orda gözəllikdən qalmayır bir iz.
Görəsən bu zaman Dünya deyirmi, -
Nahaq yaratmışam sizi, şübhəsiz.

Təzəcə yetişir dünya vüsala,
Necə yanmayasan, axı, bu hala, -
O, bizi cahana şöhrət yaradıb,
Biz isə olmuşuq başına bəla.

Həyat tələb edir, birliyədir yol,
Ağıl işləyən gün çəkib ona qol.
Hər hansı birliyə hücum çəkəndə
Bəşər, səhv edərsən, ehtiyatlı ol!

Ey bəşər, nə üçün sən bilə-bilə
Dünya deyilənə olursan şələ?
Həyatda heç bir şey itməyir izsiz,
Bəlkə günahındır olan zəlzələ?

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sönsə də yenidən yanacaq həyat,
Əbədi yolludu axı kainat.
Hamının əvəzi yaransa belə,
Bir daha Nizami yaranmaz, heyhat!

Son yüz ildə çox şey yaratsaq da biz,
Tərəqqinin sonu yoxdu, şübhəsiz.
Bu böhranı keçib min il də getsək,
Yəqin ulduzlara düşər izimiz.

Dözüm kimi ne'mət hanı, - qədərində.
Səbr bəzər hər insanı, - qədərində.
Çox olanda bal da dönüb qətran dadır.
Mərhəməti bəyən, tanı, - qədərində.

Palıd lazım olan yerdə söyüd olmaz.
Əgər dənin toxumdursa, üyüd, olmaz.
Qılınc alıb yağı sənə cuman zaman,
Dözüm olmaz, səbir olmaz, öyüd olmaz.

Ədalətə heç bir qüvvə bata bilməz,
Müvəqqəti yuxlasa da, yata bilməz.
İblis, sənin çox əmələin ayaq tutur,
Ancaq gedib mənzilinə çata bilməz.

Ədaləti yaşadan var, - odur insan,
Belələrin çiynindədir bütün cahan.
Özgələri zəlil etmək istəyən kəs,
Geci-tezi özü olub yerlə yeksan.

Bəd əmələ, nahaq qana bais olan,
İnsanlığa bir ləkədi hər bir zaman.
Beləsinə heyvan deyib günah etmə,
Həmcinsinə düşmən deyil heç bir heyvan.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bu gün səhv eləmək, Kamala, olmaz.
Bəşər yetişməsin kamala, olmaz.
Şeytanlar, iblislər qələbə çala,
Murdar əməllərdən kam ala, olmaz!

Əsrarlı yaranıb başdan, binadan;
Sirrlə, mö'cüzəylə doludu cahan.
Gündə min mö'cüzə doğsa da həyat,
Yenə baş mö'cüzə insandı, insan.

Görürsən şəkəri bəyənmir biri,
Suya da möhtacdı ancaq digəri.
Nə qədər irəli getsə də həyat,
Həm onun, həm bünün olacaq yeri.

Mələklər çalışır, - tökülməsin qan,
İblislər də bekar dayanmır bir an.
Bir yolluq qələbə çalsaydı biri,
Həyat çıxmazdımı həyatlığından?

Kim ki, satın aldı şöhrət, şərəf, şan,
Ölən kimi onu unutdu cahan.
Ürəklərə köçən bir sənətkarın
Nəyinə gərəkdi fəxri xiyaban?!

İnsan yer üzünü tamam alıbdı,
Dünyanın canına lərzə salıbdı.
Kim xilas edəcək sabah həyatı? –
Yenə də insana ümid qalıbdı.

Bu gün bu iş ilə yaşayır ürək,
Deyir, sabah onu eyləyim gərək.
Yaxşı ki, qabaqda ömrün sonu var,
Mə'nasız olardı yoxsa hər dilək.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Hər gün bir dərdimi yüz eləyirsən,
Bağrımın başını köz eləyirsən.
Özgə cür saflaşmaz sevgi, məhəbbət,
Hər nə edirsənsə, düz eləyirsən.

Bilirdim ki, ürək vardır bədəndə,
Ondan öz gücünü alır hər bəndə.
Əsil qiymətini dərk eləmişəm,
Əzizim, mən onu sənə verəndə.

Kim ki, məhəbbətə meylini salır,
Həm də o dünyada cənnəti alır.
Sevgidən gen gəzən hər bir insana
Bu dünya özü də cəhənnəm olur.

Deyirlər şirindi dünya ne'məti,
Onlardan gen gəzən olmayıb qəti.
Bir deyil, min ömrüm olsaydı əgər,
Hər dəfə seçərdim tək məhəbbəti.

Məndən gen dolanıb gəzmə, ey canan,
Hesabdan silinir axı hər bir an.
Əgər mümkün olsa bir də doğulmaq,
Bəlkə də keçərdim bu günahından.

Əvvəllər, həyatla düz gələn zaman,
Üç alma gözlərdi göylərdən insan.
Neçə ki, həyata yağıdı bəşər,
Göylərdən bəlalar yenəcək hər an.

Məhəbbət çoxuna bir quru səsdi,
Ötəri əyləncə, adi həvəsdi…
Çoxluq bəla olub hər bir varlığa,
Bəlkə duyurlar ki, artmaq əbəsdi?

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Tarix boyu nəyi isə bəşər bölüb sərasər,
Güc olubdu tərəzisi, əgər desək müxtəsər.
Ağıl adlı tərəzini gətirməsək meydana,
Tezlik ilə açılacaq məşhər adlı bir səhər.

Naqis kəslər güləndə də ürəyində şad olmaz,
Paxıl bədbəxt bal da yesə damağında dad olmaz.
Ömür sürməz, əzəb çəkər belələri dünyada,
İnsan ona deyilir ki, yadlara da yad olmaz.

Nə yazmışam hələ mən?!-
Nə vermişəm elə mən?!
Şe'riyyət dünyasında
Dönəsiyəm selə mən!

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

PYESLƏR

1111111247899

(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

A F A Q

2 PƏRDƏLI 6 ŞƏKILLI
MƏNZUM DRAM

İŞTİRAK EDƏNLƏR

NİZAMİ GƏNCƏVİ – XII əsrin məşhur Azərbaycan şairi
AFAQ – Nizami Gəncəvinin zövcəsi
DARA MÜZƏFFƏRƏDDİN – Dərbənd hakimi
ATABƏY MƏHƏMMƏD – XII əsrdə Azərbaycan hökmdarı
QIZIL ARSLAN – Atabəy Məhəmmədin kiçik qardaşı, Azərbaycan hökmdarı.
DAYƏ – Afaqın dayəsi.
SARAY AĞASI – Dara Müzəffərəddinin sarayında saray ağası
BİRİNCİ ŞAİR
İKİNCİ ŞAİR
VƏZİR – Atabəy Məhəmmədin, sonra Qızıl Arslanın vəziri
VƏKİL – Atabəy Məhəmmədin, sonra Qızıl Arslanın saray vəkili
BİRİNCİ ƏYAN – Dara Müzəffərəddinin sarayının əyanı
İK**İNCİ ƏYAN** - Dara Müzəffərəddinin sarayının əyanı
ÜÇÜNCÜ ƏYAN - Dara Müzəffərəddinin sarayının əyanı
QULLUQÇU QIZ

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

BİRİNCİ PƏRDƏ

BIRINCI ŞƏKIL

/ Dərbənd hakimi Dara Müzəffərəddinin sarayında bir otaq. Axşamdır. Afaq və onun dayəsi; Dayə təsbeh çəkib zikr edir. Afaq nə isə tikir. /

AFAQ

Azad bir quş idim, düşdüm qəfəsə,
Könlüm həsrət qalıb doğma nəfəsə.
İndi bilirəm ki, nədir səadət;
Xöşbəxtdi o vaxt ki, azaddı xilqət.
Necə gözəl idi doğma obamız,
Döndü xarabaya isti yuvamız.
Dustaq yaşamağın nə mə'nası var?!

DAYƏ

Hər bir bağlı qapı bir gün açılar,
Əzizim, özünü üzmə bu qədər,
Əbədi gəlməyir sevinc, ya kədər.
Şübhəsiz adildi böyük Yaradan.
Bu dünya əmriylə dəyişir hər an,
Ağla gəlməz yerdən göndərir kömək,
Gərək ümid ilə döyünsün ürək.

AFAQ

Özün bilirsən ki, hər şey bitibdi,
Xöşbəxt günlərimiz başa yetibdi.
Bu bir təsəllidi, verirsən mənə;
Bir kimsə düşməsin belə bir günə.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

DAYƏ

Hər gün əvvəlkindən gəlsə də baha,
Gərək şükr edəsən yenə Allaha.
Zülm də, əzab da hədsizdi şəksiz,
Ən ağır günə də dözməliyik biz.
Bəd gündə dözümlə ucalır insan,
Onsuz aya, ilə dönəcək hər an.
Qaranlıq quyuya düşsə bir nəfər,
İşıq ücü gəzsə deyildir hədər.
Yağının əlinə keçib ixtiyar,
Yalnız tanrı bizə ola bilər yar.
Bütün varlığınla tapın Tanrıya,
Qoy dilindən əksik olmasın dua.
Bir an da qəlbinə qoyma Şeytanı,
Ondan bir dəfəlik təmizlə canı.
Yaxşı bəndəsinə, bil ki, Yaradan
Kömək göndərəcək çatanda zaman.

AFAQ

Elə bil varlığım çəkilir dara;
İlahi, mən hara, əsirlik hara?!
Ölüb dirilirəm gündə min kərə,
Kaş yer ayrılaydı, girəydim yerə.
Dağlar boyda dərdə çatarmı dözüm?!
Onu ərz etməyə qalmayıb sözüm.
Axı dəmirdən də olsaydı ürək,
Əriyib gedərdi bir anda şam tək.
Gec-tez bu dərd məni edəcək dəli;
Qəlbi küsən kəslər tapmaz təsəlli.

Əzizinəm şən olmaz,
Dustaq könül şən olmaz.
Başımdakı qəm qədər
Heç bir dağda çən olmaz.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

DAYƏ

Əzizim vətən yaxşı,
Geyməyə kətən yaxşı.
Gəzməyə qərib ölkə,
Ölməyə vətən yaxşı.

AFAQ

Əzizinəm gülmərəm,
Danışmaram, gülmərəm.
Bülbüləm, vətən gülüm,
Onsuz ötə bilmərəm.

DAYƏ

Əzizim gələr bir gün,
Könlümüz gülər bir gün.
Həsrəti, intizarı
Yaradan silər bir gün.

AFAQ

Əzizim vətən haray,
El haray, vətən haray!
Dünyanın hansı yeri
Olar sizə tən, haray!

DAYƏ

Nə qədər zərifdi sənin hisslərin,
Elimizə sevgin dərindir, dərin.
Ondan danışanda aşıb daşırsan,
Son günlər az qala çılğınlaşırsan.
Əzizim, bu halın qorxudur məni,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Labüd fəlakətə aparır səni.
Bir az özgə cürə yanaş bu işə,
Çəpər çək qəlbində artan təşvişə.
Bil ki, cüt doğulub xeyir ilə şər;
Şərdən də çox xeyir görübdür bəşər.
Əsir düşməsəydin, bilərdinmi sən
Nə qədər gözəldi, əzizdi vətən?!
Kim deyə bilər ki, bir zaman yenə
Afaq dönməyəcək vətən mülkünə?
Taleyin əlində bu adi bir iş,
Nə sayaq buyursa elədi gərdiş.
Qoy belə ümidlə döyünsün ürək,
Bu yolda hər zülmə dözəsən gərək.
Bütün canlılarda vətən hissi var,
Quşlarda bu sevgi aşkardan aşkar;
Ərzin o başına köçsələr, yenə
Yazda qayıdırlar vətən mülkünə.
Vətəni yenidən görməkçin bir an,
Bütün əzablara qatlanmalısan.

AFAQ

Xəyallara dönmüş ey ana vətən,
Bütün varlğımla vurğununam mən,
Yazda başdan-başa cənnət olardı,
Bəlkə də min cürə çiçəyi vardı.
Mavi göylərində qartallar süzən,
Geniş sinəsində ceyranlar gəzən
O yurd ürəyimə köçüb bir başa;
Niyə iqbalımız toxundu daşa?!

DAYƏ

Yaxşı yadımdadı, körpəliyindən
Çiçəkli düzlərə vurğun idin sən.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ətəyimdən tutub çəkərdin məni,
Qoşa dolanardıq çölü, çəməni.
Hər gün qucaq-qucaq çiçək dərərdin,
Bir-birindən gözəl çələng hörərdin.
Yadıma düşəndə o dəhşətli gün,
Gizilti canımı dolaşır bütün.
Beş yaşın olardı yəqin o zaman,
Yanımdan uzağa getmişdin bir an.
Sənə hücum etdi yırtıcı bir quş,
Belə olan halda olmur qurtuluş.
Özüm də bilmirəm nə sayaq çatdım,
Özümü yazığın üstünə atdım.
Kərəminə şükür, tale oldu yar,
Tezliklə köməyə çatdı adamlar.
Quşu qaldıranda gördülər həmən,
Cüt əlli boynundan yapışmısan sən.
Bir təhər əlindən aldılar onu,
Yoxsa yetişərdi yazığın sonu.
Sənə heyran oldu bütün adamlar.

AFAQ

Qorxudan yapışdım, burda nə sirr var?

/ Saray ağası bir qulluqçu qız ilə daxil olur /

SARAY AĞASI

Axşamınız xeyir, əziz xanımlar!

AFAQ

/ Dayəsinə /

Allah xeyir etsin, yenə nəsə var.
Ağa xanım deyə dindirir bizi,
Dünən bu rəftarın yox idi izi.

/ Dayə saray ağasına baş əyir. /

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

SARAY AĞASI

Deyəsən açılıb bəxtiniz sizin,
Bu gündən qorxusuz, ürküsüz gəzin.
Adicə bir işdir olub keçənlər,
Siz məğlub olmusuz, qalib gəlib ər.
O gündən də onun rəiyyətisiz,
Sizə qarşı kindən qalmayıb bir iz.
Əksinə, ürəyi yanır sizlərə,
Bunu mənə deyib bir neçə kərə;
Hələ hədiyyə də göndərib sizə.
Ay qarı, bu gülü gül kimi bəzə.
Deyir azad gəzsin Afaq sarayda,
Elə camal yoxdu Günəşdə, Ayda.
Belə iltifata yetmir hər əsir,
Afaq çox gözəldi, bax bundadı sirr.

AFAQ

Onun iltifatı dəysin başına,
Fələk su qataydı onun aşına.
Atamın qatili bilirəm onu,
Geyə bilərəmmi verdiyi donu?
Götür, hədiyyəsi girsin gözünə,
Hər nədirsə qaytar, çatdır özünə.

SARAY AĞASI

Dayan, baş aparma, belə qudurma,
Daşı öz əlinlə başına vurma!
Atanla döyüşüb döyüşçü Aslan,
Öldürüb qazanıb layiqli ad-san.
Bunun ağamıza nə dəxli vardır?
Sizlər zəif idi, bu ki, aşkardır.
Tarixə çevrilib olub keçənlər,
Hər an bir-birini didmirmi bəşər?

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ölən ölub getdi, ancaq sağ qalan
Həyatı düşünsün gərək hər bir an.
Ayıq ol, fürsəti gəl vermə bada,
Ayıqlar kef çəkir daim dünyada.
Tezliklə olarsan sarayda xanım,
Bu günü unutma, sən mənim canım.
Qoy haqqını tapsın hər bir yaxşılıq;
Sən o mərtəbəyə layiqsən, layiq.

AFAQ

Mənə lazım deyil belə bir kömək,
Muzdsuz qalasıdı çəkdiyin əmək.
Biz boyun əymərik yağıya, yada;
Hər şeyin adı var qoca dünyada.
Olub keçənləri silən deyiləm,
Ölsəm də bu yola gələn deyiləm.
Uşaq ya da cavan saymayın məni,
Yüz ölçüb biçirəm hər bir kəlməni.
Qətiyyən dəyişməz verdiyim qərar,
Yoxsa, qoy yüz dəfə olsun mənə ar.

SARAY AĞASI

Ay qarı, düz yola çəksənə onu,
Yoxsa xeyir deyil bu işin sonu.

DAYƏ

Əgər lazım gəlsə keçərəm candan,
Taki Afaqıma gülsün bu dövran.
Qəlbinə yad sözü eyninə almaz,
Onu dediyindən döndərmək olmaz.

SARAY AĞASI

O belə tərsdirsə sənsən günahkar.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

AFAQ

Get, get üzü yola olanı axtar.

SARAY AĞASI

Cavansan, qanmırsan, günah eyləsəm,
Bunları ağama gedib söyləsəm,
Yəqin bil ki, səni itlərə atar,

AFAQ

Demək yalquzaqdan canım qurtarar,
Durma, sən belə bir iltifat eylə,
Beş də üstünə qoy, ağana söylə.

/ Saray ağası və qulluqçu qız çıxır. /

DAYƏ

Afaq, mehribanım, nə edirsən sən?
Nə desən onların gələr əlindən.
Bu yandan də necə deyim ki, sənə
Burax o murdarı könül mülkünə.
Ümid yenə qalır qadir Allaha;
İlahi, sən onu çıxar sabaha!

AFAQ

Ruhum çoxdan uçub, tərk edib məni,
Gəzdirirəm yalnız quru bədəni.
Məhv edə bilərlər, bu adi bir iş,
Tapdaya ğilməzlər, eləmə təşviş.

/ Aişə daxil olur /

AİŞƏ

Afaq, gəl bacım ol, bağışla məni,
Neçə müddətdir ki, güdürdüm səni.
İlahi, nə qədər əzəmətlisən,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Şirdən, pələngdən də sən cür'ətlisən.
Sənsən bu dünyada var isə mələk,
Köksündə çırpınır böyük bir ürək.
Qadınlıq sənilə göyə ucaldı,
O ürək dəllalı yaxşı pay aldı.
Nə qədər gözəli məhv edib belə,
Ayaqlara salıb, eyləyib kölə.
O da cəzasını alar bir zaman,
Yoxdur, ola bilməz pisliyə aman.
Dua edəcəyəm böyük Allaha,
Qoy səni çıxarsın nurlu sabaha.

AFAQ

Kərəminə şükür, nəkarayıq biz,
O bilən yaxşıdı şəksiz, şübhəsiz.
Məni bağışlasın böyüklüyünə,
Yəqin ki, özüdü dil verən mənə.
Bir baxsın, dünyası ha yana gedir,
Aqil nə kökdədi, nadan nə edir.

DAYƏ

Afaq, özünə gəl, danışma elə,
Günah işləyirsən sən bilə-bilə.

AİŞƏ

Yaradan adildi, bunu unutma,
Heç zaman Şeytanın əlindən tutma.

AFAQ

Müqəddəs Quranı öyrənmişəm mən,
Dağılıb beynimdən, gedib duman, çən.
Qanıma hopubdu hər bir ayəsi,
Qəlbimdə şübhənin yoxdu kölgəsi.
Bu dünya durduqca, o, qalasıdı,
Bəşər onun ilə ucalasıdı.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Odur, ucal, deyən hər bir insana,
Bütün varlığımla tabeyəm ona.
Onun sayəsində bildim əzəldən,
İnsan yaranmışam bu dünyada mən.
Şeytana nifrətim, ancaq yaxşı bil,
Cəhənnəmdə yanmaq qorxusu deyil.
İnsanam, insan tək yaşamalıyam,
Bu adı şərəflə daşımalıyam.

AİŞƏ

Nə təmiz, nə ülvi duyğuların var,
İnsanın qəlbinə yol tapır onlar.
Səni dinləndikcə saflaşır ürək,
Dövran özü səni qorusun gərək.
Fələksə nadanı eyləyir ağa,
Harda yaxşı varsa salır ayağa.
Gülə bənzəyirdim beşcə il qabaq,
Gəl indi sən mənim görkəmimə bax.
Aldandım mən onun şirin dilinə,
Bir də bol hədiyyə verən əlinə.
Hələlik baş hərəm olsam da, ancaq
Qəm, kədər əlində olmuşam dustaq.
Sonacan möhkəm ol, əgər yumşalsan,
Səni də gözləyir belə «şərəf, şan»

AFAQ

Öləsi olsam da, bunu yaxşı bil,
O, öz istəyinə çatası deyil.

AİŞƏ

/ Dayəyə /
Çoxdan tanıyıram sanki onu mən,
Bütün varlığını sevdim ürəkdən.
Yanaqları sanki dağ laləsidi,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İncə dodaqları gül qönçəsidi.
Gözləri ulduzdu, camalı Aydı,
Vallah bu huriyə, pəriyə taydı.

/ Afaqa /

Nizami bir dəfə baxsaydı sənə,
Min qəzəl yazardı yəqin hüsnünə.

/ Dayəyə /

Ona sığal çəkib yaradan özü,
Yəqin onda imiş obanın gözü.

DAYƏ

O isə baxmadı kimsəyə bir an,
Göstəriş beləymiş deməli haqdan.
Kimisə sevsəydi o zaman pərim,
Olmazdı qəlbimdə qəmim, kədərim.
Məni çox sıxırdı onun bu halı,
Deyirdim ki, birdən ellər maralı
Sevgidən bir yolluq dolanar kənar,
Eşqsiz keçən ömrün nə mə'nası var.
Ancaq inanıram, duyuram ki, mən
Gözəl günlərimiz gələcək hökmən.
Xöşbəxt olacaqdır Afaqım mənim,
Dünyada yeganə könül həmdəmim.

AİŞƏ

Görüm ki, çin olsun bu xoş niyyətin.

DAYƏ

Sonu xeyir olsun hər bir xilqətin.

AİŞƏ

/ Afaqa /

O tikdiyin nədir, lütv elə göstər,
Yəqin ki, boş yerə axıtmırsan tər.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Tikməni sevirdim mən də bir zaman,
İndi gözlərimdə solur bu cahan.
Gərəkdi yenidən dönüm bu işə,
Azalar qəlbimdə əzab, əndişə.
Elə ki, nədəsə çəkirsən əmək,
Azalır dərd, kədər, dincəlir ürək.
Yaxşı ki salmısan bu işə meyil.

AFAQ

Diqqətə dəyəsi elə şey deyil.

AİŞƏ

Mümkünsə bircə an qoy baxım ona,
Sənin duyğuların əzizdir mana.

/ Dayə bir, Afaq o biri tərəfdən tutub tikməni açırlar. Tikmədə gözəl bir mənzərə təsvir olunub. /

AİŞƏ

İlahi, nə qədər gözəldi bu iş,
Kamil bir əsərdi, yetirib gərdiş.

DAYƏ

Bu bizim obanın ön tərəfidi,
Afaqın sevdiyi bir güşə idi.
Yazı həsrət ilə gözləyərdik biz,
Cənnətə dönürdü onda elimiz.
Gəzməkdən doymurduq çölü, çəməni,
Afaq hara gəldi çəkirdi məni.
Saçını bəzərdi qızıl lalələr,
Özü çiçəklərdən yüz yol təzə, tər.
Hər gün islanırdıq şehli çəməndə,
Gün xeyli qalxanda dönürdük kəndə.
Çox zaman olurdu axşama yaxın,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Gözəllik ürəyə edirdi axın.
Neçə yol yağışdan lap islanmışıq,
Sonra həsrət ilə onu anmışıq.
İndi xatirələr yaşadır bizi,
Onlar ovundurur ürəyimizi.

AİŞƏ

Böyükdü, qadirdi, adildi Allah,
Açar üzünüzə nurlu bir sabah.

/ Aişə çıxır /

DAYƏ

Dünya xali deyil, yaxşılar da var,
Hər yerdə həyata zinətdi onlar.
Anlamır ki, bədbəxt Müzəffərəddin,
Aişə tək inci tapılır çətin.
Heç vaxt bilməyəcək nədir səadət;
Hələ kamillikdən uzaqdı xilqət.
Gecə keçib gedir, dur yataq daha,
Ümidlə, inamla çıxaq sabaha.

PƏRDƏ

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İKİNCİ ŞƏKİL

/ Sarayın baş salonu. Dara Müzəffərəddin eyş-işrətdədi. Rəqqasələr oynayır. İki cariyə onu əyləndirir. Müğənni qız çalıb oxuyur. /

Eşqimdən axır eldə söz oldu, gözüm aydın!
Yara da bəlkə çata sirrim üz oldu, gözüm aydın!

Eşq adlı qığılcım cana düşdü baxışından,
Bir anda ürək yandı, köz oldu, gözüm aydın!

Aşiqdə onun birinə dözmək hünər istər,
Könlüm yarası yeddi göz oldu, gözüm aydın!

Gecələr artıb olur zülmüm, əzabım sonsuz,
Yaxşı ki, geçəm düşdü, tez oldu, gözüm aydın!

Neçə yol ərz elədim mən ürəyin istəyini,
Yarın qərarı təkcə döz oldu, gözüm aydın!

Hicran günü artdıqca, gülüm, şirin olursan,
Əvvəl beş idi, indi yüz oldu, gözüm aydın!

Məcnun dedilər adıma ey yar vurulanda,
Bu ki söz idi, döndü düz oldu, gözüm aydın!

/ Müzəffərəddin dalğındır. O, birdən canlanır, çariyələrdən birini quçur. /

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

MÜZƏFFƏRƏDDİN

Dünya biz deyən kimi
Heç vaxt olası deyil,
Nə də ki, bir kimsəyə
Mehir salası deyil.
Həyat gəldi gedərdi,
Qəm eləmək hədərdi.
Hər gün bir yeni afət,
Qoy versin mənə ləzzət.
Hər çiçəyin öz adı,
Hər tikənin öz dadı.
Sev məni, ay şux afət
Çıxsın canımdan möhnət.
Bu an sənindir, sənin,
Al canını qüssənin.
Qəlb evi olsun abad,
Bu gün də adlasın şad.
Aqil ol bu dünyada,
Fürsəti vermə bada.
Üstəlik də bunu al,
O zərif boynuna sal.

/ Ona bir boyunbağı verir, sonra işarə edir ki, hamı çıxsın. /

CARİYƏ

Hökmüdar, mən sizi çox gözləmişəm,
Bu günü, bu anı hey izləmişəm.
Necə də gözəldi bu boyunbağı.
İnanın, deyilir sözümün sağı,
Boyunbağı gözəl olsa da, yenə
Diqqətiniz daha əzizdi mənə.
Bir gözüm sevincdən səpir incilər,
Ancaq digərini çulğayıb kədər.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bilirəm, bir günlük gəlib səadət,
Dalınca karvanı çəkəcək möhnət.
Haqqım nə gəzir ki, umum daha çox,
Cür'ətim, taqətim hanı, deyim, yox.
Səadətlə ötsün qoy həyatınız,
Bizlərə da çatsın iltifatınız.

MÜZƏFFƏRƏDDİN

Birinci dəfədir cariyələrdən
Bu sayaq e'tiraf eşidirəm mən.
Hədiyyədə olur çoxunun gözü,
Bə'zən zəhləm gedir onlardan düzü.
Sən isə ruhuma payladın işıq,
Bu günə, bu ana oldun yaraşıq.
Döyündür qəlbimi, saflaşsın qanı,
Büsbütün unutdur mənə cahanı.
Məni çulğalasın sevinc, səadət,
Çıxsın yaddaşımdan nifrət, xəyanət.
Bacarsan sabah da cəlb elə məni,
İstərəm əbədi istəyim səni.

CARİYƏ

Bütün varlığımla duyuram sizi…
Qazana biləydim kaş eşqinizi.

MÜZƏFFƏRƏDDİN

Gözəllər artdıqca hərəmxanada,
Səadət əriyib olur bir səda.
Eyş-işrət içində keçir günlərim,
Çox gözləri tökür toy-düyünlərim.
Zahirən bu belə olsa da, ancaq,
Sən gəl ürəyimə diqqət ilə bax;
Təklik o yazığı didib dağıdır,
Sanki bütün cahan mənə yağıdır.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Quşlar, heyvanlara nəzər yetir sən,
Çoxunu cüt gəzib, duran görərsən.
Qoşa olmalıdır insanlar şəksiz,
Sevinci, kədəri bölməliyik biz.
Yoxdur bu günəcən könül həmdəmim,
Kimə fürsət versəm kəsilir qənim.
İçimdə bir boşluq açılıb, yeni
Uçuruma dönüb udacaq məni.
Bax, səni də çəksəm əgər yanıma,
Yağı çıxasısan sabah canıma.

CARİYƏ

Sizə sədaqətli qalasıyam mən;
Niyə olmalıyam özümə düşmən?!
Əhdimdən dönərsəm mən, ey sultanım,
Cəhənnəm odunda əbədi yanım.

MÜZƏFFƏRƏDDİN

Yox, yox, çiy süd əmib deyirlər insan,
Yalanlar üstündə dürür bü cahan.
Gəl söhbəti kəsək, hələlik dur get,
Tək qalmaq istərəm, buranı tərk et.

/ Cariyə dalı-dalı çıxır. Müzəffərəddin ağır-ağır gəzişir, sonra əl çalır. Qulluqçu gəlir. /

MÜZƏFFƏRƏDDİN

Saray ağasını tap gətir bura!
/ Qulluqçu çıxır /
Harda itib batdı yenə avara
/ Saray ağası daxil olub baş əyir /

MÜZƏFFƏRƏDDİN

/ Onu başdan ayağa süzür /

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Duruşun deyir ki, işlər düzəlmir.
O çöllər gözəli insafa gəlmir?

SARAY AĞASI

Axşam əvvəlki tək etdi e'tiraz,
Deyir ki, ölərəm, siz deyən olmaz.
Bir daha baş çəkdim ona bu səhər,
Elə bil dilinə səpilib zəhər.
Sovurdu başıma hədiyyələri,
Dedi ki, bir daha qayıtsan geri
Səni əllərimlə boğasıyam mən;
Heç nə görünməyir onun gözünə,
Düşməndi, yağıdı özü özünə.
Bu axmaq xeyrini biləsi deyil,
Yox, xoşluqla yola gələsi deyil.

MÜZƏFFƏRƏDDİN

Burda zor işləməz, söhbəti bitir,
Get onun özünü buraya gətir.
/ Saray ağası çıxır /
Lə'nət sənə kor şeytan,
Gedir əldən şərəf, şan.
Kimlərdən xərac aldım,
Gör nədə aciz qaldım…
Ona vurğunammı mən,
Ya qürurdu incidən?
Çox günah işləmişəm,
Zalımlıq olub peşəm,
Bunudamı məhv edim? –
Bəs sonra necə gedim
Allahın dərgahına,
Nə cavab verim ona?

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

/ Ağır-ağır gəzişir. Afaq daxil olur Onlar bir müddət bir birinə baxır /

MÜZƏFFƏRƏDDİN

Görürəm, yenə də yox deyəcəksən,
Şübhəsiz ağlını itirməsən sən.
Anlaya bilmirsən vəziyyətini,
Şeytanlar düz yoldan sapdırıb səni.
Görünür ki, Allah ağlını alıb;
Taleyin özünün əlində qalıb.
Sən isə yağısan özün özünə,
Xöşbəxtlik gəlirkən bir baş üzünə,
Salıb ayaq alta taptalayırsan,
Oyan bu yuxudan, oyan bircə an!

AFAQ

Səadət sözünü qoyun bir yana;
Ən böyük cəzadır insan olana,
Nifrət etdiyinin üzünü görmək,
Onunla üz-üzə ömrünü sürmək.

MÜZƏFFƏRƏDDİN

Qüvvədi hökmüran, bil ki, hər yanda.
Hər kəs öz işini görür cahanda;
Mən əzdim döyüşdə sizinkiləri,
Yaşayır o kəs ki, vardır hünəri.
Sənin bu tərsliyin hünərdən deyil,
O, başdan ayağa acizlikdir, bil!
«Yox», deyib bir anda ölməyə nə var?
Oğulsan, həyatda qazan ixtiyar.
Bəxtin gətiribdi, gəl xanımlıq al,
Hünərin çoxdursa, birinci də qal.
Sən də əz özündən zəif olanı,
Bu qoca dünyada özgə yol hanı?!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

AFAQ

Haqlısız, ancaq ki, əvvəlcə gərək
Təklif olan şeyi bəyənsin ürək.
Taledən verilir sevgi, ya nifrət,
Burda yaradana tabedi xilqət.
Əgər özbaşına olsaydı insan,
Dərilmiş gül kimi solardı cahan.
Sizə qarşı mənə böyük yaradan
Yalnız nifrət verib, sönməz heç zaman.
Ürəyim taleyə tabedi şəksiz,
Orda məhəbbətdən tapılmaz bir iz.
Təəssüf etmirəm bilin bircə an,
Ki, belə xəlq edib məni yaradan.

MÜZƏFFƏRƏDDİN

Hər dəfə sənlə söhbət edəndə
Həm sevinc, həm kədər oyanır məndə.
Sevinirəm, çünki olur aşkar,
Dünyada ağıllı qadınlar da var.
Hər dəfə daha da uzaq olursan,
Odur ki, kədər də güclənir hər an.
Ancaq çıxış yolu olmaya bilməz
Gəl mənə rəhm elə, onu sən də gəz!

AFAQ

Bir az bundan əvvəl söylədiniz siz,
Hərə öz işini görür şübhəsiz.
Özgə əqidəylə yaşayırıqsa,
Bir-birə zidd məqsəd daşıyırıqsa,
Bizim yollarımız birləşə bilməz;
İstəyir ömür boyu çıxış yolu gəz.
Mən hüquqsuz dustaq, sizsə hökmudar,
Birimiz zimistan, birimiz bahar.
Siz udmaq dilərsiz bütün dünyanı,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Mənim ürəyimdə o duyğu hanı?
Siz gücdə görürsüz hər qurtuluşu,
Mənim qəlbim bəslər azad bir quşu.
Sizin qəlbinizdə yurd salıb nifrət,
Mənisə yaşadır ancaq məhəbət.
Yalnız mənim olsun, deyirsiz hər şey,
Mənsə kasıblıqdan etmirəm giley.
İstərəm hər insan tapsın səadət,
Siz ona verirsiz yalnız fəlakət.
Dəyişə bilmərəm istəsəm belə,
Sizi də yaradan xəlq edib elə.
Tayını tapmasa insan dünyada,
Demək diri-diri atılır oda.

MÜZƏFFƏRƏDDİN

Sənlə əsasən razıyam, ancaq
Sən gəl vəziyyətə ədalətlə bax.
Durub başdan başa gəzsən dünyanı,
Tamam bir-birinə tay olan hanı?
Özgə varlıqlardı qadınla kişi,
Heç zaman onların düz gəlməz işi.
Ancaq, bax əzəldən qoşadı onlar,
Burda yaradanın öz buyruğu var.
Bir də ki, kim deyir, dəyişəsən sən,
Nə yol tutmusansa elə gedərsən.
Mənə də tə'sir et, bəhrəsini dər.

AFAQ

Mümkünmü?
Qozbeli qəbir düzəldər.
Elə asanlıqla düzəlsə insan,
Cənnətə dönərdi bütün bu cahan.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

MÜZƏFFƏRƏDDİN

Ağıllı olsan da acıdı dilin,
Yəqin bibərlərin tacıdı dilin.

AFAQ

Dilim acı deyil, səhv edirsiniz.
Bir anlıq tarixə nəzər salın siz;
Hər qulaq olsa da onun möhtacı,
Doğru söz çox zaman görünür acı.

MÜZƏFFƏRƏDDİN

Deyəsən yenə də bağladın məni,
Yox, yox, könlüm duyur könlün deyəni.
Demək o qədər də pis deyiləm mən,
Demək gec-tez gəlib olacağıq tən.
Bizim ulduzumuz barışacaqdır,
Çünki ürəyimin diləyi haqdır.

AFAQ

Gəlin özünüzü aldatmayın siz,
Duyğularınız da saxtadı, şəksiz.
Onlar doğrudan da saf olsa əgər,
Mənim ürəyimdə əks-səda verər.
Mən isə duymuram bundan bir nişan,
Əksinə, nifrətim güclənir hər an.
Məhəbbət həmişə doğulur qoşa,
Durulur, saflaşır dolduqca yaşa.

MÜZƏFFƏRƏDDİN

Aha, istəyinə çatdın nəhayət,
Mənim də qəlbimi çulğadı nifrət.
Qulluqçu olarsan ömrün üzünü,
Axmaq tərsliyinlə qazandın onu.
İstəsəm açılmaz üzünə sabah…

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

AFAQ

Lütv edib işlədin belə bir günah,
Onsuz da qəlbimdən axır qara qan.
Pislər ağa olan mənfur dünyadan
Ölüm, birdəfəlik qurtarsın canım,
Allaha əyandı mənim üsyanım.

MÜZƏFFƏRƏDDİN

Ölüm sənin üçün qurtuluş olar,
Gərək nə qədər ki, canında can var
Qara qulluqçu tək çəkəsən əzab.
Peşiman olsan da dəyişməz hesab.
İki olmayıbdı mənim bir sözüm,
Qoy bir daha səni görməsin gözüm.

/ Müzəffəriddin əl çalır. Saray ağası daxil olur /

Mətbəxdə işləsin soba qalayan,
His-pasın içində qoy çürütsün can.
Yəqin Allahın da istəyi budu;
Tezliklə alınar gözünün odu.

/ Saray ağası Afaqı aparır. Müzəffərəddin əsəbi gəzişir /

İlahi, nə yaman alçatdın məni,
Əzmişəm hər zaman hər cür düşməni.
Mənə qalib gəldi adi bir əsir,
Özüm də bilmirəm nədəndir bu sirr;
Nə öldürmək olur, nə bağışlamaq,
Sanki o hakimdi, mən ona dustaq.
Günahım az deyil, bilirəm bunu,
Məhv etdim nə nədər insan oğlunu.
Bəlkə onlar üçün cəza çəkirəm?
Günbəgün könlümdə artır kədər, qəm.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Dəhşətli yuxudu bəlkə də bunlar,
Görəsən sabaha hələ çoxmu var?!

/Pərdə bağlanıb açılır. Müzəffərəddin təkəbbürlü gəzişir. Əl çalır. Saray ağası daxil olub, baş əyir/

MÜZƏFFƏRƏDDİN

Qulluqçu işləyir Afaq bir aydı,
İxtiyardan düşüb, bir qula taydı.
Varlı ailədə böyüyüb o qız,
Daima ömr edib dərdsiz, qayğısız.
De görüm o buna necə edir tab?
Elə bilirəm ki, dəyişər hesab.
Bəlkə tərsliyinə olubdu peşman,
Həyatda daima dəyişir insan.

SARAY AĞASI

Hər gün, hər an ona göz qoymuşam mən,
Elə bil razıdı öz taleyindən,
Ürəklə, həvəslə girişir işə,
Soba qalayıbdı sanki həmişə.
Bax buna görə də sevirlər onu.

MÜZƏFFƏRƏDDİN

Heç yaxşı olmadı bu işin sonu.
Çətin bağışlayar məni yaradan;
Gərək öz yerində olsun hər insan.
Qaytar, qoy yaşasın sarayda yenə.

SARAY AĞASI

Əhsən qəlbinizin böyüklüyünə,
Sizi hifs eləsin böyük yaradan,
Üstəlik də versin sonsuz şərəf, şan;

/ Saray ağası tələsik çıxır /

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

MÜZƏFFƏRƏDDİN

İlahi, tək sənə aydındı hər sirr,
Hakim olmaq heç də asan deyildir.
Düzəltmək olsaydı hər sirri belə,
Xoşbəxtlik, səadət dönərdi selə.

/ Fikirli gəzişir, sonra yenə Allaha üz tutur /

İlahi, nə qədər kəramətlisən,
Böyüksən, ucasan, ədalətlisən!
Ümidsiz qoymursan heç bir kimsəni,
Böyük bir bəladan hifz etdin məni.
Ağlımı almışdı büsbütün bu qız,
Sanırdım ömrümə gəlibdi payız.
Bir müddət varlığım alışdı, yandı,
Gecələr əzabım ərşə dayandı.
İndi o halıma mat qalıram mən,
Az vaxtda çoxaldı saçlarımda dən.
Axı Afaq kimdi?
Dəlinin biri.
Şubhəsiz ki, saray deyildir yeri.
Mənsə bu yaşımda olmuşdum dəli …

/ Dayanır /

Dünya yaranandan bilir hər aşiq,
Ancaq məhəbbətdi ömrə yaraşıq;
Dözülməz əzablar çəksəm də həmən,
Təkcə o günləri yaşamışam mən.
Hər halda o qızda nə isə vardır,
Adi olmadığı tamam aşkardır.

PƏRDƏ

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ÜÇÜNCÜ ŞƏKİL

/ Yenə sarayın baş salonu. Müzəffərəddin saray ağası, ə'yanlar və şairlərin əhatəsindədir. Mirzə Nizami Gəncəvinin Dara Müzəffərəddinə həsr etdiyi qəsidəni təzəcə oxuyub qurtarıb. Hamı qəsidənin tə'siri altındadır /

MÜZƏFFƏRƏDDİN

Necədi qəsidə?
İndi biz gərək,
Şairin işinə düz qiymət verək.
/Hamı susur, bir-birinə baxır/

BİRİNCİ Ə'YAN

Düzü tanımıram kimdi Nizami,
Hələ ki, şöhrəti gəzmir aləmi.

İKİNCİ Ə'YAN

Şair Gəncədəndir, çox gəncdi hələ,
Sözünü deyəcək bu gündən belə,
Hələ yer almayıb heç bir sarayda,
Xəyalı dolanır ulduzda, Ayda.
Ustalıqla yazır şirin qəzəllər,
Mövzusu gül, bülbül, bir də gözəllər.

ÜÇÜNCÜ Ə'YAN

Nə qədər gül, bülbül söyləmək olar?
Şairlər bu işdən yorulmadılar…
Onlardan yazırlar əzəldən bəri,
Güllə bülbülünsə yoxdur xəbəri.

BİRİNCİ ŞAİR

/ Yarı istehzalı /

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bülbül xəbərsizdi yaxşı ki, bundan,
Yoxsa oxumazdı lovğalığından.

MÜZƏFFƏRƏDDİN

Rəngarəng yaradır tanrı xilqəti,
Hərə bir cür görür bu təbiəti.
Doğrudan gözəldi, ətirlidi gül,
Hər bir dinləyəni məst edir bülbül.
Hərə bir cür duyur bu gözəlliyi,
Köçürür kağıza duyduğu şeyi.
Gül, bülbül Allahın bir zərrəsidir,
Hər biri tükənməz, hüdudsuz bir sirr;
Onları sonacan dərk etmək olmaz.
İstəyir lap götür milyon qəzəl yaz,
Hamısı bir gülü eyləməz əvəz,
İnsan yaradanla bəhs edə bilməz.
Demək əbədidi şe'r və sənət.
Daim yüksəlsə də bu yolda xilqət,
Onun zirvəsinə çatası deyil,
Hər şair, hər şer təkrarsızdı, bil.

İKİNCİ ŞAİR

Qızıl xırdalayır, vallah, hökmüdar,
Onun hər sözündə dərin mə'na var.

ÜÇÜNCÜ Ə'YAN

Elədir, nə qədər durur bu cahan,
Haqqın kölgəsində dolanır insan,
Şair təbiətlə yarışasıdı,
Daha gözəl şe'r yazılasıdı..

İKİNCİ Ə'YAN

Bəs kimə gərəkdi bu qədər şe'r?
Pas atıb qalacaq, bundan nə xeyir?

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

BİRİNCİ ŞAİR

Çoxu yazılan tək dərhal pas atır,
Bu gündən sabaha tək-təki çatır.
Zəiflər elə bil yoxdu həyatda,
İncilər yaşayır bu kainatda.
Götür Firdovsini, düşübdü dilə,
O, öz qiymətini alacaq hələ.
Onu ürək ilə oxuyan hər kəs,
Əvvəlkindən yaxşı olmaya bilməz.
İnsanı yüksəldir elə əsərlər;
Şairlər boş yerə axıtmayır tər.

ÜÇÜNCÜ Ə'YAN

Dayan, şair qardaş, ağ etmə görək,
Elə asanlıqla dəyişməz ürək.
Bir də ki, şairlər tanrıdır, nədir? –
Sənin dediklərin lap gülməcədir.
Allahın əmriylə xəlq olur insan,
Necə keçəsidi, ömrü anbaan,
Yazılıb alnına şəksiz, şübhəsiz;
Orda yazılan tək olacağıq biz.

BİRİNCİ ŞAİR

Onda söylə görək kimdi bu şeytan?
Ona əsir olur nə qədər insan.
Onların alnında bu varsa əgər,
Günahları yoxdur, desək müxtəsər.

/ Üçüncü ə'yan çaşır, hamı gülüşür /

BİRİNCİ Ə'YAN

Sənət dediyimiz deyil havayı,
Nə də ki, deyildir hər kəsin payı.
Hökmüdarlar üçün yaranır onlar,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Hər bir varlının da onda payı var.
Şe'r və müsiqi dinləyən zaman,
Daha mərhəmətli olur hökmuran.
Odur hökmüdarın baş keyfiyyəti;
Mərhəmət yaşadır eli, milləti.

BİRİNCİ ŞAİR

Əfsus ki, o sayaq qurulub həyat,
Ondan uzaq düşüb qara camaat.

ÜÇÜNCÜ Ə'YAN

Bu dəfə doğrudan ağ elədin sən,
Rəiyyət şah ilə olacaqsa tən,
O da şe'r ilə ucalacaqsa,
Gözəl musiqidən həzz alacaqsa
Bəs kim edəsidir torpağa xidmət? –
Cəhalət gərəkdir orda, cəhalət.
Məgər öz gücünə kimsə olur şah? –
Şahı şah yaradır əzəldən Allah.
Kimsə olmalıdır onun nökəri;
O, yerinə qoyur hər bir bəşəri.

İKİNCİ Ə'YAN

Həyata özgə cür baxır rəiyyət;
Özgədi könlündə hər arzu, niyyət.
Vaxtında yağırsa bağına yağış,
Min yol edəsidir tanrıya alqış. –
Qırmızı geyəcək gözündə cahan,
Ləzzət alasıdır yağışdan o an.
Bir az ziyan versə yağış tarlaya,
Naləsi çatacaq ulduza, Aya.
Qara geyinəcək dünya gözündə,
Söyəcək yağışı hər bir sözündə.
Necə gəlir bulud, necə coşur sel,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bu onun gözünə görünən deyil.
Yer, göy, Ay, ulduzlar, dağlar, dərələr.
Misilsiz, təkrarsız bu mənzərələr
Adi bir şey kimi görünür ona,
Nə olsun, deyərək qoyacaq yana.
Əkiz bala versə əgər qoyunu,
Bunlardan daha çox cəzb edir onu.

BİRİNCİ ŞAİR

Tamam özgə cürə düşünürəm mən,
Rəiyyət bir pillə yüksəlsə, hökmən
Məhsuldar olacaq onun əməyi,
Bunun sahibə də çatar köməyi.

MÜZƏFFƏRƏDDİN

Maraqlı olsa da bu söz, bu söhbət,
Ancaq aralıqda özgədi niyyət.
Əvvəl qəsidəyə qiymət verin siz,
Mübahisə olsun yenə işiniz.

İKİNCİ Ə'YAN

Çox böyük zövq aldım mən bu əsərdən,
Deyərdim ki, yazıb Firdovsiyə tən.
Bal kimi şirindi yazının dili,
Görünür mahirdi Nizami əli.
Hər söz, hər qafiyə yerli yerində,
Fikir sadə, aydın, deyil dərində.
Təşbihlər, misallar usta seçilib,
Sizə layiq olan bir don biçilib.

BİRİNCİ ŞAİR

Yüksək sənətkarlıq duyulur şəksiz,
Layiqli bir əsər dinləmişik biz.
Çiçəkli çəmənə bənzəyir əsər,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Elə bil açılıb gülgün bir səhər.
Yuyunub, daranıb hər gül, hər çiçək,
Elə bil lövhədir, dincəlir ürək.
Görünür sizə çox hörməti vardır,
Ürəklə yazılıb, açıq aşkardır.

ÜÇÜNCÜ Ə'YAN

Ümumən dəyərli olsa da əsər,
Onu bir balaca tənqidə dəyər.
Sizi lazımınca etməmiş tə'rif,
Bolluca nəsihət edir bu hərif.
Onda vəzir, vəkil nəyə gərəkdir?-
Hər kəsə aydındı, bu ki deyil sirr.

İKİNCİ ŞAİR

Sizin fikrinizlə şərikəm mən də,
Gərək düz deyəsən yeri gələndə.
Yaxşı fikirləşssən görərik aşkar,
Ondan yüksəkdədir bizim hökmüdar.
Verir bollu-bollu öyüd, nəsihət,
Böyükdür, adildir bizim hökmüdar,
Onda ağıl da var, siyasət də var.
Elə bil dərs deyir cavan bir şaha,
Özü də bilmədən batır günaha;
Ağıllı ol desən bir ağıllıya,
Haqqı var ki, səni salmasın saya.
Hökmüdar, sinəmdə oynadı ürək,
Sizə layiq əsər yaradım gərək.

MÜZƏFFƏRƏDDİN

Qüdrətli şairlər yaranır tək-tək,
Köksündə gəzdirir özgə cür ürək.
Yəqin Allaha da əzizdir onlar,
Odur ki, o sayaq ürəkləri var.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Şübhəsiz çox ülvi ne'mətdir şe'r,
Hər cızma-qaraçı deyildir şair.
Şe'ri hər yetirən yarada bilməz,
Nəzər sal keçmişə, tarixləri gəz,-
Min-min şair olub Homerdən bəri,
Ancaq tək-təkinin vardır kəsəri.
Gəncəli Nizami cavan olsa da,
Şair tək beş-üç il qələm çalsa da,
Mənə elə gəlir, çox qüdrətlidi,
O, həm ağıllıdı, həm cür'ətlidi.
Ürəyə yol tapan qəzəlləri var,
Odur şe'riyyətə gətirən bahar.

İKİNCİ ŞAİR

Görünür ki, ona vurğunsunuz siz,
Şübhəsiz böyükdür, bir də, qəlbiniz.
Belə mərhəməti görməyib cahan,
Aşkar qüsurdan ga keçirsiniz yan.

MÜZƏFFƏRƏDDİN

Bir vacib cəhəti alsaq nəzərə,
Mübahisə getməz yəqin boş yerə;
Mənə yazılsa da, tək mənim deyil,
O, bütün şahlara bir xitabdır, bil.
Özgəyə deyilən sözlərdən hər an
Payını götürür ağıllı insan.
Adil olmalıyıq, şübhəsiz ki, biz,
Mərhəmətlə vursun gərək qəlbimiz.
Bircə an qayıdıb tarixə baxsan
Saysız şah yetirib görərsən cahan.
Əlində olsa da eyni ixtiyar.
Bəlkə yer-göy qədər fərqlidi onlar.
Birindən el görür ancaq ədalət,
Birindən tarix də çəkir xəcalət.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Allahın izniylə yəqin hər şair
Hakim olanlara nəsihət verir.
Şəksiz ki, zalımlar alır payını,
Bir qədər azaldır zülmün sayını.

BİRİNCİ ŞAİR

Sizin fikrinizdə çoxdu həqiqət,
Sənətin gücünə saflaşır xilqət.
Qəlbində şeytana yer versə hakim,
Onun köməyinə yetərmi bir kim?!
Şair da, şe'r də kəsərdən düşər,
Belə fir'onları çox görüb bəşər.
Səbri tükənməzdir böyük Allahın,
Bu gərək yadından çıxmasın şahın.
Hər bir əməl üçün hesab çəkilir,
Axı yaradana yoxdu gizli sirr.

MÜZƏFFƏRƏDDİN

Görürəm, fürsəti itirməyib sən,
Mənə asta-asta öyüd verirsən.
Görünür bu sizin qanınızda var,
Nə yaxşı ki, sizdə deyil ixtiyar;
Sizin əlinizdə qalardım yəqin,
Bütün gün məsləhət alardım yəqin.
Yaxşısı budur ki, indi hərəniz,
Bir qəzəl oxuyun, ləzzət alaq biz.
Lap mininci dəfə qoy güldən olsun,
Ya da sevgilisi bülbüldən olsun.
Ya da vəsf olunsun şamla pərvanə,
Min yol deyilibdi, deyilsin yenə.
Yox-yox, tə'riflənsin qara tellilər,
O sərv qamətlilər, incə bellilər.
Nə qədər qüdrətli desəniz, ancaq
Onların yanında sönük olacaq.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İKİNCİ ŞAİR

Ay sərvinaz, sən gedənnən gülmür üzüm, kaş biləydin!
Yollarına dikilibdi iki gözüm, kaş biləydin!

Hicranının sazaqları iliyimə işlədikcə,
Tərk eləyir varlığımı, bitir dözüm, kaş biləydin!

Gecə-gündüz fikrim, canım təkcə sənin yanındadı,
Adın ilə bağlı gəlir hər bir sözüm, kaş biləydin!

Hər arzuma, diləyimə qanad verən özün idin,
Pozulubdu həyatımda nizam, düzüm, kaş biləydin!

Qayıtmasan varlığımda həyat eşqi sönəsidi,
Gücdən düşüb biləklərim, əsir dizim, kaş biləydin!

Lap dəmirdən olsa belə sənin qəlbin, bilirəm ki,
Bu halıma yumşalardın, mənim özüm, kaş biləydin!

El bilir ki, xeyirlə şər cüt qardaşdı bu dünyada,
Qətrə-qətrə yanmağımdı qalan izim, kaş biləydin!

BİRİNCİ ŞAİR

Könlümün sultanısan, qoy yenə qurbanın olum!
Bir dəfə, beş dəfə yox, min dönə qurbanın olum!

Həm Ayım, həm ulduzum, həm Günəşim sənsən axı,
Yan baxıb qıyma çırağım sönə, qurbanın olum!

Elə ki, düşüncəm də təslim oldu məhəbbətə,
İmana gəldim o gün, həm dinə, qurbanın olum!

Axı nə oldu ki sən əğyara meyl eyləmisən,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

«Can»dan artıq nə dedim mən sənə, qurbanın olum?

Sənə eşqim, sənə sevgimdi mənim cüt qanadım,
Qıyma könlüm səmadan tez enə, qurbanın olum!

Hicranın hökm elədikcə ürəyim dərdə düşür,
Taki artıb yetişə lap minə, qurbanın olum!

El bilir, el tanıyır, sən də bil bu aşiqini,
Sənin eşqinlə yanan bir sinə, qurbanın olum!

/ Qəzəllər oxunduqca ə'yanlar və hökmüdar razılıqla başlarını tərpədir. Axırda «əhsən» sədaları eşidilir. /

MÜZƏFFƏRƏDDİN

Özgə mö'cüzədi bizim bu diyar,
Hər daşın altında ləl var, gövhər var.

/ Şairlərin hərəsinə bir kisə qızıl atır. Sonra ayağa durur. Hamı qalxır, vidalaşıb çıxırlar. Müzəffərəddin işarə edir ki, saray ağası qalsın. /

Qəsidə necədi, sən də din görək,
Yenə narahatdı sinəmdə ürək.

SARAY AĞASI

Belə bir meydanda nəkarayam mən,
Burda fikir demək gəlməz əlimdən.
Ancaq xoş göründü mənə o yazı,
Hələ də könlümdə gəzir avazı.

MÜZƏFFƏRƏDDİN

Nizami şairdi, söz ola bilməz,
Bəlkə də ölkədə tapılmaz əvəz.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Həm heyran eyləyib qəsidə məni,
Həm də artırıbdı qəmi, qüssəni.
Heyranam ondakı sənətkarlığa,
Elə bil girirsən güllü bir bağa.
Öyüd-nəsihəti aşır həddini,
Elə bil körpəyəm, öyrədir məni.
Əyanlar, şairlər duydular bunu,
Bəlkə də həcv kimi saydılar onu.

SARAY AĞASI

Həddindən həssasdı sizin qəlbiniz,
Onda meh də əssə qoyasıdı iz,
Ürəkdən yazılıb, gözəldi əsər,
Yox, yox orda həcvdən tapılmaz əsər.
Bir də, indən belə nə etmək olar,
Axı sözün oxla bir oxşarı var.
Ağızdan ki, çıxdı, qayıtmaz geri,
Yayar dörd bir yana ondakı sirri.

MÜZƏFFƏRƏDDİN

Bunun əvəzini çıxmasam ondan,
Qəlbim sakit olmaz, dincəlməz bu can.

SARAY AĞASI

Pislik ola bilməz onun məqsədi,
Elə olan yerdə qazancı nədi?

MÜZƏFFƏRƏDDİN

O, nəsihət verir bütün şahlara,
Mənim misalımda çəkir aşkara,
Necə olmalıdı hər bir hökmüdar;
Belə yazıların elə xeyri var.
Ancaq, qoy sözünü desin özgəyə,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Əzab çəkməliyəm axı mən niyə?

SARAY AĞASI

Ona pislik etmək yaraşmaz sizə,
Əksiklik gətirər şərəfinizə.

MÜZƏFFƏRƏDDİN

Pislik niyə?
Ona dərs verim ki,
Ondan sonra necə yazacaq görək.
Bir od salacağam onun canına,
Zəhər tək çökəcək bil ki, qanına.
Hər fələk də ona eyləməz kömək,
Görsün ədalətli olmaq nə demək.
/ Gəzişir, sükut edir /

SARAY AĞASI

Anlaya bilmədim nədir fikriniz.

MÜZƏFFƏRƏDDİN

Ona bir hədiyyə verməliyk biz.
Dünya yaranandan belədir qayda,
Şair almalıdı sözündən fayda.
Elə bir hədiyyə verəcəyəm mən,
Anadan əmdiyi gəlsin gözündən.
Bu işi uzatma, lap günü səhər,
Afaqı şairə hədiyyə göndər.
Həm şair layiqli payını alar,
Həm də ki Afaqa yaxşı dərs olar.

PƏRDƏ

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İKİNCİ PƏRDƏ

DÖRDÜNCÜ ŞƏKİL

/ Gəncə, Nizami GƏncəvinin evi. Şair əyləşib yazır. Afaq daxil olub onun yanında əyləşir, Nizami bir az da yazıb qələmi yana qoyur. /

AFAQ

Oxu görək nə incilər saçıb bu gün qələmin;
Nə xöşbəxtsən, şe'rə dönür həm sevincin, həm qəmin.
Hər gün şe'r dinləməyim olub mənə bir adət,
Yer üzündə ola bilməz bundan böyük səadət.

NİZAMİ

/ Oxuyur /

Sən ey bütün kainatın bircə, təkcə sultanı!
Sən ey bütün varlıqların həm xaliqi, həm xanı!
Sən nə qədər möhtəşəmsən, sən nə qədər alisən,
Hər nə varsa bir zərrəndi, hüdüdsuzsan elə sən.
Bir kainat yaratmısan kənarı yox, yanı yox,
Hər ulduzu bir aləmdi hesabı yox, sanı yox.
Bütöv dünya bəxş etmisən Adəm oğlu insana,
Əbədidi, təkrarsızdı, yaraşıqdı cahana;
Onun üstü, onun altı tükənməyən sərvətdi,
Hara baxsan, nəyi alsan bir əvəzsiz ne'mətdi.
Yaratdığın hər bir cisim tükənməyən mö'cüzə,
Min sirrini açsaq belə qaranlıq gəlir gözə.
Onu necə xırdalasan yenə sonu görünməz,
Sənin heç bir əməlinə ola bilməz bir əvəz.
İnsan adlı mö'cüzəni yaratmısan bir anda,
Yaxşı-pisi odur duyan, odur seçən cahanda.
Eləmisən yer üzünə onu külli ixtiyar,
Kainatı duymaq üçün bəxş etmisən beş açar.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sonsuz dəfə göstərdin ki, hüdudsuzdur imkanın,
Bir birinə yox bənzəri bir bu qədər insanın.
Hər birinin öz sifəti, hər birinin öz adı,
Hər birinin öz diləyi, öz sevinci, fəryadı.
Hər birinə ömür, həyat özgə cürə açılır,
Hər könülə özgə sevgi, özgə dilək saçılır.
Biri şah tək ömür alır, o birisi olur qul,
Biri daim varlı olur, biri gücsüz və yoxsul.
Biri səndən sifət alır qızılgüldən çox gözəl,
O birisi yaranışdan solğun olur, - bir xəzəl.
Sənin bütün əməllərin müqəddəsdir və haqdır,
İnsan ömrü bu dünyada başdan başa sınaqdır.
Əməliylə hər bir insan əbədiyyət qazanır,
Ya cənnətdə məskən alır, cəhənnəmdə ya yanır.
Mənə ağıl vermisən ki, xəzan bilməz bir bahar,
Onu sənə dua üçün işlətməyə haqqım var.
Sonsuzsa da sənin rəhmin, qoy bir az da çoxalsın,
Könlümüzdə yeri mələk qoy Şeytandan çox alsın.
Bilirəm ki heç bir zaman qurd qoyunla otlamaz,
Ona imkan çatan zaman ziyan vursun daha az.
Ömür sınaq olsa belə şirinliyi çox olsun,
İnsanların gözü, könlü günü gündən tox olsun.
Qoy çəkilsin bir dəfəlik yer üzündən zülüm, qan,
Fəryadlardan qaralmasın, tutulmasın asiman.
Adil olsun bir birindən göndərdiyin hər bir şah,
Rəiyyət də aqilləşsin, işləməsin qoy günah.
Zəhmət çəkmək hər insana olsun şöhrət, şərəf, şan,
Qoy azalsın xəstəliklər, sağlamlaşsın hər insan.
Səxavətli, münbit olsun başdan başa torpaqlar,
Yer üzünə şəfəq salsın xəzan bilməz bir bahar.
Bir birinə can söyləsin, can eşitsin hər xilqət,
Kərəm qıl ki, yer üzü də olsun xırda bir cənnət.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

AFAQ

Yenə yaradana xitab etmisən,
Şeyda bulbul kimi yenə ötmüsən.
Onlar bir birinə bənzəmir əsla,
Hər biri mə'nalı, hər biri ə'la.
Hər dəfə deyirəm qurtardı daha,
Nə tə'rif mümkünsə yazıb Allaha.
Sən isə açırsan təzə xəzinə,
Daha gözəl sözlər tapırsan yenə.
Hər dəfə yaranır yeni bir əsər,
Hər kəlməsi inci, hər beyti gövhər.
De hardan tapırsan bu qədər sözü,
Anlaya bilmirəm bu sirri düzü.

NİZAMİ

Nə varsa bağlıdı haqqın özünə,
Odur işıq verən əqlin gözünə.
Özü verib mənə elə imkanı,
Onun nəzərindən kənar şey hanı?!
Yaradan barədə düşünəndə mən,
Hər dəfə baxıram özgə cəhətdən.
Hər dəfə özgə cür duyuram onu,
Yoxdur, ola bilməz duyğunun sonu.
O qədər zəngindi onun xisləti,
O qədər ülvidi eşqi, niyyəti,
O qədər sonsuzdu onun imkanı,
O qədər möhtəşəm qurub cahanı,
Mən yox, qələm çalsa bütün bu aləm,
Tükənən deyildir qibleyi-aləm.

AFAQ

Necə də istidi şair nəfəsi,
Necə də yüksəkdi şairin səsi.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Lap yüzdə birini duyursa bir kəs,
Cahana, həyata pis deyə bilməz.
Sənətdən zövq alır nə qədər insan,
Şe'rsiz çox kasıb olardı cahan.

NİZAMİ

Tək zövq almaq üçün deyildir sənət,
Onunla daha da ucalır xilqət.
İnsani sifətlər, - sevmək, sevilmək,
Ürəkdən sevinmək, ürəkdən gülmək,
Mərdlik, mehribanlıq, düzlük, ədalət,
Saymaqla bitməyən hər ali niyyət
Allaha xas olan keyfiyyətlərdir,
O, hər bəndəsini buna sövq edir.
Necə olmalıdı insan cahanda,
Müfəssəl deyilib böyük Quranda.
İnsan simasında doğulan hər kəs
Ona tapınmasa yüksələ bilməz.
Ona köməkçidir şe'r və sənət,
Odur ki, meyl edir şərə hər xilqət.
Elə ki, sənətə bağlanır ürək,
Daha da saflaşır onda hər dilək.

AFAQ

Əfsus, hökmüdarlar, bir də varlılar
Bu ali ne'mətə ola bilir yar.

NİZAMİ

Onlara bağlıdı hələ cəmiyyət,
Onlar buyuran tək yaşayır xilqət.
Hökmüdar vurğunsa şe'rə, sənətə,
Az zülm edəsidi demək millətə.
Onu ədalətə çağırmaqla biz,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bir qədər məqsədə çatırıq şəksiz.
Yüz illər, min illər gəlib keçəcək,
Neçə insan nəsli gəlib köçəcək,
Nəticədə bəşər ucalacaqdır,
Dünyada hər sirrdən bac alacaqdır.
Hökmüran olacaq haqq və ədalət,
Sevgiyə verəcək yerini nifrət.
Nə ağa qalacaq, nə də ki bir qul,
Nə varlı olacaq, nə də ki yoxsul.
Hər kəs yapışacaq sevdiyi işdən,
Ömür sürəcəkdir xöşbəxt, azad, şən.
Elə səviyyədə artacaq imkan,
Hər kəs şe'riyyətə olacaq mehman.

AFAQ

Sənsə əbədilik yaşayacaqsan,
İnsanlara sevgi daşıyacaqsan.
Qoy bu sözlərimi saymasın günah,
Axı nə səbəbdən o qadir Allah
Dünyanı əzəldən qurmayıb elə,
Birini şah edib, birini kölə?

NİZAMİ

Onun işlərinə əl atmaq olmaz,
Bir də, hər əməli tarazdır, taraz.
Hərəkət veribdi tanrı cahana,
Hər şey dövrədədi, tabedi ona.
Elə ki cahana göz açdı xilqət,
Özünə məxsus da aldı hərəkət.
Yüksəlir, ucalır daima insan,
Beləcə olacaq durduqca cahan.
Həyatın mə'nası ancaq bundadı,
Həm də hər dövrdə şirindir dadı.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

AFAQ

Nə qədər aydındı sözün, söhbətin,
Necə müqəddəsdi eşqin, niyyətin.
Xoş gündə yaradıb səni yaradan,
Sənindi sənətdə şöhrət, şərəf, şan.

NİZAMİ

Oxunur, sevilir hər bir əsərim,
Onlara köç edir mənim dəyərim.
Duyulmaq ən böyük səadətdi, bil,
Sən gəldin, könlümdə qalmadı nisgil.

AFAQ

Hər sözün, söhbətin şirindi, şəksiz,
Hər beytin sənətdə qoyacaqdır iz.
Xüsusən vurğunam qəzəllərinə,
Onları duyduqca qabarır sinə.
Təzə bir şey varmı?

NİZAMİ

Onsuz olarmı?
Heç mənim Afaqım paysız qalarmı?
/ Bir vərəq götürüb oxuyur /

Eşqə düşdüm, o səbəb atdı səhralara məni,
Özgə bir yerdə nə axtar, nə də ki, ara məni.

Bu sevən qəlbim ilə hər yerdə cənnət məkanam,
Fələk sapanda qoyub atsa əgər hara məni.

Bu günün, bu dövranın bir dənə xöşbəxti mənəm,
Nadan əğyara baxın, sanır bəxti qara məni.

Sevgilim, bircə dilək can verir aləmdə mənə,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Eşqə yandıqca yanım, tapmasın qoy carə məni.

Min ömür yansam əgər, eşq oduna bir nəfəsə,
Əsla bir yol da deməzdim, çəkin kənara məni.

Onu göstərmək üçün düşməmişəm eşq oduna,
Qoy yanım, yar özü də görməsin aşkara məni.

Ruhumu çulğalayan eşq odu əsla sönməz,
İstəyir qutbu-şimalda bələyin qara məni.

Belə xöşbəxt həyatı alnıma yazdı Yaradan;
Yüz yol odlarda yaxıb yar çəkəcək dara məni.

Sormayın ki, nəçiyəm, aşiqlərə çoxdan məlum,
Nə qəm, eşqə yad olan tanısın avara məni.

AFAQ

İlahi, nə qədər şirin bir qəzəl,
Önündə solğundu ən dilbər gözəl.

NİZAMİ

Gəl hissə qapılma, eləmə günah,
Hər dilbər gözəli xəlq edir Allah.
Onunla yanaşı ən kamil qəzəl,
Qızıl gül önündə solğun bir xəzəl.

AFAQ

Atam çox sevirdi şe'ri, sənəti
Deyirdi ülvidi şe'rin niyyəti.
Ona ölənəcən minnətdaram mən,
Yaxşı nə gəlirsə bu gün əlimdən
Onun sayəsində olub mənə yar,
Çox idi qəlbində hələ arzular,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yazıb oxumağı öyrənən gündən,
Sandım ki, həyata gəldim yenidən.
Elə bilirdim ki, şair olan kəs,
Bizimlə yanaşı dayana bilməz.
Sanırdım onları özgə dünyadan,
Deyirdim gəzdirir özgə ürək, can.
Nə müddətdi birgə yaşayırıq biz,
Eyni durğularla vurur gəlbimiz.
Mən isə inana bilmirəm buna.
Bunların həqiqət, düz olduğuna.
Elə bilirəm ki, yuxudayam mən,
Ayılıb keçmişə dönəcəm hökmən.

NİZAMİ

Hamıya şirindi adlamış anlar;
İnsanı keçmişə səsləyir onlar.

AFAQ

Ötən günlər mənə şirindi şəksiz,
Hər biri qəlbimdə silinməz bir iz.
Ancaq istəməzdim dönsün o günlər,
O qayğısız anlar, toylar, düyünlər.
Bu gündə, bu eldə axı sən varsan,
Qəlbimə, ruhuma tək ixtiyarsan.
Könlümdə qalmayıb bir qətrə həsrət.
Odur ki, çəkirəm hərdən xəcalət.
Elə bil onlara dönük çıxmışam,
Özgə bir məcraya dönüb axmışam.
Şükürlər olsun ki, olubdu belə.

NİZAMİ

Əminəm ki, hər şey qalsaydı elə,
Ömrü səadətlə sürməliydin sən,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bu qəlb, bu vicdanla kim isə hökmən
Bütün varlığıyla sevərdi səni,
Qovardı könlündən qəmi, qüssəni.

AFAQ

Mən sevə bilməzdim orda heç kimi,
Özgə kökdə idi qəlbimin simi.
Bunu demək mənə çətin olsa da,
Mənə layiq cavan yoxdu obada.
Hər şeydə onlardan üstün idim mən,
Qayda belədir ki, həyatda hökmən
Üstün olmalıdı qadından kişi,
O zaman düz gedər onların işi.
Arada olsa da sevgi, məhəbbət,
Dövran sürsə belə xoş arzu, niyyət
Kişi ailədə baş olmalıdı,
Bax buna görə də kişidir adı.
Özündən zəifə tabe olan kəs.
Əsla insan kimi yaşaya bilməz.
Şükürlər olsun ki, rəhm etdi mənə,
Yaradanım məni yetirdi sənə.
Alisən, üstünsən min dəfə məndən,
Odur ki, qəm, kədər dolanır gendən.

NİZAMİ

Bir də elə demə, birdir qəlbimiz,
Bütöv bir varlığın parasıyıq biz.
Həyata gəlsən də özgə diyarda,
Məni tapacaqdın olsaydım harda.
Allahın əliylə gedir bu dövran,
Orda öz yerini tapır hər insan.
Ömrümə, günümə sən gələn gündən,
Bəlkə də birə beş yüksəlmişəm mən,
Hər dəfə dərindən duyduqca səni

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ucalır qəlbimdə qadının şə'ni.
Kim kimə borcludu, çətindir demək,
Qoşa olan zaman ucalır ürək.

AFAQ

Nə qədər mürəkkəb qurulub həyat,
Külək tək səmtini dəyişir qat-qat.
Necə xöşbəxt idim ana vətəndə,
Sonra əsir kimi düşmüşdüm bəndə.
Azad yaşayırdım guya sarayda,
Ondan dərdlərimə yox idi fayda.
Bir gün dedilər ki, dəyişir məskən,
Kəniz tak hədiyyə edilirsən sən.
Yenidən könlümün uçdu sarayı,
Ulduzlara çatdı yəgin harayı.
Əslində bu qul tək satılmaq idi,
Onsuz da kədərim min budaq idi.
Ancaq biləndə ki, sahibim sənsən,
Bir anın içində rahat oldum mən.
Duydum ki, bir yolluq tapıram nicat,
Duydum ki, yaxşıya dəyişir həyat.
Elə bil tapmışdım şirin bir yuxu;
Şübhəsiz göylərdən endi o duyğu.
Məəttəl qalmışdım özüm bu hala,
Elə bil vətənə düşürdüm yola.
İndi sanıram ki, vətəndəyəm mən,
Gülür gözlərimdə bu çöl, bu çəmən.

NİZAMİ

Ruhən, qəlbən azad doğulur insan.
Onun məskənidi bütün bu cahan.
Ancaq şirin olur doğulduğu yer,
Bir vaxt bu duyğu da dəyişəcəkdir.
İtib gedəcəkdir bütün sərhədlər.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Mütləq azadlığa çıxacaq bəşər.
İnsan olacaqdır azad quş kimi.
O günlər gələcək qurtuluş kimi;
Hardan xoşu gəlsə orda qalacaq,
Yer üzü çevrilib cənnət olacaq.

AFAQ

Sənin dediyinə inanıram mən,
Ancaq həsəd hissi keçmir qəlbimdən.
İqbalım neçə yol dəysə də daşa
Səadət içində doluram yaşa.
Yoxdur bircə qətrə kədərim, qəmim,
Çünki var sənin tək könül həmdəmim.
Yaradan edibdi misilsiz kərəm,
Səni min cahana mən dəyişmərəm.

NİZAMİ

Könlümə köklüdü könlünün simi,
Sanki oxuyursan mənim qəlbimi.

AFAQ

Eh, sənə nə var ki, xoşdur xislətin,
Hamını cəlb edir xoş xasiyyətin.
Kim rast gəlsə idi sevərdi səni,
Daşlar belə duyur könlün deyəni.

NİZAMİ

Əfsuslar olsun ki, elə deyildir,
Ürək dediyin şey başdan başa sirr…
Məni sən tək duyan olmayıb hələ,
Son qoydun könlümdə sonsuz nisgilə,
Məni duymayanlar çoxdu dünyada.
Çoxu yazdığımı atardı oda.
«Məni tənqid etdi yerindən duran,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Çox vaxt bülbül deyil, qarğa uçuran»
Sonra veriləcək mənim qiymətim,
Bir də, qiymət almaq deyil niyyətim.
Odur ki, getmədim mən saraylara,
Mənə saraylardan əzizdir bura;
Tanrı istəyən tək yaşayıram mən,
O verən şərəfi daşıyıram mən.

AFAQ

Yə'qin ki, yaradan çox sevir səni,
O, şair etməyir hər bir bəndəni.
Az-çox əlinizə çatıb ixtiyar,
Dayının sarayda vəzifəsi var.
İstəsən daha da xöşbəxt olardın,
Varlı, adlı-sanlı bir qız alardın.
Sənsə kənizinə könül vermirsən,
Söylə, mələkmisən, ya bəşərmisən?

NİZAMİ

Bir adama düşməz iki gözəllik,
Həm çoxlu var-dövlət, həm də gözəllik.
İkincini gəzdim ağlım kəsəndən,
Tələbimi təkcə ödəmisən sən.
Bir yox, lap yüz ömür verilsə mənə,
Hər dəfə könlümü verərdim sənə.
Düzdü, Xədicədə bol idi sərvət,
Peyğəmbər çəkmədi bundan əziyyət.
Həyatda vəziyyət özgədi ancaq,
Götür, ətrafına diqqət ilə bax;
Qadın yetirirsə kişini vara,
Gec-tez də eyləyir gününü qara.
Arxalı bir qıza yıxılsa kişi,
Üzdə görünsə də tarazdı işi,
Əlində ixtiyar tam ola bilməz,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Həyatda hər bir şey istəyir əvəz.
Nə qədər çox olsa bu fərq arada,
Kişi də o qədər düşəcək oda.
Qadında çox olsa ağıl, mərifət,
Evdən əskik olmaz sevinc, səadət.
Bir də ki, fərqlidi axı insanlar,
Hərənin cahana öz baxışı var.
Hərə öz tayını axtarır, gəzir,
Belə olmalıdı, yoxdur burda sirr.

AFAQ

Necə də çətindi, müşküldü bu iş;
Necə dolansın ki bicarə gərdiş,
Hər kəs tapa bilsin təkcə tayını,
Çatsın səadətə, alsın payını…
Yaradan köməyə gəlməsə yəqin
Sən məni, mən səni tapardıq çətin.
Bəs səbəb nədir ki, niyə çox zaman
Tayına yetişə bilmir çox insan?

NİZAMİ

Kim qəlbdə bəsləsə təmiz diləklər,
Onun köməyinə yetir mələklər.
O, öz yarısını tapacaq şəksiz,
Səbəb mələklərdi yenə şübhəsiz.
Kimin ürəyinə yol tapsa Şeytan
Mələklər yaxına gəlməz heç zaman.
Demək yarını da tapası deyil,
Nə də, bir yaxşılıq yapası deyil.
İnsanın özündə olmasa günah,
Ondan üz çevirməz heç zaman Allah.

/ İçəridən uşaq səsi gəlir /

AFAQ

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yuxudan oyandı, durdu Məhəmməd,
Odur yer üzündə ən ülvi xilqət.
Sənin də başını yamanca qatdım,
Yazmağa qoymadım, sözü uzatdım.

/ İçəri keçir /

NİZAMİ

Nə qədər mehriban, şirin bir nəfəs,
Ona yer üzündə tay ola bilməz.
Gözlərimdən duyur könlüm deyəni,
Sonsuz səadətə yetirib məni.
Onu görən gündən qaynadı qanım,
Dəniz kimi coşdu eşqim, ilhamım.
Sanki ömür boyu beləcə qoşa
Onunla böyüyüb dolmuşuq yaşa.
İlham verməsəydi mənə o mələk,
«Sirlər xəzinəsi» açmazdı çiçək.
Bir yolluq talanıb kədərim, qəmim,
İncilər saçacaq hər gün qələmim.
Neçə ki, cahanda var belə afət,
Çiçək açasıdı sevgi, məhəbbət.

PƏRDƏ

BEŞİNCİ ŞƏKİL

/ Gəncə. Nizami Gəncəvinin həyəti. Səliqəli bir bağça. Şair güllərə, çiçəklərə qulluq edir. /

NİZAMİ

«Güldükcə təbiət, çəmənin çöhrəsi güldü,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Gül ətri buluddan süzülüb ərzə töküldü».
/ Carçı daxil olub Atabəy Məhəmmədin gəldiyini bildirir /

CARÇI

Gəlir hökmüdar,
Gəlir yer üzünə külli-ixtiyar.

/ Nizami qapıya yaxınlaşır. Atabəy Məhəmməd, vəzir, əyanlar daxil olur. Nizami hökmüdara baş əyir /

ATABƏY MƏHƏMMƏD

Var olsun sənətkar, var olsun şair!
Ömür boyu onu çulğasın xeyir.
Könlümdə qəribə, xoş bir duyğu var;
Sanki mən deyiləm, sizsiz hökmüdar.
Şahlar, hökmüdarlar gəldi-gedərdi,
Şairlər həmişə təzədi, tərdi.

VƏZİR

Elədir, elədir qibleyi-aləm,
Hörmətə layiqdi qadirsə qələm.

ATABƏY MƏHƏMMƏD

Vəzir, buna sənin şübhənmi vardır? –
Nizami sənəti gün tək parlaqdır.

VƏZİR

Cavandır hələ,
Hələlik vurğundu gülə, bülbülə.
Dəyərli əsərlər yazar, ucalar,
Sarayda özünə layiq yer alar.

ATABƏY MƏHƏMMƏD

O artıq yazıbdı qiymətli əsər,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

«Sirlər xəzinəsi» nadir bir gövhər.
Onun hər bir beyti dərin bir ümman,
Qiyməti çoxluq yox, dəyərdir alan.
Bir neçə saraydan alsa da də'vət,
Nizami onları rədd edib fəqət.

NİZAMİ

Ey böyük hökmüdar, xoş gəlmisiniz,
Qoy birə min olsun əzəmətiniz.
Şe'rə və sənətə sizsiz havadar,
Qoy tale hər zaman olsun sizə yar.
Sizsiniz cahana şöhrət, şərəf, şan,
Odur ki, deyirlər Cahan Pəhləvan.
Ölkəyə siz ilə gəlib ədalət,
Rahat nəfəs alır axır ki xilqət.
Elə ucalın ki, siz ey tacidır,
Açıq alnınızdan öpsün ulduzlar.
Saraylara qarşı xoşdu niyyətim;
Elə yoğrulub ki, ancaq xislətim,
Quşlar kimi azad olmalıyam mən,
Təbiətdən ilham almalıyam mən.
Vəzir düz buyurur, cavanam hələ,
İnşallah, dönərəm bir gün bülbülə.

ATABƏY MƏHƏMMƏD

Necə təvəzökar xislətiniz var;
Olmamış deyildir bu sizə aşkar, -
Hesabsız olsa da qafiyə düzən,
Bircə şair belə olmayır bə'zən.
Bəlkə də ən xöşbəxt zamandır bu an,
Sizin kimi şair alıbdı cahan.
Sizin yerinizi bilməsək əgər,
Lə'nətlə yad edər bizi nəsillər.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

NİZAMİ

Qoy əksik olmasın heç vaxt kölgəniz,
Sayənizdə xöşbəxt dolanırıq biz.

ATABƏY MƏHƏMMƏD

Nə qədər istəsən hakim tapılar,
Taki desinlər ki, tac ilə taxt var.
Şahlıq quşu qonsa çiyninə həmən,
Pinəçi də dönüb şah olur bə'zən.
Mən də bir qonağam, gəldi gedərəm,
Tanrı sizə elə edib ki kərəm,
Bu dünya durduqca qalasısınız,
Baş qiyməti sonra alasısınız.
Nə vaxt istəsəniz, lap elə bu an,
Açar qucağını sizə Həmədan.

NİZAMİ

Çox-çox minnətdaram, bilir ki Allah,
Başımın tacıdı ədalətli şah.
Gəncədən ayrılsam gül tək solaram,
Şeyda bülbüləmsə lal-kar olaram.

ATABƏY MƏHƏMMƏD

Belə olmalıdı, duyuram sizi,
Sizin güldən zərif xislətinizi.
/ Vəzirə /
Yadında saxla ki, verildi qərar,
Yoxsulluq çəkməsin gərək sənətkar.

VƏZİR

Baş üstə, baş üstə, ey şahlar şahı,
Ölkədə hamının sizsiz pənahı.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ATABƏY MƏHƏMMƏD

Nəyləsə zəngindi hər bir məmləkət,
Ona şöhrət verir o üstün cəhət.
Biri uca dağlı, buz bulaqlıdı,
Biri xoş iqlımlı, barlı bağlıdı,
Birinin qızıllı torpaqları var,
Birinin köksündə alovlar yanar.
Birinin gözəldi əlvan ipəyi,
Birinin üstündü sazı, tütəyi.
Birində külək tək itidi atlar,
Birində daha da sərtdi poladlar.
Ən qiymətli şeysə sözdür, sənətdir,
O, insan oğluna ən baş zinətdir.
Alimlər, şairlər yaradır onu,
Onun da cahan tək görünməz sonu.
Yüz illər, min illər gəlib keçəcək,
Bu gün parlayanlar sabah sönəcək.
Sözdür bu dünyada külli-ixtiyar,
O, xəzan bilməyən bahardır, bahar.
Qiymətdən düşürsə hər köhnələn şey,
Təkcə söz yaşından eləməz giley.
Yaxşı söz getdikcə minir qiymətə,
O, şöhrət gətirir yurda, millətə.
Bizim şairlər də yazsın, yaratsın,
Qoy sözün şöhrəti ulduza çatsın.
Bütün şairləri izləyirəm mən,
Nizamidən çox şey gözləyirəm mən.

VƏZİR

Sizin sayənizdə yazar, yaradar,
Onun doğrudan da xoş lisanı var.
O da bir «Şahnamə» qoysun ortaya,
Eldəniz tac taxtı bənzəsin Aya.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ATABƏY MƏHƏMMƏD

Nizami təbini zorlamaq olmaz,
O, azadlıq sevən nəğməli bir saz.
/ Nizamiyə /
Şair, deyin görək baş mövzü nədir,
Yoxsa həyat özü bir əfsanədir?

NİZAMİ

Baş mövzu sevgidi şəksiz, şübhəsiz,
Onunla varlıdı insan nəslimiz.
Ondan təməl alır bütün bu həyat,
Onsuz yaranmazdı hətda kainat.
Yaradanın eşqi səbəbdir buna;
Ən xoş nəzər salıb insan oğluna.
İnsan oğlu sevir doğulan kimi,
Sevgiyə köklənir qəlbinin simi.
Əvvəl anasını sevir körpələr,
Onun varlığına bu hiss nur ələr.
Bir-bir qohumları tanıyır, sevir,
Sonra yadlara da əzizim deyir.
Beşikdən başlayır vətən sevgisi,
Eşq ilə seçirlər yaxşıdan pisi.
Bütün kainata vurulan zaman,
Eşqin zirvəsinə yüksəlir insan.
Haqqın özünün də istəyi budur,
Məhəbbət ən ali, ülvi duyğudur.
Ömrü Günəş kimi nurlanan zaman,
Eşq ilə özünə yar seçir insan.
Sevgisiz gül kimi solardı həyat,
Xaraba olardı yenə kainat.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ATABƏY MƏHƏMMƏD

Bilirəm ki, siz
Adi bir kənizə evlənmisiniz.
Belə bir addımı atmaqçün gərək,
Əsil məhəbbətlə döyünsün ürək.
Sizin hər şe'riniz sübutdur buna,
Odur ki, şirindi insan oğluna.
Eşqə həsr olunub nə qədər dastan,
Ona qələm çalıb sənət hər zaman.
Diləyim budur ki, siz də alasız,
Könül rübabını onda çalasız.
Qoy o, görünməmiş bir dastan olsun,
Məhəbbət aləmi çırağban olsun.
Mahir qələmindən şəfəq süzülsün,
Gözəlin üzü də, qəlbi də gülsün.
Gələn nəsillərə qalsın yadigar,
Eşqin, məhəbbətin buna haqqı var.
Həm şöhrət, həm sərvət yetişsin sizə;
Firdovsi taleyi dərs olub bizə.

NİZAMİ

Bu ülvi, bu munis arzunuzla siz,
Mənim ürəyimdən xəbər verdiniz.
Eşqin bağçasında qonaq olmuşam,
Günəş kimi nurlu ilham almışam.
Könlümdə boy atıb min-min duyğular,
Hər biri çiçəkli, güllü bir bahar.
Bir himə bənddir ki, incilər saçsın,
Misli görünməmiş xəzinə açsın.
Çoxdandı bu arzu yaşadır məni,
Fəth edim şe'rdə həmin zirvəni.
Eşqin köməyiylə bu mümkün olar,
Söz mülkü bir pillə qalxıb ucalar.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Daha dərinlərə gərək dalım mən,
Ümmanlar dibindən inci alım mən.
Ümid bağlamışam o böyük ada,
İnşallah, yetirər məni murada.

ATABƏY MƏHƏMMƏD

Qoy yardımçı olsun Yaradan sizə,
Tezliklə çatdırsın diləyinizə.
O dastan nə zaman işıq salacaq,
Sizi ziyarətə səbəb olacaq?

NİZAMİ

İki yol dolanıb gələndə bahar,
Bu sayaq güləndə yenə ruzigar,
Allahın izniylə qurtarar bu iş,
Sevincə çevrilər könlümdə təşviş.

ATABƏY MƏHƏMMƏD

İlahi, nə şirin bir gözləməm var,
Dünyadan köçməyə yoxdu ixtiyar.
İlahi, sən özün kömək ol ona,
Azəri yurdunun dahi oğluna.

PƏRDƏ

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ALTINCI ŞƏKİL

/ Yenə Nizami Gəncəvinin evi. Qızıl Arslan, vəzir, vəkil, əyanlar. Nizami «Xosrov və Şirin» dastanını onlara oxuyub qurtarıb. /

QIZIL ARSLAN

Elə həyatidi «Xosrov və Şirin»,
Sanki bizimlədi Xosrovla Şirin.
Nə qədər möhtəşəm, şirin bir dastan!

VƏZİR

Onu dinlədikcə ucalır insan.

VƏKİL

Sevgi dünyasının şah nəğməsidir,
Elə bir incidir, tapılmaz əvəz.

ƏYANLARDAN BİRİ

O, haqqın özünün qadir səsidir,
İnsan belə məbəd yarada bilməz.

QIZIL ARSLAN

Nə qədər doğmadı şairin səsi,
Yerli yerindədi hər bir kəlməsi.
Onu dinləyərkən xəyala vardım,
Mənə elə gəldi, mən də yazardım,
Həmin sətirləri, həmin sözləri.
İnsan bu dünyaya gələndən bəri
Hər işdə, əməldə sadə yol gəzir;
Həyat tələb edir, yoxdu özgə sirr.
Nədən danışırsa şair əsərdə,
Simlərə toxunur həmahəng pərdə.
Ən sadə dil ilə deyilir mətləb,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Odur ki, köklənir hər ürək, hər qəlb.
Yazılıb ən gözəl sevgi dastanı,
Ona tay olacaq bir əsər hanı?!
Əvəzi olmayan nadir incidir,
Bu dünya durduqca o, birincidir.
Elə bil bir şirin yuxudayam mən.
Mərhaba!

VƏZİR

Mərhaba!

VƏKİL

Mərhaba!

ƏYANLAR /Bir səslə/

Əhsən!

NİZAMİ

Xöşbəxtəm, xoşdursa sizə bu avaz;
Deyirlər varını verən utanmaz…

QIZIL ARSLAN

Təkcə eşqə dastan deyil bu əsər,
O, insan əqlini gül kimi bəzər.
Həyata sevgidir əsərin canı,
O, başdan başacan sevir cahanı.
Elə elm sahəsi yoxdur ki, bu an
Nizami dastanda yan keçsin ondan.
Hər beyti gövhərdi bu şah əsərin,
Sadə deyilməklə mənası dərin.
Hər kəslə danışır onun dilində;

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

VƏZİR

Sizin fikrinizlə şərikəm mən də.
Nə tə'rif deyilsə yaraşır ona,
Bu yurdun, bu elin böyük oğluna.

NİZAMİ

Düzdür ki, xoş baxır yaradan mənə,
Göstərir, hardadı əsil xəzinə.
O, insan oğluna, hey yüksəl, deyir,
Qoy qurub yaratsın hər bir əl, deyir.
Bir addım olsa da, hər duyan ürək
İrəliyə getsin dövründən gərək.
Mənə qədər kim var, alıb müfəssəl,
Oxuyub öyrəndim hər şeydən əvvəl.
Bu yolla tərəqqi düzünə gəldim,
Dövrümdən bir pillə yüksələ bildim.
Məni axıracan dərk edən bir kəs,
Mənim səviyyəmdə dayana bilməz;
Yazacaq bundan da kamil bir əsər.
Belədir bu həyat, belədir bəşər.

QIZIL ARSLAN

Dərin həqiqət var bunda elə bil…
Yox-yox, belə əsər yaranan deyil!
Bəlkə də ən böyük təvəzökarlıq,
İlahi, nə qədər yüksək bir varlıq!
Onu öyrənməkçin, deyir ki ürək,
İnsan azı min il yaşasın gərək.
Onu necə tə'rif eyləsək də biz,
Min-min belə xoş söz söyləsək də biz,
Yenə bu əsərin qiyməti deyil.
Onu öyrənəcək bəşər müttəsil;
Gələcək verəcək əsil qiyməti!
Bu gün necə alsın şair xəl'əti?

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Atabəy Məhəmməd dursaydı əgər,
Hər beytə verərdi bəlkə yüz gövhər.
Ancaq heç ona da deməyin, çoxdu,
O bir incidir ki, qiyməti yoxdu.
Şairə verilsə bütün xəzinə,
Aqillər deyər ki, az oldu yenə.
Əvvəlcə vermişəm bu işə fərman,
Şairin malıdı artıq Həmdünyan.
Bu dünya durduqca o oba, o kəng
Nizami nəslinə edilibdi bənd.
Vergi tə'yin etsin şairin özü,
Pozulmaz qanundur onun hər sözü.
Nizami dünyada olmayan zaman,
Oğlu, nəvələrii barınsın ondan.

NİZAMİ

Sizə minnətdaram, böyük hökmüdar,
Var olun, neçə ki bu kainat var!

QIZIL ARSLAN

Mənim xatirimi istəyən hər kəs,
Şairə hədiyyə verməyə bilməz.

/ O, öz çiynindən xalatın alıb Nizaminin çiyninə salır, pul kisəsini də ona verir. Vəzir, vəkil və əyanlar da öz pul kisələrini Nizamiyə verirlər. /

NİZAMİ

Elmə və sənətə qiymət verən şah,
Gətirir ölkəyə böyük intibah.
Bütün sahələrə tərəqqi gəlir,
Vətən abad olur, millət yüksəlir.
Deyirsiniz yoxdur, dastanın tayı,
Bu gündən bəzəsin sizin sarayı.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

/ Nizami əsəri Qızıl Arslana təqdim edir. Şah əsəri iki əllə qəbul edib vəzirə verir. /

QIZIL ARSLAN

Sabahdan ən yaxşı xəttatlar gəlsin,
Əsərdən beş nüsxə gərək düzəlsin.
Özü xəzinədə saxlansın gərək,
Daima qorunsun nadir inci tək.

/ Nizamiyə /

Qoy böyük Yaradan qorusun sizi,
Daha iti etsin qələminizi.
Hər gün üzünüzə xoş gəlsin səhər,
Yazılsın bundan da böyük əsərlər.
İzn verin gedək, salamat qalın,
Bu dünya durduqca daim ucalın!

/ Nizami baş əyir. Şah və ətrafındakılar çıxır. Afaq gəlir. /

AFAQ

Sizi dinləyirdim qonşu otaqdan,
Yaxşı qiymət aldı yazdığın dastan.
Duydum ki, sözündə səmimiydi şah,
Qoy tacı-taxtını qorusun Allah.
Kaş beş kənd olaydı bəxşişi şahın ….

NİZAMİ

/ Zarafatla /

Nə yaman çoxalıb sənin tamahın?
Deyirdin var-dövlət bir quru səsdi,
Ona boyun əymək boşdu, əbəsdi.
İndi nə oldu ki, birdən birə sən
Sərvətə, şöhrətə baş endirirsən?

AFAQ

/ Zarafata zarafatla cavab verir /

Yeyən zaman gəlir, deyirlər iştah.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Biz də vara yetsək olmaz ki günah?!
İmarət yaparıq, xanım olaram,
Dünyadan doyunca ləzzət alaram.

NİZAMİ

Bəsin deyilmi ki, mənə xanımsan,
Eşqim, məhəbbətim, qəlbim, canımsan?

AFAQ

Əlbəttə, əzizim, əlbəttə bəsdir,
Var-dövlət doğrudan bir quru səsdir.
Ürəyiylə varlı deyilsə insan,
Ona bəs eləməz bütün bu cahan.
Quruca çörəklə xöşbəxtdi aqil…
Peyğəmbər arzusu uydurma deyil;
Tanrıdan kasıblıq istədi xələt,
Arzu eləmədi nə var, nə dövlət.
Atandan qalıbdı bir parça torpaq,
Canımız rahatdı, keyfimiz də cağ.
Var-dövlət toplamaq axı nə gərək,
Yalnız narahatlıq tapacaq ürək.

NİZAMİ

Bəs təklifin nədir, axı Həmdünyan
Nizamidən ötrü işləyir bu an?

AFAQ

Ora özlərindən darğa seçərik,
Yəgin ki, hərdən bir baş da çəkərik.
Hər cürə vergidən yoxsul olanı,
Azad eləyərik, qurtarar canı.
Bir az vergi verər varlı olanlar,
Xeyriyyə işinə xərclənər onlar.
Qoy xöşbəxt yaşasın daha Həmdünyan,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ədalətli bir yer tanısın cahan.
Yenə sınayırsan yəgin ki məni,
Mənsə söyləyirəm qəlbim deyəni.

NİZAMİ

Elədir, elədir mehriban Afaq,
Gözlərimdə gülür bu göy, bu torpaq,
Hər an ürəyimdə ucalırsan sən,
Şahlar şəhı kimi tac alırsan sən.
Hər gün kəşf edirəm səni yenidən,
Sənin eşqin ilə ucalıram mən.
Nadir yaradıbdı səni Yaradan,
Cahanda ən kamil varlıqsan, inan.
Sənə rast gəlməsə əgər Nizami,
Şöhrəti tutmazdı bu gün aləmi.
İkimiz bir yerdə bir varlığıq biz,
Şübhəsiz yarımçıq olardım sənsiz.
Eşqinlə çağlayır ürəyimdə qan,
Məndən varlı, xöşbəxt varmı bir insan?!
Niyyətin müqəddəs, diləyin haqdır,
Həmdünyan o sayaq yaşayacaqdır.

AFAQ

Məni sevsələr də evdə, obada,
Elə bil tək idim bütün dünyada.
Yox idi qəlbimi sonacan duyan,
Mənə dar gəlirdi odur ki, cahan.
Bilmirdim nə üçün yaşamalıyam,
Bilmirdim nə dilək daşımalıyam.
Sənə yetən gündən dəyişdi dünya,
Onda aydınlaşdı hər rəng, hər boya.
Bütün duyğularım düşdü səhmana,
Hər bir diləyimə sən oldun ana.
Sonsuz güc gətirdin biləklərimə,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qoşa qanad verdin diləklərimə.
Ən böyük var-dövlət sevən ürəkdir,
Onsuz həyat özü nəyə gərəkdir?!

NİZAMİ

Cahana zinətdi gözəl qadınlar,
Həyata yaxşılıq gətirir onlar.
Sənin tək olsaydı şahın hərəmi,
Xeyli azalardı ölkənin qəmi.
Həyatda olmasa sənin tək Şirin,
Şirin olardımi o qədər şirin?
Sənsiz mən Nizami ola bilməzdim,
Bircə qələbə də çala bilməzdim.

PƏRDƏ

SON

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ƏFSANƏLƏR NAĞILLAR

1111111247899
(11.12.1940)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

MƏLİKMƏMMƏD

Dastan başlanarmı ustadnaməsiz,
Əvvəl başdan alıb belə deyək biz:

Əşrəfi olsan da dünya üzünün,
Gərək saflaşasan yenə də, insan!
«Can» olsun mə'nası hər bir sözünün,
Şeytana yer vermə sinədə, insan!

Təmbəllik hər kəsə oturur baha,
Zəhmətsiz bir heçsən, olsan da düha.
Öyrən, söyləmə ki, kamiləm daha,
Yaşın çatar olsa minə də, insan!

Nə qəmə könül ver, nə vaxtsız qocal,
Ömrün hər anından layiqli bac al.
Yaxşı əməlinlə göylərə ucal,
Qoy əhsən desinlər sənə də, insan!

Birini də deyək, qoy olsun iki,
Nakəs paxıllıqdan alışsın taki:

Dünya ki var, özü boyda
Həqiqətdi, yalan deyil.
Yaxşı üzü, budu qayda,
Az tapılır, kalan deyil.

Çoxu gəzir qızıl donu,
Düşünmür ki, birdi sonu.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Dörd əlli də tutsan onu
Bir qətrəsi qalan deyil.

Gah qış olur, gah da bahar,
Əlindədi hər ixtiyar.
Öz yolu var, ərkanı var,
Biz deyən tək olan deyil.

Ustadlar üç deyib ustadnaməni,
Ustadlar yolluyam, tanıyın məni.
Gəlin birini də deyək üç olsun,
Müxənnətin ömrü, günü puç olsun:

Dostluq edə bilməz tülküylə aslan,
Yapalaq tərlanla tən gələ bilməz.
Dağların döşüylə sürünər duman,
Alçaq təpələrə çən gələ bilməz.

Mərd özü dayıdı, neynər dayını,
İtirməz ellərin haqı-sayını.
Mütləq tapasıdı taylı tayını;
Yaxşı yaxşılardan gen gələ bilməz.

Namərdin ayağı dəyincə daşa,
Dörd tərəf əlindən eyləyər haşa.
Elin qeyrətini çəkməyən başa,
Xata yol eyləməz, dən gələ bilməz.

Belə deyirlər ki, nə qədər qabaq,
Bir şah yaşayırmış, əqidəsi sağ.
Ölkədə ədalət bərqərar imiş,
Nakəsə, namərdə dünya dar imiş.
Yerini bilirmiş hər bir vətəndaş,
Hakim rəiyyəti sanarmış qardaş;

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bolluq, firəvanlıq bir adət imiş,
Deməli hökmüran səadət imiş.
Kim bilir, bəlkə də bu deyilənlər
Bir həqiqət imiş, bəlkə də, bəşər
Uydurub onları bir xəyal kimi,
Yaşadıb könlündə xoş vüsal kimi…

Ədalət, səadət – bilirik bunu,
Daim düşündürüb insan oğlunu.
Ancaq o da var ki, şəksiz, şübhəsiz,
Görüblər, görürük, görəcəyik biz,
Aqilsə, adilsə bir eldə sərdar,
Orda hakim olur çiçəkli bahar.

Şah şahlıq eylədi şan-şöhrət ilə,
Sürdü gəmisini cəsarət ilə.
Əbədi nə var ki, dolandı dövran,
Dünyada hər şeyin hakimi zaman
Altmışa yetirdi onun yaşını,
Sanki qırov örtdü dağın başını…

Nə qədər ağıllı olsa da insan,
Ona min sirrini açsa da cahan,
Gərəkdi hər zaman öyrənsin yenə;
Dibsiz xəzinəyə bənzəsin sinə.
Ən böyük alim də, olmasa da tən,
Adi bir çobanla ülfətdə, hökmən,
Görürsən nə isə görür, götürür,
Gələn nəsillərə yazıb ötürür.
Bax buna görə də şaha hər zaman,
Səyyahlar, dərvişlər olardı mehman.

Yadelli bir dərviş bir dəfə gəldi,
Aqillər yığışdı, məclis düzəldi.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ömrün hər üzündən söhbət etdilər,
Alıb dərinlərə bəzən getdilər.
Nəhayət tək qaldı dərviş ilə şah.
Dərviş söylədi ki, ey böyük pənah,
Tamam dolanmışam sənin ölkəni,
Firəvanlıq heyran qoyubdu məni.
Sənin ədalətin səbəbdi buna,
Əvvəl o lazımdı insan oğluna.
Tam aydın görmürəm ancaq cöhrəni,
Mümkünsə, de, nədir ağrıdan səni?
Şah dedi ki, dərdim birdir, deyil min,
Allaha əyansa, səndən nə gizlin.
Yaşım altmış olub, qocalıram mən,
Daim çiçəklənsin deyə bu vətən,
Olmalıdır mənə layiqli əvəz;
Şah qoyula bilməz hər yetirən kəs.
Mən sonsuz deyiləm, düz üç oğlum var,
Əfsus, böyüklərə yoxdur e'tibar.
Son beşiyim isə xeyli cavandı,
Bax buna görə də ürəyim qandı.
Dərviş dilləndi ki, eləmə təşviş,
Haqqın köməyiylə düzələr bu iş.
Bu alma tumunu bağında əkdir,
Adi toxum deyil, dünyada təkdir.
Üçüncü ilində gətirəcək bar,
Onun çox qəribə təbiəti var;
Yayın hər ayında bir alma verir.
Bu işin özü də bir mö'cüzədir.
Ağac çiçək açır birinci gecə,
Meyvəsi böyüyür ikinci gecə.
Üçüncü gecənin çıxanda canı,
Ətri valeh edir hər bir insanı.
Keşik çəkilməsə üçüncü gecə,
Üç illik bir zəhmət dönəcək heçə.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Mütləq aparacaq onu oğrular;
Dürrün qismətində oğurlanmaq var.
Belə bir almanı hər kim yesə, bil,
Dönüb cavanlaşır düz iyrimi il.
Ömrün uzanarsa əgər bu qədər,
Həmi rəiyyətin tanımaz kədər,
Həm də kiçik oğlun çatar ərsəyə,
Sən də yetişərsən demək diləyə.
Zaman necə ki var dolandı, keçdi,
Dağlar öz donunu üç dəfə biçdi.
Bahar öz yerini verəndə yaya,
Bağban sevinc ilə gəldi saraya:
Alma çiçək açıb, nadir bir çiçək,
Ulduz tək parlaqdı onda hər ləçək.
Yetmiş il bağbanlıq etsəm də həmən,
Bu sayaq mö'cüzə görməmişəm mən. -
İkinci gün keçib çatanda sona,
Şah çağırıb dedi böyük oğluna:
- Üzə gələn gecə, istərəm ki, sən
Alma ağacına keşik çəkəsən.
Oğrular apara bilməsin onu,
Gərək xeyir olsun bu işin sonu.
Almanı dərərsən Günəş çıxanda,
Bil ki, bərabəri yoxdu cahanda.
Mənim dərdlərimin odur dərmanı,
İstəsən atanın saflaşsın canı
Bu gecə keşikdə şərəflə dayan,
Sübhəcən gözünü yumma bircə an.-
- Baş üstə atacan, - dedi şahzadə,
Qoymaram, qıymaram ümidin itə. –
Yaxşıca dincəldi hər şeydən əvvəl.
Axşam düşən kimi durub əlbəəl
Geyinib-keçindi bir əsgər kimi,
Bağın keşiyində durdu ər kimi.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Gecə səssiz, səmirsiz,
Eşidilmir bir hənir.
Hər şey oğru donunda,
Hər yan qara, hər yan sirr.
Vüsal gecəsi deyil,
Keçib getsin an kimi;
Dəqiqələr, saatlar
Ağırdı zindan kimi.

Gecə yarıdan keçir,
Böyük oğul yorulur.
Səhərə azca qalmış
Elə bil ki, vurulur;
Qucaqlayıb qalxanı
Əziz bir sirdaş kimi,
Ağacın altındaca
Düşüb yatır daş kimi.

Gün çıxanda ayılıb
Görür ki, yoxdu alma;
İşi e'tibarlı tut,
Sonra peşiman olma!..
Şaha yetişir xəbər,
Qaralır onun qanı;
Övladın fərsizliyi
Yaman sıxır insanı…
Ancaq hələ ümid var,
İki məhsul öndədi.
Oğrunu kim tutacaq,
İş bunun üstündədi.

Yayın orta ayı başlanan zaman
Alma çiçəkləyir ikinci dəfə.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bir əlində oxu, birində kaman,
Ortancıl yollanır indi hədəfə.

Bu iş olmalıdır mənə ram, deyir,
Dolanır hünərlə, gəzir çaparaq.
Necə olur olsun yatmaram deyir,
Səhərə az qalmış yorulur ancaq.

Olur ki, insanın yuxusu qaçır,
Nə qədər əlləşir, yata bilməyir.
Xəyalı cürbəcür fikirlər saçır,
Onları başından ata bilməyir.

Yatmaq istəməsə, ancaq çox zaman,
Qurğuşuna dönür göz qapaqları.
Əzablar içində qovrulduqca can
Deyir ki, bircə an yataydım barı.

Odur, bu haldadı ortancıl qardaş,
Yeriyə-yeriyə mürgüləyibdi.
Sanki kirpiyindən asılıbdı daş,
Əqlinə bir qara pərdə gəlibdi.

Bir anda gözünə çökür qaranlıq,
Yuxu qalib çıxıb onu ram edir.
Söykənir ağaca, sanır bir anlıq,
Elə ayaq üstə yuxuya gedir…

Şah yaman dilxor olub,
Almanın getməyindən,
Dağ boyu bir ümidin
Əriyib itməyindən.
Düşünür, cavanlaşmaq
Yəqin deyil qismətim.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Çox əfsus, çətinliyə
Düşəcək məmləkətim.

Yayın axır ayı qoyur başa tac
Yenə çiçəkləyir sehirli ağac.
Gəlir Məlikməmməd, gəlir sonbeşik,
İstəyir almaya o çəksin keşik.
On dörd yaşı vardır, ancaq mətindir,
Onunla bacarmaq xeyli çətindir.
Cəng vaxtı gözləri alışıb yanır,
Önündə qoçaqlar çətin dayanır.
Növbə gözləməyə güclə edib tab,
Şaha baş endirib eyləyir xitab:

Əziz ata, o oğrunu
Bu dəfə mən güdəsiyəm.
Cücə kimi tutub onun
Tüklərini didəsiyəm.

Hər kim olsa çalıb gəlim,
Almamızı alıb gəlim.
Mənim üçün yoxdu ölüm,
Dediyimi edəsiyəm.

Mərd-mərdanə vurub yara
Əsir edim, çəkək dara.
Oğrulara, quldurlara
Dərs verməyin dədəsiyəm.

Şad olsa da qəlbən buna,
Belə dedi şah oğluna:

Yatağanın bəxti laldı,
İşi rəvanc ola bilməz.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bəxt dediyin quş misaldı,
Açıq əldə qala bilməz.

Kim saymasa bu gərdişi
Aralıqda sınar dişi.
Böyük bacarmayan işi
Kiçik yola sala bilməz.

Görünür ki, o ne'məti
Bəxt yazmayıb mənə qəti.
Haqdan gələn bir qisməti
Div də gəlsə ala bilməz.

Şah istəmir belə tez
Bərkə, boşa düşsün o.
Əzab-əziyyət çəkib
Keşməkeşdən keçsin o.
Ancaq kt, Məlikməmməd
Dönən deyil sözündən;
Axır ata yumşalır,
Keçə bilmir üzündən.

Odur, Məlikmməməd keşikdə durur,
Üzündə qətiyyət, alnında qürur.
Alma Günəş kimi ağacda yanır,
Bağça işığıyla nura boyanır.
Gecə yavaş-yavaş əriyib gedir,
Məlikməmməd gəzib bağı seyr edir.
Hasardan boylanıb baxır yollara,
Görsün hardan oğru soxulur ora.
Yüz ölçür, bir biçir, oğru gələndə,
Onu hansı sayaq salacaq bəndə.
Sonra seyrə dalır dibsiz göyləri,
Parlaq bir ulduzu çəkir nəzəri.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Söyləyir, ey tale, bəxtim oyaqsa,
Bu gecə, bu işdə mənə dayaqsa,
Hansıdı ulduzum, tanınsın mənə,
Qoy alıb göz vursun o dönə-dönə.

Elə bu zaman
Bütün kəhkəşan
Nura boyandı,
O parlaq ulduz
Alışdı, yandı.
Sonra üç dəfə
Onun tərəfə
Baxıb göz vurdu,
Yerində durdu.

Bu kiçik tamaşa çatınca başa,
Sanki Məlikməmməd dolmuşdu yaşa.
Birə beş olmuşdu gücü, qüvvəti,
Yorğunluq canında yox idi qəti.
Sabaha az qalmış gördü ki, birdən
Onu yuxu tutur durduğu yerdən.
Bildi ki, oğrunun gəlmək çağıdı,
Yuxuya da səbəb həmən yağıdı.
Qardaşları kimi yatmasın deyə,
Xəcalət tərinə batmasın deyə
Xəncər ilə yardı baş barmağını,
Yaraya düz basıb bağladı onu.
Gözündən yuxusu qaçdı ağrıdan,
Bir nə'rə eşitdi elə həmin an.
Ehtiyatla oxu qoydu kamana,
Durub göz gəzdirdi sonra dörd yana.
Gördü bağa tərəf bir vücud gəlir,
Dəli nə'rələr də ondan yüksəlir.
Div tezcə adlayıb keçdi hasardan,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Əlini almaya atdığı zaman
Şahzadənin oxu batdı ovcuna,
Almadan əl çəkib sıçradı yana.
Zarıya-zarıya hasardan aşdı,
Gəldiyi yolla da tez uzaqlaşdı.

Azacıq keçmədən boylandı Günəş,
Səpdi yer üzünə yenə də atəş.
Məlikməmməd gördü yetişib alma,
Məqam ki, yetişdi, işindən qalma!
Çıxıb ehtiyatla onu qopardı,
Qızıl bir sinidə şaha apardı.

Ürəyi köksünə sığışmır şahın,
Dilindən düşməyir adı Allahın.
Şükr edir ki, oğlu dönüb üzü ağ,
Duyur ki, yiyəsiz qalmaz bu torpaq.
Düşünür ki, nahaq etmişəm təşviş,
Nizamla gedirmiş ölkədə hər iş.
Görür, bir gecədə oğlu boy atıb,
Artıq sərdar olmaq və'dəsi çatıb.
Alıb xəznədara verir almanı,
Saxlansın, yazılır onun fərmanı.

Məlikməmməd deyir ki:
-Gərək divi izləyim,
Yerə girəsi olsa
Çıxanacan gözləyim.
Bir az tədbirsiz oldum
Qaçıb çıxdı əlimdən,
Bir də o almalardan
Xəbər bilim gərək mən. –
Şah görür ki, qəlbinə
Onun dəymək nahaqdı,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Məltkməmməl ağıllı,
Tədbirli və qoçaqdı.
Deyir:
- Qardaşlarınla
Qoşun götürüb gedin,
Məhv eləyib oğrunu
Yurdunu talan edin. –

Məlikməmməd, qardaşları, bir də ordu
Elə o gün, zəfər, deyə təbil vurdu.
Az getdilər, üz getdilər,
Dərə, təpə, düz getdilər.
Məmləkətdən xeyli kənar bir dağ vardı,
Ətəkləri yamyaşıldı, zirvə qardı.
Gördülər ki, çəmənlikdə bir quyu var,
Ağzında da iri bir daş tutub qərar.
Orda divin qanlı izi qurtarırdı,
Qoşun dərhal dövrə vurub hazır durdu.
Atdan enib yaxın gəldi böyük qardaş,
Hər nə qədər güc verdisə, o qara daş
Bir qarış da tərpənmədi öz yerindən.
Orta qardaş yaxın gəlib dedi ki, mən
Kənar edim gərək daşı, ancaq o da
Çox çalışdı, gördülər ki, yoxdu fayda.
Növbə çatdı Məlikməmməd pəhləvana,
Bir həmləylə daşı alıb atdı yana.
Quyu dərin, qorxunc, dibi görünməyir,
Hər baxanın nəzərində bir özgə sirr…
Daş atdılar, səs etdilər,
Görünmədi divdən əsər.
Əlac qaldı enib xəbər gətirənə.
Böyük qardaş irəliyə çıxdı yenə.
İp gətirib onu ora salladılar,
Bir az getmiş aşağıdan qalxdı ah-zar:

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

-Çəkin yandım, çəkin yandım, öldüm, vay, vay. –
Ortancıl da onun kimi saldı haray.

Məlikməmməd, ey pəhləvan,
Gəl sənindi daha meydan.
Deyir:
- Məni sallayın siz,
Yandım desəm çəkməyiniz.
Quyu isti, quyu dəhşət,
Təndir kimi bir fəlakət.
Məlikməmməd dözür ancaq,
Ölsə də səs salmayacaq.
Axıracan dözdü o ər,
Dözümündü axı zəfər.

Odur birdən-birə isti azaldı,
İp onu quyunun dibinə saldı.
Əvvəlcə kəndiri açdı belindən,
Düşündü, özümə gəlim gərək mən.
Azacıq keçincə düzəldi halı,
Gördü bir qapı var yarı aralı.
Açıb daxil oldu boş bir otağa,
Ordan da bir qapı var idi sağa.
Bu minvalla keçdi altı otaqdan.
Yeddinci otağa girdiyi zaman
Gördü baş tərəfdə oturub bir qız,
Yemə, içmə, durub bax ona yalnız.
Çiçəkdən zərifdi hüsnü, camalı,
Aşıqlar demişkən, dağlar maralı.
Onu görçək coşdu oğlanın qanı;
Gözəllik önündə tablayan hanı?!
Elə ki, qız gördü Məlikməmmədi,
Təşvişlə, astadan bax belə dedi:

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Cavan oğlan qayıt geri,
Neçə ki, div oyanmayıb.
Qarşısında hələ heç kəs
Tab gətirib dayanmayıb.

Bu yerlərə kim yönəlib,
Ah-vay səsi tez yüksəlib.
Görməmişəm kimsə gəlib,
Öz qanına boyanmayıb.

Tapılsa da cəsarətin,
Çatan deyildir qüvvətin.
Şükr elə ki, hələ ətin
Kabab şişində yanmayıb.

Məlikməmməd aldı sazı,
Belə təskin etdi qızı:

Kim öləsi, kim qalası,
Onu hələ meydan bilər.
Kim açası, kim solası,
Dövran bilər, zaman bilər.

Ona yara vuran mənəm,
Ümidini qıran mənəm.
Meydanda mərd duran mənəm;
Qılınc bilər, qalxan bilər.

Qırasıyam amanını,
Tökəsiyəm al qanını.
İndi alaram canını,
Heç vermərəm aman, bilər.

Sonra qıza deyir:

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

- Tez oyat onu,
Görsün oğurluğun necədir sonu. –
Qız deyir ki:
- Asan oyanan deyil,
Neçə gecə-gündüz yatasıdır, bil! –
Onda Məlikməmməd durub yönəlir,
Divin dabanını xəncərlə dəlir.
Div oyanıb görün qıza nə deyir:
- Qoyma ayağımı çibinlər yeyir.-
Yenidən quylanır div yuxusuna;
Xəncər əsla əsər eləmir ona.
Xəncər bir az güclü başlayır işə.
- Qoyma ayağımı çibinlər deşə,-
Deyib div yenidən salır xorultu,
Otağı titrədir çıxan gurultu.
Şahzadə xəncəri yarada burur,
Div sıçrayıb qıza bir sillə vurur.
Məlikməmməd şir tək girir meydana,
Bir anda hər tərəf boyanır qana.
Divə neçə yerdən vurur yaralar,
Onu əldən, dildən salıb edir xar.
Qıza deyir:
Divin hardadı canı,
Bir yolluq tərk etsin gərək dünyanı.-
Qız durub taxçadan şüşəni alır;
Divin yalvarışı ərşə ucalır.
Ancaq Məlikməmməd baxmayır ona;
Gec-tez hər yaranmış borcludu cana…

Qız oğlana deyir:
- Sən ey igid ər,
O biri qardaşlar tutmamış xəbər,
Gərək tez yığışıb çıxaq bir yana,
Tale hər an gülmür insan oğluna.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Elə bir xəzinə vardır ki, burda,
Dünyada nə desən tapılır orda.
Könlün nə istəyir götürək gedək,
Bu mənfur yerləri tezcə tərk edək. –
- Mən oğru deyiləm, qaça bilmərəm,
Belə fürsətdən də keçə bilmərəm.
Bir-bir qırmalıyam olsa da mini,
Gəlmişəm kəsməyə divin nəslini.
Göstər xəzinəni, görüm hər nə var;
Bəlkə salamatdı bizim almalar. –
Gəzdi xəzinəni o başdan-başa.
Məhəl də qoymadı hədsiz daş-qaşa.
Sirrli almaları tapdı nəhayət;
Gözü tox olanlar insandı, əlbət…

Məlikməmməd baş qoyub
Qızın dizinin üstə,
Yaxşı-yaxşı dincəldi,
Sonra durdu ahəstə.
Qızı yerində qoyub
Yoluna davam etdi,
Qalan otaqları da
Bir-bir gəzməyə getdi.

İyriminci otağın
Qapısını açanda,
O, ikinci div ilə
Qarşılaşdı bir anda.
Ölüm-dirim vuruşu
Başladılar bir başa.
Hər kim bu vuruşmaya
Etsə idi tamaşa,
Heyrətdən və qorxudan
Yerindəcə donardı,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Gözlərinə inanmaz,
Bunu yuxu sanardı.
Düz yeddi gün durmadan
Qanlı çarpışma getdi,
Məlikməmməd bunu da
Yorub bir təhər etdi;
Yerə yıxıb xəncərlə
İyrənc başını kəsdi,
Sonra durub şüşəni
Sındırmağa tələsdi…

Məlikməmməd duydu ki,
Necə şirindi həyat;
Qələbə gözəl edir
Bu dünyanı neçə qat.
O, gördü burdakı qız
Əvvəlkindən gözəldi;
Gözəlliyi anlamaq
Hər duyğudan əzəldi.
Yenə başını qoydu
Qızın mərmər dizinə,
Yorğun olsa da, yuxu
Çox gec gəldi gözünə…

*****

Qız deyir:
- İgid oğlan,
Bəsdir yatdığın, oyan.
Dur ki, getmək çağıdı,
Bu yurd bizə yağıdı.
Böyük qardaş gəlməmiş,
Üstümüzə gülməmiş
Tezcə yığışıb gedək,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bu yerləri tərk edək. –
Eşitmir Məlikməmməd,
- Ey bəxtim, səndən mədəd, -
Deyib irəli gedir,
Gəzir evləri bir-bir.

Qırxıncı otağa çatdı nəhayət,
Orda bir qız gördü, afətdən afət.
Əfsus ki, təsviri qalmayıb bizə;
Sevinc paylayardı hər birimizə.
Uşaqlıq çağını yaşayırdı el,
Nə Nizami vardı, nə də Rafael.
Mənə elə gəlir, o bir bahardı,
Könlümün şahına bənzəri vardı …
Baxdı bir-birinə onlar bir müddət;
Vardı gözlərində şaşqınlıq, heyrət.
Ancaq ürəklərə gəlmişdi bahar,
Çünki bir-birinə vuruldu onlar.

Baxışdılar xeyli belə,
Axırı qız gəldi dilə:

Bura necə gəldin, oğlan,
Pərisənmi, mələksənmi?!
Bu qüdrətdə varmı insan,
Cadusanmı, kələksənmi?

O yolları necə seçdin?
O divələri necə keçdin?
Abu-kövsər harda içdin?
Arzusanmı, diləksənmi?!

Əjdahalar keçə bilməz,
Quş quşluqla uca bilməz.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Şeytan da yol seçə bilməz,
Tufansanmı, küləksənmi?!

Məlikməmməd aldı sazı,
Belə gəldi xoş avazı:

Nə pəriyəm, nə mələyəm,
Mən adicə bir insanam.
Nə caduyam, nə kələyəm,
Məni insan doğmuş anam.

Arzu qədər qüdrətliyəm,
Pələng kimi cürə'tliyəm.
Tufandan da sürə'tliyəm,
Bu cahana şərəf-şanam.

Sən imişsən görən gözüm,
Canım, qanım, mənim özüm.
Ver əlini gülsün üzüm,
Gözəl, qıyma oda yanam.

Bundan sonra meydan gözlərin oldu.
Şəkərdən də şirin sözlərin oldu.
Cavanlar doyunca deyib güldülər:
Həyatın dadını alıb böldülər.
Nə qədər göylərdə uçsa da onlar,
Ancaq bu günü də unutmadılar.
Qız dedi:
- Görünür haqq, ədalət var,
Bir də ki, taleyin sənə yardı, yar.
Div üç günlük ova gedibdi dünən.
O daşı qaldırıb, indi gərək sən,
Üzə çıxarasan onun canını,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Halaldı axıtmaq onun qanını.
Oğlan, bil ki, əgər belə etməsən,
Nə qədər qüvvəli olsan, yenə sən
Yıxmaq mümkün deyil o bədheybəti;
O biri divlərə bənzəmir qəti.
Onlardan on dəfə güclüdür, inan,
Zalımdı, heç kəsə verməyir aman.

Məlikməmməd durub qaldırdı daşı,
Dedi:
- Div gələndə açaq savaşı.
Əgər mərd-mərdanə onu yıxmasam,
Təkbətək döyüşdə qalib çıxmasam,
Əsla toxunmaram onun canına;
İstər məni anla, istərsə qına. –

Yenidən araya gəldi məhəbbət.
Sevən ürəklərin etdiyi söhbət
Onsuz yaşanılan min ömrə dəyər;
Məni başa düşər onu keçənlər.
Onlar gecə-gündüz etdilər söhbət,
Dincəlmək məqamı gəldi nəhayət.
Hərəsi bir yanda gedib yatdılar;
Əsil məhəbbətdə bakirəlik var…

Nərilti oyatdı Məlikməmmədi,
Dərhal anladı ki, o hay-küy nədi,
Tezliklə div özü girdi içəri,
Vəhşi qəhqəhəsi titrətdi yeri:

Adam, adam iyisi gəlir,
Yağlı badam iyisi gəlir.
Adam hara, bura hara?!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İndi onu çəkib dara,
Şişə çəkərək ətini;
Görəsiyəm ləzzətini.

Müxtəsər, döyüşə başladı onlar,
Hər zərbədən sonra əsdi dörd divar.
Qırılıb töküldü silahlar bütün,
Ancaq heç birisi deyildi üstün.
Güləş davam etdi qırx gün, qırx gecə,
Ancaq bütün fəndlər çıxırdı heçə.
Qız gördü ki, oğlan yorulur daha,
Ümid zəifləyir gələn sabaha.
Kədər əsir etdi o gül cöhrəni,
Birdən qətiyyətlə alıb şüşəni
Bütün gücü ilə endirdi daşa;
Bir anda son qoydu gedən savaşa…

Ən böyük imtahan yetişdi sona,
Qələbə yaraşır insan oğluna.
Sən o vəziyyəti düşün bir anlıq;
Nə qədər əzizdi əminamanlıq.
Oğlan o qədər də sevinmir buna,
Nəsə çatışmayır elə bil ona.
Özünü Ülviyə borclu sanır o,
Hərdən kədərlənir, hərdən yanır o.
Şükür ki, tezliklə düzəlir halı,
Çıxarır başından hər qiluqalı.
Anlayır Ülvinin hərəkətini;
Duymaq istəməkdi işin çətini.
Durulur qəlbində axan qızıl qan,
Mütləq kamilləşir sevəndə insan!..

Elə bil getməyə tələsmir onlar;
Tənhalıq, sənlə sevimli bir yar,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Hər vaxt qismət olmur belə bir imkan,
İmkanı əlindən buraxma, insan!
Ancaq, sağlamdırsa sinədə ürək,
Deyir, işi başa vurasan gərək.

Dördü də quyunun dibinə gəlir,
Çəkirlər yuxarı qızları bir-bir.
Elə ki, Ülviyə növbə yetişir,
Birdən birə onun halı dəyişir:
- Razı ol əvvəlcə çəksinlər səni,
Qabağa mən düşsəm, görüncə məni
Sənin kəndirini kəsəcək onlar.
İnan sözlərimə, məndə duyğu var! –
Məlikməmməd edir qəti e'tiraz;
Onu anlayarsan, düşünsən bir az.
Hiylədən uzaqdı mərd yarananlar,
Billur tək ürəklə doğulur onlar.
Ülvi söyləyir ki:
- Onda qulaq as,
Mənim məsləhətim gərəksiz olmaz.
Yenidən quyuya düşəcəksən sən,
Özgə əlac yoxdu, gözləyəcəksən.
Bir də görəcəksən iki qoç gəlir,
Ayıq ol, onlara yaxşı fikir ver.
Vuruşa-vuruşa gələcək onlar,
Sənin lap yanından keçəcək onlar.
Biri ağ, o biri qara rənglidir,
Onlar dünyalara bir işarədir.
Ağ qoçun belinə çalış minəsən,
Dediyimi edə bilsən əgər sən,
İşıqlı dünyaya çıxarsan asan.
Çaşıb qara qoçu minsən, həmin an
Qaranlıq dünyaya düşəsisən, bil,
Ordan geri dönmək asanca deyil.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Quyudan yer üzünə
Ülvi çıxdı nəhayət.
Əvvəlcə qardaşları
Sardı sonsuz bir heyrət.
Qızın hüsnü, camalı
Elə bil Günəş idi,
Gözlər piyalə kimi
Od idi, atəş idi.
Qara fikirlər doldu
Qardaşların qəlbinə;
Paxıllıq elədilər
Məlikməmmədə yenə.
Onu bir az çəkməmiş
Alıb ipi kəsdilər,
Yığışıb ordan evə
Dönməyə tələsdilər.

*****

Gözləyir quyuda bizim qəhrəman,
Elə bil zindana dönübdü zaman.
Tədbirsiz olmağı qəlbini sıxır,
Ülvinin həsrəti yandırıb yaxır…

Uzaqdan göründü qoçlar nəhayət,
Bürüdü qəlbini sevinc və heyrət.
Vuruşa-vuruşa gəlirdi onlar:
Deməli xilasa hələ ümid var!
Qoçlar gəlib ordan keçdiyi zaman,
Şahzadə Ağ Qoça vermədi aman.
Cəld atılıb mindi onun belinə,
Düşündü ki, fürsət keçdi əlinə.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bir xeyli qaçdılar qoçlar yanbayan,
Toz-duman qalxırdı dırnaqlarından.
Odur, yetişdilər yol ayrıcına,
İndi qaçasıdı hərə bir yana.
Birdən Ağ Qoç onu top tək oynatdı,
Alıb Qara Qoçun belinə atdı.
Qara Qoç yel kimi getdi o ki var,
Qaranlıq dünyaya yetişdi onlar.

Hər yan cansıxıcı, alatoranlıq;
Şahzadə gecədi, düşün bir anlıq,
Xeyli dörd tərəfi gəzdi, dolandı,
Cüt ağac yanında gəlib dayandı.
Hələlik ümidi bağladı baxta,
Bilirdi ki, baxtı çıxıbdı taxta.
Uzanıb ağacın dibində yatdı,
Onu yuxusundan səs-küy oyatdı,
Gördü o ağacda quş yuvası var,
Orda səs-küy salır ətcəbalalar.
Əjdaha çıxırdı həmin ağaca,
Ağzı kaha kimi, buynuzu haça.
Xilas olsun deyə quş balaları,
Qılıncla vəhşini böldü tən yarı.
Çəkib cəsədini bir yana atdı,
Yenidən qayıdıb yerində yatdı.

Zümrüd quşunun imiş,
Sən demə, həmin yuva.
Bir qədər bundan əvvəl
Uçub gedibmiş ova.
Çoxdan bəri Zümrüdün
Balaları çıxanda,
Bu əjdaha onları
Udurmuş bircə anda.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Quş ovdan döndü geri,
Caynağında bir inək.
Məlikməmmədi görüb
Belə düşündü, demək,
Mənim balalarımı
Bu imiş hər il yeyən.
Onu həşərat kimi
Əzəcəyəm indi mən.
İnəyin cəsədini
Endirərək yuvaya,
Zümrüd quşu yenidən
Uçub qalxdı havaya.
Bir dəyirman daşıyla
Geri qayıtdı həmən,
Məlikməmmədin üstə
Onu salmaq istərkən,
Balaları qışqırıb
Ona dedilər, dayan,
Bizi o əjdahadan
Xilas etdi bu insan.
Quş daşı yana atıb
Yerə endi ahəstə,
Çəkdi bir qanadını
Məlikməmmədin üstə.

Odur, Məlikməmməd durdu yuxudan,
Quş insan diliylə dindi bu zaman:
- Ey insan övladı, səni min yaşa!
Bala həsrətindən dönürdüm daşa.
Onları qoruyub bu əjdahadan,
Mənə bəxş etmisən bütöv bir cahan.
Xətrin nə istəyir, sən məndən istə,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Nə qulluq buyursan gözlərim üstə.
- İşıqlı dünyadan düşmüşəm bura,
İstərdim yenə də qayıdım ora. –
Zümrüd quşu dedi:
- Mümkündü bu iş,
Asan olmasa da eləmə təşviş.
Qırx bardaq su düzəlt, qırx şaqqa da ət,
Onda başa gələr dediyin niyyət.
Dediyim şeyləri, bilirəm ki, sən
Ölkənin şahından ala bilərsən.
Keçib gedəcəksən xeyli dağ, dərə,
O yol çatdıracaq səni şəhərə.

Şahzadə gecəni gündüzə qatdı,
Məneəsiz gəlib şəhərə çatdı.
Gördü şəhər əhli geyinib qara,
Soruşdu, nə olub bu adamlara?
Ona dedilər ki, bir əjdaha var,
Bulağın başında tutubdu qərar.
Hər gün bir qız yeyib bir az verir su,
Elə bir vəhşidi, yoxdu duyğusu.
Artıq bütün qızlar verilib ona,
Sabah növbə çatır şahın qızına.
Susuz qalasıdı sonra bu şəhər,
Çünki, bata bilmir ona bir nəfər.
Məlikməmməd gecə şəhərdə qaldı,
Bulağın başına səhər yol aldı;
Ağlaya-ağlaya elə bu zaman,
Ora axışırdı şəhərdən insan.
Gətirib gəldilər şahın qızını,
Ellər gözəlini, dan ulduzunu.
Məlikməmməd dedi:
- Dayanın bir az,
İndi cəzasını alar yaramaz. –

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Çəkib qılıncını girdi meydana,
Əjdaha zərbindən bələndi qana.
Yeddi saat ona vermədi aman,
Bütün başlarını kəsdi qəhrəman.
Onun pişvazına şah özü gəldi,
Alqış nidaları göyə yüksəldi.
Şah dedi:
- Ey igid, gəl qızımı al,
Şahlığı qəbul et, ölkəmizdə qal. –
Şahzadə söylədi:
- Minnətdaram mən,
Ancaq siz deyənlər gəlməz əlimdən.
İşıqlı dünyadı yurdum, məskənim,
Yolumu gözləyən var orda mənim.
Qırx şaqqa ət verin, qırx bardaq da su,
Bunlara bağlıdı qəlbin arzusu. –

Alınan şeylərlə yüklənibdi quş,
Şahzadə ortada qalxıb oturmuş.
İşıqlı dünyaya düşürlər yola,
Hərdən quş başını döndərib sola
«Qa», deyir, şahzadə ona ət verir,
Elə ucalırlar görünməyir yer.
«Qu», deyib başını əyəndə sağa,
Şahzadə əl atır dolu bardağa.
Birdən bir şaqqa ət əldən sürüşür,
Bir başa göylərin qoynuna düşür.
Neçə gün uçurlar onlar bu sayaq,
Şahzadə daima olubdu oyaq.
Artıq qurtarıbdı, yeyilibdi ət.
İşıqlı dünyaya az qalmış fəqət,
Zümrüd «qa», söyləyir sonuncu kərə,
Şahzadə əl atır dərhal xəncərə.
Kəsir sol budunun yumşaq ətini,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bu yolla saxlayır ləyaqətini.
Quş his edir ətin yad olduğunu,
Dilinin altında saxlayır onu.
İşıqlı dünyaya çıxırlar bu an;
İşıqdan güc alıb insan hər zaman!
Şahzadə aşağı enib dayanır,
Yarası ağırdı, sızlayır, yanır.
Zümrüd quşu deyir:
- Yeri görüm sən,
Doğma torpağında necə gedirsən. –
Axsaya-axsaya gedərkən oğlan,
Zümrüd söyləyir ki:
- Ey igid dayan!
Söylə, birdən-birə axsadın nədən?
Sağlam idin səni götürəndə mən. –
- Ət qurtardı, ancaq istədin yenə,
Mən də bud ətimi vermişəm sənə. –
Quş dili altından çıxardı əti,
Onu öz yerində çəmlədi qəti.
Alıb məlhəm qoydu ağız suyundan,
Yara tamam-kamal sağaldı o an.
Sonra Zümrüd çəkib lələklərindən
Söylədi:
- Bunları yaxşı saxla sən.
Nə vaxt dara düşsən birini yandır;
Onun sirri yalnız sənə əyandır.
Harda olsam dərhal biləsiyəm mən,
Sənin köməyinə gələsiyəm mən. –
Bununla onların söhbəti bitdi,
Quş bir anda uçub nəzərdən itdi.

Elə uzaqda deyil
Odur görünür şəhər.
Günün körpə çağıdı,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Təzə açılıb səhər.
Günəş, o odlu kürə
Dağ dalından boylanır;
Şahzadənin qəlbində
Nə duyğular oyanır…
Ancaq bu hal tez keçir,
Dalğınlaşır nəzəri –
Şəhərdə nələr olub,
Görən o vaxtdan bəri?..
Bir kənarda əyləşib
Dərindən fikirləşir,
Nəhayət, qətiyyətlə
Durur ayağa o şir.
Şəhərin kənarına
Çatır axşama yaxın.
İnsanlar öz işindən
Qayıdır axın-axın.
İlk evlərdən birinin
Qapısına yan alır,
Allah qonağı kimi
Orda hörmətlə qalır.
Ev sahibi işgüzar
Hörməli bir dərzidir;
Əmək sevən seçilir,
Yoxdur burda özgə sirr.
Güya bizim qəhrəman
Yadelli kimsəsizdi.
Dərzi duyur bu oğlan
Ləkəsiszdi, təmizdi.
- Öz doğma evin kimi
Oğul, bizdə qal, - deyir,
Öyrən mənim peşəmi
Mənə şəyird ol, deyir.
Məlikməmməd razıdı

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Onun bu təklifindən.
Bir müddət ömür sürür
Çoxu qüssə, azı şən.

Dərzi çağrılıbdı bu gün saraya,
Hazırlıq görülür sarayda toya.
Şahın böyük oğlu evlənəsidi;
Əslində toy çoxdan olmalı idi.
Ülvi istəmişdi üç dəfə möhlət,
Məcburi verilir işə nəhayət.
Məlikməməd bunu eşidən zaman
Başından tüstülər ucaldı, inan.
Bir təhər dözürdü bu günə qədər,
İndi həyat ona olmuşdu zəhər.
Görmək istəmirdi qardaşlarını,
Taleyə vermişdi ixtiyarını.
Onlarla yenidən üz-üzə gəlmək,
Məcburən danışmaq, məcburən gülmək
Ölümdən də betər gəlirdi ona.
İşin o tərəfi qalsın bir yana,
Deyirdi, bu murdar, iyrənc xəyanət
Gizli qalmalıdı bəşərdən əlbət.
Yoxsa ləkə düşər elin qəlbinə;
Yaxşılıq dinləsə saflaşar sinə.
Dərzi şahzadəyə söyləyir bir gün:
- Sabahdan başlanır şadlıq, toy-düyün.
Əvvəlcə çox böyük cıdır olacaq,
İgidlər layiqli nəmər alacaq.
Oğul, istəyirsən sabah sən də get,
Bu el şənliyində şadyanalıq et. –
Şahzadə deyir ki:
- Bacarmaram mən,
At çapmaq, ox atmaq gəlmir əlimdən. –
Durub bir xəlvətə çəkilir ancaq;

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yanır quşun tükü şəfəq saçaraq.
Tezliklə görünür o sehirkar quş,
Şahzadə sanır ki, gəldi qurtuluş.
Söyləyir başına gələn hər nə var,
Quş deyir:
- Ölümə layiqdi onlar. –
Qəlbində olsa da tərəddüd ancaq,
O, Zümrüd quşuna belə deyir bax:
- Mənə sarı paltar, sarı yel atı,
Bir də qılınc gətir, saf olsun zatı. –
Hər şey hazır olur, odur, bir anda,
Mö'cüzələr olub əvvəl cahanda.
Gecə səhərəcən yatmır şahzadə;
Ürək rahat deyil çünki sinədə…

Səhər yenə çəkilir
Şahzadə bir tərəfə.
Quşu çağırıb deyir:
- Könlümdəki niyyətə
Ağıl e'tiraz edir.
Özün bunu düşün bir;
Mən onların canını,
Axı nə sayaq alım?
Qardaş qatili kimi
Necə yaşayım, qalım?

Zümrüd quşu birdən alır,
Öz könlünü belə çalır:

Səadət dediyin tapılmır asan,
Qardaş, onu özün qurasan gərək.
Gözün giləsi tək qoruyub hər an,
Şir tək keşiyində durasan gərək.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Çəkib alacaqlar hər qismətini,
Əgər ucuz tutsan, bil, qiymətini.
Duyan tək düşmənin bəd niyyətini
Onu şahmar kimi vurasan gərək.

Kimin ki, başında cəm deyil huşu,
Xırda bir əngəldən yox qurtuluşu.
Uçsa əllərindən bəxtinin quşu
Çatıb tutmaq üçün yorasan gərək.

Məlikməmməd sazı aldı,
Baxaq görək necə çaldı:

Qovğa günü qızmış nərəm,
Kişiliklə daim varam.
Mərd meydandan çəkinmərəm,
Orda külli-ixtiyram.

Qurulubdu bu gün toyu,
İtirirəm o sərv boyu.
Bilirəm ki, ömür boyu
Qövr edəcək mənim yaram.

Haqq yolunda düşdüm oda,
Qoy bir canım olsun fəda.
Qardaşlarım pis olsa da
Qatil olmaq bacarmaram.

O, quşa qaytardı həmin şeyləri,
Ağır duyğularla qayıtdı geri.

Zaman işindədi, axşamdı yenə,
Dərzi vay-şüvənlə dönür evinə,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Deyir:
- Cıdır vaxtı dağ boyda bir quş,
Şah oğlanlarının üstünə cummuş.
Hərəsini tutub bir caynağında
Qalxıb havalanmış göyə bir anda.
Ordan yazıqları torpağa salmış,
Bədbəxtlər qan qusub yerində qalmış.

Artıq qırx gün keçir o hadisədən,
Ağlaşma kəsilmir hələ ölkədən.
Məlikməmməd deyir:
- Ay dərzi ustad,
Dur tələs saraya, şahı eylə şad.
De ki, kiçik oğlun dönübdü geri,
Vaxtı çatıb, gərək açaq bu sirri.
Sübut üçün götür bu almaları,
Şah yaxşı tanıyır çünki onları.

Odur xəzinədə alma üç oldu,
Namərdlər, nakəslər öldü, puç oldu.
Dərzi xələt aldı, bəlkə bir ambar;
Hər yaxşı əməlin mükafatı var.
Şah tacı-taxtını verdi oğluna,
Dedi, Məlikməmməd layiqdi buna.
Qırx gün, qırc gecəlik bir toy vuruldu,
Ölkədə hamının kefi duruldu.
Çatdı arzusuna Ülvi nəhayət,
Məlikməmməd oldu təzə bəy əlbət.
Onlar məhəbbətlə ömür sürdülər,
Bilsən necə gözəl günlər gördülər…
Görənlər görübdü, necə desin dil,
Görməyən deməklə anlayan deyil.
Bitsin dastanımız müxəmməs ilə,
Aşıqlar, ozanlar salsınar dilə.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İnsan ilə bir doğulub,
Əbədilik qalar mərdlik.
Ər igidlər ürəyində
Öz yurdunu salar mərdlik.
Namərdlərin, nakəslərin
Gözünə ox olar mərdlik.
Paxılların varlığını
Bircə anda talar mərdlik.
Qalib çıxar hər döyüşdən
Nə dönər, nə solar mərdlik.

Onun qəlbi əzəl gündən
Xəzan bilməz bir bahardı,
Əməlinə könül verən
Ömür boyu bəxtiyardı,
Onsuz ürək ürək deyil,
Özü boyda dərd, azardı,
Hər yalanın qənimidi,
Hər doğruya xilaskardı,
Hər gün, hər an yer üzündə
Min qələbə çalar mərdlik.

Kimə ondan pay düşərsə
Ustadlara ustad olar;
Qovğa günü Qoç Koroğlu,
Qaçaq Nəbi, Fərhad olar,
Eşqə düşər – Məcnun, Kərəm,
Bir yorulmaz səyyad olar,
El qəlbində heykəlləşər,
Nağıllışar, on qat olar,
Hər xilqətin öz yerini
Layiqincə bular mərdlik.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bu dünyadan üz çevirsən
İşıq gedər, zülmət gələr,
Məhəbbətdən əsər qalmaz,
Hər ürəyə nifrət gələr,
Gülüş, sevinc yoxa çıxar,
Aralığa qeybət gələr,
Müxtəsəri, ortalığa
Cəhənnəm tək dəhşət gələr,
Qəlbimizdə yaxşı nə var
İblis gəlib alar, mərdlik!

Pənah, odur insanlığın
Var-dövləti, şərəf-şanı,
İnsan oğlu, sil gözünü,
Xilaskarı yaxşı tanı,
Onu bir yol görən kimi
Yamanlığın çıxar canı,
Gec-tez gəlib fəth eləyər
Ər kişilər bu dünyanı,
Hər bir elə, hər obaya,
Hər ürəyə dolar mərdlik.

Göydən üç alma düşdü,
Elə həmən almalar.
Hərəniz bir tərəfdə
Di çəkməyin intizar.
Biri mənim, biri də
Özümündü şübhəsiz,
Üçüncü nağılçıya
Çatır, yəqin bilin siz.

NABRAN
15-23 avqust 1988-ci il

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

REDAKTORDAN SON SÖZ ƏVƏZİ

Salam əziz oxucular!

Mən yenidən Sizinlə, poeziya sevərlərlə Pənah Göyçənin növbəti görüşünü səbirsizliklə gözləyirdim. Bu sözləri bildirdikdə heç də söz xatirinə söz demək istəmirəm. Belə ki, bəzən kiminsə tərifi və ya tənqidi üzərində qurulan ifadələr həqiqətin çatdırılmasına (o qədər də əhəmiyyətli deyil, bilərəkdən, yaxud da bilməyərəkdən) mane olur. Hətta bu barəda kifayət qədər misallar da göstərmək olar. Amma fikrinizi, icazənizlə öncə başqa bir məsələyə yönəltmək istərdim.

Poeziyanın vəziyyəti bu gün qloballaşma və informasiya bolluğu dövründə necədir və əslində necə olmalıdır? Zənnimcə çox maraqlı və təhlilə ehtiyacı olan bu mövzu ilk öncə diqqətimi ilahi vergidən qaynaqlanan bir sənətin, poeziyanın, şairliyin mövcud durumu ilə cəlb etdi. Gəlin qısa da olsa nəzər salaq.

Bildiyimiz kimi mövcud kommunikasiyaların bir-biri ilə daha sıx bağlılığı qloballaşmanı daha da sürətləndirən amil-lərdəndir. Burada rabitənin rolu və xüsusi əhəmiyyəti var. Bu gün insanlar öz yaşadıqları və fəaliyyət göstərdikləri yerdən asılı olmayaraq kifayət qədər çox informasiya qəbul etmək imkanına malikdirlər. Bu əmsallar zonalara görə müxtəlif ola bilər. Lakin əsas odur ki, bu tendensiya günü-gündən artmaqdadır və hətta bir çox hallarda insanlar buna hazır olmurlar. Deməli, çağdaş dövrümüzdə informasiya almaq daha asandır. Təsəvvür edin ki, 80 il bundan əvvəl ali məktəb tələbəsi hər hansı əlavə bir mövzu üzrə informasiyanı necə çətinliklə alırdı. Amma bu gün nəinki tələbə, hətta şagirdlər belə istədiyi informasiyanı daha tez və daha rahat ala bilirlər. Buna əsas səbəb isə informasiya materiallarının bolluğu, onların emal edilmə və çatdırılma vasitələrinin daha böyük imkana malik olmasıdır. Bax belə bir şəraitdə, çoxlu informasiya almaq

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

insanlara hansı mənəvi və bioloji təsir edir kimi suallar təbii olaraq meydana çıxır. Düzdür, bu barədə müxtəlif peşə sahibləri öz sözlərini deməkdədirlər. Hətta həkimlər artıq informasiya bolluğunun insanlarda müxtəlif növ əsəb xəstəlikləri əmələ gətirdiyini bildirirlər. Amma dərd varsa, dərmanı da var deyiblər. Bu məqamda musiqinin, poeziyanın insanlara çox köməyi ola bilər. Düzdür, burada biz fərdlərin şakərlərini, adətlərini, hobbi və digər amilləri nəzərə almaya bilmərik. Amma əminliklə demək olar ki, hər kəsin musiqiyə, poeziyaya xüsusi ehtiyacı var. Xüsusən də yuxarıda sadaladığımız və sadalaya bilmədiyimiz bol problemləri olan müasir, qloballaşma dövründə.

Deyirlər ki, musiqi, poeziya ruhun qidasıdı. Burada musiqi ilə poeziyanın vəhdəti göz önündədir. Amma poeziyanın insanlarda maariflənmə, söz ehtiyatının artması, bir-biri ilə ünsiyyət, sözlərin yaratdığı möcüzə kimi xüsusiyyətləri meydana çıxarır. Əsrarəngsiz, yerində deyilmiş fikirlərlə zəngin poeziya nümunələri daim yaşayır. Təbii olaraq poeziyadan xalq nəyi isə əxz edirsə, demək onu yaşatmağa da məhkumdur. Düzdür, bunlar bəlkə də bəsit fikirlər fonu yarada bilər. Amma burada bir möcüzəni görməyə bilmərik. Belə ki, poeziya yaranışından daim inkişafda olmuş, heç vaxt asılı vəziyyətdə olmamışdır. Demək poeziyanı yaratmırlar, poeziya özü yaradır. Tanrının insanlara verdiyi nurdu, ziyadı. Odur ki, biz insanlar həmin nuru, ziyanı yaratmırıq. Ancaq bacara bilsək ondan bəhrələnə, qidalana bilərik.

Poeziyadan bəhrələnməyin, qidalanmağın qloballaşma dövründə asan və çətin tərəfləri vardır. Asan tərəfi odur ki, yuxarıda qeyd etdiyimiz kimi, istənilən poeziya nümunəsini çox da çətinlik çəkmədən əldə etmək olar. Amma çətin tərəfi odur ki, biz heç fərqində deyilik ki, bizə poeziya nümunəsi nə dərəcədə lazımdı. Elə fikirləşirik ki, bəzən musiqiyə qulaq asmaq təxminən bu tip ehtiyacımızı ödəyir. Lakin musiqi nə qədər əzəmətli, xəlqi, qəlbəyatım olsa da burada poeziyanı əvəz edə bilməz. Çünki, sözləri öz qəlbinin musiqisi ilə müşayət edərək ifa etmək əvəzedilməz nemətdir. Təsəvvür edin ki, ürəyinizə yatan, qəlbinizi, ruhunuzu

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

oxşayan hər hansı bir şeri öz qəlbinizin musiqisi ilə ifa edirsiniz. Bu artıq insanın şəxsən özünə verdiyi əvəzsiz mənəvi töhfədir. Bəzən insanlar qəlbinə yatan musiqi parçasını zümzümə edir. Bu mənəvi zövqü təbii ki, heç nə əvəz edə bilməz. (Mən poeziya ilə musiqini müqayisə etmək fikrindən tamamilə uzağam) Amma poeziyanın ayrılıqda xüsusi əhəmiyyəti ondan ibarətdir ki, insan özü-özünü qidalandırmaqla həm də bir ziya, nur qazanır. Poeziya nümunəsindəki fikirləri anlamaq, onu özününküləşdirmək və əxz etmək insanın qəlbində məhəbbət hisslərini daha da artıran amillərdəndir. Çünki məhəbbəti kasad olan qəlb duyumsuz olar:

Sevən ürək müqəddəsdir,
Şeytan ora girə bilməz.
Biganələr, deyildir sirr,
Eşqə könül verə bilməz.

Pənah Göyçənin bu sözləri ilə razılaşmaya bilmirik. Hər insanın içində bir şairlik nuru, bir şairlik işığı var. Amma hər insana tanrı o işıqdan istifadə etməyə lazımınca təb, ilham vermir. Əsl şair isə:

Məcnun tək eşqində sədaqətlidi,
Fərhad tək işində dəyanətlidi,
Hər insan oğluna xoş niyyətlidi –
Əməli, amalı, eşqi müqəddəs,
Bax, belə doğulur şair olan kəs.

Gecə də, gündüz də qələmi əkər,
Könüllər mülkünü yaradar, tikər.
Hər pisin yerinə xəcalət çəkər,
Bəşərin dərdini bölməyə bilməz,
Beləcə ömr edər şair olan kəs.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Dünyanın kədəri, qəmi onundu,
Qayğısı, kəsiri, kəmi onundu.
Kim görüb sevinci, dəmi onundu –
Əks edər qəlbində hər haray, hər səs,
Özgə cür olarmı şair olan kəs?!

Hərdən neçə əsr qabağa baxar,
Hərdən ötənlərin seyrinə çıxar.
Düyan könüllərə nur olub axar,
Kimsə narahatsa yuxusu gəlməz,
Beləcə yaşayar şair olan kəs.

Bir çiçək şaxtadan donası olsa,
Bir çəmən quraqdan yanası olsa,
Kim isə əhdini danası olsa
Qayğılı dolanar, çöhrəsi gülməz,
Ay Pənah, belədi şair olan kəs.

Bəşəri, insanlara mənəvi dayaq ola biləcək fikirlərlə zəngin poeziya nümunələri həm də qloballaşma dövründə öz yerini tapacaq. Onun əgər belə demək mümkünsə, reklamı təbii şəkildə baş verməlidir. (Təbii ki, mənbə ünvanları göstərilməli və bir sıra əsas elementlər yerinə yetirilməlidir) Necə ki, əzəldən istənilən əsl sənət əsərləri heç bir reklama ehtiyac duymayıb. Min dəfə təəssüf ki, bu gün bir çox ədiblərimiz öz əsərlərini nəyə, kimə ithaf etdiklərinin bəzən fərqində belə deyillər. Böyük Nizami «Xosrov və Şirin» əsərində bir şahın misalında bütün şahlara, şahlığa düzgün yol göstərməyə çalışırdı. (Yeri gəlmişkən, «Afaq» pyesində bu barədə Pənah Göyçə kifayət qədər dolğun fikirlər söyləmişdir). Çox istəniləndir ki, ithaf olunan, ünvanlı əsərlər də əslində istinad olunduğu ünvanı mümkün qədər ümumiləşdirsin, qlobal problemləri daha da qabartsınlar. Bunları dedikdə, mən poeziyada təzə janr və ya hər hansı bir forma təklif etmək istəmirəm. Sadəcə olaraq əsərdəki fikirlər hər kəsin mənəvi ehtiyacını ödəyə bilsin, hər kəs onu duya

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

bilsin. Düzdür, burada hər kəs dedikdə ümumi xarakter nəzərə alınır. Təbii ki, fərdlərin münasibəti fərqli olur və olacaqdır. Amma xəlqilik, bəşərilik qloballaşmanın əsas amili sayılmaqdadır.

Yuxarıda qeyd etdiyim kimi Pənah Göyçə «Afaq» əsərində yüksək bəşəri və xəlqi fikirlərə yer vermişdir. Və çox maraqlıdır ki, Şeyx Nizami həmişə əsər boyu təkamül tərəfdarı kimi çıxış edir, özü də buna mümkün qədər riayət etməyə çalışır. Əsərdə diqqəti çəkən bir məqam da Pənah Göyçənin Nizami dövrü üçün qeyri xarakterik olan bir məsələni, «kim layiqdirsə o da olsun» prinsipini özünəməxsus şəkildə qabartmasıdır. Əsərdə göstərilir ki, Qızıl Arslan Nizami Gəncəviyə Həmdünyan kəndini bağışlayır. Amma böyük Nizami isə bu kəndin idarə olunmasını çox aqilliklə həll edir. Kəndin öz içərisindən layiqli bir adama idarəetməni həvalə edir. Bu isə müasir dövrümüzdə seçki anlamına gətirib çıxarır. Yəni əslində insana bacardığı iş həvalə edilir:

…Ora özlərindən darğa seçərik,
Yəgin ki, hərdən bir baş da çəkərik.
Hər cürə vergidən yoxsul olanı,
Azad eləyərik, qurtarar canı.
Bir az vergi verər varlı olanlar,
Xeyriyyə işinə xərclənər onlar.
Qoy xöşbəxt yaşasın daha Həmdünyan,
Ədalətli bir yer tanısın cahan…

Pənah Göyçənin qoyduğu bu məsələ bu gün də aktualdır və qloballaşmanın daşıdığı əsas dəyərlərdən biridir.

*****

Ümumiyyətlə Pənah Göyçə yaradıcılığı çox zəngindir. O hər bir insani keyfiyyətin qədərini bilməyi, onu lazımınca qiymətləndirməyi təlqin edir:

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Dözüm kimi ne'mət hanı, - qədərində.
Səbr bəzər hər insanı, - qədərində.
Çox olanda bal da dönüb qətran dadır,
Mərhəməti bəyən, tanı, - qədərində.

Bəzən də Ulu Tanrının yaratdığı sirrlərlə dolu kainat haqqında hamının başa düşə biləcəyi tərzdə söyləyir:

…Bir kainat yaratmısan kənarı yox, yanı yox,
Hər ulduzu bir aləmdi hesabı yox, sanı yox…

Bu, şair qəlbli doğulan elm adamının Tanrı möcüzəsinə bir baxışıdı. Tanrının möcüzələri isə sonsuzdur. Baxın, adi təbiət hadisələri Pənah Göyçə dilində necə bir əsrarəngsiz don geyinir:

Çalxandı buludlar, hönkürdü göylər,
Qərq etdi yağışa, selə dağları.
Sonra Günəş çıxdı saçaqları zər,
Bələdi çiçəyə, gülə dağları.

İnsanın ona, ana təbiətə vurğunluğunun, mehrinin özü isə bir başqa aləmdir:

Açdı qucağını, sanki, bir ana,
Körpə uşaq kimi sığındım ona.
Elə bil yenidən gəldim cahana,
Heç vaxt görməmişdim belə, dağları.

Təbiətin gözəlliyi qarşısında, ümumiyyətlə gözəllik qarşısında heç bir qüvvə dayana bilməz, əksinə amalı saf, təmiz olan bəşər ancaq bundan ilham, qüvvət alar, özü o gözəlliyə qarışıb öz töhfəsini verməyə çalışar:

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

…Xalı tək sərilib min cür gül, çiçək,
Bir-birindən incə, təzə-tər, göyçək.
Ay rəssam qardaşım, gəl yazaq, çəkək,
Layiqincə salaq dilə, dağları.

Təbiətin gözəlliklərini mərdliklə sevməyi, ona vurulanda da mərdliklə vurulmağı isə Pənah Göyçə belə ifadə edir:

Necə çalışsa da qələm, fırça, dil,
Yenə bu cənnətin təsviri deyil.
Pənah, oğul odur hər il, hər fəsil
Başdan başa gəzə, gələ dağları.

Bəli, mərdliklə yaşamağı, yeri gələndə mərdliklə, şərəflə ölməyi bacarmalıyıq:

Həyatın qədrini bilmək gərəkdi,
Yerində ağlayıb, gülmək gərəkdi.
Ömür amanatdı, yeri gələndə,
Şərəflə, mərdliklə ölmək gərəkdi.

Amma dünyanın öz gərdişi, öz nizamı var. Daim güclü-zəif, xeyirlə şər dünyanın çarxında hərlənir, ələyində ələnir:

Qaydadı çarpışır xeyir ilə şər,
Kim deyir çox zaman yaman aparır?!
Elləri dağlara qaldırır Günəş,
Qaytarıb arana duman aparır…

Məqam yetişir, zaman hər işi yerbəyer edir:

…Ümid üzülməmiş salma ahu-zar,
Dünyada hər işin öz məqamı var.
Dağları da yarır coşanda çaylar,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Baxma durulanda saman aparır.

Biz zamanın, anların ömrümüzdən nə tez keçdiyinin fərqində belə olmuruq, onu qiymətləndirərək lazımınca bəhrələnə bilmirik. Çünki, dünyanın gərdişi əzəldən bu cür qurulub, özgə cür ola da bilməz:

Aylar nə tez keçir, dəyişir fəsil,
Quş tək qanadlıdı elə bil ki, il.
Ay Pənah, hər anın qiymətini bil,
Dünyada hər mərci zaman aparır.

Zamanında isə əcəl gəlir, insanlar bəzən onu çağırmağa, səsləməyə meyllənir, bəzən də yaxın buraxmaq belə istəmir. Amma bu da həyatın bir naxışıdı:

…Şöhrətim, mənsəbim, malım nə gəzir?
Ay Pənah, yaşılım, alım nə gəzir?
Zildən səsləməyə halım nə gəzir,
İncimə, çağrışım pəsdi, əcəl, gəl!

Əcəl, sən gəlsən də, gəlməsən də həyat davam edir, dövran öz gərdişində, arzular, xəyallar, röyalar da öz şirinliyində, öz nəfisliyində, öz gerçəkliyi ilə əlçatmazlığı arasında dolanmaqdadır:

…Hicrandı verən səda,
Düşmüşəm yaman oda.
Heç olmasa uyğuda
Qoy uçsun qəm hasarı, -
Bir yuxuma gəl, barı!...

Kim ülvidən ülvi diləklərinin, şirindən şirin arzularının heç olmasa uyğuda reallaşması arzusunda olmayıb:

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

…Ümidim, sabahımsan,
Sevincimsən, ahımsan.
Sultanımsan, şahımsan,
Bir an unut vüqarı, -
Gəl, yuxuma gəl, barı!

Sevən kəslərin şair qəlbi, şair təbi ilə mənəvi bağlılığı, mənəvi körpüsü Pənah Göyçə təbindən süzülən misralara düzülür:

Hər yan keçdikcə məndən,
Saçlarımda artır dən.
Ürək çıxıb sinəmdən
Boylanır sənə sarı, -
Bir yuxuma gəl, barı!
Gəl, yuxuma gəl, barı!

Şair qəlbi, şair duyumu çox incə, zərif olarmış. Həmsöhbəti, dərdiməni çol-çəmən, bağça-bağ, dağ-dərə, gül-çiçək və daha nələr, nələr… Boynu bükük bir bənövşənin belə munis, bu qədər hal əhli olmağını bu sayaq görən olmayıb deyirlər:

…Odur, gəl-gəl deyir yenə çöl, çəmən,
Sən tək boynu bükük dayanmışam mən.
Eh, nələr çəkirəm həsrət əlindən,
Tək sən anlayarsan, sən, ay bənövşə!

Yenə də yaşamaq, yaratmaq eşqi insanda bir boy da artır, hicran, həsrət artdıqca bir o qədər də dildara, dilədiyinə çatmağa qüvvət, ötkəm verir:

Yox, min ömrüm olsa belə yaşardım,
Hicrana, həsrətə nəğmə qoşardım.
Yarın sorağıyla dağlar aşardım,
Salsa da saçıma dən, ay bənövşə!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yarda insaf nə gəzir, vurğununu odlara qalamaqdı peşəsi, səni səndən alar bircə baxışın cazibəsi:

Könlüm bircə baxışından
Talan oldu, insaf elə!
Məni məndən bir dəfəlik
Alan oldu, insaf elə!...

Məhəbbət olmasa damarda qan qaynamaz, məhəbbət olmasa damarda qan durulmaz… İnsaf etməyə yarı çağıranda da, yar insaf edəndə də, hicranda da, vüsalda da hər zaman, hər dəm məhəbbətdir bizi mə'nən yaşadan, Ulu Tanrının biz bəşərin qəlbinə saldığı o böyük duyğu, o sonsuz qüvvə. Çox şükürlər ki, Pənah Göyçə poeziyasına məhəbbət hakimdir. Oxşamaları, gileyləri, gümanları, hər bir səsləşmələri bu məhhəbbətin işığında cilalanır, saflığın, paklığın müqəddəs rəngini alır…

*****

Əvvəldə qeyd etmişdim ki, Pənah Göyçənin hər bir əsəri həcmindən asılı olmayaraq, istər bir rübai, istərsə də iri həcmli poema olsun, təhlilə və təqdirə layiqdir. Bu cilddə onun «Afaq» pyesini və «Məlikməmməd» nağıl-dastanını da oxuyacaqsınız. «Məlikməmməd» nağıl-dastanı hələ çap olunmamışdan Maşallah Xudubəylinin 2 saatlıq radio təqdimatında səslənmişdir. «Afaq» pyesi də xüsusi araşdırmaya layiqdir. Əminəm ki, tezliklə mütəxəssislərdən kimsə bu işi görəcək və özünün təhlil və araşdırmalarını oxucularla həvəslə bolüşəcək.

Qloballaşmadan bir qədər bəhs etdik. Onun bir imkanından gəlin birlikdə yararlanaq. Belə ki, Pənah Göyçənin elektron poçtunu açmışıq:

panahgoyche@mail.ru

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Pənah Göyçə yaradıcılığı, onun həyatından yarpaqlar və digər bölmələrlə zəngin internet ünvanında səhifə tərtib olunması üçün geniş və maraqlı layihə üzərində iş gedir. İş hələ hazırlıq mərhələsində olduğu üçün bu barədə kifayət qədər məlumat verə bilmirik. Amma istərdik ki, Siz əziz oxucular, Pənah Göyçə yaradıcılığı, şəxsiyyəti və ümumiyyətlə poeziyanın durumu və digər maraqlı, vacib məsələlər barədə elektron ünvanımıza öz təkliflərinizi, iradlarınızı, fikirlərinizi göndərəsiniz. Diqqətinizə görə Sizə qabaqcadan minnətdarıq.

Mən Sizin hər birinizi bu görüş münasibəti ilə təbrik edir, inşallah, növbəti görüşlərə qədər deyirəm.

RAFAIL ƏLƏSOV

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

KİTABIN İÇİNDƏKİLƏR

Ön söz əvəzi 3
Minacat 11
Nət 13
GƏRAYLILAR 16
Qurban olum 17
Diriyədi diriyə 18
Çağlayır 19
Şeyda bülbül dinəsidi 20
Dünya 21
Yox demə 22
Yox dedi 23
Sözüm yoxdu 25
Qocalmayaq 26
Bəlkə 27
Eləcə 28
Eləcə 29
Eləcə 30
İnsaf elə 31
Deyil 32
Ürək 33
Tellərindi 35
Baharımsan 36
Məhəbbətin balasıyam 37
Ola bilməz 38
Dodaq 39
İnşallah 40
İstəmirəm 41
Məndə 42
Sevməsən 43
Deyil 44

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Mən 45
Könül 46
Bilməz 47
Olar 48
Getsin 49
Gələsiyəm 50
Məhəbbətsiz 51
Məni 52
Nə mənası 53
Saydın 54
Pərvərdigar 55
İnsafdımı 56
Sənsən 57
Yanasıyam 58
Allah, allah 59
Əbədilik qalasısan 60
Olmaz 61
Səadət sanasıyam 62
Gəzirsənmi 63
Olmaz 64
Sən 65
Sən istəsən 66
Yoxla gülüm 67
Bax 68
Hanı 69
Özüm də inanmıram 70
QOŞMALAR 71
Sən 72
Mən 73
Qoyma 74
Deyiləm 75
Mübarək 76
Gəl görək 77

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Özgədi 78
Olmuşam mən 79
Həkim qız 80
Həkimlər 81
Gözləməmişəm 82
Olsun 83
Dəyməz 84
Şaxtada 85
Dəyməz 86
Nə xeyri 87
Gözəl, gözəl 88
Gözəl olsun 89
Deyə-deyə 90
Payızda 91
Dünya 92
Dünya 93
Ehey 94
Məhəbbətsiz ötməsin 95
Ana 96
Bəlkə 97
Məhəbbətdimi 98
Mən 99
Sənin 100
Getdi 101
Dəyməz 102
Kənar dur 104
Aparır 105
Qardaş 106
Qoy 107
Əcəl, gəl 108
Mənim 109
Mən 110
Oldun 111
Könlüm 112

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Baharda 113
Durma gəl 115
Taleyim 116
Apara bilməz 117
Bu axşam 118
Ayrı 119
Necə gəlməsin 120
Bu axşam 121
Şirindi 122
Xallı qız 123
Sənlədi 124
Sevgidi 125
Olar, olmaz 126
Dağları 127
Azad oldu 128
Ayrılıq 129
Gözəl 130
Gəlmədi 131
Necə heyran olmayım 132
Bilməz 133
Deməsən də 134
Dedi mənə 135
Ay bənövşə 136
Bircə anlıq 137
Olum, olmayım 138
Mərd olaq 139
Necə şirindi 140
Yenə 141
Gərək 142
Gəlmədədir 143
Həsrətlisiyəm 144
Bilmərəm 145
Bilmərəm 146
Bilmirəm 147

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yenə 148
1. Dayanarmı 149
2. Oğul 150
3. Qalıbdı 151
Dinlə ürək 152
Eyləmir 153
Gözlərim 154
Üzünə 155
Bəlkə də sənsən 156
Bilməz 157
Təzələndi 158
Sən gəldin 159
İncəsən 160
Narın-narın 161
Yaxırsan 162
İnanma 163
Ay qız 164
Xoşdu 165
Gülüm 166
Sənsizlikdən qurtar 167
İlahi 168
Hardasan 169
Olmaz 170
Olaydı 171
Yenidən 172
Əlvida 173
Aralanmışam 174
Sonanın 175
Tez qayıt 176
Biz 177
Razıyam 178
Fəryad 179
TƏCNISLƏR 180

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ala 181
Gözələ 182
Gələ-gələ 183
A yana, yana 185
Ay ana, ana 187
Saçağı 190
QƏZƏLLƏR 191
Elədi 192
İncimə 193
Deyil 194
Göz gözə sataşanda 195
Nə şahanədi 196
Sənlidi 197
A sərv boylu 198
Kaş sən olaydın 199
Eylə 200
Necə əzizdi 201
Həsrət qoyma 202
Möhtacıyam 203
Olmaz 204
Gəl, gəl 205
Durma gəl 206
Getdi 207
Gözəlim 208
Olmuşam 209
Olacaq 210
Küsmək olarmı 211
BEŞLIKLƏR 212
Yaşamaq olar 213
Şair olan kəs 214
Naz elə 215
Gözlərinə baxaydım 216
Kimdən xəbər alım 217

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Saz dillənəndə 220
Çal aşıq 221
Yurdumuzun nəğmələri 222
Bir yuxuma gəl barı 223
Ala gözlər 224
İlk məhəbbət 226
Gərək deyil 228
Ülvidi məhəbbətim 229
Bu yandan da sən 230
Balakənli gözəllərə 231
Necə dözüm 232
Bilmirəm 233
Axı insan doğulmusan 234
Könlümə yazılmısan 235
Ay gecikmiş məhəbbətim 236
Unut məni, at məni 237
MÜXTƏLIF ŞERLƏR 238
Onu görməyəcəksən 239
Qibtə 241
Bəlkə sevgi gələcək 243
Payız 245
Yaxşı ki, doğulmuşam 246
Yadlaşmayır məhəbbət 249
Qonşu yaxın olanda 252
Tək ayaqlı qərinəyəm 254
Görüş 257
Anamdı 258
Qədrini bilsəydi 259
Niyə birləşmirik 261
Dədə palıd 263
Yenə 264
Məni dəli eləmə 265
Həm də qəlbən gözəl ol 267

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Gəzəcəksən məni sən 268
Əbədi baharımsan 270
Ötən günlər 271
Səndə günah yox 273
Duymuşam 275
Təəssüf 276
Hər şeyin safı 280
Erməni xalqına 281
Sən 283
Bahar 285
Yaradanın eşqi ilə 288
Nifrətim böyükdür 290
Ömrümə sən gəlmisən 291
Məhəbbət qadirdir 293
And 294
Mən belə, sən elə 296
Gözləyirəm 297
İnamla sev 298
Yenə duraq üz-üzə 299
Ürəklər aşiq olsa 299
Necə dəydim qəlbinə 301
İkiləşdin 302
Bu qədərmiş məhəbbətin 303
Qınamıram səni 305
Barışıq gəlib 306
Qoru səadəti 308
Bahar gəlir 310
RÜBAILƏR 312
PYESLƏR 330
Afaq 331
ƏFSANƏLƏR, NAĞILLAR 403
Məlikməmməd 404

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Redaktordan son söz əvəzi 442
Kitabın içindəkilər 454

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional